BEYNƏLXALQ TERRORİZMIN BÜTÜN QURBANLARININ XATİRƏSİNƏ HƏSR EDİLİR

# ERMƏNİ TERROR VƏ QULDUR BİRLƏŞMƏLƏRİNİN BƏŞƏRİYYƏTƏ QARŞI CİNAYƏTLƏRİ (XIX-XXI ƏSRLƏR)

MÜXTƏSƏR XRONOLOJİ ENSİKLOPEDİYA

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ İNSAN HÜQUQLARI İNSTİTUTU

BAKI - ELM 2003

İdeyanın müəllifi və
Ensiklopediyanın elmi rəhbəri

**Rövşən MUSTAFAYEV** — *Azərbaycan MEA-nın İnsan Hüquqları İnstitutunun direktoru, siyasi elmlər doktoru*

Baş rəyçi

**Cəlal ƏLİYEV** — *Akademik, Azərbaycan MEA-nın Rəyasət Heyətinin üzvü*

Baş məsləhətçi

**Namiq ABBASOV** — *Azərbaycan Respublikası Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri*

Məsləhətçi

**Bəkir NƏBİYEV** — *Akademik, Azərbaycan Respüblikası Əsir və İtkin Düşmüş, Girov Götürülmüş Vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının üzvü*

Tərtibçilər

**Aytən MUSTAFAYEVA** — *Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu direktorunun müavini*

**Ramiz SEVDİMALIYEV** — *Azərbaycan MEA-nın İnsan Hüquqları İnstitutu direktorunun müavini*

**Aqşin ƏLİYEV** — *Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin I katibi*

**Reha YILMAZ** — *Azərbaycan MEA-nın İnsan Hüquqları İnstitutu Ekspert Şurasının üzvü*

Ola bilsin, bu nəşr beynəlxalq terrorizmlə daha səmərəli mübarizə aparılması məqsədilə onun öyrənilməsinə dair konkret təkliflərdən biridir.

Ola bilsin, dəyişməkdə olan dünya qəddarlığı izah etməyə daha qadir deyildir. Lakin yalnız bir şey mümkün deyil - bu kitab qorxub vahiməyə düşməyə və mütiliyə heç vaxt çağırış olmayacaqdır. Bu gün terrorizm insan hüquqları məkanına, özü də, onların ən müqəddəsinə - yaşamaq hüququna qlobal təhlükədir. Bu hüquq xüsusi olaraq qorunmağa layiqdir.

**ISBN 5 - 8066 - 1478 - 6**
**0501000000**
**655(07)-2003**

*Bu dəhşətli hadisələr bəşəriyyətə qarşı cinayət kimi siyasi-hüquqi qiymətini almalıdır.*

Azərbaycan Respublikasının Prezidenti
Heydər ƏLİYEV

# İLLÜZİYALARIN İFLASI VƏ YA ERMƏNİ TERRORİZMİ

- ...O, hamilə qadının qarnını yırtaraq, çəkməsi ilə vurub insan övladını ana bətnindən çıxarır. Sonra canını tapşırmış qadının ərinin kəsilmiş başını onun yırtılmış qarnına təpir.. Qadının qarnını tikir.

- ...O, körpəni ayağı ilə yaşıl bayrağa bürmələyərək, üstünə kerosin tökür. Od vurub yandırır.

- ...O, qorxudan tir-tir əsən yeniyetmələri bir sıraya düzərək, qılıncının bir zərbəsi ilə hamısının başlarını birdəfəyə vurmağa çalışır. Həyat əsər-əlaməti qalmayan məsum uşaq gözlərində dəhşət harayı.

- ...ONUN yandırdığı məscidlər, kilsələr, sinaqoqlar, digər dini ibadət ocaqları od-alova bürünür.

- ...hava limanlarında, turizm bürolarında, səfirliklərdə, banklarda, küçələrdə, biznes mərkəzlərində partlayışlar: insan cəsədləri. Fəryadlar və qan. İniltilər və lənət-qarğışlar.

O məmnundur. O, insandırmı?

Bu gün O, artıq bakterioloji və kimyəvi silaha malikdir. Əlini uzatsa, nüvə silahına çatar. Hansı bayraq altında və ya şüarla məhv etmək - bunun daha ONUN üçün fərqi yoxdur. Başlıcası budur ki, O, hamının diqqət mərkəzindədir.

Bəzən O xatırlayır: 1886-cı il, Cenevrə. Onda, mədəni Avropanın mərkəzində O, məharətlə sosialist qiyafəsinə girərək, "türkləri və kürdləri istənilən şəraitdə qırıb-çatmağı" qərara almışdır. O, təkcə Şərqi Anadoluda bir milyon insanı məhv etmişdir. Səbəb? Onun qanına qəltan etdiyi adamlar islam dininə etiqad edirdilər...

Lakin bu, sonralar olmuşdur, xatirələr isə daha uzaq zamanlara, ONUN ağına-bozuna baxmadan, xüsusi ifadələr seçmədən, "Rədd olun, rus köpəkləri!" dediyi vaxtlara aparır. Bunu deyib, yeganə təmiz su mənbəyini zəhərləmişdi. Bədənlərini üfunətli yara-xora bürümüş ruslar əzab-əziyyət içində ölürdülər. O isə sanki möcüzə sayəsində sağ qalmış insanların yaddaşında ya gəlmə təbib, ya da, sadəcə olaraq, "pencəkli adam" kimi həkk olmuşdur. Söz düşmüşkən, sonuncu ifadə ONUN çox da xoşuna gəlmirdi. İstəyirdi ki, ONA daha böyük diqqət yetirsinlər, budur, Amerikanın "Boston Herald", yaxud Almaniyanın "Forverst" qəzetləri ONDAN yazırlar - amma hələlik hər şeyi istənilən kimi və necə lazımdırsa yazmırlar: "pencəkli adam obrazı insanların şüuruna bir növ yeridilmişdir və bu obrazı oradan ONA məlum olan, artıq həyat tərzinə çevrilən yeganə bir üsulla çıxarmaq lazım gəlmişdir. Sonra knyaz Qolitsinə divan tuturdu və Tiflisdə, Qarsda qətllər törədirdi. Məsələn, Bakıda O, elə-belə, bir növ, qorxutmaq üçün adamların üstünə bomba atdı ... və yerli qəzetlərdən birində belə bir sitata nail oldu: "Bu psixozun ciddi və təcili müalicəyə ehtiyacı var".

Bir dəfə tanınmış erməni alimi ONDAN hətta sözbəsöz iqtibas gətirmişdi: "Mən Basarkeçərdə türk əhalisini ağına-bozuna baxmadan məhv etdim. Amma bəzən gülləyə heyfim gəlir. Bu köpəklərə qarşı ən düzgün vasitə döyüşdən sonra sağ qalanların hamısını bir yerə toplayaraq quyulara doldurmaq və üstündən də ağır daşlarla vurub axırlarına çıxmaqdır...





Mən belə də etdim: bütün kişiləri, qadınları və uşaqları yığdım və quyulara ataraq, üstlərindən də daşla vurub öldürdüm". Bəs ONUN uşaqların gözlərini çıxarıb, onlardan "boyunbağı" düzəltdiyini necə xatırlamayasan...

O, qətlləri əvvəlcə çar Rusiyasının bayrağı altında törədirdi. Sonralar - inqilabın və kommunizmin qırmızı bayrağı altında. 40-cı illərdə O, əslində, eyni zamanda həm Stalinin, həm də Hitlerin yanında olmuşdur: "pencəkli adam" bu "rəhbərlər"in adından... insanları qırıb-çatırdı. Sonra şanlı dövr - qətlamları cəzasız törətmək üçün yaxşı fürsət-girəvə olan postsovet demokratiyası dövrü başlandı.

Mətbuat üçün məlumatlara və açıq-aşkar verilən bəyanatlara, ONUN əsr yarım ərzində törətdiyi cinayətlərə görə, O, ruslara və türklərə, isveçrəlilərə və fransızlara, amerikalılara və ərəblərə, habelə ingilislərə, ispanlara, portuqaliyalılara, azərbaycanlılara, gürcülərə, ləzgilərə, yəhudilərə, kürdlərə, avstraliyalılara, belçikalılara, kanadalılara, ümumiyyətlə, xristianlara, ümumiyyətlə, müsəlmanlara, ümumiyyətlə, iudaistlərə nifrət edir. Ümumiyyətlə, NATO-ya da. Ümumiyyətlə, kommunizmə və kommunistlərə də. Buna baxmayaraq, O, türkləri rusların bayrağı altında, azərbaycanlıları kommunizm və demokratiya adından, yəhudiləri müsəlmanlar adından, müsəlmanları xristianlar adından öldürmüş və öldürür, xristianları islam təməlçiliyi ilə qorxudur...

Bəs O kimdir?

XIX əsrin axırlarında yaşamış erməni tədqiqatçılar hesab edirlər ki, O, qaraçılardan, daha doğrusu, onların "daşürəkli" - "hayk" adlandırılan tayfasından törəmişdir. Bəzi Avropa tarixçilərinin fikrincə, ONUN ulu vətəni Balkan yarımadasıdır. Burada O, xristianlığı qəbul etmişdir. Xristian ilahiyyatçıları isə bunun cavabında hiddətlənərək, sübut kimi belə bir dəlil gətirirlər ki, O, Ümumdünya Xristian Məclisi

tərəfindən lənətlənmiş və təlin olunmuşdur. ONU - bu məlunu türklər qəbul etmiş, ONA torpaq da vermişlər, çörək də. Amma O, türklərə nifrət edir. Üstəlik, O, ruslara da nifrət bəsləyərək, türkləri rusların adından öldürürdü, bununla belə, gizlətmirdi ki, ONUN gələcəyi Türkiyə ilə bağlıdır. Bəs O, nə üçün ABŞ-ın əleyhinədir? Bu işdə Yaxın Şərqin radikal müsəlmanları ilə, təxminən bir əsr əvvəl yüz minlərlə qırıb-çatdığı müsəlmanlarla əməkdaşlıq edir. Özü də məhz ona görə qırıb-çatırdı ki, onlar müsəlmandırlar. Əslinə qalsa, təəccüblənməyə dəyməz, çünki indi O, gənc kürdlərlə bir yolun yolçusudur, əlbirdir. O kürdlərlə ki, onların ata-babalarını insanlıqdan kənar ən qəddar tərzdə öldürürdü...

ONUN hələ XIX əsrdə buraxılmış dərsliyinə baxaq. Səhifələrini vərəqləyək: 87-ci, yaxud 61-ci səhifəsini - fərqi yoxdur. Oxuyuruq: "Ermənistan böyük sözdür, keçmiş zəmanələrin böyük yaddaşı və gələcəyin böyük elementidir... Artmaqda olan erməni tayfasının gələcəyi böyükdür... Ermənilər əhatə olunduqları bütün xalqlardan mənəvi cəhətdən üstündürlər... Erməni xalqı Haqq-Taala tərəfindən vasitəçi seçilmişdir..." Dayan. Beləliklə: partlayışlar və öldürülmüş qadınlar, qocalar, uşaqlar. 150 ildən artıq bir dövrdə həmişə və hər yerdə, bax, beləcə olmuşdur - Moskva, Nyu-York, Paris, Lissabon, Cenevrə, Roma, Ankara, London, Bakı, Tbilisi, Istanbul, Vyana, Amsterdam, Madrid, Ottava, Dortmund, Tehran, Sidney, Sürix, Marsel, Belqrad, Beyrut, Kopenhagen, Vatikan, Brüssel, Frankfurt, Bonn, Milan, Bern, Afina, Lion, Lüksemburq, Los-Anceles, Kislovodsk, Xocalı, Sumqayıt, Axalkalaki, Rostov: kinoteatrlarda, aeroportlarda, təyyarələrdə, avtobuslarda, metrolarda, qatarlarda, gəmilərdə və s. yerlərdə partlayışlar.

Uzun müddət O, insanların qətlində əli olduğunu gurultulu ibarə - "Böyük Ermənistan uğrunda" ibarəsi altında gizlədir





və ya adamları elə özünün uydurduğu "1915-ci il soyqırımı"na görə öldürüdü ki, bu da özünün təcavüzkarlığına, qana hərisliyinə haqq qazandırmaq üçün daha bir bəhanədir. Kayzer Almaniyasının səfiri baron fon Bulovdan tutmuş dünya proletariatının rəhbəri Leninədək heç kim bu ibarələrə ciddi əhəmiyyət verməyərək, "öz gözlərinə inanırsansa, erməni məsələsi ilə məşğul olmamağın daha yaxşıdır" desə də, O, əvvəlki şüarlarını inadçıllıqla, izaholunmaz ardıcıllıqla dəyişdirmirdi. O özünün dərsliyinə, deməli, bütün xalqlar üzərində özünün mənəvi üstünlüyünə, özünün ilahi vergisi olan xüsusi qabiliyyətinə və xüsusi "missiya"sına kor-koranə inanaraq, qanlı, iblisanə "iş"ini davam etdirirdi. Kolumbiyalı narkobaron Karlos öz müsahibəsində artıq ONU narkobiznes üzrə xırda tərəfdaş adlandırsa da, artıq O əsir və girovlardan çıxarılıb götürülən transplantasiya orqanlarının satışında təqsirləndirsə də, dahi Puşkindən tutmuş ABŞ Prezidenti R.Reyqanadək hamı ONUN haqqında ən xoşagəlməz sözlər desə də, O, mahiyyətcə dəyişməyibdir, xroniki təhtəlşüur, davakarlıq vəziyyətində olan daxili aləmi də, əslində, dəyişməz qalıbdır. Amma görkəmli rus tədqiqatçılarının fikrincə, O, zahirən dəyişə bilər. Məsələn, adını həvəslə dəyişdirib rus, gürcü, kürd, ərəb, türk, fransız, ispan, azərbaycanlı adları və başqa adlar qoyur. Kütlə ilə qaynayıb-qarışmaq üçün. Bu isə cinayətkarın klassik üsuludur.

Buna baxmayaraq, ONUN həqiqi adı bizə yaxşı məlumdur: BEYNƏLXALQ TERRORIZM.

Etiraf etmək lazımdır ki, 2000-ci il 10 yanvar tarixli BMT Konvensiyasına görə, dünya birliyi özünün bütün tarixi ərzində "terrorizm" anlayışına aydınlıq gətirə bilməmişdir. Belə də olmuşdur ki, "terrorçu" sözü bir çox hallarda "azadlıq mücahidi" kimi yozulmuşdur. Təfsirdə çətinliklərlə əlaqədar hüquqşünaslar, istər partlayıcı qurğuların qoyulması, insan-

ların oğurlanması olsun, istərsə də təyyarələrin qaçırılması olsun, fərqi yoxdur, konkret faktları cinayət kimi tövsif edən konvensiyalar sistemi yaratmaq məcburiyyətində qalmışlar. ABŞ Qanunlar Məcəlləsinin 22-ci Titulunda, 2656 f (d) Bölməsində terrorizmin tərifinə nəzər salaq:

" - "Terrorizm" termini submilli qruplar və ya gizli fəaliyyət göstərən agentlər tərəfindən, adətən, cəmiyyətin əhval-ruhiyyəsinə təsir etmək məqsədilə dinc əhaliyə və ya obyektlərə qarşı qəsdən törədilmiş, siyasi cəhətdən əsaslandırılmış zorakılıq deməkdir.

- "Beynəlxalq terrorizm" termini birdən çox dövlətin vətəndaşlarının iştirak etdikləri və ya ərazisinin əhatə olunduğu terrorizm deməkdir.

- "Terror qrupu" termini beynəlxalq terrorizmlə məşğul olan və ya özünün tərkibində bu cür fəaliyyətlə məşğul olan xeyli yarımqrupa malik hər hansı qrup deməkdir.

1983-cü ildən ABŞ höküməti statistik və analitik məqsədlər üçün terrorizmin bu tərifindən istifadə edir".

Rusiya Prezidenti Vladimir Putin terrorizm barəsində ruslara xas düzlük və açıqlıqla demişdir: "Bu bir bəladır və onunla mübarizə aparmaq lazımdır".

"Erməni terrorizmi" məfhumuna gəldikdə isə, zahirən nə qədər mürəkkəb olsa da, onun təzahürünü izah etmək qat-qat asandır. Adlarından asılı olmayaraq, bəzi erməni təşkilatları öz proqramlarında terrora qarşıya qoyulan məqsədə çatmaq vasitəsi kimi baxırlar. Üstəlik, onilliklər ərzində erməni terrorizminin qurbanları elə bu təşkilatların üzvlərinin özləri, daha doğrusu, onlardan başqa çür düşünərək, məhz terroru rədd edənlər olmuşlar. Erməni alimlərinin tədqiqatlarında, siyasi liderlərin erməni xalqı üçün dönüş dövrlərindəki çıxışlarında tam bir sıra erməni təşkilatlarının fəaliyyətinin terrorçuluq istiqamətini İnsana qarşı cinayət kimi tövsif edən fikirlər və məlumatlar var.





Buna məqsədi doğruldan forma da sübutdur: kütləvi vahimə yaratmaq metodu kimi, xüsusi qəddarlıqla törədilən qətllər. O ki qaldı terror təşkilatlarının göstərişlərini yerinə yetirən erməni quldur birləşmələrinə, onların bu tərifi artıq çoxdan - hələ XIX əsrin axırlarında rus qafqazşünaslarının və publisistlərinin tədqiqatlarında verilmişdir.

Bu yaxınlarda ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü, Helsinki komissiyasının həmsədri Kristofer H.Smit ATƏT çərçivəsində əks-terror əməkdaşlığına dair dinləmələrdə belə bir fikir söyləmişdir ki, əlbəttə, terrorizmin müsibətlərinə qarşı müharibəni udmaq üçün hansısa bir vasitə yoxdur. Qələbə terrorizmə müxtəlif istiqamətlərdən zərbələr endirilməsi nəzərdə tutulan razılaşdırılmış mövqedən istifadə edildiyi təqdirdə qazanıla bilər. O, Qafqaz ölkələrinin nümayəndələrindən konkret təkliflər verməyi də xahiş etmişdir.

Ola bilsin, bu nəşr beynəlxalq terrorizmlə daha səmərəli mübarizə aparmaq məqsədilə onun öyrənilməsinə dair konkret təkliflərdən biridir.

Ola bilsin, təklif olunan Ensiklopediya Azərbaycan Xalq Cümhuriyyətinin (XX əsrin əvvəlləri) - Şərqdə ilk demokratik respublikanın banilərinin nəşr etdirməyə macal tapmadıqları "Qara kitab"a mahiyyətcə yaxındır.

Ola bilsin, dəyişməkdə olan dünya qəddarlığı izah etməyə daha qadir deyildir. Lakin təkcə bir şey mümkün deyil - bu kitab qorxub vahiməyə düşməyə və mutiliyə heç zaman çağırış olmayacaqdır.

Bəşəriyyət ona zorla qəbul etdirilən illüziyalardan - hamilə qadınların qarınlarını yaranların, qorxudan əsən oğlan uşaqlarının başlarını qılıncın bir zərbəsi ilə vuranların, kinoteatrları, mülki təyyarələri partladanların, siyasətçiləri və biznesmenləri qətlə yetirənlərin, kilsələri, məscidləri və sinaqoqları yandıranların qəbul etdirdikləri illüziyalardan xilas olmağa qadirdir.

Hәmçinin ümid etmәk istәrdik ki, tәqdim olunan kitab Azәrbaycan Respublikasının Prezidenti Heydәr Əliyevin alimlәrә ermәni terrorizmi haqqında hәqiqәti geniş içtimaiyyәtә çatdırmaq çağırışına cavabdır.

Bu gün terrorizm insan hüquqları mәkanına, onların әn müqәddәsinә - Yaşamaq hüququna qlobal tәhlükә törәdir.

Bu hüquq xüsusi olaraq qorunmağa layiqdir.

**Rövşәn MUSTAFAYEV,**
**siyasi elmlәr doktoru.**





**...1860-1870-ci illәr. Tәrtәr. Azәrbaycan.** Rus tәdqiqatçısı, qafqazşünas V.L.Veliçkoya görә, o dövrdә ermәni quldur dәstәlәri rus әhalisinә qarşı müntәzәm olaraq dәhşәtli cinayәtlәr törәdirdilәr. O yazır: "Qanqaraldıcı bir fakt gәtirәcәyәm... Lazımi ehtiyat tәdbirlәri görülmәdәn Yelizavetpol quberniyasının Tәrtәr kәndindә onlarca rus ailәsi yerlәşdirilmişdir. Payız vә qış pis keçmәdi. Yazqabağı iki bәdbәxtlik baş verdi - malyariya vә ermәni intriqası. Başçı - pencәkçi qonşu *gәlmә ermәnilәrin* yanına gәldi vә onlara rusları buradan sıxışdırıb çıxarmağı әmr etdi. Bu sıxışdırıb çıxarma әsl vәhşiliklә hәyata keçirildi. Əli xәncәrli ermәni quldur dәstәlәri köçkünlәrin içmәli yaxşı suya gedәn yolunu kәsir, rusların içmәk üçün su götürdüklәri kiçik bir çayı isә ermәnilәr peyinlә, leşlә vә hәr çür çirkabnәcislә müntәzәm olaraq zәhәrlәyir, murdarlayırdılar. Kәnddә elә xәstәliklәr başlandı ki, onları ağıla gәtirәndә adamın tüklәri biz-biz olur. Adamlar diri-diri çürüyürdülәr, onları üfunәtli yara-xora basmışdı, әzab-әziyyәtdәn ağlını itirmәk hәddinә çatırdılar... Bu dәhşәtlәr haqqında xәbәr qubernatora çatdıqda Tәrtәrә ermәni hәkim göndәrildi, o isә әzabkeş-mәzlum ruslara dava-dәrman әvәzinә mәslәhәtlәr verirdi: "Rәdd olun, ruslar, rәdd olun, rus köpәklәr, yoxsa, hamınız burada gәbәrәcәksiniz". Bu kәndin әhalisinin üçdә iki hissәsi qırıldı, qalanları isә pәrәn-pәrәn düşdü".

V.L.Veliçko *"gәlmә ermәnilәr"* ifadәsini tәsadüfәn işlәtmir. Belә ki, XX әsrin әvvәllәrindә yaşamış digәr rus aliminin - K.N.Şavrovun mәlumatına görә, "1828-ci ildәn 1830-cu ilәdәk olan dövrdә Zaqafqaziyaya qırx mindәn artıq İran

və səksən dörd mindən yuxarı Türkiyə ermənisi köçürüldü və onlar Yelizavetpol (Gəncə - **red.**) və İrəvan quberniyalarının ən yaxşı dövlət torpaqlarında, Yelizavetpol quberniyasının Dağlıq hissəsində (Dağlıq Qarabağ - **red.**) yerləşdirildilər və Göyçə gölünün sahillərindəki müsəlmanlara məxsus şəxsi torpaqlar da elə həmin ermənlilərlə məskunlaşdırıldı. Torpağı olmayan gəlmə ermənilər yenə də yalançı şahidlikdən geniş istifadə edərək, dövlət torpaqlarının böyük sahələrini ələ keçirdilər". Rusiyanın Van və Ərzurumdakı konsulu general Q.Mayevski də xatirələrində bu barədə yazır. Həmin genişmiqyaslı miqrasiya proseslərinin bilavasitə təşkilatçısı A.S.Qriboyedov isə, görün, nə yazmışdır: "Ermənilər gətirilib müsəlman mülkədarların torpaqlarında yerləşdirilmişlər... müsəlmanları sıxışdırırlar, onlar elə hey əsaslı olaraq narazılıq edib şikayətlənirlər. Biz müsəlmanları indiki sıxışdırmalara qatlaşmaq, bu sıxışdırmaların uzun sürməyəcəyinə inandırmaq, onların torpaqlarına ilk dəfə buraxılan ermənilərin bu torpaqlara həmişəlik yiyələnəcəkləri barədə nigaranlığı müsəlmanların beynindən çıxarmaq üçün onlara edilməli olan təlqinlər barədə çox düşündük".[1]

**30 sentyabr 1885-ci il. İstanbul. Türkiyə.** Erməni terror təşkilatının fəal üzvləri (bəzi tədqiqatçılar hesab edirlər ki, "Hnçak" təşkilatının bünövrəsini məhz bu yaraqlılar qoymuşlar, digərləri əmindirlər ki, söhbət çox varlı erməni bankiri Mkrtıç Portakalyanın oğlu tərəfindən 1885-ci ildə Vanda yaradılmış və Avropadakı erməni diasporunu inqilabi terror bayrağı altında toplamağı qarşısına məqsəd qoymuş "Armenakan" terror təşkilatının fəallarından gedir) İstanbulun Qumqapı məhəlləsində polislə toqquşma törətmişlər. Polislər və erməni millətindən olmayan mülki əhali arasında ölənlər olmuşdur. Dinc nümayiş keçiriləcəyi barədə əvvəlcədən bəyanat verilməsinə rəğmən, erməni fəallar silahla gəldilər. Terrorçuların və tərəfdarlarının əməlləri nəticəsində şəhər üç gün ərzində iflic vəziyyətində oldu.





O ki qaldı "Hnçak" erməni təşkilatına, "Russkaya mısl" qəzetinin 1907-ci il tarixli 342-ci nömrəsində yazdığına görə, "...səksəninci illərin axırlarında Tiflis şəhərində bir neçə erməni məktəb müəllimi qrup yaratdı və bu qrup "Hnçak" ("Haray") jurnalı nəşr etməyə başladı. ...Bu partiyanın başlıca məqsədi üç dövlətin - Rusiya, Türkiyə və İran ərazilərində yaşayan bütün erməniləri öz bayrağı altına toplamaqdan və birləşərək "Böyük Ermənistan" yaratmaqdan ibarət idi...". 1886-cı il "Hnçak" erməni təşkilatının yaradılmasının rəsmən qəbul olunmuş tarixi hesab edilə bilər, həmin il Cenevrədə Avetis Nazarbekyan, Maro Vardanyan, Qabriel Kafyan və Ruben Xanazatyan təşkilatın proqramının əsas bəndlərini açıqladılar. Həmin bəndlər tədqiqatçılara onu terror təşkilatları sırasına aid etməyə imkan verir. Məsələn, "Hnçak"ın proqramının 4-cü bəndində deyilirdi: *"İnqilabi hökumət qarşıya qoyulan məqsədlərə nail olmaq üçün aşağıdakı metodlara əl atmalıdır: təbliğat, təşviqat, terrorizm, təxribatçı təşkilatlar yaratmaq... Təbliğat və terrorizm insanların daha güclü və cəsarətli olmasına xidmət etməlidir"*. "Hnçak" erməni terror təşkilatının proqramının başqa bir bəndində göstərilirdi: *"Türkləri və kürdləri hər çür şəraitdə öldürməli, öz məqsədlərinə xəyanət edən ermənilərə heç vaxt rəhm etməməli, onlardan qisas almalı".*[2]

**1885-ci il.** Tanınmış alman jurnalisti Vilhelm Libknext "Forverst" qəzetində erməni hərəkatını erməni terror təşkilatlarının, ilk növbədə, yaxın vaxtlarda rəsmən təsis ediləcək "Hnçak"ın fəaliyyətinin nəticəsi kimi səciyyələn-

dirmişdir. Eyni zamanda, müsəlman əhalisinə qarşı erməni təbliğatı da güclənirdi. Məsələn, Tiflisdə nəşr olunan "Mşak" erməni qəzetinin redaktoru müsəlmanlara yaşadıqları torpaqlardan çıxıb getməyi və "Ərəbistan səhralarına köçməyi" təklif edirdi.

Həmin dövrün materiallarının tədqiqatları belə bir versiyanı təsdiqləyir ki, istər Qafqazda, istərsə də Türkiyədə erməni terror təşkilatları yaradılmasının arxasında məhz M.T.Loris-Melikov dururdu. Onun yaratdığı silahlı qruplar ərzaq arabalarına basqın edir, siyasi qətllər törədirdilər. Görkəmli rus dövlət xadimi S.Y.Vitte yazırdı ki, böyük knyaz Mixail Nikolayeviç "o vaxt Qafqaz canişini olarkən orduya nominal surətdə komandanlıq edirdi... sərəncamçıdan çox nümayəndə rolu oynayırdı". Əslində isə, Türkiyə ilə müharibə edən Qafqazdakı rus ordusuna Rusiyanın heç bir kübar tituluna malik olmayan M.T.Loris-Melikov rəhbərlik edirdi. Rusiya dövlətinin bayrağı altında o, vəziyyətin daim kəskinləşməsinə şərait yaradır, istər Qafqazda, istərsə də Türkiyədə qəsdən iğtişaşlar törədirdi, bu iğtişaşlar, bir qayda olaraq, erməni terror və quldur qrupları tərəfindən müsəlmanların qətlamları ilə qurtarırdı.

Yeri gəlmişkən, sonralar fransız səfiri cənab Kambon 1894-cü il 5 oktyabr tarixli məlumatında "idarəsi hazırkı məqamda Tiflisdə yerləşən" "Hnçak" terror təşkilatının fəalları tərəfindın süni surətdə şişirdilən "erməni məsələsi"nə işarə edəcəkdir. Fransız səfiri heç ağlına da gətirə bilməzdi ki, bu prosesin baş ideoloqu 1870-80-ci illərdə erməni terrorizminin yayılmasına kömək etmiş etnik erməni olan M.T.Loris-Melikovdur. O, erməni terrorizminin ideya özəyini Tiflisdə - Rusiyanın Qafqazdakı canişininin iqamətgahında yaratmışdı.

Reallıq isə belə idi: Qafqaz canişini böyük knyaz





Mixail Nikolayeviç Tiflisdə dostları üçün cürbəcür eyş-işrət məclisləri düzəltdiyi vaxtlarda Loris-Melikov boş-bikar dayanmırdı. "Erməni ideyaları"na dəstək üçün terrorcu kürd qrupları təşkil etmək cəhdi boşa çıxsa da, o, özlərini "erməni məqsədləri uğrunda sədaqətli mücahidlər" kimi göstərmiş çoxsaylı etnik erməniləri Rusiya ordusuna soxuşdurmağa müvəffəq olmuşdu. Onun dövründə erməni terrorçular Rusiya bayrağı altında fəaliyyət göstərirdilər (bir müddət keçəcək və bu bayraq qırmızı sovet bayrağı ilə, daha sonra svastikalı faşist, bunun ardınca yenə qırmızı, ... yaşıl - islam bayrağı və digərləri ilə əvəz ediləcəkdir). Qraf titulu və Rusiyanın daxili işlər naziri vəzifəsi alan Loris-Melikov erməni terrorçuların Türkiyədən Rusiyaya keçməsinə və onların dovlət fəaliyyətinə cəlb olunmasına kömək edirdi. Y.Pompeyev yazır: "II Aleksandrın öldürülməsi ilə əlaqədar 1881-ci ildə qraf Loris-Melikov imperiyanın daxili işlər naziri vəzifəsindən istefa verdikdən sonra Rusiyadan ermənilərin özləri imtina etdilər".[3]

**1890-1892-ci illər.** "Hnçak" erməni terror təşkılatı üç ildə 65 000 silahsız müsəlmanı - türkləri və kürdləri məhv etmişdir. Sonralar məlum olduğu kimi, "Hnçak" dinc əhaliyə qarşı bu qanlı əməliyyatlara Türkiyə təbəəsi olan etnik erməniləri cəlb etmiş və onlardan xüsusi cəza dəstələri yaratmışdı.

"Hnçak" terror təşkilatının erməni cəza dəstələrinin qubanları arasında qocalar, qadınlar, uşaqlar da vardı. Fəlakətlər dəhşətli edam və işgəncələrlə müşayiət olunurdu. Müsəlman din xadimlərinin əl-ayaqlarını bağlayır, onları islam nəşrlərindən və əlyazmalarından qaladıqları tonqallara atırdılar. Cinayətlər o dərəcədə aşkar törədilirdi ki, "Hnçak"ın rəhbərləri ictimaiyyət tərəfindən ifşa ediləcək-

lərindən qorxaraq, xarici ölkələrə qaçmağa məcbur oldular. Onların əksəriyyəti adlarını dəyişdirib, fransız, italyan, ərəb, türk adları götürürdü. Səciyyəvi haldır ki, yüz il keçəcək və erməni diasporu yaratmaq ssenarisi yenə də dəyişməyəcəkdir. Yaraqlılar növbəti dəfə münaqişə törədərək, xaricə gedirlər. "Nedelya" qəzetinin 1989-cu ildə yazdığı kimi, "...ermənilərin, əsasən, məhz haraya köçüb getdiklərini bilmək, yəqin ki, maraqlı olardı? Bir qayda olaraq, Amerikaya və Kanadaya. Əlbəttə, Avropaya da gedirlər... Ermənilər dünyanın hər yerinə səpələnmişlər". Yeri gəlmişkən, erməni terror təşkilatlarının bəzi liderləri açıq etiraf edirlər ki, lap əvvəldən öz xalqını təhlükəli cinayət yolu ilə - kütləvi qətlamlar, repressiyalar yolu ilə aparmış, bununla da, erməni xalqını bütün bəşəriyyətə qarşı qoymuşlar. Məsələn, Ovanes Kaçaznuni 1923-cü ildə Buxarestdə qurultaydakı çıxışında deyəcəkdir: "...Biz öz beynimizdə xülyalarla dolu mühit yaratmışıq. Biz arzularımızı başqalarının ağıl-zəkasına yeritmişik; biz reallıq hissini itirmişik...". Özünün inqilabi qəddarlığı ilə məşhur olan V.I.Lenin "Hnçak"ın liderləri ilə tanış olduğundan bunu çox-çox əvvəl başa düşmüşdü, axı, artıq onların bir qismi "Erməni sosial-demokrat federasiyası" deyilən qurumun bayrağı altında çıxış edirdi. O, həmin illərdə ümümdünya inqilabı ideyasının nüfuzdan salınacağından qorxaraq, öz silahdaşlarına xəbədarlıq edirdi: "Erməni sosial-demokrat federasiyası" barəsində bərk xəbərdarlıq edirəm. Əgər siz onun konfransda iştirak etməsinə razı olmusunuzsa, dəhşətli səhv etmisiniz və bu səhvi necə olursa-olsun düzəltmək lazımdır. Onlar - iki nəfər Cenevrə pozğunçusu olub, burada ən boş şeylər nəşr edirlər... əgər siz bu adamları rus konfransına, yəni Rusiyada işləyən təşkilatların konfransına buraxsanız, işi tamamilə korlarsınız.





Qafqazlı yoldaşların hamısı bu pozğunçu ədəbiyyatçı quldur dəstəsinin əleyhinədir".[4]

**1890-cı il. Tiflis. Gürcüstan.** Xristofor Mikaelyan, Simon Zavareyan və Stefan Zoryan "Daşnaksutyun" təşkilatının - öz sələfləri olan "Armenak"ın, "Hnçak"ın terrorçuluq, faşist ənənələrini davam etdirmiş "Erməni İnqilab İttifaqı"nın bünövrəsini qoydular. Erməni müəllif M.Vardanyan "Daşnaksutyunun tarixi" adlı tədqiqatında daşnak təşkilatının əsas xüsusiyyətlərini belə ümumiləşdirmişdir: "Daşnaksutyun Komitəsinin ən mühüm şüarı, hər hansı xarici şəraitdən asılı olmayaraq, türkləri güllələməkdən və məhv etməkdən ibarətdir". 1892-ci ildə keçirilən I qurultayda daşnaklar "silahlı birləşmələrin təlimi və hazırlığı, inqilabi komitələr yaradılması, hökumət məmurlarına qarşı terrordan istifadə edilməsi..." strategiyasını işləyib bəyəndilər. Rusiyanın arxiv sənədlərinə görə, 1892-ci il qurultayının nümayəndələri "ermənilərin silahlandırılması və təşkilatlandırılması, terror aktlarının keçirilməsi və hökumət məmurlarının və idarələrinin müflisləşdirilməsi" haqqında müddəalar qəbul etmişlər. Partiyanın Nizamnaməsindəki protokol diqqəti özünə çəkir: Yüksək konspirasiya tətbiq edilmişdir; bəzi protokollar Qərb bürosunun arxivinə verilmişdir. Beləliklə, ən mühüm sənədlər öz təşkilatının hətta ali orqanlarından da gizlədilmişdir: 1) necə hərəkət etməli (taktika); 2) quruluş; 3) intizam; 4) qismən terror. Yunanlarla, makedoniyalılarla, gənc türklərlə və başqaları ilə yerli ittifaqa girmək və onları öz rəhbərliyi altına almaq vəzifəsi irəli sürülmüşdü (özü də, onlara sezdirmədən, öz taktikasının məxfiliyi sayəsində)... Partiya müvəffəqiyyətlə işləyir və genişlənir, özünün bütün enerjisini Türkiyəyə qarşı yönəldirdi. Rusiyaya gəldikdə isə, o, açıq çıxışlar etmirdi, əhalini

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI



9949

ələ almaqla, onu təşkilatlandırmaqla kifayətlənirdi". Qurultayda tarixdə ilk "fədailər hərəkatı"nın - erməni kamikadzelərinin olduğu rəsmən açıqlandı. "Fədailər" cəfəng-patoloji bir ideyanın - dənizdən dənizə "böyük Ermənistan" ideyasının həyata keçirilməsi naminə günahsız insanları müntəzəm surətdə məhv etməyə başlayaraq xüsusi ad çıxardılar. Özü də elə bir halda ki, "Daşnaksutyun" erməni təşkilatı yaradıldıqdan hətta dörd il sonra Amerikanın "Boston Herald" qəzeti 1894-cü il fevralın 15-də xüsusi nəzərə çarpdırmışdı: "Ermənilərin böyük əksəriyyəti oxumağı və yazmağı bacarmır və əgər Ermənistan yalnız ermənilərin məskunlaşdığı hətta ayrıca bir ölkə olsa belə, onlar özünüidarəyə çətin ki hazır olsunlar". Buna baxmayaraq, "Daşnaksutyun" təşkilatının ideoloqları "etnik təmiz zonalar" ssenarisinin hazırlanması və həyata keçirilməsi üzərində işi davam etdirirdilər. Elə zonalar ki, orada ermənilərdən savayı, heç bir digər millətə və etnik qrupa yer ola bilməzdi.

Erməni irqçiliyi ideyaları öz inkişafını daşnakların 1919-cu ildə Yerevanda keçirilən IX Ümumdünya konqresində tapdı. Məhz bu yığnaqda "Nemeses" terror qrupuna əvvəllər öz ölkəsinin hökumətində aparıcı vəzifələrdə işləmiş bütün mühacir türkləri məhv etmək tapşırıldı. Antitürk kampaniyasına erməni mənşəli amerikan Saxan Natali başçılıq edirdi. Bununla da, sərhədlərsiz terrorun bünövrəsi qoyuldu: sonralar təkcə türklər deyil, dünyanın bütün ölkələrinin ən müxtəlif millətlərinin nümayəndələri də bu terror təşkilatının qurbanları oldular.

Beləliklə, bu **üzdəniraq "partiya"nın** təşəkkül tarixi və fəaliyyəti göstərir ki, terrorun, mülkiyyətdən, əmlakdan məhrumetmə, kütləvi qətlamların təşkili və həyata keçirilməsi "Daşnaksutyun"un siyasi mübarizəsinin əsas metodu olmuşdur və olaraq qalır. O öz proqram müddəalarının gerçəkləşdirilməsinə nail olmaq üçün planlı surətdə yaradılmış və bütün dunyada fəaliyyət göstərən erməni terror təşkilatları şəbəkəsindən fəal istifadə edir. Həmin təşkilatın yaradılması tarixi, onun proqramı və gələcək cinayətkar fəaliyyət praktikası "Daşnaksutyun"u beynəlxalq erməni terror təşkilatı hesab etməyə metodoloji əsaslar verir.[5]





**Mart 1893-cü il. Ankara. Türkiyə.** Erməni quldur birləşmələri Ankara civarında müsəlmanların kütləvi qətlamını təşkil etmişlər. Qətlamın təşkilatçıları, əsasən, "Hnçak" erməni terror təşkilatının yaraqlıları olmuşlar. Tədqiqatçı Qəribinin yazdığına görə, erməni təşkilatları iki prinsip hazırlamışdılar: 1) qiyamlar qaldırmaq; 2) "bu qiyamlar və qırğınlar barədə haray-həşir salmaq, onların miqyasını mütləq şişirtmək... Onlar bu fikirdə idilər ki, siyasət başdan-ayağa yalandır, xalqın taleyini yalan yolu ilə xilas etmək olar".[6]

**18 sentyabr 1894-cü il. İstanbul. Türkiyə.** Erməni terrorizminin ideoloqları müsəlmanlara qarşı qanlı küçə qırğını təşkil etmişlər və bu, bir gündən çox sürmüşdür. Sonralar Ağ Hisarda türkləri və kürdləri qırıb-çatmışlar. Öldürülənlər arasında saysız-hesabsız qadınlar, qocalar və uşaqlar vardı. Cinayətləri "Hnçak" erməni terror təşkilatının yaraqlıları törətmişdilər.[7]

**Oktyabr 1894-cü il. Trabzon. Türkiyə.** Trabzon şəhərində və onun ətraflarında mülki əhali kütləvi sürətdə qətlə yetirilmişdir. Qanlı qırğının təşkilatcıları erməni dövləti yaradılması üçün "etnik cəhətdən təmiz" ərazi proqramını həyata keçirən "Hnçak" erməni terror təşkilatının yerli şöbələri olmuşlar. Lakin bu məqsədə çatmaq üçün "bütov ərazi" lazımdır. Fransa Xarici İşlər Nazirliyinin

1897-ci ildə açıqlanmış sənədlərində deyildiyi kimi, Türkiyə ərazisində nəinki erməni dovləti, hətta erməni muxtariyyəti yaradılması üçün əsaslar yox idi. Həmin sənədlərin ikinci səhifəsində göstərildiyi kimi, "müxtəlif tayfaların bölgüsünün dərindən öyrənilməsi təsdiq etməyə imkan verir ki, Türkiyə imperatorluğunun heç bir vilayətində ermənilər əhalinin əksəriyyətini təşkil etmirlər".[8]

**Oktyabr 1894-cü il. Ərzurum. Türkiyə.** Ərzurum şəhərində və onun ətraflarında "Hnçak" terror təşkilatının xaricdən rəhbərlik etdiyi erməni quldur birləşmələrinin başkəsənləri müsəlman əhalisini kütləvi surətdə qətlə yetirmişlər. O günlərin qanlı qətlamını təsvir etmək mümkün deyildir. *"Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı törətdikləri cinayətlər mövzusunu araşdırarkən müəlliflərin əksəriyyətinin "qətlam" kimi tutumlu sözlə ifadə etdiyi misli görünməmiş qəddarlıq üsullarının tam mənzərəsi aydın görünür: erməni qulduru kəndlinin ayaqlarını ağaca bağlayaraq, onu cəmdək kimi şaqqalayırdı; südəmər uşaqları göyə ataraq, havadaca qılıncla tikə-tikə edirdilər; hamilə qadınların qarınlarını yırtır və hələ doğulmamış insanı eybəcər hala salırdılar; insanların başının dərisini soyur, qadınların döşlərini kəsir, qocaların gözlərini çıxarır, əl-ayaqlarını qılınc-xəncərlə vurub kəsir, uşaqları kütləvi halda diri-diri yandırırdılar..."*[9]

**Oktyabr 1894-cü il. Bitlis. Türkiyə.** Bitlis şəhərində və onun ətraflarında "Hnçak" erməni terror təşkilatının saqqallıları müsəlman əhaliyə qarşı qətlam törətmişlər. Onların əmlakı talanmış, evləri yandırılmışdır. Müxtəlif tədqiqatçılar insanlara erməni nifrətinin - öz ifadəsini kütləvi terrorun təşkilində və həyata keçirilməsində tapan





bu nifrətin həqiqi səbəbini axtarmağa çalışmışlar. "Böyük Ermənistan - dənizdən dənizə ölkə" yaradılması ideyası əzəldən cəfəng xülya olduguna görə onu heç kim ciddi qəbul etməmişdir. Məsələn, "Rusiya ermənilərin kütləvi şüurunda" məqaləsinin muəllifi Svetlana Lurye də həmin suala bir daha ağlabatan cavab tapmayaraq, erməni yazıçısı Qrant Matevosyanın heç nəyi aydınlaşdırmayan, amma pafosla dolu olan bu sözlərini misal gətirir: "Biz özümüzü də, xalqı da aldatmalıyıq və məğlubiyyəti qəbul etməməliyik". Rusiyanın 1908-ci il arxiv sənədlərində erməni terrorizminin qaynaqlarını izah etməyə daha bir cəhd göstərilmişdir: "Erməni psixikasının fərqləndirici xüsusiyyətləri milli qapalılıqdan və başqa xalqlara qarşı buradan irəli gələn nifrət və ədavətdən, mərhəmətsiz xudbinlikdən və özünəməftunluqdan ibarətdir. Bu keyfiyyətlərlə yanaşı, əsrlər boyu köləlik nəticəsində ikiüzlülük - güclülər qarşısında baş əymək və onlara yaltaqlanmaq, eyni zamanda, nə isə bir şeylə ziyan vurmağa can atmaq xisləti də əmələ gəlmişdir. Yeni-yeni xalqlarla daimi əlaqələr ermənilərdə ticarətə, bununla bərabər, yalançılığa və sərvət toplamağa meyli gücləndirmişdir, üstəlik, elə həmin tarixi səbəblərə görə onlar özlərində müşahidəçiliyi gücləndirərək, kapitalın nəinki insanın, həm də dövlətin həyatında necə böyük qüvvə oldugunu anlamışlar... Rasionalizm erməniləri monofizitizmə, yəni Isanın Ilahi insan oldugunu inkar etməsinə gətirib çıxarmışdır. Ermənilər Ümumdünya Kilsə Şurası tərəfindən lənətlənmiş, yəni oradan qovulmuşlar. Qərbdən uzaqlaşan və türklərin hakimiyyəti altına düşən ermənilər öz küfrlüyü ətrafında birləşərək, özlərinə daha da qapanıb qalmışlar... Ermənilər, bir növ, qıvrılaraq quyuda pusquda duran və ətrafdakılardan kimisə çalmaq üçün məqam gözləyən ilanı xatırladırdılar".[10]

**Noyabr 1894-cü il. Hələb. Türkiyə.** "Hnçak" terror təşkilatının göstərişini yerinə yetirən erməni cəlladlar Türkiyənin Hələb şəhərində və onun ətraflarında dinc əhalini vəhşicəsinə qırıb-çatmışlar. Bu cür qanlı hadislər Harput, Urfa, Sivas şəhərlərində də baş vermişdir.[11]

**Noyabr 1894-cü il. Diyarbəkir. Türkiyə.** "Hnçak" terror təşkilatının xaricdən idarə etdiyi erməni quldur birləşmələri Türkiyənin Diyarbəkir şəhərində və onun ətraflarında müsəlman əhaliyə qanlı divan tutmuşlar.[12]

**Noyabr 1894-cü il. Adana. Türkiyə.** "Hncak" terror təşkilatından alınmış və o dövr üçün təkmil olan silahla təmin edilmiş erməni quldurlar Türkiyənin Adana şəhərində və onun ətraflarında dinc əhaliyə qanlı divan tutmuşlar.[13]

**Noyabr 1894-cü il. Maras. Türkiyə.** "Hncak" terror təşkilatının yaratdığı erməni quldur birləşmələri Türkiyənin Maras şəhərində və onun ətraflarında müsəlman əhaliyə qəddarcasına divan tutaraq, qanlı qırğın törətmişlər. Hətta Fransanın Türkiyə sarayı yanındakı səfiri, özünün ermənipərəst baxışları ilə tanınan cənab Kambonun məlumatında erməni terrorcuların törətdikləri "vəhşicəsinə siyasi qətllər"in siyahısı var. O, türklərə və kürdlərə müntəzəm olaraq basqın edən "ermənilərin törətdikləri kütləvi iğtişaşlar" barədə, habelə "bir cox ermənilərin türklərdən deyil, məhz öz terrorcularından can qurtararaq Rusiyaya qaçdıqları" barədə məlumat verir.[14]

**Noyabr 1894-cü il. Kayseri. Türkiyə.** "Hnçak" erməni terror təşkilatının şöbələri "böyük Ermənistan - dənizdən dənizə ölkə" yaratmaq şüari altında Türkiyənin Kayseri şəhərində və onun ətraflarında dinc müsəlman əhalinin kütləvi surətdə qətlə yetirilməsini təşkil etmişlər.

Rus tədqiqatçısı V.L.Velickonun məlumatına görə, məhz həmin dövrdə erməni prixod məktəblərində uydurma "böyük Ermənistan" və ermənilərin bütün qonşularını mədəniləşdirmək vəzifəsi haqqında tədris vəsaitləri canfəşanlıqla yayılırdı. Həmin məktəblərdə, paytaxtı Tiflis olmaqla,"böyük Ermənistan"ın sərhədlərinin az qala, Voronejədək gedib çıxdığı xəritələri də yayılırdı. Bir müddət sonra "Daşnaksutyun" erməni terror təşkilatının ideoloqu Ov.Kacaznuni açıqca bəyan edəcək ki, "böyük Ermənistan - dənizdən dənizə ölkə" yaratmaq ideyaları erməni xalqının arzu-istəyi deyil, məhz tələbidir, bu tələbləri o - erməni xalqı öz qarşısında və bütün bəşəriyyət qarşısında ciddi şəkildə qoymuşdur.[15]

**İyun 1895-ci il. Nyu-York. ABŞ.** Novbəti terror təşkilatı olan "Erməni Vətənpərvər İttifaqı" həmin tarixdə yaradılmışdır. Məqsəd mifik "böyük Ermənistan" ideyasının həyata keçirilməsinə nəyin bahasına olursaolsun nail olmaqdır. Səciyyəvi haldır ki, təşkilat terror aktları və digər qorxutma metodları ilə yanaşı, müxtəlif ölkələrin diplomatik nümayəndəliklərində cuğullar və lobbiçilər şəbəkəsi yaratmağı da nəzərdə tuturdu. Lakin siyasət meydanında ilk addımlar göstərdi ki, Avropa ölkələrinin əksəriyyəti və Rusiya "Erməni Vətənpərvər İttifaqı"nın proqramına şübhə ilə yanaşaraq, onun gələcək fəaliyyətini digər erməni terror təşkilatının - "Hnçak"ın qanlı cinayətləri ilə əlaqələndirirlər.[16]

**Oktyabr 1895-ci il - yanvar 1896-cı il. Zeytun. Türkiyə.** "Hnçak" erməni terror təşkilatının yerli şöbələrinin cəlladları vilayətin dinc müsəlman əhalisinə amansızcasına divan tutmuşlar. Bu qətlama 1895-ci il sentyabrın 30-da Böyük Porta yaxınlığında keçirilən fitnəkar nümayişlə fitva verildi. Təşkilatçılar nümayişin dinc xarakter daşıyacağını bildirsələr də, bütün iştirakçılar (təxminən 2000 etnik erməni) "polislə toqquşmalara təhrik edilərək, 30 sentyabrı unudulmaz günə çevirmək" üçün silahla gəlmişdilər. Bu qanlı hadisələrin bilavasitə rəhbərləri aşağıdakılar idi: erməni quldurların başçısı, özünü ictimaiyyətə rus zabiti kimi təqdim edən Kavafyan; hadisə yerinə şeyx libasında və ağlasığmaz məbləğdə pulla gələn Hambarsum Bolcan; Afinada antitürk nümayişlərinin təşkilatcısı Miqran Damadyan. "Hnçak" erməni terror təşkilatı yenə də eyni məqsəd güdürdü: kürdlərə və türklərə qarşı kütləvi terror, onları doğma yerlərindən zorakılıqla qovmaq.[17]

**26 avqust 1896-cı il.** Erməni terror təşkilatı Osmanlı bankına basqın etmiş və girovlar götürmüşdür. Cinayəti Qaragen Pasdermacanın (Osmanlı Assambleyasının gələcək deputatı) rəhbərlik etdiyi üç etnik erməni törətmişdir. Terror aktının tışkilatçısı olan "Daşnaksutyun"un fikrincə, gurultulu basqın 1896-cı ilədək müxtəlif terror aktları üçün məsuliyyət daşıyan "Hnçak"ı ictimaiyyətin nəzərində qaldırmağa fürsət verirdi. Tədqiqatcı Jorj de Malevil yazır ki, Osmanlı bankına sensasiyalı basqın müasir tarixdə mülki şəxslərin girov götürüldüyü ilk terror aktıdır.

"Kavkaz" qəzetinin məlumatına görə, Axaltsixe (Gürcüstan) Şəhər Dumasında artıq çoxluq təşkil edən gəlmə ermənilər də elə həmin dövrdə yerli əhalinin pravoslav kilsəsi tikmək xahişini rədd etmişlər. Pravoslav gürcü əhalisi bundan hiddətlənmişdir.[18]





**12 iyun 1903-cü il.** Artvin mahalında ermənilərin quldur dəstəsi yaxalanmışdır. Ona Ştutqart Politexnik Texnikumunun Abramyan adlı bir tələbəsi başçılıq edirdi; rus polisi tüfənglər, dinamit, bombalar və s. aşkar etmişdir; quldur dəstəsinin üzvləri Zaqafqaziyanın müxtəlif şəhərlərində yaşayan etnik ermənilər idi. Quldur dəstəsi bir sıra terror aktları törətməyə hazırlaşırdı.[19]

**29 avqust 1903-cü il.** Quba alayının kazarmaları yaxınlığında, xəlvət bir dalanda, Tanoyev adlı birisinin mənzilində milliyyətcə erməni olan ABŞ təbəəsi Con Naxikyan əl qumbarları hazırlamaqla məşğul olurdu; bildirilir ki, terrorçu və onun tərəfdarları Zaqafqaziyadakı Rusiya hərbçilərinə qarşı dinamit və digər partlayıcı qurğular vasitəsilə qanlı əməllər törətməyə hazırlaşırdılar. Erməni terrorçular cinayəti törətməyə macal tapmamış, təsadüfi partlayış nəticəsində həlak olmuşlar.[20]

**13 avqust 1903-cü il. Aleksandropol.** Zaqafqaziyada xristian pravoslavlığından dərs deyən protoierey (baş keşiş) Vasilov axşam saat 7-də şəhərin küçələrindən birində xəncərlə öldürülmüşdür. Qatil Erməni Komitəsinin ("Hnçak"ın yerli şöbəsi) səyləri ilə qaçıb gizlənmişdir.[21]

**29 avqust 1903-cü il. Yelizavetpol (Gəncə). Azərbaycan.** Kilsə zənglərinin çağırışı ilə və "Hnçak" terror təşkilatının hazırladığı ssenari əsasında bir neçə min erməni şəhərin civarındakı erməni kilsəsinin yanına toplaşmışdır. Atışma nəticəsində şəhərin qeyri-erməni mənşəli əhalisi arasında ölənlər və yaralananlar olmuşdur. Rusiya arxivlərinin sənədlərində erməni kilsəsinin fitnəkar əməllərinin səbəbini izah edən araşdırmalar qalmışdır: "...

ibadət (Qriqorian kilsəsi nəzərdə tutulur - **red.**) zamanı birinci sırada yalnız bir katolikos, sonra isə Qriqorian xristianlar dayanırlar; qalanların hamısı - istər xristianlar, istərsə də başqa dindən olanlar "kafirlər və mürtədlərdir", buna görə də nəinki erməni kilsəsinin sıxışdırılmasına çalışanların, hətta buna yol verənlərin hamısı lənətlənməlidir. Rus car xanədanı belə bir təlim əsasında 1903-cü ildə ermənilər tərəfindən lənətlənmişdir...".[22]

**31 avqust 1903-cü il. Tiflis. Gürcüstan.** Rusiya mənbələrinə görə, erməni kilsəsində ibadətdən sonra Qriqorian ruhanilər camaatı mülki itaətsizliyə çağırmışlar. Keşiş Ter-Araratov xüsusilə "fərqlənmişdir". Onun çıxışından sonra erməni terrorçular vətəndaşlara təxminən 40 atəş açmışlar. Fitvaçılardan 4-ü, o cümlədən keşiş Ter-Araratov həbs edildilər.[23]

**2 sentyabr 1903-cü il. Qars. Türkiyə.** Ermənilər bu cür iğtişaşı Türkiyənin Qars şəhərində də törətmişlər. İğtişaşların mərkəzi yenə də erməni (Qriqorian) kilsəsi olmuşdur. Surp-Nisan kilsəsinin zəngləri eşidilən kimi müxtəlif erməni quldur qruplaşmalarının təpədən-dırnağadək silahlanmış üzvləri oraya toplaşmağa başladılar. Hökumət qoşunları erməni guruhunu Müqəddəs Məryəm kilsəsindən də qovmalı olmuşlar. Erməni kilsələrində böyük miqdarda atıcı silah və partlayıcı maddə gizlədildiyinə görə iki keşiş həbsə alınmışdır. Əlamətdar haldır ki, erməni kilsəsinin kriminal-siyasi xarakteri haqqında xəbərlər Yaxın Şərqdən tutmuş Qafqazadək hər yerdə ictimaiyyəti həyəcanlandıracaqdır. Bu faktı ermənilərin dini mərkəzindən - Eçmiədzin monastırından 200000 rublun yoxa çıxması ilə əlaqədar məqalə vermiş "Mşak" erməni qəzeti də təsdiqləmişdir: "Bu





iri məbləğdə pulun oğurlanması hadisəsi bizə belə bir adi həqiqəti Eçmiədzin monastırının ünvanına bir daha təkrarlamağa əsas verir ki, ermənilərin həmin dini mərkəzinin pul işləri barədə cəmiyyətə hesabat vermək lazımdır... Eçmiədzin bütün bunları gizli etməklə xoşagəlməz şayiələr yayılmasına bəhanə verir... Biz bu adi həqiqəti bir daha təkrar etməyə məcburuq, amma erməni ruhanilər bunu heç eşitmək də istəmirlər". Fransız alimi baron de-Bayın fikrincə, Eçmiədzin monastırı "dini mərkəzdən çox, siyasi mərkəz" təsəvvürü yaradır.[24]

**2 sentyabr 1903-cü il. Bakı. Azərbaycan.** Axşam saat 5 radələrində kilsə zənglərinin çağırışı ilə xeyli silahlı erməni kütləsi yerli erməni məbədinin hasarı qarşısına toplaşdı. Yerli hakimiyyət orqanlarının dağılışmaq təklifinə kütlə revolverlərdən atəşlə cavab vermişdir. Qan tökülməsinin qarşısını müxtəlif erməni quldur qruplaşmalarının silahlı fəallarından 45-i yalnız tutulduqdan sonra almaq mümkün olmuşdur. Kilsənin özündə - ikonaların və mehrabın arxasından böyük miqdarda silah tapılmışdır. Rus qafqazşünası V.L.Velickonun tədqiqatlarına görə, "...erməni qiyamının yuxarıda təsvir edilən bütün kükrəyişlərində bir sıra səciyyəvi faktlar nəzərə çarpır. Əvvəla, adətən, dinc və ağciyər hesab edilən, həqiqətən də, təbiətən qorxaq olan erməni guruhunda *çoxlu silah* vardı; deməli, çoxdan hazırlanmış *silah anbarları* mövcud idi ki, bunlar da müəyyən cinayətkar əməllərə hazırlaşan təşkilatın olduğuna sübutdur. İkincisi, qiyamçı erməniləri iğtişaş yerinə zəng səsləri ilə çağırmışlar və onlar silaha sarılaraq gəlmiş, özü də, Qarsda və Bakıda, bir növ, strateji mövqelər tutmuşlar; deməli, hər şey əvvəlcədən hazırlanıbmış. Üçüncüsü, *zəng səsləri ilə ibadətə deyil, qətlam törətməyə* çağıran, mehrabı qırğın

vasitələri ilə doldurulmuş kilsə ibadət evi deyil, məhz vəhşilik ocağı və elə həmin kilsənin dini mənafeləri naminə fəaliyyət göstərən qanuni hakimiyyətə qarşı qiyam yuvasıdır". Tədqiqatçı Hit U.Lourinin yazdığı kimi, "...erməni kilsəsinin rəhbərləri ölənlərin xatirəsinə və ya həbsxanalarda olan terrorçular üçün ibadət mərasimlərində iştirak edir və bu cür tədbirlər keçirilməsində iştirak etməyə razılıq verirdilər, bununla da onlar erməni terrorçuların keçirdikləri aksiyaları faktiki olaraq təşviq edir və bəyənirdilər".[25]

**9 sentyabr 1903-cü il. Qars. Türkiyə.** Qars şəhərində erməni terrorçu türk Şərif Laçınbəyovu qətlə yetirmişdir. Qətl valinin dəftərxanasının iki addımlığında baş vermişdir, hadisə yerində gözlənilmədən peyda olan bir yığın erməni qatilin qaçıb gizlənməsinə kömək etmişdir. Mülki hakimiyyətin nümayəndəsi də yaralanmışdır.[26]

**12 sentyabr 1903-cü il. Şuşa. Azərbaycan.** Rus qafqazşünası V.L.Veliçkonun sözlərinə görə, "Şuşada yerli erməni ünsürlərin siyasi itaətsizliyi və görünməmiş həyasızlığı ilə ad çıxaran erməni guruhu iğtişaşlar və qətl-qarət də törətmişdir". Ermənilərin arasında belə bir faktı gizlətmirdilər ki, pravoslav kilsəsinin protoireyi Vasilovun öldürülməsinə görə terrorçular 25000 rubl almışlar. Rus tədqiqatcısının fikrincə, *"kalan pullu ermənilərin* belə qanlı əməllərdə nə kimi rol oynadıqları" aşkar idi.[27]

**13 sentyabr 1903-cü il. Ecmiədzin. Azərbaycan.** Erməni quldur dəstəsi bazar meydanında Potoyants adlı bir ermənini qətlə yetirmişdir, onun yeganə təqsiri bunda idi ki, Erməni Komitəsinin ("Hnçak" terror təşkilatının yerli şöbəsi) göstərişlərinə tabe olmurdu. Rus tədqiqatcısı





I.K.Kanadeyev hələ 1902-ci ildə yazmışdı: "Erməni təbliğatçılarının özləri öz proqramının əsassızlığını, nadir istisna olmaqla, başqalarına nisbətən daha aydın dərk edirlər və öz əməllərinə inanmırlar, amma bu istiqamətdə ona görə işləyirlər ki, bu cür fəaliyyət onlara dolanacaq xərcləri gətirir. Onlar Erməni Komitəsindən müavinət alır, başlıcası isə, guya erməni hərəkatı üçün sadəlövh tacirlərdən hədə-qorxu və şantaj yolu ilə pul qoparırlar".[28]

**14 oktyabr 1903-cü il. Tiflis. Gürcüstan.** Xanımı ilə faytonla şəhərətrafı gəzintidən qayıdan general-adyütant knyaz Qriqori Qolitsinə şəhərin girəcəyində, Nəbatat bağı yaxınlığında üç erməni quldur basqın edərək, knyazın başına, üzünə və qoluna bir neçə xəncər yarası vurmuşdur. Rus qafqazşünası V.L.Veliçko göstərir ki, knyaz Qolitsinin həyatına qanlı qəsdin müqəssirləri *"erməni əhalisinin aşağı təbəqələrinə mənsub olanlardır"*. Sonra müəyyən edilmişdir ki, *qatillər erməni terror şaykasına mənsub olan ermənilərdir.* Zahirən dinc görünən ermənilərin bu şaykada pulla və ya başqa bir üsulla neçə iştirak etdiklərini bilmək faydalı olardı... Ümumiyyətlə, keçmişi şübhəli və bu günü ondan da betər qaranlıq olan bəzi varlıların, onların çoxmilyonlu var-dövlətinin cinayətlərdə, qətl-qarətlərdə, qiyamlarda, Qafqazın həyatının digər qan-qadalarında oynadığı rolu və bu milyonlarla var-dövləti necə topladığını ciddi araşdırmağın artıq vaxtıdır...". Alim daha sonra yazır: *"Əsas başçıları kənarda qoyub, xırda təşviqatçıları tutmaq və cəzalandırmaq çayı vedrələrlə qurutmağa çalışmaq deməkdir.* Müsibət törədə bilən hər hansı az-çox ciddi hadisənin qarşısını lap başlanğıcda almaq lazımdır, əks halda, bu, dövlətin asayişi baxımından məqsədəuygun olmur və nəticədə, ağılsızlıq ucundan qanı tökülən xalq kütləsi barədə amansızlıq olur,

anarxist təzahürlərin əsas müqəssirlərinə hakimiyyət dairələrinin lüzumsuz yumşaq munasibət göstərməsi təsəvvürü altında kütlə arasında ağılsızlıq artır.

Deyilənləri daha çox Şərq xalqlarına aid etmək olar. Şərq ancaq *zəhmli* qüvvəyə, ədalətli, amma hökmən zəhmli qüvvəyə itaət edir. Şərq ali humanist duyğuların doğurduğu mulayimliyi zəiflik sayır. Xalq tipi kimi xüsusən erməni *alicənablığı başa düşmür*, ona görə ki, özü ona əsla qadir deyildir".[29]

**Sentyabr 1904-cü il. Bakı. Azərbaycan.** Erməni terrorcular bir neçə azərbaycanlını qətlə yetirmişlər. Bu qətllər xəbərdarlıq xarakteri daşımışdır.[30]

**Dekabr 1904-cü il - yanvar, 1905-ci il. Bakı. Azərbaycan.** Bakıda azərbaycanlıları ruslara qarşı birlikdə mübarizə aparmaq məqsədilə erməni terror təşkilatlarına qoşulmağa çağıran intibahnamələr yayılmağa başlamışdır. Bu təklif rədd ediləcəyi təqdirdə intibahnamələrdə hədə-qorxu gəlirdilər: "Hazır olun ki, biz sizin torpağınızı elə öz al qanınıza qəltan edəcək və meyitlərinizə od vuracağıq, bu od bütün dünyanı bürüyəcəkdir". Sonrakı tarixin göstərdiyi kimi, bu sözləri erməni beynəlxalq terror təşkilatları tamamilə həyata keçirdilər. Senator Kuzminski yazırdı: "Görünür, ermənilərin bu cür fitnəkar fəaliyyəti müsəlman dünyasında geniş yayılmışdır...". Ermənilərin hədələyici intibahnamələri və onlara müsəlmanların mənfi cavabları Iskəndəriyyədə fars dilində nəşr edilən "Cöhrənuma" jurnalının nömrələrindən birində dərc olunmuşdur.[31]

**5 fevral 1905-ci il. Bakı. Azərbaycan.** Erməni terrorçu Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi





öldürmüşdür. Qətl iğtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldurlar realni məktəbinin və texniki məktəbin 7-ci sinif şagirdləri Yakov Lebedevi və Ivan Volkovu öldürmüşlər. Erməni alimi C.Libaridyanın yazdığına görə, üç il ərzində (1904-1906-cı illər) erməni terrorçular 105 "siyasi qətl" törətmişlər: "bunların 56-sı ermənilərə qarşı; 32-si siyasi bəhanələrlə həm ruslara qarşı, həm də türk məmurlarına və zabitlərinə qarşı; 2-3-ü təsadüfən, elə bir səbəb olmadan, qalanları bankirlərə və sələmçilərə qarşı olmuşdur". Alimlər Libaridyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: "...bu qısa üçillik dövrdə erməni terrorcular tərəfindən öldürülmüş erməni mənşəli hər iki adamla yanaşı, bir qeyri-erməni mənşəli şəxs də öldürülmüşdür. Bu günədək nəzərə alınmayan həmin fakt diqqətəlayiqdir, çünki o, təkcə 1904-1906-cı illər üçün səciyyəvi olan fenomen deyildir, həm də indiyədək davam edən haldır. Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorcuların fəaliyyətini təşviq etmək məcburiyyətində qoymaq".[32]

**6 fevral 1905-ci il. Bakı. Azərbaycan.** Mixaylov xəstəxanasının sənədlərinə görə, erməni milyoncuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter-Osipovun və başqa maqnatların havadarlığı ilə terror qrupu 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i başqa millətlərin nümayəndələridir.[33]

**7 fevral 1905-ci il. Bakı. Azərbaycan.** Həmin erməni terror təşkilatı bu dəfə yüzədək dinc vətəndaşı öldürmüş və yaralamışdır.[34]

**9 fevral 1905-ci il. Bakı. Azərbaycan.** Yenə də həmin erməni terror təşkilatı şəhər sakinlərini qətl-qarət etmişlər. Erməni terrorçuların Bakıda 1904-cü ilin axırlarında yayılmış intibahnamələrində ifadə olunmuş hədə-qorxuları ardıcıl surətdə həyata keçirilmişdir. Qatillər kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek Lalayev, Artyom Babayants, Isay Ter-Osipov, Akop Muradyan, Qriqori Sarkisyants, Karen Saakyants və b.) evlərinə yığışmış və binaların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis və fransız istehsallı bombalar, qumbaralar atmışlar. 1905-ci ilin 6-10 fevral hadisələri tarixə "Bakı şəhərində qanlı qətlam" kimi daxil olmuşdur. Adları çəkilən erməni maqnatları ilə yanaşı Mantaşev, Ter-Qukasov, Melikyants da öz proqramlarını həyata keçirməyə başlamış "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının üzvləri və sponsorları idi.[35]

**20-21 fevral 1905-ci il. İrəvan. Azərbaycan.** "Daşnaksutyun" beynəlxalq erməni terrror təşkilatının idarə etdiyi erməni quldur qrupları bu şəhərin müsəlman sakinlərini qırıb-çatmışlar. Dinc sakinlərin vəhşicəsinə öldürülməsi şahidləri dəhşətə gətirmişdir. "Kavkaz" rus qəzetinin yazdığına görə, bu qətlləri "Parisdə və ya Venetsiyada" nəşr edilmiş erməni dərsliklərindən tərbiyə almış adamlar törətmişdilər. Bu kitabların müəllifləri öz şagirdlərini bəşəriyyətə qarşı gələcək cinayətlərə sanki qabaqcadan proqramlaşdırırdılar: "Ermənistan böyük sözdür, keçmiş zamanların böyük xatirəsidir, gələcəyin böyük rəhnidir... Ermənilər onları əhatə edən bütün xalqlardan mənəvi cəhətdən üstündürlər". Adı çəkilən rus qəzetinə görə, həmin dərsliklərdə xüsusi göstərilirdi ki, Tanrı erməni xalqını sivilizasiyanı və xristianlığı yaymaq üçün vasitəçi seçmişdir.





Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu barədə fikrini belə ifadə etmişdir: "Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırılır. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır".[36]

**11 may 1905-ci il. Bakı. Azərbaycan.** Beş erməni terrorçu Qafqaz xalqları arasında dostluq mövqeyindən çıxış edən knyaz M.A.Nakaşidzeni və Q.Takayşvilini qətlə yetirmişdir. Bunu şahid P.P.Şubinski öz xatirələrində təsdiqləyir. Elə həmin gün general Alixanov da öldürülmüşdür. Qətllərlə əlaqədar yayılmış intibahnamədə qeyd edilmişdir ki, bunları "Daşnaksutyun" erməni terror təşkilatı törətmişdir. Bəzi məlumatlara görə, qatillərdən biri Dro ləqəbli Drastamat Kanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında müxtəlif erməni quldur dəstələrinin tərkibində dinc əhaliyə - türklərə, kürdlərə, azərbaycanlılara qarşı qanlı əməliyyatlarda iştirak etmişdi.

Sonra, "Daşnaksutyun"un terrorcuları tərəfindən qətlə yetirilənlərin siyahısında göstərilir: qəza rəisləri Pavlov, Neşşanski, Boquslavski, vitse-qubernator Andreyev, polkovnik Bıkov və başqaları.[37]

**24 may 1905-ci il. İrəvan quberniyası. Azərbaycan.** İrəvan quberniyasında erməni saqqallılar dinc müsəlmanlara atəş açmışlar. Adamlar arasında çaxnaşma düşməsindən istifadə edən erməni quldurlar onlara amansızcasına

divan tutmuşlar. Bunun nəticəsində 11 vətəndaş - 4 qadın, 2 uşaq və 5 kişi öldürülmüşdür.[38]

**May 1905-ci il. Naxçıvan. Azərbaycan.** Naxçıvanda erməni quldur birləşmələri dinc əhaliyə qarşı qanlı azğınlıq törətmişlər. Öldürülənlər arasında qadınlar, qocalar, uşaqlar var.[39]

**1905-ci il. Zəngəzur. Azərbaycan.** Erməni quldur birləşmələri şəhərin dinc əhalisinə qanlı divan tutmuşlar. Onlarca adam öldürülmüşdür. Şahidlərin dediklərinə görə, erməni cəlladlar təsəvvrolunmaz ətürpədici edam üsulları tətbiq etmişlər. Məsələn, adamları əl-ayaqlarından nəhəng ağacların əyilmiş budaqlarına bağlayırdılar. Sonra kəndiri kəsərək budaqları buraxırdılar... Erməni quldurlar sakinləri yalnız ona görə öldürürdülər ki, onlar islam dininə etiqad edirdilər.[40]

**2 iyun 1905-ci il.** Yaxşı silahlanmış coxsaylı erməni quldur birləşmələri Mənkus müsəlman kəndinə basqın etmişlər. Silahsız kəndlilər öz ailələri ilə birlikdə qaçmağa məcbur olmuşlar. İns-cins qalmayan kənddə 80 yaşlı əlil qoca erməni quldurların əlinə keçmişdir. Həmkəndlilərinin təkidli yalvar-yaxarına baxmayaraq, o, evdə qalmışdı. Qoca işgəncələrlə öldürülmüşdür. Ona erməni saqqallılar şişlərlə işgəncələr vermişlər.[41]

**8 iyun 1905-ci il.** Yaxşı silahlanmış erməni quldur birləşməsi Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almışdır. Yalnız qılıncla müqavimət göstərən müsəlmanları tüfəngin qabağına qatıb güllələyirdilər. Erməni cəlladlar kəndi tutduqdan və kişiləri qırdıqdan sonra





südəmər uşaqları, qocaları öldürdülər. Məscidə od vurulub yandırıldı, müqəddəs olan hər şeyi murdarladılar. Şahidlərin dediklərinə görə, kəndin kişiləri hər ev uğrunda dəyanətlə vuruşurdular, lakin qüvvələr bərabər deyildi.[42]

**9 iyun 1905-ci il.** Eçmiədzin qəzasındakı Persi, Nazrevan, Kiçikkənd, Kotuklu, Qoşabulaq, Irgu müsəlman kəndləri yandırılıb külə döndərildi. Erməni quldurlar dinc əhaliyə vəhşicəsinə divan tutduqdan sonra Təkyə müsəlman kəndinə basqın etdilər.[43]

**30 iyun 1905-ci il.** Erməni quldur dəstəsi Gəzəcik kəndini mühasirəyə alaraq, odlu silahdan hara gəldi, səpələmə atəş açdılar. Quldurlar məscidi, müsəlmanların müqəddəs kitablarını yandırdılar. Onlar qoca kəndli Novruz kişini tutaraq, ona dəhşətli işgəncə verdilər. Erməni keşiş Hayrapet onun başını öz əli ilə vurdu. Gəzəcik kəndində qırğından sonra bütün bunlar barədə faciəli hadisələrin şahidi və iştirakcısı olmuş bir erməni danışmışdır.[44]

**21 iyul 1905-ci il. İstanbul. Türkiyə.** "Daşnaksutyun" erməni terror təşkilatının üzvləri Sultan Əbdül Həmidə sui-qəsd etmişlər. Erməni siyasətcisi K.Papazyan "Eybəcərləşdirilmiş vətənpərvərlik" kitabında bu hadisəni belə qiymətləndirir: "Sultan Əbdül Həmidə sui-qəsd cəhdi siyasi məqsədlərə terror yolu ilə nail olmaq üçün ifrat tədbirlərdən biridir". Terror aktı baş tutmadı, çünki bombalar vaxtından xeyli əvvəl partladı. Amma dövlət başçısı insanpərvərlik göstərərək, erməni terrorçuların günahından keçdi. Buna "minnətdarlıq" əlaməti olaraq, "Daşnaksutyun" beynəlxalq terror təşkilatının təşviqatçıları artıq bir əsrə yaxındır ki, sultan Əbdül Həmidi məhz "günahsız erməniləri məhv etmiş

müstəbid, məkrli siyasətçi" adlandırırlar və s. Sultanın hətta "öz övladlarım" adlandırıb əfv etdiyi erməni terrorçulara amnistiya verilməsi haqqında fərmanları da unudulmuşdur.[45]

**8 avqust 1905-ci il. Şuşa. Azərbaycan.** Gəncə quberniyasının Şuşa qəzasında Vəng kəndinin 300-dən çox erməni quldüru yaxınlıqdan keçən karvana basqın etmişdir: tacirlər öldürülmüş, əmlakları talanmışdır. Sonra onlar qonşu müsəlman kəndinə basqın edərək, burada kənd sakini Abbas bəyin oglunu, qardaşını və bir neçə nökər-naibini qətlə yetirmişlər. Bundan azca sonra kəndin bütün sakinləri qəddarcasına öldürülmüş, evləri isə yandırılmışdır. Kazarmalardan qaçan və özləri ilə silah götürən erməni əsgərlər də onlara qoşulmuşlar.

Qanlı əməllər hədə-qorxu xarakteri daşıyırdı ki, onlardan da məqsəd yerli əhalini Şuşanı və Qarabağın Dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. "Ermənistanın siyasi ərazisi" proqramını həyata keçirməyə başlayan erməni terrorizminin ideoloqları belə bir faktdan açıqca narazı idilər ki, demoqrafik vəziyyəti ermənilərin Azərbaycan ərazilərinə hətta kütləvi şəkildə köçürülməsi də dəyişdirməmişdir. Buna rus alimi M.A.Skibitskinin tədqiqatı da sübutdur. O yazır ki, XX əsrin əvvəllərində Qarabağın Dağlıq hissəsində ermənilərlə azərbaycanlıların etnik nisbəti müvafiq surətdə 1:4 qismində idi. Başqa sözlə, yaylaq və otlaq istifadəçilərinin 72,6 faizini azərbaycanlılar təşkil edirdilər. Müəllif kitabında həmin bölgədə kürd və tat əhalisi oldugunu da göstərir. Kitabda rus tədqiqatçısının tərtib etdiyi "Qarabağın dövlət yaylaqlarının xəritəsi" də verilmişdir. Bu nadir xəritə sonralar Sankt-Peterburqun, Moskvanın, Tbilisinin, Yerevanın kitabxanalarından yoxa çıxmışdır.[46]





**20 avqust 1905-ci il. Bakı. Azərbaycan.** Yaxşı silahlanmış erməni quldur birləşmələri şəhərin əhalisi sıx olan müsəlman məhəllələrinə basqın etmişlər. Çox böyük sayda insanlar vəhşicəsinə öldürülmüşdür. Kişilərin başını kəsir, hamilə qadınların qarnını yırtır, uşaqları tonqallara atır, ya da su quyularında boğurdular. Meyitlərin bir qismi dənizə atılmışdır.[47]

**21 avqust 1905-ci il. Şuşa. Azərbaycan.** Erməni quldurlar Şuşa qəzasının kəndlərindən birində məktəbin təmiri ilə məşğul olan 17 azərbaycanlı ustaya basqın etmiş və onların başlarını kəsmişlər.[48]

**1905-ci il avqustun axırları. Bakı. Azərbaycan.** Erməni quldur birləşmələri şəhərin sakinlərinə - etnik azərbaycanlılara dəhşətli divan tutmuşlar. Şahidlərin dediklərinə görə, Bakıda avqustun axırlarında baş vermiş bu hadisələr öz qəddarlığına və kütləviliyinə görə elə həmin ilin fevralında Bakıda törədilmiş faciəni kölgədə qoymuşdur.

Rusiya arxivlərinin materiallarına görə, 1905-1906-cı illərdə "Daşnaksutyun" erməni terror təşkilatı əslində "ikili oyun oynamışdır: əvvəla, qisasın heç olmasa bir qismi müsəlmanlardan alınmış, ikincisi isə, mətbuat və təbliğatın köməyi ilə bütün bu hadisələrə baiskar Rusiya hökuməti hesab edilmişdir, beləliklə, təkcə erməniləri deyil, Qafqazın digər sakinlərini də inqilabiləşdirmək üçün yeni güclü təşviqat materialı meydana gəlmişdir... Nəticədə, ermənilərin xoşu gəlməyən çoxlu rus məmuru və mülki şəxsləri həlak olmuşlar".[49]

**1905-ci il sentyabrın axırları. Qazax. Azərbaycan.** "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının

saqqallıları qədim Azərbaycan şəhəri Qazaxı tutaraq, yandırmışlar. Dinc əhali arasında çoxlu tələfat olmuşdur.[50]

**3 oktyabr 1905-ci il. Sırxavənd. Azərbaycan.** Erməni terror və quldur birləşmələrinin süvari və piyada dəstələri Sırxavənd müsəlman kəndinə basqın etmişlər. Əməliyyata erməni terrorçu Hamazasp başçılıq edirdi. "Daşnaksutyun" beynəlxalq terror təşkilatının komitəsi dinc kəndliləri xüsusi vəhşiliklə qırdığına görə ona general rütbəsi vermişdir. Çox qısa bir müddətdə viran qoyulan Sırxavənd kəndi azərbaycanlıların meyitləri ilə dolmuşdur. Quldurlar hətta qocalara da rəhm etmir, körpələri isə bir yerə yığıb kütləvi surətdə öldürürdülər.

Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanında deyildiyi kimi: "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılıb yerlə yeksan edildi, minlərlə azərbaycanlı qətlə yetirildi. Bu hadisələrin təşkilatçıları məsələnin mahiyyətinin açılmasına, ona düzgün hüquqi-siyasi qiymət verilməsinə maneçilik törədərək, azərbaycanlıların mənfi obrazını yaratmış, özlərinin avantürist torpaq iddialarını pərdələmişlər".[51]

**15-18 noyabr 1905-ci il. Gəncə. Azərbaycan.** Erməni quldur birləşmələri "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirərək, şəhərin dinc əhalisinə qanlı divan tutmuşlar. Tarixçilərin qeyd etdikləri kimi, bu, həmin illərdə erməni quldurların dinc əhaliyə qarşı ən amansız





vəhşiliklərindən biri idi. Adamları dəstə-dəstə binalara (çox vaxt məscidlərə) dolduraraq, diri-diri yandırırdılar.

O dövrdə erməni terror təşkilatlarının liderləri azərbaycanlıların müdafiəsinə qalxanların hamısına mətbuat vasitəsilə xəbərdarlıq etmişdilər: "M.A.Nakaşidzenin, polis komissarı Saxarovun, pristav Nacanskinin, Çarakovun aqibətini yadınıza salın...". Adları çəkilən şəxslərin hamısı "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatı rəhbərliyinin əmri ilə öldürülmüşdü.[52]

**21 noyabr 1905-ci il. Tiflis. Gürcüstan.** "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının saqqallıları Tiflis sakinlərinə Gürcüstan tarixində ən qanlı və amansız divan tutaraq, onları qırıb-çatmışlar. O hadisələrin şahidləri söyləmişlər ki, erməni quldur dəstələri gəlmə erməniləri məskunlaşdırmaq üçün "yer təmizləyərək", pravoslav gürcü kəndlilərini elliklə və Tiflis şəhəri məhəllələrinin sakinlərini bütövlüklə kəsib doğrayırdılar. Nə uşaqlara, nə qadınlara, nə qocalara, nə də əlillərə rəhm edirdilər. Yaralıların nəfəsini kəsirdilər. Bu günədək gəlib çatmış məlumatlara görə, həmin gün erməni quldurlar Tiflisdə çox sayda azərbaycanlıları da qətlə yetirdilər. Dini ənənələrə uygun olaraq, azərbaycanlı ailələri öldürülənlərin cəsədlərini meyitxanaya aparmaqdan imtina etdiklərinə və birbaşa məscidə gətirdiklərinə görə, Tiflis meyitxanasında axşamtərəfi cəmi 10 müsəlman meyidi aşkar olunmuşdur. Qətllərin əsl müqəssirlərini beynəlxalq ictimaiyyətdən gizlətməyə can atan erməni mətbuatı öz səhifələrində bütün dünyaya "ermənilərin Tiflis faciəsi" deyə car çəkmişdir.

Görkəmli gürcü yazıçısı və mütəfəkkiri İ.Çavçavadze gürcü ziyalılarının erməni terrorizminin ideoloqlarına

әnәnәvi münasibәtini belә ifadә etmişdir: "Bizi mәyus edәn budur ki, özünә mәftun olan bir qrup ermәni biz gürcülәrin mәnәvi vә fiziki varlığını inkar edәrәk, bizә ancaq qarşımızdakı mәzarı göstәrir, guya onların varlığı bizim yoxluğumuzla yaranır. Bu ermәni qrupunun iç üzünü açıb göstәrmәk vaxtıdır, onların müdriklәri biz gürcülәrә, istisna olmadan, böyüklü-kiçikli hamımıza belә qulaqburması verirlәr. Artıq onlara açıq gözlә, olduğu kimi baxmaq vaxtıdır. Artıq bilmәliyik - qara quzgun başımız üzәrindә haradan ulayır, bizә dәyәn daş yağışı haradan yağdırılır. Artıq ayılmağımızın vaxtı gәlib çatmışdır. Bu yalançı liberallar qarşısında, xalqpәrәstliyin müqәddәs pәrdәsinә bürünәrәk öz hoqqabazlığını, ikiüzlülüyünü, riyakarlığını, rәhmsizliyini, vicdansızlığını gizlәtmәk mәqsәdilә ağzımıza daş basan bu hәqiqi liberalizm tәlxәklәri qarşısında daha ağciyәrlikdәn әl çәkmәyimizin vaxtı çatmışdır".[53]

**1 yanvar 1906-cı il. Papravәnd. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri azәrbaycanlıların Papravәnd kәndinә basqın etmişlәr. Sakinlәr ciddi cәhdlә müqavimәt göstәrsәlәr dә, kәnd işğal olunmuşdur. Kişilәrin başlarını kәsir, hamilә qadınların isә qarnını qılıncla yarır vә hәlә dünyaya gәlmәmiş uşaqların ... başlarını vururdular. Qırğına ermәni quldur Andranik rәhbәrlik edirdi. Əsrin hәlә әvvәllәrindә Rusiyanın Ərzurumdakı konsulu general Q.Mayevski onun haqqında yazmışdı: "1901-ci il qışın әvvәllәrindә Andranik adlı birisinin ermәni quldur dәstәsi Muş hәndәvәrindә peyda olmuşdur".[54]

**12 iyul 1906-cı il. Şuşa. Azәrbaycan.** Yaxınlıqdakı ermәni kәndlәrindәn toplanmış tәxminәn 10 min nәfәrdәn ibarәt quldur birlәşmәlәri Şuşaya geniş miqyasda hücuma





keçmişlәr. (Bu qәtlamda iştirak etmәkdәn boyun qaçırmış ermәnilәr "Daşnaksutyun" terror tәşkilatının hökmü ilә edam olunmuşlar). Döyüşlәr beş gün-beş gecә davam etmişdir. Bütün müsәlman evlәrinә bombalar yağdırılmışdır. Azğınlaşmış quldurlar sudәmәr körpәlәri elә beşiklә birlikdә yandırır, uşaqları analarının әllәrindәn alıb başlarını daşa çırpırdılar.

1905-1906-cı illәrdә Qarabağda ermәni quldurlar yüzlәrlә Azәrbaycan kәndini yandırmışlar.[55]

**29 iyul 1906-cı il. Karxana. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri azәrbaycanlıların Karxana kәndinә basqın etmişlәr. Onlar kәndi tezliklә tutmağa müvәffәq olmuşlar, çünki silahsız kәndlilәrin müqavimәt göstәrmәk üçün heç nәyi yox idi. Yaxşı silahlanmış ermәni quldurlar kәndin bütün kişilәrini öldürmüşlәr. Qaçıb tәpәliklәr arxasında gizlәnmiş 30 qadın vә uşağı gәnc ana Pakizәnin uşağı ağladığına görә tezliklә tapmışlar. Tarix bu körpә qızın adını da saxlamışdır - Firuzә. Qaçqınlar rәhmsizcәsinә mәhv edilmişlәr.

Karxana kәndinin sakinlәrindәn heç kim canını qurtara bilmәmişdir.[56]

**1908-1909-cu illәr.** Tәdqiqatçı İ.Bağırova yazır ki, "Daşnaksutyun" terror tәşkilatından olan ermәni quldurların Yelizavetpolun (indiki Gәncә) şәrab sәnayecilәri Forer qardaşlarının hәyatına qәsd etmәsi, şәrabçı Qurru, Tiflis mühafizә şöbәsinin xәfiyyәlәri Poleskonu vә Ulyanovu, Tiflis qorodovoyu Valiyevi, tütün fabrikantı A.Sәfәrovun oğlunu, irәvanlı kәnd starşinası K.Azaryanı qәtlә yetirmәlәri dә hәmin dövrә düşür. Tәdqiqatçı yazır: "Daşnaklar mәqsәdlәrinә çatmaq üçün nә özgәlәrә, nә

özününkülərə rəhm edirdilər. "Özlərininkilər" üçün qorxutma təşkilatı fəaliyyət göstərirdi. Bu təşkilat o illərdə "Daşnaksutyun"un 5-6 üzvünü məhv etmişdir (onlardan biri - "Miqran" IV qurultayın qərarı ilə öldürülmüşdür).[57]

**9 aprel 1909-cu il. İstanbul. Türkiyə.** Türk jurnalisti Həsən Fəhmi bəy qətlə yetirilmişdir. Qətldən məqsəd dəfn mərasimi ilə bağlı izdihamlı nümayişlərdən istifadə edərək, şəhərdə qarmaqarışıqlıq salmaq idi. Parisdə, Cenevrədə, Qahirədə öz filiallarını açan "Daşnaksutyun" beynəxalq erməni terror təşkilatı ideoloqlarının təbliğat fəaliyyətini xüsusilə gücləndirmələri məhz həmin dövrə təsadüf edir. Ermənilərin insanlığa zidd məqsədlərini həyata keçirən kamikadzelərdən ibarət fədai qrupları yaratmağa çağıran kitabca və intibahnamələr yayılmaq üçün Istanbula məhz həmin şəhərlərdən göndərilirdi. Bu materiallar arasında "Daşnaksutyun" erməni terror təşkilatının ideoloqu Mkrtıç Portakalyanın Türkiyə və Rusiya hökumətləri ilə mübarizə aparılması yolu ilə "böyük Ermənistan" yaratmaq barədə çağırışları da vardı. Sonralar, 1921-ci ildə M.Portakalyan "Daşnaksutyún" təşkilatının gəlirlərini gizlətdiyinə görə elə öz silahdaşları tərəfindən qətlə yetiriləcəkdir.[58]

**21 fevral 1914-cü il. Türkiyə.** Qarsda və Ərdahanda erməni quldur birləşmələri 30000 insanı - etnik türkləri öldürmüşlər. Onlar körpələri analarının əlindən alıb tonqala atırdılar. Insanlar qətlə yetirilməzdən əvvəl onlara vəhşicəsinə işgəncə verirdilər. Bu qətllərin bilavasitə təşkilatcılarından biri kölgəyə çəkilən "Hnçak" erməni terror təşkilatının ideoloqu, Türkiyə parlamentinin deputatı Stepan Ter-Danielyan olmuşdur.[59]





**1914-cü ilin yayı. Türkiyə.** Birinci dünya müharibəsinin başlanğıcı. Amerika tarixcisi Stenford C.Şounun "Osmanlı imperatorlugunun tarixi" kitabında yazdığı kimi, "... bütün müharibə ərzində müsəlmanların ermənilər tərəfindən dəhşətli, amansız kütləvi qırğını davam etmişdir. Bir milyondan çox türk kəndlisi doğma ocaqlarından qaçmalı olmuşdur. Minlərlə qaçqın tikə-tikə doğranmışdır". 1914-cü ildə beş vilayətdə - Trabzon, Ərzurum, Ərzincan, Van və Bitlis vilayətlərində yaşamış 3 300 000 türk əhalisinin 600 000 nəfəri müharibədən sonra qaçqın idi. Erməni quldur birləşmələri kürd kəndlərinə də basqın edərək, bütün dinc əhalini vəhşicəsinə kəsib-doğramış, hətta qadınlara, qocalara və uşaqlara da rəhm etməmişlər. Türk və kürd kəndlilərinin qırğınının bilavasitə təşkilatçılarından və ideoloqlarından biri "Daşnaksutyun" erməni terror təşkilatının üzvü, Atom ləqəbli Arutyun Şaxrikyan olmuşdur.[60]

**Fevral 1915-ci il. Van. Türkiyə.** Erməni terror təşkilatları Türkiyənin Van şəhərində dinc müsəlman əhaliyə qarşı bir sıra qanlı cinayət əməlləri törətmişlər.[61]

**Fevral 1915-ci il. Türkiyə.** Jorj de Malevilin "1915-ci il erməni faciəsi" kitabında göstərilir ki, erməni terror və quldur birləşmələri tərəfindən planlı surətdə məhv edilən Şərqi Anadolunun dinc müsəlman əhalisindən olsa-olsa 1600000 nəfər qalmışdır. Müəllifin sözlərinə görə, bir çox rus zabitləri bu qırğından hiddətlənərək, erməni cəlladlara qarşı güc işlətdilər. Təbiidir ki, dinc əhaliyə qarşı vəhşiliklər və qətl-qarətlərlə yanaşı, erməni təbliğat-təşviqatının açıq-aşkar ikiüzlülüyü Osmanlı dövlətinin səbir kasasını daşdırdı və Ali Komandanlığın əmri ilə 1915-ci il aprelin 24-də Daxili İşlər Nazirliyi bütün erməni komitələrinin -

İstanbuldakı və Türkiyənin digər iri şəhərlərindəki terror təşkilatlarının dərhal bağlanması haqqında sərəncam verdi.[62]

**24 aprel 1915-ci il. Van. Türkiyə.** Van şəhəri valisinin İstanbula göndərdiyi məktubda deyilirdi ki, həmin gün təxminən 4000 erməni qonşu bölgələrdən mütəşəkkil surətdə buraya gəlmişdir. Erməni quldurlar yaxın kəndlərə basqın edərək, onları yandırır, soyğunçuluq və qırğınlar törədirdilər. Kəndlərin sakinləri evsiz-eşiksiz qaldılar.[63]

**Aprel 1915-ci il. Abaağa. Türkiyə.** Erməni quldur dəstəsinin Abaaga kəndinə basqını nəticəsində yüzlərlə adam vəhşicəsinə öldürülmüşdür. Bir sıra tədqiqatçıların gətirdikləri rəqəm - 10000 müsəlmanın öldürüldüyü barədə rəqəm təxminidir.[64]

**6 may 1915-ci il. Van. Türkiyə.** "Daşnaksutyun" erməni terror təşkilatının Aram və Varel adlı kəslərin başçılıq etdiyi quldurları monoetnik ərazi yaratmaq məqsədilə Türkiyənin bu şəhərində müsəlmanlara qarşı qətlam törətmişlər. Bu, erməni terror təşkilatlarının "etnik təmiz zonalar" yaratmaq üçün müntəzəm olaraq apardığı siyasətin növbəti mərhələsi idi. Akademiklər C.Əliyevin və B.Budaqovun tədqiqatında gətirilən faktlara görə, erməni terrorçular Van vilayətində 3000 dinc sakini məhv etmişlər.[65]

**8 may 1915-ci il. Van. Türkiyə.** Erməni quldur və terror birləşmələri Vanın ətraf qəsəbə və kəndlərinə hücuma başlayırlar. Bu civardakı bütün müsəlman kəndləri od-alova bürünmüşdür. Rus diplomatı, general Q.Mayevskinin məlumatına görə, erməni təbliğatının türkləri qəddarlıqda hər vəchlə təqsirləndirməsinə baxmayaraq, o, bunun əksinin şahidi olmuşdur: o illərin bütün qanlı hadisələrini erməni quldur dəstələri fitnəkarlıqla törədir və həyata keçirirdilər.[66]





**9 may 1915-ci il. Bitlis. Türkiyə.** Bitlis şəhərində erməni quldur birləşmələrinin azğınlıqları nəticəsində 123 adam öldürülmüşdür. Həlak olanlar arasında çoxlu uşaq və qadın var. Tədqiqatçı Rafael de Noqalesə görə, o dövrdə dinc müsəlmanların vəhşicəsinə qətlə yetirilməsinin, kəndlərinin yandırılmasının başçılarından biri Osmanlı Assambleyasının deputatı, "Daşnaksutyun" erməni terror təşkilatının üzvü Qaregen Pasdermacan idi. Tarixçi Noqales yazırdı: "Onlar əllərinə keçən dinc müsəlmanların hamısını öldürürdülər". "Daşnaksutyun" təşkilatının ölüm hökmləri hər yerdə həyata keçirilirdi. Tədqiqatçıların fikrincə, bu təşkilat heç vaxt real siyasi proqram təklif etmirdi, əksinə, öz icraçılarına ancaq mübarizə metodlarını göstərirdi. Zorakılığa əsaslanan bu metodlar belə şərh edilirdi: "Adamları silahlandırmaq üçün istənilən vasitələrə əl atmalı, ... toqquşmaları təşviq etməli və hökumət məmurlarını qorxu-vahimə içində saxlamalı, ... dövlət idarələrini qarət etməli və dağıtmalı, ... məqsədə çatmaq üçün hər şeyə - təbliğata, terrora, qiyamlara yol verilir".[67]

**14 may 1915-ci il. Van. Türkiyə.** Amerika tarixcisi Stenford C.Şou yazır ki, "mayın 14-16-sı ərzində erməni quldur birləşmələri yerli müsəlman əhalini kütləvi surətdə qırıb-çatdılar". Tədqiqatçı J.Malevil bu barədə yazır: "Ermənilərin otuz il ərzində müntəzəm surətdə həyata keçirdikləri terror aktları 1915-ci ildə başqa yerlərə köçürülən öz soydaşlarının taleyinə təxminən eyni

dərəcədə ciddi təsir, "əks-təsir" göstərmişdir. Kənardan qızışdırılan bütün bu mənasız qiyamlar ancaq nahaq ölümlərə gətirib çıxarırdı. Lakin onların müəyyən psixoloji nəticəsi də vardı ki, ona da erməni təbliğatçılar "gərginlik strategiyası" yolu ilə, yəni osmanlıların nəzərində erməniləri "sadiq millət"dən "şübhəli millət"ə çevirmək yolu ilə nail olurdular. On illərlə davam edən qətllər və amansız qiyamlar buna kifayət idi".[68]

**17 may 1915-ci il. Van. Türkiyə.** Erməni terror və quldur birləşmələri Türkiyənin qədim Van şəhərini yandırmışlar. Dinc əhali arasında çoxlu tələfat olmuşdur. C. və K. Makkartilərin tədqiqatına görə, XX əsrin əvvəllərində törədilən qanlı hadisələr zamanı 2,5 milyon müsəlman öldürülmüşdür.[69]

**22 iyun 1915-ci il. Van. Türkiyə.** Hökumət qoşunları Türkiyənin Van şəhərinə daxil olduqda onların gözləri qarşısında dəhşətli bir mənzərə açıldı: meyitlər qalaq-qalaq yığılmışdı. Erməni terror birləşmələri Vanın vaxtında qaçıb canını qurtara bilməyən bütün müsəlman əhalisini - türkləri, azərbaycanlıları, kürdləri məhv etmişdilər. Ermənilər bütün müsəlmanları böyük bir xəndəyin qırağına toplamış, sonra da vəhşicəsinə öldürmüşdülər. Səkkiz gün sonra, 1915-ci il iyulun 1-də general Nikolayev öz məlumatında Tero və Xeco adlı erməni quldurların vəhşiliklərindən danışacaqdır. Hiddətə gələn rus zabiti onları topların qabağına qoyub güllələməyə çağırır.

Qəddarcasına işgəncələr verilmiş 5000 adamın - erməni quldur və terror birləşmələrinin dinc əhaliyə qarşı törətdiyi 1915-ci il soyqırımı qurbanlarının dəfn edildiyi yerdə onların xatirəsinə indi türk xatirə abidəsi ucalır.[70]





**8 may 1916-cı il. Tərcan. Türkiyə.** Quldur Andranikin başçılıq etdiyi erməni saqqallıların Tərcan qəzasının müsəlman kəndlərinə basqınları nəticəsində 563 adam qətlə yetirilmişdir. Öldürülənlərin birinə dəhşətli işgəncə verilmişdir. Quldurlar "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının hökmünü beləcə qəddarcasına yerinə yetirmişlər.[71]

**11 may 1916-cı il. Malazagird. Türkiyə.** Erməni quldurlar Türkiyənin Malazagird şəhərində 20000 adamı vəhşicəsinə qətlə yetirmişlər. Hətta südəmər körpələr də işgəncələrə məruz qalmışlar. Sonra onları tonqala atmışlar.[72]

**22 may 1916-cı il. Van. Türkiyə.** Erməni quldur birləşmələri Van şəhərində türk və kürd millətindən olan dinc sakinlərə növbəti dəfə qanlı divan tutmuşlar. Halbuki şəhər 1915-ci il faciəsindən sonra yenicə dirçəlməyə başlayırdı. Erməni cəlladlar 1000 körpəni diri-diri boğmuşdular. Uşaqlara bu dərəcədə amansızcasına divan tutulmasını dünya hələ görməmişdi. Erməni terrorçuların Van şəhərində törətdikləri vəhşiliklər nəticəsində 15 000 insan həlak olmuşdur. Meyitlərin qularqlarını, burunlarını kəsir, gözlərini çıxarırdılar.[73]

**22 may 1916-cı il. Van. Türkiyə.** Van şəhəri yaxınlığındakı Keprikoy türk kəndini erməni quldur dəstələri yerlə yeksan etmişlər. 200 adam öldürülmüşdür. Müqavimət göstərməyə çalışanlar xüsusilə vəhşicəsinə qətlə yetirilmişdir.[74]

**22 may 1916-cı il. Van. Türkiyə.** Erməni terrorçular adamları ilk dəfə kütləvi şəkildə zəhərləmək metodu tətbiq etmişlər. Şəhərin yüzlərlə dinc sakini məhz bu üsulla vəhşicəsinə öldürülmüşdür. Həlak olanlar arasında uşaqlar, qocalar, qadınlar da vardı.[75]

**22 may 1916-cı il. Van. Türkiyə.** Saysız-hesabsız qaçqınlarla dolu olan Yergel və Ətyan müsəlman kəndləri civarında erməni cəlladlar 8000-dək insanı qırıb-çatmışlar. Yaxşı silahlanmış quldurlara müqavimət göstərmək mənasız idi.[76]

**23 may 1916-cı il. Van. Türkiyə.** Van şəhəri yaxınlığındakı Seyl müsəlman kəndində erməni cəlladlar 300 adamı öldürmüşlər, onların əksəriyyəti qadınlar, qocalar və uşaqlar idi. Qətllərdən sonra meyitləri təhqir etməyə başlamışlar. Məhz həmin dövrdə "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının ideoloqları kütləvi qırğınlara görə məsuliyyəti öz üzərlərindən atmaq məqsədilə tarixi saxtalaşdırmağa girişdilər. Mənhus cəfənglik bundan ibarət idi ki, onlar məhz özlərinin törətdikləri qanlı cinayətləri... "ermənilərin soyqırımı" kimi qələmə verdilər. Buna misal olaraq onlar "Birinci dünya müharibəsi dövründə qırılan ermənilərin qalaqlanmış kəllələrini təsvir edən" rəsm əsərini göstərirlər. Bir müddətdən sonra tədqiqatçılar buna aydınlıq gətirmişlər: "Şəkil kitabların cildlərində və qoşma məqalələrdə yalandan və məsuliyyətsizcəsinə yayılır, təbliğat vərəqələrində və ya poçt açıqcalarında çap edilirdi ki, bundan da məqsəd ictimaiyyəti aldatmaq idi. Halbuki "Müharibənin apofeozu" adlanan bu rəsm əsərini 1842-ci ildə doğulmuş rus rəssamı Vasili Vereşşagin 1871-1872-ci illərdə çəkmişdir. Deməli, obyekti əsla ermənilər olmayan bu əsər 1915-ci ilin hadisələri deyilən hadisələrin başlanmasından 44 il əvvəl yaradılmış, rəssamın özü isə Birinci Dünya müharibəsinin başlanmasından 10 il əvvəl vəfat etmişdir".[77]





**İyun 1916-cı il. Edremid. Türkiyə.** Erməni quldur birləşmələrinin Türkiyənin Edremid şəhərinə basqını və dinc əhaliyə vəhşicəsinə divan tutması nəticəsində 15 000 adam öldürülmüşdür. Patronlara qənaət etmək məqsədilə erməni quldurlar ən qəddar ölüm üsullarına əl atırdılar.[78]

**21 avqust 1916-cı il.** Erməni saxtakarların Azərbaycan mədəniyyətinin incisini - Üzeyir Hacıbəyovun "Arşın mal alan" musiqili komediyasını öz adlarına çıxmaq üçün göstərdikləri ilk (məlum və aşkar faktlar sırasından) cəhd həmin tarixə təsadüf edir. "Russkaya muzıkalnaya kultura" həftəliyinin 1916-cı il 21 avqust tarixli nömrəsində oxuyuruq: "Paris Konservatoriyasının məzunu artist Armenyan qrup yaratmışdır və bu qrupla teatrda on üç ildir işləyir. Cənab Armenyan həm də milli musiqişünasdır. Son vaxtlar o öz tamaşalarında musiqidən istifadə edir. Biz onun olduqca gözəl "Arşin mal alan" operettasını görmüşük... Nəinki milli teatr yaradan, həm də erməni musiqisini bərpa edən cənab Armenyana eşq olsun!" Aynur Hacıyevanın araşdırmasına görə, hələ 1915-ci ildə ilk dəfə bildirilmişdi ki, "Arşın mal alan" erməni operettasıdır. "1914-cü ildə Azərbaycan aktyoru Huseynqulu Sarabskinin truppası Tiflisdə qastrolda olmuşdur. Operetta Sedrak Maqalyan adlı birisini heyran qoymuşdur. Həmin vaxtadək erməni ansamblının tarzəni Maqalyan operettanın sözlərini erməni dilinə

çevirmәyi H.Sarabskiyә tәklif etmiş vә buna tutarlı cavab almışdır: bu cür mәsәlәlәri әsәrin müәllifi, maestro Üzeyir Hacıbәyovla razılaşdırmaq lazımdır. Bundan sonra Maqalyan Azәrbaycan bәstәkarı ilә görüşür vә onu "Arşın mal alan"ın ermәni dilinә tәrcümә edilmәsinin zәruriliyinә inandıra bilir. 1915-ci ildә Ü.Hacıbәyovun operettasının Eriksyanın teatrında ermәni dilindә ilk tamaşası olur. Tamaşanın uğurlu olmasına belә bir hal da tәkan vermişdir ki, Ü.Hacıbәyovun yaradıcılığına Maqalyanla yanaşı, digәr ermәni mәdәniyyәt işbazları - Q.Prumyan, S.Torosyan, I.Voskanyan, A.Armenyan da "müraciәt etmişlәr". A.Hacıyevanın tәdqiqatında deyilir ki, 1916-cı ildәn ermәni truppaları afişalarda Ü.Hacıbәyovun adını göstәrmәyi "unutmağa" başladılar: bu, ilk dәfә, ermәni truppasının Vladiqafqaza qastrolu zamanı baş vermişdir. "Ümumiyyәtlә, "Arşın mal alan" operettasını repertuarlarına daxil edәn truppaları namәlum bir mәrkәz idarә edirdi. Mәsәlәn, Armenyanın truppasının bu tamaşa ilә Bakıda, Voskanyanın truppasının isә Rusiyada görünmәyә haqqı yox idi". A.Hacıyeva ermәni truppalarını idarә edәn namәlüm vahid mәrkәzi tәsadüfәn xatırlatmır. Әldә olan mәlumatlara görә, "Daşnaksutyun" ermәni terror tәşkilatında Terror Komitәsi, Qorxutma Tәşkilatı, Özünümüdafiә Komitәsi vә s. hәrbilәşdirilmiş bölmәlәrlә yanaşı, Mәdәni-Maarif Cәmiyyәti dә fәaliyyәt göstәrirdi. Bu cәmiyyәt digәr xalqların mәdәniyyәtinin nailiyyәtlәrinin oğurlanması mәnasında ermәni mәdәniyyәtinin tәbliği ilә mәşğul olurdu. (Mәsәlәn, bax, belәcә Pifaqor teoremi ermәni elminin "nailiyyәti" olmuşdu).

Üzeyir Hacıbәyov onun operettasını ermәni plagiatorların özününkülәşdirmәk cәhdlәrindәn xәbәr tutduqda qәzetdә elan dәrc etdirmәyә mәcbur olmuş, "Aşıq Qәrib"





operası vә "Arşın mal alan" operettası müәlliflәrinin hüquqlarının qorunması naminә Qafqazdakı, Türküstan, Hәştәrxan vә Azәrbaycandakı bütün yerli fәalları әmәkdaşlığa çağırmışdır. Görkәmli bәstәkar Müslüm Maqomayev (dünyaşöhrәtli müğәnni Müslüm Maqomayevin babası) 1919-cu il fevralın 8-dә "Azәrbaycan" qәzetindә hiddәtlә yazırdı: "... Vladiqafqazda afişalarda "Arşın mal alan" tamaşasının müәllifinin - Üzeyir bәyin adı göstәrilmәmişdir. Bir ermәni incәsәnәt xadimi mәnә sübut etmәyә çalışırdı ki, guya "Arşın mal alan" qәdim dövrlәrdә ermәnilәr tәrәfindәn yazılmışdır... Bu rüsvayçılığa son qoymağın vaxtı deyilmi!"

1924-cü ildә Üzeyir Hacıbәyov Nyu-Yorkdan violonçelçi, professor Okorkovdan mәktub alır. Mәktubda deyilir: "... "Arşın mal alan" burada hәr yerdә vә hәr yanda göstәrilir. Sizin әsәriniz Amerikada olduqca böyük müvәfәqiyyәtә malikdir. Hansısa bir Maqalyan bu operettanı özününkü kimi qәlәmә verir vә çox böyük mәblәğdә pul qazanır. Maqalyan o qәdәr varlanmışdır ki, özünә böyük bir imarәt tikdirmiş vә onun frontonunda iri hәrflәrlә "Arşın mal alan" sözlәrini yazdırmışdır. Sizin müәlliflik hüquqlarınızı qorumaq üçün mәn artıq vәkillәrlә danışıb razılığa gәlmişәm. Mәnә etimadnamә göndәrin". 1937-ci ildә Hollivudda Üzeyir Hacıbәyovun eyniadlı operettası әsasında film çәkilmiş, lakin müәllif kimi onun adı göstәrilmәmiş vә o, Amerika ictimaiyyәtinә ermәni әsәri kimi tәqdim edilmişdir...

A.Hacıyevanın tәdqiqatlarından götürülәn hәmin fakt bu nәşrә tәsadüfәn daxil edilmәmişdir. Sonralar, 1970-ci ildә R.Çaparidze hiddәtlәnmiş gürcü ictimaiyyәti adından yazacaqdır: "Bu vaxtacan görmüşdük ki, adam adamın şeyşüyünü oğurlaya bilәr, bütöv bir xalqın tarixini hәyasızcasına oğurlayıb mәnimsәmәk isә tәzә bir işdir!"[79]

**Noyabr 1917-ci il. Nuxa (Şəki). Azərbaycan.** Fövqəladə İstintaq Komissiyasının üzvü N.Mixaylovun məlumatına görə, Nuxa qəzasının (Azərbaycanın indiki Şəki rayonu) azərbaycanlılar yaşayan kəndlərində erməni quldurlar tarla işlərindən qayıdan kəndliləri öldürmüşlər. Sarı Hacılı kəndindən üç qadın oğurlanmışdır. Sonra onların meyitləri döşləri kəsilmiş halda tapılmışdır.[80]

**14 dekabr 1917-ci il. Azərbaycan.** Fövqəladə İstintaq Komissiyasının üzvü N.Mixaylovun məlumatına görə, erməni quldur dəstəsi Ağdaşdan Qutqaşenə (Qəbələ) gedən yolda Baxşəli adlı bir azərbaycanlını ailəsi ilə birlikdə vəhşicəsinə öldürmüşdür. Quldurlar onların dərisini soymuş və meyitləri bu halda ağacdan asmışlar.[81]

**19 dekabr 1917-ci il.** "Qanlı Andranik"in bəyanatı yayılmışdır. Bəyanatda deyilir: "Əgər məni Ermənistanın oğlu bilirsinizsə, ... türkləri və azərbaycanlıları, kürdləri və yəhudiləri qırmaq üçün günü sabah Ərzuruma yollanıram və heç kim məni dayandıra bilməz". O illərdə erməni terror və quldur birləşmələri öz cinayətlərini regionda "Rusiyanın mənafelərinin güclənməsinə qayğı" ilə əsaslandırırdılar. Lakin faktlar bunun əksini sübut edir. Rusiyanın xarici işlər naziri S.D.Sazonov həmin dövrdə "Nazirlər Sovetinə erməni məsələsi barədə" məruzəsində yazırdı ki, "...Qafqaz ermənilərinin rusiyapərəst əhval-ruhiyyə (çətin ki səmimi olsun) göstərməsi, onların bu məsələdə rolunu nəzərə alaraq, onlara iltifatlı münasibətə gətirib çıxarmamışdır. Ermənilərlə Rusiya hökuməti arasında baş verən hər cür münaqişələr, müntəzəm xarakter daşısa da, Yaxın Şərq barəsində böyük vəzifələrimizə





ziyan vura bilər". Tədqiqatçı Qəribinin fikrincə, "xristian ermənilər"in zorakılığına məruz qalan rus kəndlisi müsəlman Azərbaycanında sığınacaq axtarır.[82]

**29 dekabr 1917-ci il.** Sovet hökuməti "Türkiyə Ermənistanı haqqında" Dekret vermişdir. Dünya inqilabı ideologiyasını təbliğ edən kommunistlər erməni terror təşkilatlarının Türkiyə ərazisində törətdikləri əməllərə həmin sənədlə, əslində, qanuni don geydirmişlər. Təsadüfi deyil ki, kommunist hərəkatının rəhbəri V.İ.Lenin bu Dekretin həyata keçirilməsini "Daşnaksutyun" beynəlxalq terror təşkilatının müsəlmanlara qarşı özünün qəddarlığı ilə ad çıxaran üzvü Stepan Şaumyana müvafiq mandatla həvalə etmişdi. O isə vəziyyətdən istifadə edərək, erməni terror dəstələrini - "qanlı Andranik"in (Andranik Ozanyan Torosi) iri quldur birləşməsini, müsəlman uşaqları oğurlamaqla məşğul olan Tatevos Amirovun quldur dəstəsini, qatil Stepan Lalayevin cinayətkar qrupunu və başqalarını başına topladı.

"Daşnaksutyun" erməni terror təşkilatının üzvü S.Şaumyan Bakı kommunistləri adından çıxış edərək, Azərbaycan dövlətçiliyinin mövcud olmasının mümkünlüyü fikrini belə yaxına qoymurdu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev bu barədə bildirmişdir: "Birinci dünya müharibəsindən, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən, ümümən, Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirməyə baş-

ladı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşında əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edilmişdir. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər. Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir".[83]

**Dekabr 1917-ci il.** Fövqəladə İstintaq Komissiyasının üzvü N.Mixaylovun məruzəsində göstərilirdi ki, Bağır dərəsində süngülərlə deşik-deşik edilmiş 5 müsəlmanın meyitləri tapılmışdır. Elə o vaxt Camaxlı stansiyası yaxınlığında məhz həmin üsulla qətlə yetirilmiş 22 Azərbaycan kəndlisinin meyitləri aşkar edilmişdir. Meyitlərin gözləri çıxarılmışdı. Təxminən o günlərdə Ərəblər kəndində süngülərlə deşik-deşik edilmiş, gözləri çıxarılmış 8 azərbaycanlının meyitləri tapılmışdır. Onların arasında döşləri kəsilmiş qadınlar da vardı. Ölülərdən bir az kənarda müsəlmanların müqəddəs kitabı - Quran peyinin içində tapdanmışdı. Azaxşam Azərbaycan kəndində 9 qadın və 9 uşaq öldürülmüşdür. Kürdlərin yaşadığı Kürd kəndində 67 cəsəd tapılmış, uşaqların meyitləri qanova atılmışdır. Fövqəladə İstintaq Komissiyasının üzvü N.Mixaylovun məruzəsində göstərilir ki, "ermənilər körpə uşaqları göyə atır və qılıncla doğram-doğram edirdilər". Həmin Kürd





kəndində evlərdə mismarla divarlara vurulmuş müsəlmanlar aşkar olunmuşdur. Istintaq dəqiq müəyyən etmişdir ki, sadalanmış bütün bu vəhşilikləri bölgədə fəaliyyət göstərən erməni quldur birləşməsi törətmişdir.

Akademik Ziya Bünyadovun məlumatlarına görə, elə həmin il "Daşnaksutyun" erməni terror təşkilatı Trabzon, Bitlis, Ərzurum şəhərlərində yerli əhalini vəhşicəsinə qırıb-çatmışdır. Faktlar generallar Prjevalskinin və Odiselidzenin məlumatları ilə təsdiqlənir.[84]

**Dekabr 1917-ci il - iyun 1918-ci il.** Erməni quldurların silahlı birləşmələri İrəvan quberniyasında 200 azərbaycanlı kəndini dağıtmışlar. Şahidlər təsdiqləmişlər ki, dinc insanlara görünməmiş dəhşətli qəddarlıqla işgəncələr verib öldürürdülər. Sağ qalanlar dağlara qaçmış, lakin orada acından ölmüşlər. 100 min azərbaycanlı Irəvan, Ecmiədzin, Şərur qəzalarını tərk etmişdir. Bu faktları erməni tarixçilərinin özləri də təsdiqləyirlər. 1918-ci ildə Arsen Amiryan "Bakinski raboçi" qəzetində yazırdı: "Daşnaklar İrəvan quberniyasında 200 müsəlman kəndini dağıtmışlar. Camaat evsiz-eşiksiz və çörəksiz qalmışdır. Daşnaklar müsəlman kəndlilərini bax, beləcə qırırlar".[85]

**5 yanvar 1918-ci il. Axalkalaki. Gürcüstan.** Erməni quldur birləşmələri Acaraca, Danqal, Mulanis, Murcaxet, Radızka, Qavur, Gumriz kəndlərinə basqın etmişlər. Onların hamısının kəndliləri vəhşicəsinə öldürülmüşdür.[86]

**Yanvar 1918-ci il. Türkiyə.** Qətranlı kəndində erməni quldurlar qonşu kəndlərdən 1400 uşağı bir yerə yığaraq, diri-diri yandırmışlar. Bu uşaqların valideynlərinin

taleyi barədə heç nə məlum deyildir. Uşaqların qətlə yetirilməsinə görə "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatı məsuliyyət daşıyır.[87]

**12 fevral 1918-ci il. Ərzurum. Türkiyə.** Rus zabiti Tverdoxlebovun məlumatlarına görə, Ərzurum şəhərinin vağzalında silahlı erməni dəstələri milliyyətcə türk olan 10 silahsız sakini güllələmişdir. Təsadüfən perronda olan iki rus zabiti bu vəhşiliyin qarşısını almağa çalışmışdır. Lakin quldurlar onlara da bu cür divan tutmaqla hədələyərək, qaçıb gizlənmişlər.[88]

**17 fevral 1918-ci il. Türkiyə.** Rus zabiti Tverdoxlebovun məlumatına görə, Təpəköy kəndində Andranikin başçılıq etdiyi erməni saqqallılar cinsinə və yaşına varmadan bütün dinc əhalini qırmışlar.[89]

**27 fevral - 12 mart 1918-ci il. Ərzincan, Ərzurum. Türkiyə.** Rus zabiti Tverdoxlebovun məlumatına görə, həmin dövrdə Ərzincan şəhərində Andranikin başçılıq etdiyi erməni quldur birləşmələri 800-dək adamı öldürmüşlər. Elə həmin müddətdə Ərzurum şəhərinin yaxınlığındakı İlicə kəndində də silahsız dinc sakinlər qətlə yetirilmişlər. Ərzurumun özündə türk bazarlarından birində yanğın törədilmiş və şəhərin milliyyətcə türk olan bir neçə sakini vəhşicəsinə öldürülmüşdür.[90]

**15-20 mart 1918-ci il.** "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatı Petrovskdan (Mahaçqala) Bakıya gəmilərlə böyük miqdarda silah-sursat gətirmişdir. Bunlar həmin təşkilatın əsas sponsorları olan Mantaşevin və digər





erməni sənayeçilərin zavodlarında saxlanılırdı. Bakıda faciəli hadisələrə güclü hazırlıq görülürdü... Xatırladaq ki, neft sənayeçisi A.Mantaşev "Daşnaksutyun" erməni terror təşkilatının gizli üzvü sayılırdı. Onun hər iki qızı "Daşnaksutyun"un fəallarından V.Karqanovda və S.Tiqranovda ərdə idi. Tədqiqatçı İ.Bağırova yazır ki, Mantaşevin könüllü olaraq çox böyük məbləğdə ianə etməsi məlum faktdır: o, Londonda özünün təsis etdiyi Erməni Milli Bankına 1 milyon rubl köçürmüşdü. Erməni kilsəsinin və "Daşnaksutyun" terror təşkilatının pul əmanətləri də bu bankda saxlanılırdı.[91]

**17 mart 1918-ci il. Urmiya. İran.** ABŞ konsulu Sedin, Rusiya konsulu Nikitinin, Fransa, İngiltərə və digər ölkələrdən olan dini missionerlərin gözləri qarşısında erməni quldurlar bir gün ərzində 10000-dək dinc sakini öldürmüşlər. Xarici diplomatlar və missionerlər erməni faşizmindən dəhşətə gəlmişlər. Bu barədə ən səhih məlumat "Urmiya Zərdüşt peyğəmbərin məkanıdır" kitabında verilir. Kitabın müəllifi o faciəli hadisələrin şahidi, Urmiyə ziyalılarının nümayəndəsi Əli Dehqanidir.[92]

**18 mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Səhər tezdən erməni quldur birləşmələri şəhərin müsəlman hissəsinə soxulmuşlar. Onlar evləri yandırır, tanınmış ictimai xadimləri, ziyalıları öldürürdülər. Rusiyanın Birinci Dövlət Dumasının sabiq üzvü Məmmədtağı Əliyev də xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Yanğından xilas olmağa çalışan adamları güllələyirdilər. Dinc sakinlər ağlasığmaz işgəncə və əzab-əziyyətlə öldürülürdülər. Küçələr işgəncə verilmiş, döşləri kəsilmiş və qarınları yırtılmış qadınların meyitləri ilə dolu idi. Payalarla torpağa

sancılmış uşaqların qalaq-qalaq meyitləri o hadisələrin şahidlərini dəhşətə gətirmişdi. Küçələrdə, məscidlərin həyətlərində meyitlərdən tərpənmək olmurdu. Fövqəladə İstintaq Komissiyasının üzvü A.F.Novatskinin fikrincə, Şamaxını viran qoyan erməni quldur dəstələri "bir ideyadan - öldürmək və qarət etmək, qarət etmək və öldürmək ideyasından ruhlanmışdılar".[93]

**18 mart 1918-ci il. Şamaxı qəzası. Azərbaycan.** "Daşnaksutyun" beynəlxalq terror təşkilatının nəzarət etdiyi erməni quldur dəstələri axşamtərəfi kəndlərdə sakinlər üzərində hədələyici edamlar törətmişlər.[94]

**19 mart 1918-ci il. Bakı. Azərbaycan.** Fövqəladə İstintaq Komissiyasının sənədlərində deyilir ki, martın 19-da, bazar ertəsi səhər tezdən "müsəlmanların hələ yatdıqları vaxtda şəhərin müsəlman hissəsinə sözün əsl mənasında hücum başlanmışdır... Onlar nələr baş verdiyini dərhal anlaya bilməmişlər". Qanlı əməliyyatların bilavasitə başçısı "Daşnaksutyun" erməni terror təşkilatının fəallarından biri, Bakı şəhərində qeyri-erməni əhalini kütləvi surətdə qırmaq barədə S.Şaumyanın göstərişini kor-koranə yerinə yetirən Stepan Lalayev olmuşdur. Fövqəladə İstintaq Komissiyasının sənədlərinə görə, o, dinc vətəndaşların öldürülməsində şəxsən iştirak edirdi. Xüsusi mühüm işlər üzrə məhkəmə müstəntiqi Komarovskinin raportuna görə, erməni quldurlar Bakının mərkəzi küçələrindən birində, Nikolay küçəsində evlərə soxulur və silahsız şəhərliləri öldürürdülər. Cinayətlər törədildiyinə dair bir neçə misal gətirmək istərdik. Bunlar həmin raportda sübut edilir: "Martın 19-da Bakıda həm Olqa küçəsindəki Ermansk aptekinin yanında,





həm də Şamaxı küçəsində mülki şəxslərin qətlə yetirilməsini erməni terrorçu S.Lalayevin quldur dəstəsi həyata keçirmişdir". Məsələn, Lalayev öz əlaltıları, "Daşnaksutyun" terror təşkilatının üzvləri Tatevos Amirov, Sergey Melikov və Arustam Tarcumanovla birlikdə erməni quldur dəstəsinin başında Aşağı Təzə Pir kuçəsinə, Şıx Badayevin evinə gəlmiş və öz cəlladlarına Badayevin evini qarət etmək əmri vermişdir. "Bu quldur dəstəsi Badayevin evinə yaxınlaşanda tüfənglərdən atəş açaraq Badayevin qohumlarını - Polad Huseynovu və Ağadadaş Hacı Qurban oğlunu yaralamışdır. Elə həmin quldur dəstəsi Badayevin evindən getdikdən sonra Ağadadaşın qonşuluqda yerləşən və yaralıların gətirildiyi mənzilinə soxulmuş və orada həm Ağadadaşın özünü, həm də atası Hacı Qurbanı güllələmişdir". Dinc vətəndaşlara divan tutulduğu bütün hallarda erməni terrorcular yeni hakimiyyətin - kommunist hakimiyyətinin bayrağı altında çıxış etmişlər.[95]

**20 mart 1918-ci il. Bakı. Azərbaycan.** Cani Tatevos Amirovun başçılıq etdiyi erməni quldurlar "İsmailiyyə" xeyriyyə cəmiyyətinin binasını - bakılıların iftixarı olan nadir memarlıq abidəsini yandırmışlar. Quldurlar qadın gimnaziyasının və Şəhər Dumasının binalarını da yandırmağa cəhd göstərmişlər. Adamları öldürərkən onların nə cinsinə, nə də yaşına baxırdılar. Məsələn, erməni quldurlar 80 yaşlı Hacı Əmir Əliyevin evinə soxularaq, onu da, 60 yaşlı arvadını da öldürmüş, üç körpənin boğazını kəsmiş və Əliyevin gəlinini - 25 yaşlı qadını diri-diri divara mismarlamışlar. "Daşnaksutyun" erməni terror təşkilatının quldur dəstələri Bakı yaxınlığındakı Məmmədli kəndində, Poxludərə (indiki Güllüdərə) deyilən yerdə qocaları və

qadınları qılıncdan keçirmiş və süngülərlə deşik-deşik etmişlər. Südəmər körpələri analarının əllərindən alıb tonqala atırdılar. Meyitlərin burun və qulaqlarını kəsir, hamilə qadınların qarnını yırtırdılar. Şəhərin müdafiəsiz qalan müsəlman əhalisi kommunist partiyası adından hərəkət edən erməni quldurların pulemyot və artilleriya atəşləri qarşısında müqavimət göstərməkdən aciz idi. Məmmədli kəndinin təkcə bir kiçik məhəlləsində 57 qadın, qoca və uşaq meyidi aşkar edilmişdir.

Şahidlərin dediklərinə görə, "həmin günlərdə çoxlu meyit quyulara və dənizə atılmışdı. Bakı şəhərinin bütün rus icması daşnakların vəhşiliyindən hiddətə gəlmişdi". Qətlamı dayandırmağı tələb edən rusları və gürcüləri erməni quldurlar amansızcasına qətlə yetirmişlər. Bakıdakı məscidlərin əksəriyyəti qorxu içində olan müsəlmanlarla dolu idi. Sonralar din ilə mübarizə xətti yeridən yeni kommunist hakimiyyəti adından məscidləri kerosin töküb yandırmışlar.[96]

**21 mart 1918-ci il. Bakı. Azərbaycan.** Şahidlərin dediklərinə görə, "Daşnaksutyun" erməni terror təşkilatının saqqallılardan ibarət dəstəsi rus inqilabının bayrağı altında İçərişəhərin (orta əsrlərin abidə-şəhəri) girəcəyindəki binanı mühasirəyə almışdır. Burada iki min nəfərədək yaralı və xəstə azərbaycanlı, rus, ləzgi və yəhudi vardı. Erməni terrorçu Hamazaspın və "Daşnaksutyun" terror təşkilatının üzvü, öz qəddarlığı ilə ad çıxarmış Anastas Mikoyanın (sonralar o uzun müddət Sovet İttifaqının rəhbərlərindən biri olmuşdur) əmri ilə erməni saqqallılardan bir neçəsi həmin binaya kerosin tökərək, ona hər tərəfdən od vurmuşlar. Tezliklə bina od püskürən nəhəng tonqala çevrilmişdir.





Oradan biçarə insanların ətürpədici ah-naləleri gəlirdi. Ətraf diri-diri yanan insan bədənlərinin acı, boğucu tüstüsünə bürünmüşdü.

Bu dəhşətli mənzərəni uzaqdakı bir binanın damından açılan iri deşikdən müşahidə etmiş Bakı sakini demişdir ki, o, artıq yanıb kömürə dönmüş və qalaq-qalaq yığılmış meyitlərin arasında yarımcan adamlar görmüşdür. Onlar dözülməz əzab-iztirablar içində qıvrılır, ucadan inləyirdilər. Erməni quldurlar yaxınlıqda dayanaraq, sürünə-sürünə yanğın yerindən uzaqlaşmağa çalışan hər kəsi güllələyirdilər... Bununla eyni zamanda Bakı şəhərinin əhalisi kütləvi surətdə çapılıb talanırdı. Təkcə A.Mikoyan və T.Amirov 20000000 qızıl rubl oğurlayıb aparmışdılar.[97]

**20-21 mart 1918-ci il. Pəmbək. Azərbaycan.** Erməni quldurlar Pəmbək Azərbaycan kəndində 13 yaşından yuxarı olan 411 azərbaycanlını diri-diri yandırmışlar. Bu faciə Novruz bayramı günlərində törədilmişdir. Pəmbək qəzasının (indiki Vanadzor rayonu) doqquz kəndində üst-üstə 1000-dən çox müsəlman vəhşicəsinə öldürülmüşdür. Kəndlər qarət edilmiş və yandırılmışdır. Qəzanın təkcə Arqut kəndində 60 adam qətlə yetirilmiş, onlardan 12 nəfərinin başı kəsilmişdir. Azərbaycan əhalisinin soyqırımını o vaxtlar yeni kommunist hakimiyyətinin qırmızı bayrağı altında və onun adından fəaliyyət göstərən "Daşnaksutyun" terror təşkilatının erməni quldurları törətmişlər.[98]

**20-21 mart 1918-ci il. Gözəldərə. Azərbaycan.** Gözəldərə Azərbaycan kəndinin camaatı bahar bayramını - Novruz bayramını qeyd edərkən təpədən dırnağadək silahlanmış erməni quldur birləşmələri oraya soxulmuşlar.

Həmin günlər 600 dinc sakin öldürülmüş, kənd isə yandırılmışdır. Müsəlman qadınların kiçik bir dəstəsi meşəyə qaçmıs, lakin onlar ermənilərə əsir düşməkdən qorxaraq, özlərini öldürmüşlər.[99]

**23-24 mart 1918-ci il. Petrovsk (Mahaçqala).** Xüsusi mühüm işlər üzrə məhkəmə müstəntiqi Komarovskinin raportuna görə, Bakı qaçqınlarının bir hissəsi (850 nəfər) erməni saqqallıların əlindən xilas olmaq üçün Bakıdan "Poseydon" gəmisi ilə Petrovska gəlmişdir, özü də "Kornilov" gəmisində yanğın baş verdiyindən onlar üç gün reyddə dayanmalı olmuşlar. Dördüncü gün qocaları, qadınları və uşaqları "Evelina" gəmisinə mindirib Bakıya göndərmiş, təxminən 18 yaşından 45 yaşınadək olan qalan müsəlmanları (təqribən 750 nəfər) isə Petrovskda düşürmüşlər. Bakı qaçqınlarının şəhərdə sığınacaq tapdığından xəbər tutan "Daşnaksutyun" beynəlxalq terror təşkilatının üzvü Stepan Şaumyanın göstərişi ilə S.Lalayev öz quldur dəstəsi ilə birlikdə xüsusi olaraq buraya gəlmişdir. Bakıda dinc əhaliyə qarşı qanlı cinayətləri ilə ad çıxaran peşəkar qatil Ruben Aqamaliyants da onunla birlikdə idi. Şahidlərin dediklərinə görə, erməni quldurlar "hər dəfə 10-15 nəfərdən ibarət bir qrup müsəlmanı gah həbsxanaya, gah da şəhər ətrafına, yaxınlıqdakı bağlara aparır, orada müsəlmanlara dözülməz əzab-əziyyət və işgəncələr verir, onları öldürürdülər. Onlar 8-10 nəfəri bir-birinə bağlayır və mübahisə edirdilər ki, kimin tüfəngi daha çox adam vuracaqdır. Bundan əlavə, onlar müsəlmanları zəncirlə əl-ələ bağlayır və sonra axırıncıdan başlayaraq onların başına, qarnına və sinəsinə zərbələr endirərək, bir-bir öldürürdülər. Bəzilərini də iki-iki üz-üzə bağlayır və onların başlarını qılıncın bir həmləsi ilə vurmağa





çalışırdılar". Şahidlərin dediklərinə görə, bu cür vəhşi üsulla 50 adam qətlə yetirilmişdir. Həmin gün Lalayevin erməni quldur dəstəsi cəmən 535 adamın axırına çıxmışdır. Dörd bir tərəf azğıncasına eybəcər hala salınmış insan meyitləri ilə dolu idi - kiminin başı xıncım-xıncım edilmiş, kiminin əl-ayağı kəsilmişdi. Həmin şahidlərin ifadələrinə görə, erməni terrorizmi "elita"sının - "Daşnaksutyun" təşkilatı üzvlərinin vəhşilik etdiyi türmənin ayrıca bir hissəsində eybəcər hala salınmış çoxlu meyit aşkar olunmuşdur.

Şahidlərin məlumatlarına görə, erməni saqqallı terrorçular öldürülmüş uşaqların başlarını payaya keçirir və onları əllərində tutaraq lovğalana-lovğanala şəhərdə var-gəl edirdilər. Öldürülənlər və yaralananlar arasında azərbaycanlılar, ləzgilər, türkmənlər, kürdlər, yəhudilər, gürcülər vardı.[100]

**1918-ci il. Şamaxı. Azərbaycan.** Bakı quberniyasının Şamaxı qəzasındakı Navahə Azərbaycan kəndində erməni terrorçuların xüsusi dəstələri 2000 tikilini yandırmışdır.[101]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Qubalı azərbaycanlılar kəndində erməni quldur birləşmələrinin qəfil basqını nəticəsində 250 kişi, 150 qadın, 135 uşaq öldürülmüşdür. Südəmər körpələrin kütləvi surətdə öldürülməsi dünya tarixində görünməmiş haldır.[102]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Yaxşı silahlanmış erməni quldur dəstəsi Şamaxı qəzasının 66 evdən ibarət Qaravəlli Azərbaycan kəndinə soxulmuşdur. Onların yerli əhaliyə qarşı törətdiyi qətlam nəticəsində 40 kişi, 50 qadın, 30 uşaq öldürülmüşdür. Erməni saqqallılar

südəmər körpələrə yenə də güllə sərf etməmişlər - onları diri-diri tonqala atmışlar. Quldurcasına basqın nəticəsində sakinlərin əmlakına təxminən 60 600 00 rubl məbləğində maddi ziyan vurulmuşdur. Pul hesabı ilə zərərin məbləği ancaq ermənilərin törətdiyi soygunçulugun və talanların tam mənzərəsini canlandırmaq məqsədilə göstərilmişdir.[103]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasəndakı Qonaqkənd Azərbaycan kəndində erməni quldurların qəfil basqını nəticəsində 25 kişi, 5 qadın, 4 uşaq öldürülmüşdür. Adamları qətlə yetirməzdən əvvəl onlara vəhşicəsinə işgəncə verirdilər. Vətəndaşların əmlakına təxminən 8300000 rubl məbləğində maddi zərər dəymişdir.[104]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Quşçu (bəzi arxiv sənədlərində - Kuşi) Azərbaycanlı kəndi yaxşı silahlanmış erməni saqqallıların basqını nəticəsində 192 kişi, 115 qadın, 25 uşaq öldürülmüşdür. Kəndlilərin əmlakı talan edilmiş, evləri yandırılmış, müsəlmanların müqəddəs kitabı və məscidi murdarlanmışdır.[105]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Ağabəyli Azərbaycan kəndində erməni quldurların azğıncasına basqını nəticəsində 9 ev yandırılmış, 7 kişi, 3 qadın, 4 uşaq vəhşicəsinə işgəncələr verilərək öldürülmüşdür. Uşaqları öldürməzdən əvvəl itləri onların üstünə qısqırdır, "ov" düzəldirdilər. Yaralıların gözlərini çıxarır və ölənəcən döyürdülər. "Daşnaksutyun" erməni terror təşkilatının təbliğatçıları dinc kəndlilərin qırılıbçatılmasını mətbuatda əksinqilaba qarşı mübarizənin nəticələri kimi qələmə verirdilər.[106]





**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** İri erməni quldur dəstəsinin Şamaxı qəzasındakı Qəşəd Azərbaycan kəndinə basqını nəticəsində 50 kişi, 40 qadın, 27 uşaq öldürülmüşdür. Kəndlilərin evləri dağıdılmış, əmlakları yağmalanmışdır. Kənd külə döndərilmişdir.[107]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Sundu Azərbaycan kəndinə erməni saqqallıların qəfil basqını nəticəsində 250 azərbaycanlı öldürülmüşdür. Onların arasında qadınlar, qocalar və uşaqlar vardı. Sundu kəndində insanların qətlə yetirilməsinə görə məsuliyyət "Daşnaksutyun" erməni terror təşkilatının üzərinə düşür.[108]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Ərəb Qədim Azərbaycan kəndinə erməni quldur dəstələrinin basqını nəticəsində 200 kişi, 100 qadın, 78 uşaq öldürülmüşdür. Kəndlilərin bütün əmlakı yağmalanmışdır. Dinc əhalini kütləvi surətdə qırmaq üçün sanksiyaları kommunist hakimiyyəti adından "Daşnaksutyun" beynəlxalq erməni təşkilatının iradəsinin icraçısı S.Şaumyan verirdi.[109]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Cəyirli Azərbaycan kəndində erməni quldurların basqını nəticəsində 40 kişi, 20 qadın, 15 uşaq öldürülmüşdür. Kəndlilərin əmlakı talan olunmuş, evləri və məscid yandırılmışdır. [110]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Nabur Azərbaycan kəndində silahlı erməni saqqallıların basqını nəticəsində 60 adam öldürülmüşdür. Onların əksəriyyəti təsviredilməz işgəncə və əzab verildikdən sonra

hələk olmuşdur. Nabur kəndindəki qətllərə görə "Daşnaksutyun" erməni terror təşkilatı məsuliyyət daşıyır.[111]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni quldur dəstəsinin Şamaxı qəzasındakı Mərəzəli-Tatar Azərbaycan kəndinə basqını nəticəsində 300 adam öldürülmüşdür. Sakinləri öldürməzdən əvvəl onlara vəhşicəsinə işgəncələr verilmişdir.[112]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Ağsu Azərbaycan kəndində erməni quldurların basqını nəticəsində 200 kişi, 300 qadın və uşaq vəhşicəsinə öldürülmüşdür. Kənd sakinlərinin bütün əmlakı talanmış, evlər və məscidlər yandırılmışdır.[113]

**Mart 1918-ci il. Şamaxı. Azərbaycan.** Şamaxı qəzasındakı Yuxarı Ləngəbli Azərbaycan kəndində erməni saqqallıların basqını nəticəsində 500 adam öldürülmüşdür. Kişilərin başının dərisini diri-diri soyur, uşaqlara patron sərf etməmək üçün onları quyulara atırdılar. Şahid Fəraiz Məşədi Şirəli oğlunun dediyinə görə, kənd sakinləri təqiblərdən can qurtarmaq üçün Pirsaatçay çayına tərəf qaçırdılar. Amma onları orada da pusqu gözləyirdi - erməni quldurlar 20 adamı öldürərək, meyitlərini çaya atmışlar. Quldurlar camaatın mal-qarasını və əmlakını yağmalayaraq, özləri ilə aparmışlar.[114]

**Mart 1918-ci il. Sorbağı. Azərbaycan.** Sorbagı Azərbaycan kəndində erməni quldurlar kommunistlərin adından 35 kişini, 10 qadını, 6 uşağı qətlə yetirmişlər. Dinc vətəndaşları öldürməzdən əvvəl onlara dözülməz





işgəncələr verirdilər. Əvvəllər olduğu kimi, həmin dövrdə də insanların kütləvi surətdə qırılıb-çatılmasına görə məsuliyyəti kommunistlərin adından hərəkət edən "Daşnaksutyun" beynəlxalq erməni təşkilatı daşıyırdı.[115]

**Mart 1918-ci il. Meyniman. Azərbaycan.** Erməni quldur dəstələri Hacıqabul stansiyası tərəfdən Meyniman Azərbaycan kəndinə bir ayın içində iki dəfə basqın etmişlər. Birinci dəfə tələfat olmamışdır - basqınçılar əmlakı qarət etmiş və mal-qaranı sürüb aparmışlar. 22 gündən sonra quldurlar "Yaşasın kommunizm!" deyə bağıra-bağıra kəndə yenidən soxulmuşlar. 22 kişi, 16 qadın və 12 uşaq öldürülmüşdür. 34 ev yandırılmışdır.[116]

**Mart 1918-ci il. Zevə. Türkiyə.** Erməni quldur birləşmələri Zevə türk kəndinə soxulmuşlar. Onlar səkkiz qonşu kənddən əsir götürdükləri 2500 kəndlini ələ keçirdikləri kənddə elə həmin gün vəhşicəsinə işgəncələrdən sonra güllələmişlər.[117]

**30 mart - 2 aprel 1918-ci il. Bakı. Azərbaycan.** "Daşnaksutyun" erməni terror təşkilatının üzvü Stepan Şaumyanın başçılıq etdiyi 10 000 nəfərdən (onların 4000-i daşnak idi) ibarət silahlı dəstələr təkcə Bakıda, rəsmi məlumata görə, təxminən 14 000 dinc sakini vəhşicəsinə öldürmüşlər. Qaçmağa çalışanları güllələmək üçün şəhərin müxtəlif hissələrində pulemyotçular yerləşdirilmişdi. O günlərdə "Kaspi" (rus dilində nəşr edilirdi) və "Açıq söz" qəzetlərinin redaksiyaları da yandırılmışdır. Azərbaycanlıların yaşadıqları məhəllələr məhv edildikdən sonra, martın 31-nə keçən gecə "İçərişəhər" əməliyyatı başlanmışdır. Səhərisi burada hər yerdə - haradasa yığın-yığın,

haradasa tək-tək eybəcər hala salınmış, yandırılmış kişi, qadın, uşaq meyitləri qalmışdı. Hamilə qadınlara necə divan tutulması qətlamın şahidlərini dəhşətə gətirmişdir. Təzəpir məscidindəki mənzərəni görənlərin az qala ağlı başından çıxırdı: məscidə giriş meyitlərlə dolu idi, məscidin özünü isə murdarlamışdılar. Yeni kommunist hakimiyyəti adından erməni terror və quldur birləşmələri etnik azərbaycanlılara qarşı əslində soyqırım həyata keçirirdilər. "Bakının ətraf kəndlərinin təkcə birində eybəcər hala salınmış 58 qadın meyidi tapılmışdır. Onların qulaqları, burunları kəsilmiş, qarınları yırtılmış, uşaqlıq orqanları kəsik-kəsik edilmişdir". Şahidlər söyləmişlər ki, "cavan türk qızlarını diri-diri divara mıxlamışdılar". Təkcə bir müsəlman qəbiristanında - Cəmbərəkənd qəbiristanında ermənilərin törətdiyi soyqırımın 18 min qurbanı dəfn edilmişdir. Dəfn olunanlar arasında istər şəhərin özündə, istərsə də ətraf kəndlərdə yaşayan azərbaycanlılar vardı.

"Yeni sovet kommunist hakimiyyəti" və "ateizm" bayrağı altında müsəlman dininin bütün cərəyanlarının, habelə pravoslav, katolisizm, iudaizm dinlərinin nümayəndələri öldürülürdü. S.Şaumyanın 1918-ci il aprelin 19-da həyasızcasına dediyi aşağıdakı sözlər bu baxımdan səciyyəvidir: "Şəhərimizin (Bakı - **red.**) milli tərkibi bizi qorxudurdu. Qorxurduq ki, mübarizə xoşagəlməz xarakter alsən. Biz hətta erməni daşnak alayının köməyindən istifadə etməli olduq. Biz onların xidmətlərindən imtina etməyi özümüzə hətta rəva görə bilməzdik. Lakin qələbə o qədər böyükdür ki, onun gerçəkliyə mənfi təsiri cüzidir".

Şəhərin etnik tərkibini dəyişdirmək məqsədilə Bakının qeyri-erməni millətindən olan on minlərlə müdafiəsiz sakininə qanlı divan tutulmuşdur - kommunizm bayrağı altında və Leninin adından çıxış edən "Daşnaksutyun" erməni terror





təşkilatının fəaliyyət proqramının qiyməti budur. Daha bir fakt. "Azərbaycan" qəzeti 1918-ci il 8 oktyabr tarixli nömrəsində yazirdi: "Uşaqların oğurlanması ilə məşğul olan quldur şaykanın başçısı Tatevos Amirov "sosialist (kommunist) ordusu"nun başçısı olduqdan sonra Bakıda 16 min nəfərədək müdafiəsiz yoxsul müsəlmanı qətlə yetirmiş, ... daşnak (həmçinin sosialist) quldur dəstələrinə başçılıq edən alçaq Styopa Lalayev isə bir sıra məhəllələri müsəlman ziyalılardan təmizləmişdir. O, ziyalıları evlərindən çıxarır və küçədə güllələyirdi, Şaumyan və onun kimi "demokratiya rəhbərləri" bu təcrubəni öz komandirləri üçün çox əla təcrübə hesab etmiş, Amirov və Lalayev seçmə daşnak dəstəsi ilə Şamaxıda "əksinqilab"a qarşı mübarizə aparılması üçün təyin olunmuşlar". Stepan Şaumyanın özünə gəldikdə isə, Henri Barbinin yazdığına görə, "silahdaşlar"ı onun baqajından 80 milyon qızıl rubl tapmışlar.[118]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azərbaycan.** "Daşnaksutyun" erməni terror təşkilatının saqqallıları Şamaxını təkrarən ələ keçirmiş və sovet kommunist hakimiyyəti adından şəhərin dinc əhalisinə qarşı daha qəddarcasına qətl-qarət törətmişlər. Küçələr, həyətlər, məscidlər meyitlərlə dolu idi. " Bütün məscidlər, on üç məhəllə kilsəsi, Cümə məscidi və onların yanındakı səcdəgahlar yandırılmışdır. Şamaxıdan ancaq xarabalıqlar və təxminən 800 illik tarixə malik memarlıq abidəsi olan Cümə məscidinin minarələri qalmışdır". Şamaxıya basqın zamanı yanğınlar, qətllər və qarətlər "Daşnaksutyun" terror təşkilatının əvvəlcədən hazırladığı plan əsasında hərəkət edən erməni kəşfiyyat qrupunun rəhbərliyi ilə həyata keçiriliridi. İstintaq erməni qatillərin adlarını müəyyən etmişdir: Stepan Lalayev, Qavril Qaraoğlanov, Arşak Gulbəndov, Mixail

Arzumanov, Sedrak Vlasov, Samvel Doliyev, "Dəllək Ovanes" ləqəbli Petrosyants və başqaları.[119]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının erməni quldurlarının Şamaxı kəndlərində törətdiyi cinayətlər xüsusi qəddarlığı ilə fərqlənirdi: kişilər ayaqlarından asılır və sallaqxanada cəmdəklər şaqqalandığı kimi qılıncla şaqqalanırdı. Bəzilərini taxtlara bağlayır, xalçaya və ya palaza bürüyərək üstlərinə kerosin töküb yandırırdılar. Çoxlarını diri-diri döşəməyə, qapıya, masaya mıxlayırdılar. Dini kitabları (əsasən Quranı) qalaq-qalaq yığaraq tonqal çatır, əl-ayaqları bərk-bərk bağlanmış din xadimlərini bu tonqallara atırdılar. Bütün bunlar yerli ermənilərin gözü qarşısında baş verirdi və onlar müsəlmanların döyülməsinə və öldürülməsinə əl çalırdılar. Quldurların bu binəsib insanlara verdiyi əzab-əziyyətlər və işgəncələr təsviredilməzdir. Onlardan təkcə birini misal gətirəcəyik: adamın əl-qolunu kəsir və süngüləyərək, öz bədəninin kəsilmiş tikələrini yeməyə məcbur edirdilər... Yuxarıda qeyd edildiyi kimi, bütün bu vəhşilikləri erməni quldurlar yerlərdə baş verən hadisələrin gedişinə çox vaxt məhəl qoymayan sovet kommunist hakimiyyəti adından törədirdilər.

Öldürülənlərin bədənləri Stepan Lalayanın əmri ilə ağaclardan asılırdı, onların arasında çoxlu uşaq meyiti olurdu. Şahidlərin dediklərinə görə, "qadının boyunbağı boynundan çıxmadıqda onun başını bıçaqla kəsirdilər. Sırğanı çıxarmaq üçün qulağı kəsir, bilərzikləri götürmək üçün qızların qolunu vurur, uşaqları isə analarının qucağındaca öldürürdülər".

Şamaxılı rus keşişi İoann Fyodoroviç Boqomolovun ifadələrindən: "Doğruçu və vicdanlı adamların söylədiklərinə görə, Stepan Lalayev məsciddə qadınları, uşaqları öldürür və yandırırdı. Qoy Tanrı bu cür tövbəyə görə günahımdan keçsin".[120]





**Mart-aprel 1918-ci il. Şamaxı. Azərbaycan.** "Daşnaksutyun" erməni terror təşkilatının başçılıq etdiyi yaxşı silahlanmış quldur birləşməsi Cəmcəmli Azərbaycan kəndinə basqın etmişdir. Kənd yandırılmışdır. Camaata divan tutulan yerlərdə 15 kişi, 5 qadın, 6 uşaq meyiti qalmışdır. Sovet kommunist hakimiyyəti adından erməni quldurların Cəmcəmli kəndində törətdiyi vəhşiliyin nəticələri belədir.[121]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azərbaycan.** 17 evdən ibarət Mirikənd Azərbaycan kəndi gecə erməni quldur dəstəsinin basqınına məruz qalmışdır. 8 kişi, 9 qadın və 2 uşaq öldürülmüşdür. Quldur dəstəsi kəndlilərin əmlakını yağmalayaraq, 17 evin hamısına od vurmuşdur.

Mart və aprel faciələri görkəmli ictimai və siyasi xadim Nəriman Nərimanovu sarsıtmışdır. O, sonralar yazmışdır: "Günəşin oldugunu və onu açıq gözlə görməməyin mümkün olmadığını danmaq olmadığı kimi, fanatizmdən azad hər bir insan da təsdiqləyər ki, vətəndaş müharibəsi adı altında Zaqafqaziyada gedən müharibə haqqında "cəsur" bəyanatların yekunu budur ki, həlak olanların 99 faizi ancaq müəyyən millətin nümayəndələridir... İrəvan quberniyası, Lənkəran qəzası, Şamaxı qəzası dediklərimi özlərinin zahiri görkəmi ilə də təsdiqləyər. Müsəlman kəndlilər məhv edilmişdir. Kəndlilər öldürülmüşdür! Elə həmin millətdən olan fəhlələr, vətəndaş müharibəsində əsla iştirak etməyən və hətta sovet hakimiyyətinin əleyhinə getməyən yoxsullar, cansız-çəlimsiz insanlar var-yoxdan çıxarılmış və qarət edilmişlər".[122]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** Ermәni quldurların azğıncasına basqını nәticәsindә Şәrәdil Azәrbaycan kәndindә 10 kişi, 5 qadın, 5 uşaq öldürülmüşdür. Onlardan bәzilәrinin başları kәsilmiş, bәzilәri dә şaqqa-şaqqa edilmişdir.[123]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** Odlu silahla silahlanmış ermәni quldurlar Qaravәlli Azәrbaycan kәndinә soxulmuşlar. Onların yerli camaata qarşı törәtdiklәri qәtlam nәticәsindә 40 kişi, 50 qadın vә 30 uşaq öldürülmüşdür. Körpәlәri diri-diri tonqala atır, ya da onlara ölәnәcәn işgәncәlәr verirdilәr.[124]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** Ermәni quldur dәstәsi 14 evdәn ibarәt Borbor Navaçı Azәrbaycan kәndinә basqın edәrәk, 15 kişini, 10 qadını, 5 uşağı qәtlә yetirmişdir. Onların meyitlәrindә vәhşilik vә zorakılıq izlәri vardı. Müsәlmanların müqәddәs sandığı yerlәr murdarlanmışdır.

Әvvәlki faciәlәrdә olduğu kimi, Borbor Navaçı kәndindә dә dinc camaatın qırılmasına görә "Daşnaksutyun" beynәlxal ermәni terror tәşkilatı mәsuliyyәt daşıyırdı.[125]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** Şıxmәsçid Azәrbaycan kәndindә ermәni quldurlar 10 kişini, 5 qadını, 3 uşağı öldürmüşlәr. 25 evdәn ibarәt kәnd tamamilә yandırılmışdır.[126]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** Tәrus Caparlı Azәrbaycan kәndindә ermәni saqqallılar kәndlilәri bir-birinә bağlayaraq, üstlәrinә kerosin töküb diri-diri





yandırmışlar. Natamam hesablamalara görә, hәmin gün 10 kişi, 15 qadın, 10 uşaq mәhv edilmişdir.[127]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** 260 evdәn ibarәt Tәkәli Azәrbaycan kәndindә 360 kişi, 412 qadın, 150 uşaq bir neçә ermәni quldur dәstәsi tәrәfindәn vәhşicәsinә öldürülmüşdür. Kәnd yandırılmışdır.[128]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** "Daşnaksutyun" ermәni terror tәşkilatının göstәrişini yerinә yetirәn ermәni quldur dәstәsi 9 evdәn ibarәt Ağabәyli Azәrbaycan kәndinә basqın etmişdir. 7 kişi, 3 qadın vә 4 uşaq edam olunmuşdur. Dörd uşağın meyitlәrinin gözlәri çıxarılmışdır. Ermәni quldur dәstәsi bu qәtllәri "etnik tәmiz zonalar" yaradılmasına dair әvvәlcәdәn hazırlanmış ssenari әsasında törәtmişdir. Ermәni saqqallılar sovet kommunist hakimiyyәti adından bunu külә döndәrilmiş kәnddә hәyasızcasına elan etmişlәr. [129]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** Bağırlı Azәrbaycan kәndindә gecә ermәni quldurlar misli görünmәmiş, eşidilmәmiş vәhşiliklәr törәtmişlәr. Kәndlilәrdә odlu silah olmadığından onlar el-obanı xilas edә bilmәmişlәr. Azğınlaşmış ermәni quldurlar әl-ayaqları bağlanmış kişilәrin (80 nәfәr) gözlәri qarşısında 140 uşağı vә 150 qadını edam etmişlәr. "Daşnaksutyun" ermәni terror tәşkilatından olan dıgәr bir tәbliğatçı xarabalığa çevrilmiş Bağırlı kәndindә kommunist hakimiyyәti elan etmişdir.[131]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azәrbaycan.** "Daşnaksutyun" ermәni terror tәşkilatının göstәrişini yerinә yetirәn ermәni quldurlar Hacıman Azәrbaycan

kəndində 130 dinc sakini öldürmüşlər. Onların 30-u uşaq, 60-ı qadın, 40-ı kişi idi.[132]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azərbaycan.** Erməni quldurlar azərbaycanlı kəndlilərə növbəti dəfə divan tutmuşlar - bu dəfə Dilman kəndində. Burada silahsız 300 kişiyə, 235 qadına və 50 uşağa işgəncə və əzab-əziyyət verib onları öldürmüşlər. "Daşnaksutyun" erməni terror təşkilatının göstərişi Dilman kəndində tamamilə yerinə yetirilmişdir.[133]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azərbaycan.** Yaxşı silahlanmış erməni quldurlar Kəlviyə Azərbaycan kəndində dəhşətli qırğın törətmişlər. 250 kişi, 150 qadın və 100 uşaq vəhşicəsinə öldürülmüşdür. Qətlə yetirilənlərin hamısının gözləri çıxarılmışdır. Kəlviyə kəndində qətllərdən sonra "Daşnaksutyun" terror təşkilatının saqqallıları kef məclisi düzəldərək, Leninin sağlığına badələr qaldırmışlar.[134]

**Mart-aprel 1918-ci il. Şamaxı. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni quldurlar Tərcan Azərbaycan kəndində 300 kişini, 40 qadını və 20 uşağı öldürmüşlər. Bu dinc sakinlər öldürülməzdən əvvəl onlara vəhşicəsinə işgəncələr verilmişdir.[135]

**Mart-aprel 1918-ci il.** "Daşnaksutyun" beynəlxalq terror təşkilatının göstərişlərini yerinə yetirən erməni quldur birləşmələri Şamaxı qəzasının müsəlman kəndlərinə basqınlar zamanı sovet kommunist hakimiyyəti adından aşağıdakı qətlamları törətmişlər (rəqəmlər təkcə bir arxiv fondundan götürülmüşdür - **red.**)[136]





| | *kişilər* | *qadınlar* | *uşaqlar* |
|---|---|---|---|
| v. 4.1. Cəyirli kəndi | 40 | 20 | 15 |
| v.14.2. Ərəbqədim k. | 200 | 100 | 78 |
| v.18.3. Cəmcəmli k. | 15 | 5 | 6 |
| v. 27.4. Mürtü k. | 4 | yoxdur | yoxdur |
| v. 31.5 Talışməlik k. | 11 | 4 | 1 |
| v. 36.6. Mirikənd k. | 8 | 9 | 2 |
| v. 41.7. Şərədil k. | 10 | 5 | 5 |
| v. 22.8. Quşçu k. | 192 | 115 | 25 |
| v. 45.9. Şıxməscid k. | 10 | 5 | 3 |
| v. 49.10. Yuxarı Nahan k. | 1 | yoxdur | yoxdur |
| v. 55.11. Ağabəyli k. | 7 | 3 | 4 |
| v. 56. 12. Qaravəlli k. | 40 | 50 | 30 |
| v. 60.13. Borbor-Nəvaci k. | 15 | 10 | 5 |
| v. 64.14. Tərus-Çaparlı k. | 10 | 15 | 10 |
| v. 71.15. Kürdəmir k. | 25 | yoxdur | yoxdur |
| v. 75.16. Qonaqkənd k. | 25 | 5 | 4 |
| v. 80.17. Ovçulu k. | 5 | 10 | 12 |
| v. 81.18. Bağırlı k. | 80 | 150 | 140 |
| v. 82.19. Təgəli k. | 360 | 412 | 150 |
| v. 89.20. Hacıman k. | 40 | 60 | 30 |
| v. 90.21. Dilman k. | 300 | 235 | 50 |
| v. 93.22. Kəlviyə k. | 250 | 150 | 100 |
| v. 97.23. Xatman k. | 60 | 40 | 20 |
| v. 101.24. Suraxanı k. | 11 | 3 | 6 |
| v. 99.25. Xasıdərə k. | 46 | 20 | 16 |
| v. 104.26. Tərcan k. | 300 | 40 | 20 |
| v. 106.27. Talışnuru k. | 20 | 5 | yoxdur |
| v. 108.28. Sərdahar k. | 8 | 12 | 8 |
| v. 110.29. Zərqava k. | 40 | 4 | 5 |
| v. 112.30. Xankəndi k. | 12 | 2 | yoxdur |
| v. 114.31. Təbiyə k. | 12 | 3 | 2 |

**Aprelin әvvәllәri - 1918-ci il.** "Daşnaksutyun" ermәni terror tәşkilatının göstәrişini yerinә yetirәn silahlı ermәni quldur birlәşmәlәri qatarla Bakıdan Nabahi stansiyasına gәlmiş vә sovet hakimiyyәti adından yerli әhaliyә ultimatum vermişlәr. Sakinlәr daşnakların hakimiyyәtini tanımaqdan imtina etdikdә onlara amansızcasına divan tutulmuşdur. Hәmin stansiyada ermәni saqqallılar 55 kişini, 260 qadını vә 140 uşağı öldürmüşlәr. Qәtlә yetirilәnlәr vә yaralananlar arasında Azәrbaycan, rus, lәzgi, yәhudi millәtlәrinin nümayәndәlәri vardı.

"Daşnaksutyun" ermәni terror tәşkilatı dinc әhalini kütlәvi surәtdә qırıb-çatdığı dövrdә "kommunist" S.Şaumyan Moskvaya aşağıdakı mәzmunda mәxfi teleqram göndәrmişdir: ""Daşnaksutyun"un 3-4 minlik milli hissәlәri dә vardı, onlar bizim sәrancamımızda idi. Sonuncuların iştirakı vәtәndaş müharibәsinә qismәn milli qәtlam xarakteri verirdi. Lakin bunun qarşısını almaq mümkün deyildi. Biz buna bilәrәkdәn razılıq verirdik. Müsәlman yoxsulları çox ziyan çәkdilәr".

S.Şaumyanın teleqramı Moskvada, dövlәt dairәlәrindәki ermәni lobbisinin sәylәri ilә uzun müddәt bacarıqla gizlәdilmişdir. Gözlәnilmәdәn onun mәtni ermәni yazıçısı Mikael Şatiryanın "Palma haqqında dastan" kimi gözәl adlı kitabında dәrc edilmişdir. Hәr şeydәn göründüyü kimi, yazıçı sentimentalizmә uyaraq, S.Şaumyanın sirrini açdığını anlamamış vә bununla da hәm özü üçün, hәm dә "Daşnaksutyun" beynәlxalq ermәni terror tәşkilatı üçün bağışlanılmaz ideoloji sәhvә yol vermişdir.[137]

**16-25 aprel 1918-ci il. Әrzurum. Türkiyә.** Rus zabiti, podpolkovnik Tverdoxlebovun gündәliyindәki qeydlәrdәn: "Mәn vәziyyәti müqayisә vә götür-qoy edәrәk, belә bir





qәnaәtә gәldim ki, әvvәla, biz hücuma keçәnlәrlә şәrәfli döyüşdә vuruşduğumuz vә sinә gәrib Әrzurumu qoruduğumuz vaxtda ermәnilәr, bu qana hәris vә azadlıq uğrunda qorxaq mücahidlәr müdafiәsiz qocaları, qadınları vә uşaqları qırmağa başlayır, qәtiyyәn düşünmürlәr ki, bununla da onlar bizi aldadır vә tәkcә özlәrini bütün dünyada rüsvay etmir, hәm dә rus zabitini bәdnam edirlәr, belә ki, bixәbәrlәr fikirlәşә bilәrlәr ki, biz ermәnilәrә öz mәnfur әmәllәrini tutmaqda kömәk göstәririk; ikincisi, indi hücuma keçәnlәr arasında türk nizami qüvvәlәri ola bilәr, әgәr onlar hәlә yoxdursa, onda ya sәhәr, ya da günortaya gәlә bilәr, türk nizami qüvvәlәri ilә döyüş isә nә Ordu Komandanlığının ehtimallarına, nә dә mövcud barış şәrtlәrinә görә, onların planlarına vә bizim vәzifәmizә daxil deyildir... İndi, ermәnilәrin qaçmazdan әvvәl Әrzurumda nәlәr etdiyindәn vә nә qәdәr müdafiәsiz qocanı, qadın vә uşağı qan içindә boğduğundan xәbәr tutduqdan sonra, Allaha dua edirәm, vәziyyәt elә gәtirdi ki, mәni o kәslәrlә getmәyә qoymadılar, o kәslәrlә ki, onların haqqında hәlә qәdim Roma satirik yazıçısı Petroni belә yazmışdı: "Ermәnilәr dә adamdırlar, amma evdә imәklәyә-imәklәyә gәzirlәr", o kәslәrlә ki, rus şairi Puşkin onları öz şerindә düzgün sәciyyәlәndirәrәk yazmışdır: "Sәn kölәsәn, sәn qorxaqsan, sәn ermәnisәn".[138]

**25 aprel 1918-ci il. Qars. Türkiyә.** Qars vilayәtinin şәrqindә yerlәşәn Subatan kәndindә ermәni quldurlar 750 etnik türkü öldürmüşlәr. Şahidlәrin didiklәrinә görә, qaniçәn ermәnilәr 257 uşağı Tıptıp küçәsinә yığaraq, çox qәddarcasına qәtlә yetirmişlәr. Mülki әhali kütlәvi şәkildә öldürülmәzdәn әvvәl onlara vәhşicәsinә işgәncәlәr verilmişdir.[139]

**25 aprel - 10 may 1918-ci il. Qars. Türkiyə.** Bu 15 gündə erməni quldur dəstələri Qars vilayətinin İlanlı, Qaraqaş, Dəryəcik, Təkməli və başqa kəndlərində qanlı qırğınlar törətmişlər. "Daşnaksutyun" erməni terror təşkilatının peşəkar qatilləri bir neçə min dinc sakini öldürmüşlər, özü də, bəzi məlumatlara görə, faşistlər gülləni hədər yerə sərf etməməyə çalışırdılar: öldürülənlərin əksəriyyəti - etnik kürdlər diri-diri yandırılmış və ya balta ilə şaqqa-şaqqa edilmişlər.[140]

**29 aprel 1918-ci il.** "Daşnaksutyun" erməni terror təşkilatının göstərişini yerinə yetirən quldur dəstələri Gümrü yaxınlığında 3000 adamı öldürmüşlər. Qətlə yetirilənlər arasında qadınlar, qocalar və uşaqlar da vardı.[141]

**1918-ci il aprelin axırları. Şamaxı. Azərbaycan.** Erməni quldur dəstəsi Şamaxı qəzasının Kacatan Azərbaycan kəndini ələ keçirmişdir. Silahsız kəndliləri Qurban bağı adlı yerə toplamışdılar. Saqqallılar qadınları uşaqlardan ayırmış, onları tüfənglərdən açdıqları atəşlə və xəncərlə öldürmüşlər. Kişiləri isə yerə uzanmağa məcbur etmiş və başlarını kəsmişlər. Kacatan kəndində cəmı 50 kişi, 60 qadın və 21 uşaq məhv etmişlər. Erməni cəlladlar dinc əhaliyə qarşı vəhşiliklərin və qətllərin sovet kommunist hakimiyyəti adından törədildiyini bəyan etsələr də, tədqiqatlar sübut edir ki, mülki əhalinin qırılıb-çatılmasına görə "Daşnaksutyun" erməni terror təşkilatı məsuliyyət daşıyır.[142]

**1918-ci il aprelin axırları. Dəvəçibazar. Qızılburun. Azərbaycan.** Hamazaspın erməni quldur dəstəsinin hətta südəmər körpələrə də rəhm etmədiyindən xəbər tutan Dəvəçibazar və Qızılburun Azərbaycan kəndlərinin sakinləri yığıncaq keçirərək, bir neçə (15 nəfər) hörmətli ağsaqqalı erməni quldur dəstəsini duz-çörəklə qarşılamağa göndərməyi qərara almışlar. Çünki yaxşı silahlanmış erməni saqqallılarına qarşı təkcə dəyənəklə vuruşmaq mənasız idi: əhalidə odlu silah, demək olar, yox idi. Bu yerlərin sakinləri - azərbaycanlılar, tatlar, ləzgilər əmin idilər ki, Qafqaz adətinə uyğun olaraq, ağsaqqalların duz-çörəklə qarşıya çıxması sülhsevərlik və qan tökülməsinə yol verməməyə çalışmaq rəmzi sayılır. Amma Hamazaspın quldurlarının bu qocalara qarşı törətdiyi vəhşilik bütün mahalı sarsıtdı...

Fövqəladə İstintaq Komissiyasının üzvü A.F.Novatskinin məruzəsinə görə, qısa bir müddətdə erməni quldur dəstəsi Dəvəçi mahalında 122 kəndi yerlə yeksan etmişdir, o cümlədən bu ən iri yaşayış məntəqələrini: Dəvəçi, Siyəzən, Sədən, Xaçmaz, Xudat, Sarvan, Böyük Moruq, Üçkənd, Həsənqala və s. Kəndlilərin bütün əmlakı yağmalanmış, evlərinə od vurularaq yandırılmışdır. Yüzlərlə azərbaycanlı, tat, ləzgi vəhşicəsinə öldürülmüşdür. Uşaqlara və qocalara işgəncələr verilmişdir.[143]

**1 may 1918-ci il. Qars. Türkiyə.** Erməni quldurlar Qars yaxınlığındakı Şiştəpə və Duzkənd kəndlərinin 600 sakinini vəhşicəsinə qətlə yetirmişlər. Öldürülənlər arasında qadınlar, qocalar və uşaqlar da vardı.[144]

**1 may 1918-ci il. Qars. Türkiyə.** Erməni quldurlar Qarsda 60 müsəlmanı azğıncasına məhv etmişlər. Onların arasında qadınlar və uşaqlar da vardı. Bir müddətdən sonra "Daşnaksutyun" terror təşkilatının erməni təbliğat maşını erməni quldur dəstələrinin başçılarını ictimaiyyətə qəhrəmanlar kimi təqdim etməyə çalışmışdır.

Bununla əlaqədar rus diplomatı, general Q.Mayevskinin XX əsrin əvvəllərində söylədiyi fikir xüsusilə böyük əhəmiyyətə malikdir: "Balkanların bir çox qəhrəmanlarının adları bizə məlumdur. Bəs erməni xalqının qəhrəmanlığı barədə kimsə bir şey eşidibmi? Onların azadlıq mücahidlərinin adları harada həkk olunub? Heç yerdə. Nəyə görə? Ona görə ki, ermənilərin "qəhrəman"ları xilaskarlardan çox həmişə cəllad olublar. Bir qayda olaraq, erməni quldur dəstələri iğtişaşlar salmış, qadınları və uşaqları qılıncdan keçirmiş, sonra da qaçıb gizlənmişlər".[145]

**1-2 may 1918-ci il. Quba. Azərbaycan.** Fövqəladə İstintaq Komissiyasının üzvü A.F.Novatskinin məruzəsinə görə, "Daşnaksutyun" erməni terror təşkilatının fəal üzvlərindən biri, uşaqların və qocaların qənimi Hamazaspın erməni quldur dəstələri səhər tezdən şəhəri mühasirəyə almışlar. Mülki əhalinin silahsız oldugundan xəbər tutan erməni saqqallılar Qubaya soxulmuşlar. Müsəlmanların 200 evi və 22 məscid dağıdılmış və yandırılmışdır. Təxminən 3000 adam vəhşicəsinə öldürülmüşdür. Erməni quldurlar evlərə soxulur və bütöv ailələri qırıb-çatır, südəmər körpələrə də rəhm etmir, onları güllələyir və ya "analarının qucağındaca doğrayırdılar". İnsanları yalnız o səbəbdən yandırırdılar ki, onlar erməni deyildilər. Həmin məruzədə erməni quldur dəstələrinin Qubada törətdikləri vəhşiliklərə əyani sübut olaraq aşağıdakı hallar misal gətirilir: "Beləliklə, öldürülmüşlər: Kərbəlayı Məhəmməd Tağı oğlu - 14 nəfərdən ibarət ailəsi ilə; Məhəmməd Rəsul oğlu - arvadı və üç uşağı ilə, onun özünün qarnını yırtmış, uşaqlarının isə başlarını kəsmişlər; Hacı Dadaş Balaqasım oğlu - arvadı Məşədi Bibixanım və oğlu Əbdülqasımla, hər üçü öz evində diri-diri yandırılmışdır. Şəhərin çox möhtərəm ağsaqqalı Əlipaşa Kərbəlayı Məhərrəm oğlu da öldürülmüşdür, nə var ki, o, gizlətdiyi azərbaycanlı qızları Hamazaspın "hüzur"una gətirməkdən boyun qaçırmışdır. Onun oğlu da qətlə yetirilmişdir. Özü də, sonuncunu atasının gözləri qarşısında ucuşiş silahla didik-didik etmiş, bundan əvvəl onun gözlərini çıxarmış, süngülərlə üzgözünü və qarnını deşik-deşik etmişlər". Bütün bu vəhşiliklər qarət və yanğınlarla bərabər törədilirdi. Alpan, Nugədi, Qəcrəş kəndləri və başqa obalar yandırılmışdır. "Daşnaksutyun" erməni terror təşkilatından olan quldurların Quba qəzasında azğınlıqları doqquz gün davam etmişdir. İstintaq komissiyasının apardığı hesablamalara görə, Hamazaspın quldur dəstəsi Quba şəhərində nağd 4 000 000 rubl, 4500000 rublluq qızıl əşya və daş-qaş, 25 000 000 rublluq müxtəlif mallar və ərzaq oğurlamışdır.



Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri

Hamazaspın quldurları Quba qəzasında 122 kəndi yağmalamış və yandırmışlar. Erməni quldurlar Qusar şəhərini də talan etmiş, dinc ləzgi əhalisinə amansızcasına divan tutmuşlar. Vətəndaşların əmlakına təqribən 100 milyon rubl məbləğində maddi ziyan vurulmuşdur.[146]

**21 may 1918-ci il. Axalkalaki. Gürcüstan.** Rus hərbi həkimi Xoroşenkonun məlumatına görə, "Daşnaksutyun" erməni terror təşkilatının peşəkar qatilləri Axalkalakidə və ətraf kəndlərdə yüzlərlə azərbaycanlını doğram-doğram etmişlər. Məlumatda deyilir: "XX əsrin sivilizasiyalı ermənilərinin vəhşilikləri bax, budur".[147]

**26 may 1918-ci il.** Zaqafqaziya Seymi (ZS) özünü buraxmazdan əvvəl ZS-nin erməni sektoru İrəvan (indiki Yerevan) şəhərinin Ermənistana verilməsi haqqında ZS-nin

Azərbaycan sektoruna rəsmən müraciət etmişdir, çünki müstəqillik aktının elan olunması üçün Ermənistanın paytaxtı yox idi. Erməni terror, quldur birləşmələrinin dinc əhaliyə qarşı quldurluğa, kütləvi qətl-qarətlərə son qoyması şərtilə Azərbaycan nümayəndələri bu müraciətə müsbət cavab vermişlər.

1918-ci il mayın 28-də Azərbaycanın İrəvan şəhəri bir çox əsrlərdən sonra Azərbaycan ərazisindən ayrı düşərək, "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının mərkəzi qərargahlarından birinə çevrilir. İndi bu şəhərdə bir nəfər də olsun azərbaycanlı yoxdur.[148]

**May 1918-ci il. Azərbaycan.** Artyom Avanesovun başçılıq etdiyi erməni quldur birləşmələri Xaçmazdan Qubayadək bütün yol boyunca yaşayan dinc əhaliyə qanlı divan tutmuşlar. Öldürülmüş müsəlmanların (əsasən, etnik azərbaycanlıların və ləzgilərin) bir qismininin meyitlərini iki-iki, beş-beş tələm-tələsik bir qəbirdə basdırırdılar. Qalan meyitlər isə yol kənarındakı qanovlarda atılıb qalmışdır. Şahidlərin dediklərinə görə, qaçmaga çalışan uşaqları erməni saqqallılar təqib edərək tutur və süngülərlə, xəncərlə vurub öldürürdülər. Tarixi sənədlərə görə, "dəstənin başçısı Hamazasp deyirdi ki, o, bütün müsəlmanları ta dağlaradək məhv etmək əmri almışdır".[149]

**May 1918-ci il. Şamaxı. Azərbaycan.** Fövqəladə Istintaq Komissiyasının üzvü A.F.Novatskinin məruzəsinə görə, erməni quldurlar Şamaxı qəzasının Dağ Kəlalı yaylaqlarına basqın etmişlər. Silahsız kəndlilər dağlara (Qardəya) qaçmalı olmuşlar. Lakin erməni quldurlar onların izinə düşərək, hamısını məhv etmişlər. 15 kişi, 3 qadın, 5 uşaq öldürülmüşdür. Dağ Kəlalı yaylaqlarında "Daşnaksutyun"





erməni terror təşkilatının "etnik təmiz zonalar" yaratmaq göstərişi beləcə vəhşicəsinə yerinə yetirilmişdir.[150]

**May 1918-ci il. Axaltsixe. Gürcüstan.** Erməni quldur birləşmələri Gürcüstanın Axaltsixe ərazisini ələ keçirmişlər. "Daşnaksutyun" erməni terror təşkilatının proqramına görə, bura guya "əzəli erməni ərazisidir". Vəhşicəsinə qətlə yetirilən dinc sakinlərin əksəriyyəti gürcülər idi. Həmişəki kimi, yenə də qadınlar, qocalar və uşaqlar erməni qətlamının qurbanları olmuşlar. "Kavkaz" qəzetinin yazdığına görə, hələ 1831-ci ildə Axaltsixeyə gələn ilk erməni mühacirlər "qraf Paskeviçə ərizə vermiş" və xahiş etmişlər ki, "başqa xalqlar qriqorian ermənilərlə bir yerdə məskunlaşdırılmasınlar, Axaltsixe ermənilərinin özlərinin ayrıca milli məhkəməsini təsis etmək hüququ olsun, onlara azad və rüsumsuz ticarət etmək hüququ verilsin...". 1920-ci ildə Tiflisdə "Qırmızı kitab" nəşr olunacaq və bu kitabda tədqiqatçı Qəribi "Daşnaksutyun" erməni terror təşkilatını "erməni xalqının dəhşətli bəlası, bütün Kiçik Asiya, xüsusən də Zaqafqaziya xalqlarının müsibəti" adlandıracaqdır. Kitabın girişində xüsusi qeyd edilir: "Burada onlar bədbəxt diyarımızda məskunlaşmış bütün xalqların qardaşlığından, həmrəyliyindən dəm vuracaqlar. Orada, Avropada isə cuğulluqlar və yalanlarla dolu erməni kitabı əl-əl gəzəcək, gürcü xalqını Kiçik Asiyada və Zaqafqaziyada yeganə mədəni milləti - erməni xalqını təqib edən barbarlar hesab edəcəklər". Köçkün ermənilərin yerli əhaliyə nifrətinə "İveriya" qəzetinin hələ 1897-ci il aprel tarixli nömrəsində gətirdiyi bir fakt da sübutdur. Yazıda Axaltsixe şəhəri yaxınlığındakı müalicə əhəmiyyətli bulaqdan danışılır. Bulağın yaxınlığında qədim zamanlardan bəri gürcülərin kiçik bir kilsəsi və hücrəsi vardı. Sudan istifadə pulsuz idi. Lakin son-

ralar kilsədə erməni ikonaları qoyuldu, qapya isə qıfıl vuruldu. Bütün bunlar gürcü əhalisinin haqlı hiddətinə səbəb olmaya bilməzdi.[151]

**İyun 1918-ci il. Şamaxı. Azərbaycan.** Erməni quldur dəstəsi Şamaxı qəzasında azərbaycanlıların Padar yaylağına basqın etmiş və onun bütün sakinlərinə vəhşicəsinə divan tutmuşdur.[152]

**İyun 1918-ci il. Kürdəmir. Azərbaycan.** "Daşnaksutyun" erməni terror təşkilatının göstərişini yerinə yetirən erməni silahlı quldur birləşmələri Kürdəmir kəndinə basqın edərək, evlərə, dükanlara və məscidlərə od vurmuşlar. Onlar bütün müsəlmanları amansızcasına öldürür, nə qocalara, nə qadınlara, nə də uşaqlara rəhm edirdilər. Şahidlərin dediklərinə görə, çoxlarına öldürülməzdən əvvəl vəhşicəsinə işgəncələr verirdilər. Məsələn, quldurlar bir oğlan uşağını süngü ilə deşik-deşik etdikdən sonra onun qan itirə-itirə necə öldüyünə soyuqqanlıqla tamaşa etmişlər... Kürdəmirə basqın nəticəsində 56 ev, iki məscid yandırılmış, Quranın təfsirinə dair nadir kitablar saxlanılan kitabxana darmadağın edilmişdir. Quranın özünü isə quldurlar cırıb murdarlamışlar. İstintaq Komissiyası sədrinin 1918-ci il 22 noyabr tarixli məruzəsində deyilir ki, "...həmin günlərdə ermənilər Cəngi kəndini dağıtmış, burada 20 adamı öldürmüş (onların burunlarını, qulaqlarını kəsmiş, başlarını daşa çırpmışlar), Qaravəllidə iki kişini, Qarabucaqda 7 adamı, Xəlil Qasımbəydə 7 adamı, Ərəbmehdibəylidə 83 adamı, o cümlədən 78 kişini, 4 qadını və bir oğlan uşağını öldürmüşlər". Adları çəkilən kəndlərdə erməni quldurlar bütün əmlakı yağmalamışlar.[153]





**1918-ci ilin yayı. Cavanşir qəzası. Azərbaycan.** Azərbaycan Respublikası Dövlət Arxivinin sənədləri arasında "Erməni quldur dəstələrinin Cavanşir qəzasının hüdudları daxilində, Kəlanin kənd icmasının 12 kəndində müsəlmanlara qarşı törətdiyi cinayətkar əməllərin qısa siyahısı" saxlanılır: 1) erməni quldurlar Maratı kəndində iki müsəlmanı - Məhəmməd İsgəndər oğlunu və Müslüm Rəhim oğlunu öldürmüş, meyitlərini Daşarx qanovuna atmışlar"; 2) Fındıqlı kəndində erməni quldurlar kənd çaparı Fəhrad Cəfərqulu oğlunu və onun yolyoldaşı olan iki müsəlmanı öldürmüşlər; 3) erməni quldurlar Qoraqor kəndində Ocaqverdi Molla Qəmbər oğlunu və Eyvaz Molla Novruz oğlunu öldürmüş, Ocaqverdi kişinin arvadı Sona Şahməmməd qızını vəhşicəsinə qətlə yetirmişlər.

Qəzanın sakinlərinin cinsinə, yaşına məhəl qoymadan, körpələrə də, qocalara da, hətta əlil-şikəstlərə də rəhm etmədən hamısına qanlı divan tutan erməni quldur dəstələri aşağıda göstərilən bəzi hallarda qətllərdən əvvəl adamlara xüsusi qəddarlıqla işgəncə və əzab-əziyyət verirdilər.

Umudlu Azərbaycan kəndində Süleyman Qazaxaslan oğlu, Məmməd Məşədi Paşa oğlu və Kazım Atam oğlu qılıncla şaqqa-şaqqa edilmişlər. Onları həmkəndliləri belə halda tapmışlar.

Hacıqırvənd Azərbaycan kəndinin sakini Zeynəb Şirin qızının meyidi döşləri kəsilmiş halda tapılmışdır. Əsir tutulmuş erməni quldur Zaxari Kukurovun sözlərinə görə, Qoraqor kəndinin sakinləri Ramazan Novruzəli oğlu, Qönçə Ocaqqulu qızı və anadangəlmə şikəst Süleyman Həsənəli oğlu diri-diri yandırılmışlar.

Sırxavənd Bolluqaya Azərbaycan kəndinin sakini Sultan Əli İman oğlu Qazançı kəndi yaxınlığında vəhşicə-

sinə yandırılmışdır. Onun kömürə dönmüş meyidi sonralar tapılmışdır.

Güneyqaya Sırxavənd Azərbaycan kəndinin sakinləri Şərid İsmayıl oğlunun və Rəcəb Novruzəli oğlunun meyitləri başları kəsilmiş halda tapılmışdır". Qurbanların siyahısını davam etdirmək olar...[154]

**Avqust 1918-ci il. Cəbrayıl qəzası. Azərbaycan.** El yaylaqdan Cəbrayıl qəzasının Qərvənd kəndinə enərkən erməni quldur dəstəsi iki çobanı öldürmüş, mal-qaranı isə sürüb aparmışdır. Köçəbə yandırılmışdır.[155]

**17 - 31 avqust 1918-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri Eçmiədzin, Sürməli, İrəvan və Yeni Bayazid qəzalarının 50 kəndini viran qoymuşlar. Bu kəndlərin yerli əhalisi tamamilə qırılmaq təhlükəsi qarşısında qalmışdır. Erməni quldurların vəhşilikləri hətta ermənilərin özlərini - Ermənistan parlamentinin üzvlərini də sarsıtmışdır. Bu barədə onlar əvvəlcə susa bilməmişlər, lakin sonra deputat korpusunu nəzarətdə saxlayan "Daşnaksutyun" erməni terror təşkilatı onları susmağa məcbur etmişdir.[156]

**31 avqust 1918-ci il.** Erməni quldur birləşmələrinin Qafqazda dinc sakinlərə qarşı törətdikləri qətlamlara son qoyacağını vəd edən Xəlil paşanın rəhbərliyi ilə türk qoşunlarının müdaxilə edə biləcəyindən vahiməyə düşən Ermənistan hökuməti rəsmən üzr istəyərək, kütləvi qətllərə başçılıq edənlərin və onların fəal iştirakçılarının Xalqlar Məhkəməsinə cəlb olunacağına söz vermişdir. Quldurların siyahısında aşağıdakı erməni cəlladların adları çəkilirdi: Andranik, Manukyan, Saakyan, habelə "Daşnaksutyun" terror təşkilatının ideoloqu Ov.Kacaznuni. Ermənistan hökuməti Moskvaya, İstanbula və Berlinə vəd etmişdi ki, əgər Andranik Ermənistan ərazisinə qədəm qoysa, dərhal həbs olunacaq və hərbi tribunala veriləcəkdir.





Ermənistan hökuməti beynəlxalq ictimaiyyətin qınağından qorxaraq, etiraf etməli olmuşdur ki, 1918-ci il ərzində erməni terror və quldur birləşmələri 400 000 azərbaycanlını, 120 000 gürcünü, 15 000 kürdü, 22 000 ləzgini qətlə yetirmişlər. Əlbəttə, bu rəqəmlər dinc əhaliyə tutulmuş divanın tam mənzərəsini əks etdirmir. Lakin onlar da dəhşətlidir.

Ümumiyyətlə, tarixin sonrakı gedişinin göstərdiyi kimi, Ermənistan hökumətinin bəyanatı konyunkturriyakar xarakter daşıyırdı.[157]

**1918-ci ilin payızı. Cəbrayıl qəzası. Azərbaycan.** Erməni quldur dəstəsinin üzvləri Sergey Nikolyants və Sergey Lal oğlu Cəbrayıl qəzasının Boliant Azərbaycan kəndinin sakinləri Cəfər Ələkbər oğlunu və Nəsir Məhərrəm oğlunu qarət edib öldürmüşlər. Onların vəhşicəsinə işgəncə izləri olan meyitləri çılpaq halda yarğandan tapılmışdır.[158]

**Sentyabr 1918-ci il.** "Daşnaksutyun" erməni terror təşkilatının fəal üzvü Andranikin başçılıq etdiyi erməni quldur birləşmələri Sisian mahalının bütün Azərbaycan kəndlərinə od vurmuşlar. 50 min adam ev-eşiyini tərk etmək məcburiyyətində qalmışdır. Qaraqışlaq kəndinin əsir tutulan sakinləri öldürülmüşlər. Vagudi kəndində qadın və uşaqlara vəhşicəsinə işgəncələr verilmiş, bundan sonra onları məscidə dolduraraq, diri-diri yandırmışlar. Ağdu kəndinin qriqorianlığı qəbul etməkdən boyun qaçırmış

kişilərini amansızcasına döymüş, qadınların isə döşlərini kəsmişlər. Bağırbəyli kəndində 7 kişi və qadın evlərdən birinə salınaraq, diri-diri yandırılmışdır...

Sonralar hətta bəzi erməni tarixçiləri "Daşnaksutyun" erməni terror təşkilatının "fəaliyyət"inin faşist xarakteri daşıdığını etiraf etməli olmuşlar. Məsələn, tədqiqatçı A.Lalayan Andranikin iç üzünü açıb göstərərək yazmışdır: "Qana həris hmbapetlər (Andranik paşa, Hamazasp və digərləri) başda olmaqla daşnak dəstələri türk qadın və uşaqlarını, qoca və xəstələrini qırıb-çatmaqda maksimum "cəsurluq" göstərmişlər. Daşnak dəstələrinin tutduqları müsəlman kəndləri canlı adamlardan təmizlənir və eybəcər hala salınmış meyitlərlə dolu olan xarabalıqlara çevrilirdi".[159]

**1918-ci ilin payızı.** Cəllad Tavad Manuçaryantsın başçılıq etdiyi erməni quldur dəstəsi 17 evdən ibarət Burcələr-Dərzili kəndinə basqın etmişdir. Kənd əvvəlcə top atəşinə tutulmuş, sonra isə quldurlar 21 azərbaycanlını öldürmüşlər. Qətlə yetirilənlər arasında qadınlar və uşaqlar da vardı. Erməni saqqallılar kəndlilərin əmlakını məngirləyərək, kəndi yandırmışlar.[160]

**1918-ci il payızın sonu.** Cəllad Nerses Arutyunovun başçılıq etdiyi erməni quldur dəstəsi 170 evdən ibarət Müsəlmanlar kəndinə soxulmuşdur. Quldurlar mülkləri yandırmış, sakinləri qırıb-çatmış, kəndlilərin əmlakını oğurlamışlar. 32 adam öldürülmüş, 18 nəfər yaralanmışdır.[161]

**1918-ci il. Naxçıvan. Azərbaycan.** Naxçıvan quberniyasının Yaycı kəndində Andranikin quldur dəstəsinin saqqallıları 2500 silahsız adamı öldürmüş, sonra da meyitlərini Araz çayında batırmışlar. Əsir götürülmüş ermənilər söyləyirdilər ki, Andranik quldur birləşmələrinə qoşulmaqdan yayınanların hamısını dara çəkdirirdi ki, bundan da onun məqsədi qalanları qorxutmaq və onları müsəlmanara qarşı cinayətlərə zorakılıqla cəlb etmək idi.





Digər erməni cəlladı - Qaregin Njdenin (əsl adı - Qaregin Ter-Arutyunyan) quldur dəstəsi Vedibasar vadisində azğınlıqlar törədirdi. Quldurun özünün dediyinə görə, onsuz "nəinki indiki Ermənistan, həm də orada yaşayan ermənilər olmazdı".

Sonralar, 40-cı illərdə Qaregin Njde hitlerçi legionlara qoşulmuş, burada xidmət edib, general rütbəsi almışdır.[162]

**1918-ci ilin yayı və payızı. Zəngəzur. Azərbaycan.** Azərbaycan Respublikası Dövlət Arxivinin məlumatlarına görə, "Zəngəzur qəzasında erməni terror birləşmələri 115 Azərbaycan kəndini məhv etmişlər. Həmin dövrdə 7729 azərbaycanlı, o cümlədən 3257 kişi, 2276 qadın və 2196 uşaq vəhşicəsinə öldürülmüşdür".

Zəngəzur qəzasının, bir növ, darvazaları olan Oxcu, Şəbadin, Aralıq, Pirdavan və Atqız kəndlərində qanlı qətlam törətdikdən sonra erməni quldur dəstələri sağ qalıb gizlənənləri tapmaq üçün ətraf yerləri mühasirəyə almışlar. Saqqarsuda gizlənmiş qaçqınlar "Ya Əli!" müsəlman nidası eşitmişlər. Çaşbaş qalan qaçqınlar düşünmüşlər ki, onların imdadına gələn var və buna görə də ağlaya-ağlaya irəli çıxmışlar. Lakin erməni quldurlar onları qəddarcasına aldatmışdılar. Quldurlar hamını - qadınları da, uşaqları da, qocaları da amansızcasına qırmışlar.

Şahidlərin ifadələrinə və rəsmi sənədlərə görə, qəzada aşağıdakı kəndlər (cəmi 112) dağıdılmış və yerlə yeksan

edilmişdir: "1) Uğudü, 2) Dərəbas, 3) Dulus, 4) Kürtlər, 5) Şəki, 6) Urut, 7) Vağudi, 8) İrmis, 9) Bəhrili, 10) Qızılcıq, 11) Dərəkənd, 12) Qarakilsə, 13) Məlikli, 14) Dortnı, 15) Dovruz, 16) Qaradığa, 17) Oxtar, 18) Çobanlı, 19) Qadayolu, 20) Çullu, 21) Şəbadin, 22) Almalıq, 23) Çanaxçı, 24) Cibilli, 25) Ağkənd, 26) Turabxanlı, 27) Qulud, 28) Bəkdaş, 29) İncəvar, 30) Sıznaq, 31) Qaraçəmən, 32) Qətər, 33) Seyidlər, 34) Xələc, 35) Daşnov, 36) Baydaq, 37) Noraşenik, 38) Cimcimli, 39) Qayalı, 40) Qomarat, 41) Dərzili, 42) Qazanşi, 43) Söyüblü, 44) Təğəmir, 45) Tay, 46) Atqız, 47) Şərikan, 48) Dolutlu, 49) Əfqanlı, 50) Tənzəver, 51) Məc, 52) Birinci Xocaqan, 53) Əmizli, 54) Buğaqar, 55) Mülk, 56) Bənovşəpuş, 57) Birinci Vartanazur, 58) Vartanazur, 59) Ləqvaz, 60) Əlidərə, 61) Mərzigit, 62) Tuğut, 63) Puşanlı, 64) Razidərə, 65) Məmməd Ismayıl, 66) Gumandadanlı, 67) Tatarkənd, 68) Kəlləqışlaq, 69) Zəmlər, 70) Əsgərlər, 71) Qaragöl, 72) Çuxuryurd, 73) Nəcəflər, 74) Qarakəllə, 75) Şayıflı, 76) Gəgəlülə, 77) Kəravis Abdallar, 78) Burunlu, 79) Burcəlilər, 80) Günqıslaq, 81) Cənbər, 82) Xırdakişilər, 83) Tuafşalı, 84) Baylandur, 85) Bağırbəyli, 86) Qaralar, 87) Qəməran, 88) Xotanan, 89) Oxtarlı, 90) Xudayarlı, 91) Şəkərli, 92) Kiliçli, 93) Tamalı, 94) Nüvədi, 95) Tuğun, 96) Boğralı, 97) Sanalı, 98) Səfiyurd, 99) Kürgili, 100) Çatarist, 101) Pirveysli, 102) Məşədi İsmayıllar, 103) Burcələr Dərzili, 104) Subuklu, 105) Məzməzək, 106) Tazıkurdalı, 107) Fərəcan, 108) Suarası, 109) Bayramuşağı, 110) Köhnəkənd, 111) Kuşlək 112) Zabux".

Şahidlərin ifadələrinə əsasən, erməni quldurların xüsusi qəddarlıq göstərdikləri aşağıdakı hallar müəyyən edilmişdir:

"Vağudi kəndində erməni dəstəsinin əsgərlərinə paylanmış ən gözəl 15 qız həqarət müsibətinə dözməyərək, intihar etmiş, habelə cismani işgəncə nəticəsində ölmüşdür;

Vağudi kəndi darmadağın edilərkən ermənilər 400 nəfər müsəlmanın sığındığı məscidin çıxışlarını bağlamış, əvvəlcə onun pəncərələrindən içəri əl bombaları atmış, sonra da məscidi içindəki bütün adamlarla birlikdə yandırmışlar;

Vağudi kəndində ermənilər xəncərlə Qədımı Tahir qızının başını vurmuş, döşünü kəsərək, boğazı üzülmüş südəmər körpənin ağzına təpmişlər;

Elə həmin kənddə ermənilər Yolçu Şıxhuseyn oğlunu öldürərək, əllərini kəsib ağzına təpmişlər;

Yenə həmin kənddə kiçikyaşlı Nisə Əmən qızı, Əcəb Nuhbala qızı, Sona Cəfər qızı və Sahnula Cəlal qızı ölüncəyə qədər zorlanmışlar;

Elə həmin kəndin yaxınlığında Gülməstə Qasım qızı öldürülmüş, döşləri kəsilmiş və bel sümüyünə nal vurulmuşdur;

Nuvədi kəndində ermənilər yorğan-döşəkdə taqətsiz yatan yüz yaşlı ağsaqqal Əsəd bəy Məlik Abbasovu süngülərlə didik-didik etmişlər;

Elə həmin kənddə küçələrdə ermənilər qaçıb canını qurtarmağa çalışan qadın və uşaqların başlarını qılınc və xəncərlə kəsmişlər;

Şəki kəndində küçələr döşləri kəsilmiş qadınların meyitləri və ikiyə parçalanmış balaca uşaqların meyitləri ilə dolu idi;

İrmisli kəndində ermənilər oranı dağıdarkən südəmər körpələri süngüyə keçirərək göyə qaldırırdılar, onların meyitləri doğram-doğram edilmiş halda tapılmışdır;

Ağudi kəndində ermənilər Qulam Şəkər oğlunun

ayaqlarını kəsmiş, sonra da süngü ilə didə-didə və qamçı ilə döyə-döyə qanını tamam itirib ölənədək yeriməyə məcbur etmişlər;

Elə həmin kənddə bütün qız uşaqlarını öldürmüşlər;

Cullu kəndində ermənilər yorğan-döşəkdə xəstə yatan 9 adamı xəncərlə doğramışlar;

Bağırbəyli kəndində ermənilər 7 kişi və qadını bir evə dolduraraq, diri-diri yandırmışlar;

Müsəlmanlar kəndində meyitlər o dərəcədə eybəcər hala salınmış və doğram-doğram edilmişdir ki, onların kimə məxsus olduğunu tanımaq mümkün deyildi - hamısının qolları, ayaqları, başları kəsilmişdir;

Qətər kəndində el ağsaqqalı Məşədi Kələntər Məşədi Qulu oğlu öldürülmüş, sonra da üstünə kerosin tökülərək yandırılmışdır;

Elə həmin kənddə ermənilər Kərbəlayı Allahverdi Hüseynəli oğlunun əl-qolunu bağlayıb boğazını kəsmişlər;

Birinci Vartanazur kəndində xüsusilə çoxlu qadın və uşaq xəncərlə doğram-doğram edilmişdir;

İrəvan quberniyasının Yeni Bayazid qəzasındakı Rəhmanəfəndi kəndində ağsaqqal Ibrahim Hacı Hüseyn oğlunun diri-diri gözlərini çıxarmış, sonra da onu yandırmışlar.

Bütün bunlar mahaldakı müsəlman əhaliyə qarşı törədilmiş cinayətlərin tam deyil, yalnız qısaca bir siyahısıdır. Vəhşicəsinə qətl, işgəncə halları o qədər çoxdur ki, bu məruzədə onların hamısını sadalamaq qeyri-mümkündür. Şahidlər təsdiqləmişlər ki, belə cinayətlər, demək olar, hər bir darmadağın edilmiş kənddə törədilmişdir".

Qəzanın Azərbaycan kəndlərinin böyük əksəriyyətini "Daşnaksutyun" terror təşkilatının üzvü, qatil Andranikin başçılıq etdiyi erməni quldur birləşmələri dağıtmış və yandırmışlar. Şahidlərin əksəriyyətinin dediklərinə görə,





qətl-qarətlər onun ümumi rəhbərliyi ilə törədilirdi, insanları kütləvi sürətdə qırıb-çatmaq tələbləri məhz onun adından irəli sürülürdü. Hadisələr 1918-ci il yayın axırlarında və payızında baş vermişdir.

Aşağıda qəddar erməni cəlladların - müdafiəsiz insanın iztirablarından ağlasığmaz bir qəddarlıqla həzz alan nakəslərin siyahısı verilir. Bu əclaf və alçaqların adlarını ölümün pəncəsindən sanki möcüzə nəticəsində qurtarmış şahidlər daha tez-tez çəkmişlər.

"Gorus şəhərinin sakinləri Nikolay Osipov, Simon Mirumov, Dərəbas kəndindən Samir Şahnazarov, Minrə kəndindən David Arşak, Matevosov Vaciants, Kovar kəndinin sakini Hamazasp, Gülər kəndindən Aqabek Melik Ohancanov, Astazur kəndindən praporşik Aqabek Mudusi Latvakanov, həmin kənddən "Yapon" ləqəbli, katorqadan qaçmış erməni Nikolay Barsamov, Astazur keşişi Ter-David, Dərəbas kəndinin sakinləri David və Kaspar Keşişovlar, Axlatian kəndindən Ovagim Gevorkov və Yaqub Arustamov, Qalaca kəndinin sakinləri İvan Martirosov, Manucar Poqosov, Aqalo Ohancanov, Dulus kəndindən Nepoqos Kaprielov, Sarkiscan Tevosov, Dərəbas kəndindən Stepan Poqosov, Aleksandr Kukiyev, Sirkatas kəndindən Mesrop Kuniyev, Yefrem Rustamov, Kuris kəndindən Lalazar və Qarib Qaribovlar, Savakar kəndindən Xuba Davidov, David Mnatsakanov, Manuçar Tyuniyev, Arçazur kəndindən Kostand Asriyev, Xotanan kəndindən zabit Hovanes Ter-Petrosov, Xacatur Davidov, Axtaxan kəndinin keşişi Ter-Qrikor Ter-Minasov, mühəndis Sumbat Melik-Stepanov, Gorusda yaşayan, keçmiş polis pristavları İsaak Busintsev və Seratikov, Muğancıq kəndindən Dadaş və Xaçatur Osipov, Gülgüm kəndindən Tevi Mnatsakanov, Uğurçala kənd icmasının keçmiş kəndxudası Nikolay Petrosov, Bəx

kəndindən Samson Melik-Parsadanov, Akarka kəndindən İvan Kazarov, Hayrapet Stepanov, Yefrem Aqaxanov, Arşak Simonov, Arnazur kəndindən Sumbat Melik-Stepanov və Kovar kəndindən Aqalo Poqosov".

Bu arxiv sənədinin sonunda qeyd edilir: "Zəngəzur qəzasının 112 müsəlman kəndinin dağıdılması, on minlərlə baş qaramalın, yüz minlərlə baş davarın oğurlanıb aparılması, bağların, tarlaların məhv edilməsi - bütün bunlar qəza müsəlmanlarının iqtisadi vəziyyətini qara günə qoymuş, təxminən 50 000 insanın dilənçiləşməsinə və Azərbaycanın müxtəlif kəndlərinə qaçmasına səbəb olmuşdur. Ən cüzi hesablamalara görə, müsəlman kəndlərinə təqribən bir milyard rublluq ziyan vurulmuşdur". Yuxarıda gətirilən faktlar Fövqəladə İstintaq Komissiyasının üzvü N.Mixaylovun məruzəsi ilə də təsdiqlənir.[163]

**Noyabr 1918-ci il. Gürcüstan.** O dövr üçün müasir silahla, ilk növbədə, artilleriya ilə təchiz olunmuş erməni quldur dəstələri "Daşnaksutyun" terror təşkilatının proqram göstərişlərini yerinə yetirərək, Gürcüstan ərazisinə yenidən soxulmuşlar. Məqsəd Axalkalaki və Axaltsixe ərazilərini gürcü kəndlilərindən birdəfəlik və tamamilə təmizləmək idi. Erməni siyasətçilər tələsirdilər: yeni yaranmış dövlətləri onların real surətdə nəzarət etdikləri əraziləri nəzərə almaqla tanımağa dair 1919-cu ilin yazında Paris Sülh Konfransı açılmalı idi.

1926-cı ildə nəşr edilmis Böyük Sovet Ensiklopediyasında yazılmışdır: "... daşnaklar Gürcüstanın tərkibinə daxil olmuş Axalkalaki və Borçalı ərazilərinə, Azərbaycanın tərkibində olan Qarabağa, Naxçıvan diyarına və Yelizavetpol (indiki Gəncə - red.) quberniyasının cənub hissəsinə yiyələnmək iddiasında idilər. Ermənistanın bu əraziləri zor gücünə özünə





ilhaq etmək cəhdləri Gürcüstanla müharibəyə və Azərbaycanla uzun sürən qanlı müharibəyə gətirib çıxarmış, nəticədə mübahisəli rayonların əhalisi 10-30 faiz azalmış və bir sıra yaşayış məntəqələri, sözün həqiqi mənasında, yer üzündən silinmişdir".[164]

**Noyabr 1918-ci il.** Erməni quldur birləşmələri aşağıdakı kürd və Azərbaycan kəndlərini yerlə yeksan etmişlər: Leqat (70 ev), Tay (75 ev), Mülk (30 ev), Gül (10 ev), Bənovşəpuş (5 ev), Tagəmir (25 ev). Onlar, ümumiyyətlə, 200 kəndlini kəsib-doğranmışlar. Yaxşı silahlanmış erməni quldurlarına müqavimət göstərmək cəhdləri uğursuz olmuşdur.[165]

**Dekabr 1918-ci il. Cəbrayıl qəzası. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının sərsəm "böyük Ermənistan - dənizdən dənizə ölkə" yaratmaq proqramını həyata keçirən erməni quldur birləşmələri Cəbrayıl qəzasının Azərbaycan kəndlərinə yenidən basqın etmişlər.

Erməni tədqiqatçısı A.Myasnikov yazır ki, "...daşnaklar mülkiyyətçi erməniyə hiyləbaz alverçi, quldurcasına düşmənçilik və insana nifrət ruhu vəsiyyət etmişlər...". Bu deyilənləri Azərbaycan Respublikası Dövlət Arxivinin sənədləri bir daha təsdiq edir. Erməni quldur birləşmələrinin dinc sakinlərə qarşı törətdikləri cinayətlərin aşağıda qısa siyahısı verilir.[166]

**2 dekabr 1918-ci il.** Ermənilərin silahlı quldur dəstəsi Aşağı Məlikli adlı kiçik kəndə soxulmuş, əmlakı yağmalamış və mal-qaranı sürüb aparmışdır. Kənd yandırılmışdır.[167]

**14 dekabr 1918-ci il. Zəngəzur. Azərbaycan.** Gəncə qubernatorunun 1918-ci il 14 dekabr tarixli 70 nömrəli tele-

qramında deyilir ki, cəllad Andranik başda olmaqla erməni quldurlar "Kalandərəsi yaxınlığındakı müsəlman kəndlərinə basqın etmiş, müsəlmanları qırmışlar və vəhşiliklər törətmişlər". Tədqiqatçılar da təsdiqləyirlər: "A.Mikoyanın təhriki ilə məhz tayqulaq Andranikin və Hamazaspın daşnak quldur dəstələri Maku və Xoydan başlayaraq Zəngəzurdan keçib, Qarabağa quldurcasına basqı etmiş, dinc azərbaycanlı əhalini qırmışlar".[168]

**18 dekabr 1918-ci il.** Erməni quldur birləşmələri Sirik kəndini darmadağın etmiş və yandırmışlar.[169]

**26 dekabr 1918-ci il.** "Daşnaksutyun" erməni terror təşkilatının göstərişini yerinə yetirən silahlı erməni quldur dəstələri Düdükçü kəndinin müsəlman hissəsini viran qoymuş, evləri yandırmış və əmlakı qarət etmişlər.[170]

**26 dekabr 1918-ci il.** Erməni quldur dəstələri Xələfli, Tatar, Şıxlar kəndlərini yandırmış, sakinlərin əmlakını yağmalamış, mal-qaranı sürüb aparmışlar.[171]

**Dekabr 1918-ci il.** Erməni quldur birləşmələri Eyvazlı Azərbaycan kəndinə basqın edərək, sakinlərin əmlakını yağmalamış və mal-qaranı sürüb aparmışlar. "Kəndin sakini Cilan Hüseyn Allahverdi oğlu vəhşicəsinə öldürülmüşdür. Əxilli kəndində 2 kişi, 3 qadın, 1 uşaq qətlə yetirilmiş, 1 kişi yaranlanmışdır; Məlikli kəndində 1 kişi öldürülmüşdür; Tatar kəndində bir adam yaralanmışdır; Evatlı kəndində bir nəfər öldürülmüşdür; Şıxlar kəndində bir sakin yaralanmışdır; Məzrə kəndində 6 kişi qətlə yetirilmişdir; Sirik kəndində 11 kişi, 10 qadın, 14 uşaq öldürülmüş və 2 kişi yaralanmışdır".[172]





**1918-ci il. Basarkecər. Azərbaycan.** Erməni quldur dəstələri Basarkecəri ələ keçirərək, dinc yerli əhaliyə divan tutmuşlar. Quldurların qəddarlığının həddi-hüdudu yox idi. Onlar patron sərf etməmək üçün silahsız adamları - kişiləri, qadınları, qocaları, uşaqları diri-diri torpağa basdırırdılar.

"Azərbaycan" qəzeti 1918-ci il 8 dekabr nömrəsində yazırdı: "Hakimiyyətsizlik və anarxiya dövründə Azərbaycan türkləri, eləcə də bütün Qafqaz müsəlmanları Qafqazda yaşayan başqa xalqlara nisbətən on və hətta yüz dəfələrlə artıq müsibət çəkdikləri halda, Qafqaz mətbuatının əksəriyyəti onlara qarşı müntəzəm surətdə böhtanlar yağdırmağı indiyədək davam etdirir; böhtanların yaradılmasında kadetlərdən tutmuş bolşeviklərədək və daşnaklardan tutmuş sosialistlərədək bütün ünsürlər heyrətamiz və həyəcanlandırıcı yekdillik göstərirlər. Sosialistlərdə sinfi məsələlər hətta arxa sıraya keçirilmişdir və indi ayrı-ayrı siniflərlə yox, məhz Azərbaycan türkləri ilə, özü də sosial zəmində deyil, milli, hətta dini zəmində mübarizə gedir".[173]

**1918-ci il. Qəbələ qəzası. Azərbaycan.** Erməni quldur birləşmələri kiçik avar kəndini ələ keçirərək, yerli kəndlilərə divan tutmuşlar. Uşaqlara xüsusilə qəddar üsullarla işgəncə verilirdi: quldurlar onlarca avar uşağının gözlərini çıxarmıs və sapa keçirərək, onu öldürülmüş analardan birinin boynuna boyunbağı kimi bağlamışlar.[174]

**1918-1919-cu illər. Qarabağ. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatından olan erməni quldurlar Qarabağın dağlıq və aran hissələrində iki il ərzində 150 Azərbaycan kəndini tamamilə məhv etmişlər. Dinc əhalinin böyük əksəriyyəti qətlə yetirilmişdir.

"Daşnaksutyun" erməni terror təşkilatı təbliğatçıları və təşviqatçılarının Qarabağ ərazilərinin guya əzəli erməni torpaqları olduğu barədə beynəlxalq mətbuatda çoxsaylı çıxışlarının yeni dövrəsi məhz həmin dövrdən başlanır. Bu, rus tədqiqatçılarının təbii hiddətinə səbəb olmaya bilməzdi. Məsələn, A.S.Şepotyevin Ermənistanın Qarabağa qanunsuz iddiaları barədə "Azərbaycan" qəzetində dərc edilmiş tarixi-analitik icmalına görə, "Qarabağdakı türk və erməni əhalisinin sayını dəqiq müəyyənləşdirmək çətindir. 1917-ci ilin Qafqaz təqvimində göstərilir ki, 1916-cı ildə Qarabağ ərazisində 242 min erməni, 322 min müsəlman olmuşdur. Lakin bu rəqəmlər həqiqətə uygun deyil, çünki Qarabağ ermənilərinin sayına Bakıdan Rostovadək və buradan da şimala doğru Don vilayətindəki "Qlubokaya" stansiyasınadək səpələnmiş çoxsaylı erməni sənətkarları da daxildir. Bakı mədənlərində işləyən 50 minədək fəhlə erməni də Qarabağ ermənilərinin sıralarına aid edilir, halbuki onlar Qarabağ erməniləri ilə əlaqəni tamam kəsmiş və əslində, Qarabağ əhli deyildirlər. Ona görə də Qarabağın oturaq ermənilərinin, onun dağlıq zolağının daimi sakinlərinin sayı da xeyli az olmalıdır.

Digər tərəfdən, hərbi mükəlləfiyyətli olmayan və metrika verilməyən əhali kimi dəqiq qeydiyyatdan keçirilməyən türk əhalisi Qafqaz təqvimində göstərildiyindən, əslində, daha çox olmalıdır. Bu, "Zaqafqaziyanın nadel torpaqlarının buraxılması haqqında məruzə"nin məlumatları ilə qismən təsdiqlənir. 1912-ci il tarixli həmin məruzədəki bu məlumatları satınalma xadimlərindən biri gətirir; müsəlman əhalinin sayı haqqında 70-ci illərin kameral siyahıya alınmasının yekunlarına əsasən mövcud məlumata uygun olaraq hesablanmış satınalma üçün gözlənilən 28 milyon rubl əvəzinə, əslində, 50 milyon





rubldan artıq qeydə almaq lazım gəlmişdir. Bütün bunlar 1917-ci ildə keçirilmiş siyahıyaalmanın, kənd təsərrüfatı üzrə sonuncu siyahıyaalmanın rəqəmləri ilə təsdiqlənir. Ona görə də Qarabağdakı erməni əhalisinin ümumi sayını 170 min nəfər, türk əhalisinin ümumi sayını isə 415 min nəfər müəyyənləşdirmək olar. Odur ki, Ermənistan Respublikasının Qarabağ barəsində bu yaxınlarda irəli sürdüyü iddialar daşnak nazirlərin imperialist xülyalarının tamamilə əsassız bəhrəsi kimi görünür. Bir tərəfdən, Qarabağın erməni əhalisi, şübhəsiz, azlıq təşkil edir, özü də bu azlıq dağlıq bölgənin ardıcıl uzanmayan, bütöv kütlə olmayan, hər tərəfdən tamamilə türk əhalisi ilə əhatələnən, Ermənistan Respublikasındakı erməni əhalisinin digər mərkəzlərindən həm iqtisadi cəhətdən, həm də tarixən ayrı düşən dar zolaqda cəmləşmişdir. Digər tərəfdən, əgər çayın aşağı axarları ilə dağlıq otlaq rayonu arasındakı dağ dərələri özgələrin əlinə keçsə, onda Qarabağda Azərbaycan türklərinin bütün varlığı ölüm təhlükəsinə məruz qalacaqdır, çünki aran sakinlərinin məhvə məhkum olması üçün Dağlıq Qarabağdakı Azərbaycan türklərinin yolunu kəsmək kifayətdir. Yaylaqlara gedən yollar istənilən vaxt bağlanıla bildiyi halda, bu yaylaqlara sərbəst gediş-gəliş haqqında heç bir saziş etibarlı sayıla bilməz.

Nəhayət, türklərin Qarabağa tarixi huquqları şübhəsizdir, ona görə ki, türklərin Qarabağda məskunlaşdığı vaxtdan artıq 9 yüzillikdən çox vaxt keçmişdir. Ermənistan hökumətinin Qarabağ barəsində nə tarixi, nə iqtisadi, nə də etnoqrafik faktlarla təsdiqlənməyən bu cür iddialarına dərhal son qoyulmalıdır, çünki o, Borçalı barədə iddialarında uğursuzluğa məruz qaldıqdan sonra, indi də Azərbaycanın əzəli, ayrılmaz hissələrindən birinə qarşı iddialarla çıxış edir. Görünür, onlar bu iddiaları Ermənistan

hökumətinin vaxtilə rəsmən imtina etdiyi, indi isə öz müdafiəsi altına aldığı "general" Andranikin çağırışlarına əsasən çoxdan "hazırlamışlar". İndi Qarabağın Azərbaycanın qalan ərazisi ilə əlaqəsi hər bir Azərbaycan türkü üçün o dərəcədə şübhəsizdir ki, bu "məsələ" barəsində heç bir mübahisə, heç bir söz-söhbət ola bilməz. Qarabağa dair bu xulasə Qarabağa bələd olmayan və onun haqqında erməni mənbələrindən birtərəfli məlumata malik hər bir kəsə göstərir ki, ermənilərin iddiaları tamamilə əsassızdır".

Ramiz Orbakinin tədqiqatlarında deyilir ki, Dağlıq Qarabağın tarixi vətənin hüdudlarından kənarda olmasını erməni alimlərinin özləri də göstərmişlər. K.Patkanyanın belə bir rəyi misal gətirilir: "Ermənistan erməni yaşayış məskənlərinin səpələndiyi vilayətin coğrafi adıdır". Digər bir erməni alimi - B.İşxanyan hələ 1916-cı ildə yazmışdır: "Qədim tarix mənasında, ermənilərin həqiqi vətəni - "böyük Ermənistan" Kiçik Asiyadadır, yəni Rusiyanın hüdudlarından kənardadır".[175]

**1918-ci il - 1919-cu ilin axırları.** Arxiv materiallarına, habelə tarixçilərin yazdıqlarına və şahidlərin ifadələrinin saxlandığı mətbuatın məlumatlarına görə, "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni quldur birləşmələri tərəfindən məhv edilmişdir:

İqdır və Ecmidzin qəzalarında - 60 kənd və bütün kişi əhali;

Göyçə - 22 kənd və 22 000 adam;

Bayazid - 84 kənd və 15 000 ailə;

İrəvan quberniyası - bütün kəndlər;

Sürməli mahalı - 96 kənd;

Zəngəzur mahalı - 115 kənd və 10 000 azərbaycanlı, o cümlədən 4472 qadın və uşaq.





Bu məlumatlar C. və K.Makkartilərin tədqiqatlarında da təsdiqlənir. Həmin tədqiqatlarda göstərilir ki, İrəvan quberniyasında müsəlmanlar ya qırılıb-çatılmış, ya da qaçqın düşmüşlər. Vəhşicəsinə işgəncələr dinc əhaliyə divan tutan erməni quldurlarda adət halını almışdır. Uşaqlara kütləvi işgəncələr verməkdən saqqallılar xüsusilə ləzzət alırdılar. "Daşnaksutyun" erməni terror təşkilatı liderlərinin əqidəsincə, məhz divantutmalar və aramsız terror dinc əhali arasında vahimə və çaxnaşmalar yaratmalı idi.[176]

**1 - 3 yanvar 1919-cu il. Ağdaş. Azərbaycan.** Erməni quldur birləşmələri Ağdaş şəhəri yaxınlığındakı kəndləri mühasirəyə almış və dağıtmışlar. Sakinlərin əksəriyyəti vəhşicəsinə öldürülmüşdür: silah-sursat olmadığından müqavimət göstərmək mümkün deyildi. Erməni quldurlar müsəlmanların səcdəgahlarını murdarlamışlar.[177]

**1 - 10 yanvar 1919-cu il. Zəngəzur qəzası. Azərbaycan.** "Daşnaksutyun" erməni terror təşkilatının göstərişini yerinə yetirən Andranikin erməni quldur birləşmələri Qusili, Hacılı, Arkazə, Əksərli, Səhərcik, Hacaquv, Oxçu kəndlərini darmadağın etmişlər. Kirədağ, Molodu, Qovnu, Qarabağlı, Qavarlı, Basmağı, Mahmudlu, Koydası, Kağac, Quruqot, Kaycan, Kiri, Abcəbacı kəndləri mühasirə vəziyyətində olmuşlar. Erməni quldurlar kəndliləri tamamilə qıracaqları ilə hədələyərək, onlara təslim olmağı təklif etmişlər. Zəngəzur qəzasının Əxci dərəsinin müsəlmanları da ölüm həlqəsinə alınmışlar.

Şahidlərin dediklərinə görə, qadınlar ermənilərə əsir düşməmək və zorakılığa məruz qalmamaq üçün özlərini öldürürdülər.[178]

**28 yanvar 1919-cu il. Gəncə quberniyası. Azərbaycan.** Erməni quldurlar Gəncə quberniyasının Zagalı kəndini yandırmışlar. 15 müsəlman öldürülmüşdür, onların arasında qadınlar və uşaqlar da vardı. Zagalı kəndi "Daşnaksutyun" erməni terror təşkilatının faşist tezisinin - "şəraitdən asılı olmayaraq, türkləri məhv etməli" tezisinin həyata keçirilməsinin növbəti qurbanına çevrilmişdir.[179]

**Yanvar 1919-cu il. Göyçə və Yeni Bayazid qəzaları.** Silahlı quldur birləşmələri Göyçə gölünün şərq və şimal bölgələrində "etnik təmiz zonalar" yaratmaq məqsədilə Göyçə və Yeni Bayazid qəzalarının müsəlman kəndlərinə basqına başlamışlar. 15 mindən çox ev olan Daşkənd, Qoşabulaq, Sarıyaqub, Baş Şorca, Aşağı Şorca, Soğanquluağalı, Ağkilsə, Zod, Qulu Ağalı, Böyük Qaraqoyunlu, Kiçik Qaraqoyunlu, Zərzibil, Çayəhmədli, İpəkbağ, Qaraiman, Kəsəmən, Başkənd, Kiçik Mərzə, Şişqaya, Baş Hacı, Qəribqaya kəndlərinin sakinləri var-yoxunu ataraq qaçmışlar. Yaxşı şilahlanmış ermənilərə müqavimət göstərmək mənasız idi. İngilis jurnalisti Skotland-Liddelin hazırladığı "Müsəlmanlarla müharibə. Ermənilər yenə də hücum edirlər" adlı sənəd həmin dövrə aiddir. Sənəddə deyilir: "...Hər seyi unutduran torpaq hərisliyi naminə Ermənistan müqaviləyə və hər cür ehtiyatlılığa məhəl qoymayaraq, heç bir günah sahibi olmayan kəndlilərə qarşı *müharibəyə başlamaqla* özünə qarşı böyük nifrət doğurur."[180]

**5 fevral 1919-cu il. Azərbaycan.** Abdulluq Azərbaycan kəndində yaxşı silahlanmış erməni saqqallılar 25 uşağı, 15 qadını və 50 kişini vəhşicəsinə qətlə yetirmişlər. Öldürülənlərin hamısı kəndlilər - etnik azərbaycanlılardır.[181]





**5 fevral 1919-cu il. Azərbaycan.** Erməni quldur dəştələri Abdulyanı Azərbaycan qəsəbəsinə soxulmuşlar. 144 ev yandırılmışdır. 560 kişi, 15 qadın, 25 uşaq öldürülmüşdür. Erməni quldurlar südəmər körpələri diri-diri tonqala atmışlar. "Daşnaksutyun" erməni terror təşkilatının göstərişi beləcə yerinə yetirilmişdir.[182]

**5 fevral 1919-cu il. Azərbaycan.** Kilani-Turani Azərbaycan kəndində erməni quldurlar 10 kişini, 1 qadını, 1 uşağı öldürmüş, 170 evi yandırmışlar.[183]

**6 fevral 1919-cu il. Azərbaycan.** Məniman Azərbaycan kəndi erməni quldurların basqınına məruz qalmışdır. Onlar "Daşnaksutyun" beynəlxalq terror təşkilatının göstərişini yerinə yetirərək, 29 kişini, 10 qadını, 12 uşağı öldürmüşlər. Qətlə yetirilənlərin, demək olar, hamısına dözülməz işgəncə verilmişdir. Meyitlərin gözləri çıxarılır, qulaqları kəsilirdi. 37 evə od vurulub yandırılmışdır.[184]

**6 fevral 1919-cu il. Azərbaycan.** Erməni quldurlar kiçik bir Azərbaycan qışlağında çobanlara vəhşicəsinə divan tutmuşlar.[185]

**7 fevral 1919-cu il. Azərbaycan.** Erməni quldur dəstəsi Kələnti kəndinə soxulmuşdur. 15 kişi, 3 qadın və 5 uşaq öldürülmüşdür. Dinc kəndlilər qətlə yetirilməzdən əvvəl onlara işgəncə verilmişdir. Bütün meyitlər eybəcər hala salınmış vəziyyətdə tapılmışdır.[186]

**8 fevral 1919-cu il. Azərbaycan.** Erməni quldurlar kiçik bir Azərbaycan kəndinə soxulmuşlar. Onlar kəndli-

lərin əmlakını yağmalamış, evlərini yandırmış və çoxlu adam öldürmüşlər.[187]

**8 fevral 1919-cu il. Azərbaycan.** "Daşnaksutyun" beynəlxalq terror təşkilatının göstərişini yerinə yetirən erməni quldurlar Qaramanlı Azərbaycan kəndində 15 uşağı və 36 qadını öldürmüşlər. Saqqallılar 80 silahsız kişini bir-birinə bağlayaraq, diri-diri torpağa basdırmışlar.[188]

**Fevral 1919-cu il. Zəngəzur mahalı. Azərbaycan.** Erməni quldur birləşmələri Zəngəzur mahalının Dovorus Azərbaycan kəndini tamamilə çapıb-talamışlar. Kəndlilərə ölüncə işgəncə verilmişdir.[189]

**Fevral 1919-cu il.** Azərbaycan Respublikasının xarici işlər naziri Ə.Ziyadxanovun Ermənistan Respublikasının xarici işlər nazirinə 1919-cu il 19 fevral tarixli notasında deyilirdi ki, erməni terror dəstəsi Göyçə gölü (indi bu göl Ermənistanın ərazisindədir və coğrafiya xəritələrində "Sevan" kimi göstərilir) tərəfdən Azərbaycan sərhədini keçərək, Qızıl-Vank, Subatan, Zağalı, Şahab və digər Azərbaycan kəndlərini dağıtmışdır. Şahidlərin dediklərinə görə, həmin kəndlərdə kişilərin əksəriyyəti işgəncələrlə öldürülmüş, qadınlar zorlanmış, uşaqlar isə təndirlərdə yandırılmışdır.[190]

**Fevralın axırları - martın əvvəlləri, 1919-cu il. Azərbaycan.** Artuç adlı birisinin başçılıq etdiyi erməni quldur dəstəsi Seyid Kotanlı, Xaraba Kotanlı, Şaqaib Azərbaycan kəndlərində əhalini qırıb-çatmışdır. Şahidlərin dediklərinə görə, törədilmiş qətlamın dəhşətləri təsviredilməzdir. Meyitlər təhqir edilərək, qarınları yırtılmış, gözləri çıxarılmış,





qulaqları kəsilmişdir. Erməni quldurlar həmin kəndlərdəki yüzlərlə kürd qaçqınını da qəddarcasına qırmışlar.[191]

**22 mart 1919-cu il. Xankəndi. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni quldur birləşmələri Novruz bayramı günü Azərbaycanın Xankəndi şəhərinə basqın etmişlər. Azərbaycanın Qazax, Gəncə və Qarabağ mahllarında da eyni vaxtda azərbaycanlılara qarşı kütləvi qətl-qarətlər başlanmışdır. Erməni terror və quldur dəstələrinin qırıb-çatdıqları insanlar arasında mülki əhali, əsasən də, qadınlar, qocalar və uşaqlar vardı. Naməlum səbəblərdən mart qırğınından bir qədər əvvəl azərbycanlı kişilər səfərbərliyə alınmışlar." Uğurla keçirilən səfərbərlik nəticəsində həmin mahallardakı kəndlərin əksəriyyəti tamamilə müdafiəsiz qalmışdır.

O dövrdə Azərbaycanda sovet hakimiyyətinin bayrağı altında çıxış edən "Daşnaksutyun"un rəhbərlərinə Leninin həmin günlərdə göndərdiyi teleqram yuxarıda göstərilən vaxtda törədilmiş faciənin üstünə işıq salır: "Bakını almaq bizim üçün son dərəcə, son dərəcə vacibdir. Bütün səyləri buna yönəldin". Neft ehtiyatları mənbəyi olan Bakı yeni kommunist hakimiyyətinin xüsusi səylərinin obyekti idi və buna görə də onu tutmaq tələb edilirdi. Kommunistlər bu məsələdə "Daşnaksutyun" terror təşkilatının quldur dəstələrinə arxalanırdılar. Səciyyəvi haldır ki, "Daşnaksutyun" təşkilatının üzvü, erməni terror və quldur birləşmələrinin 1918-ci ildə Azərbaycanda törətdikləri vəhşiliklərin iştirakcısı məhz A.İ.Mikoyan 1920-ci il aprelin 25-də ... Azərbaycan nümayəndə heyətinin başında XI Qızıl ordunun sərəncamına göndərilir və ... Azərbaycan xalqı adından XI ordunu Bakıya dəvət edir.

1919-cu ilin bütün yazı ərzində "Daşnaksutyun" terror təşkilatının erməni quldurları Azərbaycan, kürd, tat, talış, ləzgi, avar əhalisini amansızcasına qırıb-çatmışlar və onun təbliğatçıları bunu antisovet və antikommunist təzahürlərlə mübarizə kimi qələmə vermişlər.[192]

**23 mart 1919-cu il. Şuşa. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatına mənsub erməni quldur dəstələri gəlmə ermənilərin də yaşadığı Şuşa şəhərinə basqın etmişlər. Şəhərin erməni hissəsi tamamilə dağıdılmışdır - yalnız ona görə ki, Şuşa erməniləri fəaliyyət göstərən erməni terror təşkilatlarına daxil olmaqdan və ya onlara maliyyə "yardımı" etməkdən boyun qaçırmışdılar.

"Daşnaksutyun" terror təşkilatının quldurları "tabe olmayan" erməniləri "albanlar" adlandıraraq qırırdılar. Həmin dövrdə Qarabağda daşnaklar 34 erməni (alban) və çoxlu müsəlman kəndini viran qoymuşlar. O ki qaldı "albanlar" anlayışına, söhbət ən qədim etnosların birindən gedir və onların tarixini, mədəniyyətini erməni ideoloqları özününküləşdirmək üçün indiyədək dəridən-qabıqdan çıxırlar. Alim Iqrar Əliyev yazır: "Tamamilə şübhəsizdir ki, indiki Dağlıq Qarabağın ermənidilli əhalisi, - buraya XIX əsrdə köçürülənlər istisna olmaqla, - yerli əhalinin: müxtəlif alban tayfalarının - utilərin, sodların törəmələridir. Başqa birisi deyil, məhz erməni müəllif Moisey Xorenli onları Aranın nəsilləri, albanların əcdadları adlandırır". Səciyyəvi haldır ki, hələ ötən əsrdə erməni tədqiqatçıların özləri öz millətinin digər etnik qrupları assimilyasiya etmək kimi heyrətamiz bacarığa malik oldugunu göstərirdilər. Məsələn, "Murc" erməni jurnalı 1897-ci ildə "Ermənilər qaraçılardan törəmədir" adlı məqalə dərc etmişdir. Məqalədə erməni və qaraçı xalqlarının mənşə birliyi kifayət qədər məntiqli şəkildə göstərilmişdir. Yazıda hətta qaraçı mənşəli ermənilərin adları çəkilir, habelə, əslində, "dənizdən dənizədək ölkə"nin coğrafi məkanını cızmış qaraçı-erməni köçlərinin marşrutlarının coğrafiyası da qeyd edilir. Digər ehtimala görə, "Ermənistan" xalqın deyil, coğrafi zonanın adıdır. Ermənilərin öz adı - "hayk" da sübut edir ki, Ermənistan onların tarixi vətəni deyildir. Tədqiqatçı Y.Karstın fikrincə, "hayk" tayfası Fərat ərazisinə Balkan yarımadasından gəlmişdir. Üstəlik, görkəmli rus alimi I.M.Dyakonov təsdiq edir ki, "yalnız bir nəticə, yəni belə bir nəticə çıxarmaq olar ki, erməni dili əcdadının ilk daşıyıcıları Ermənistan yaylasına köçəri maldarlar kimi gəlmişlər...".[193]





**24 mart 1919-cu il. Azərbaycan.** Cermanisdən irəliləyən erməni quldur birləşmələri Şeşikidağ Azərbaycan kəndinə basqın etmiş və yeni hakimiyyətin - kommunistlərin adından bütün kəndliləri qırıb-çatmışlar.[194]

**29 mart 1919-cu il. Yeni Bayazid mahalı. Azərbaycan.** "Dasnaksutyun" terror təşkilatının quldur dəstələri tərəfindən etnik azərbaycanlıların kütləvi surətdə qırılıb-çatılması ilə əlaqədar Yeni Bayazid mahalının Azərbaycan əhalisi dünya müsəlmanlarına çağırış qəbul etmişdir. Çağırışda deyilir: "Müsəlman qardaşlar, sizə axırıncı dəfə müraciət edirik! Çıxılmaz vəziyyətimizi nəzərə alın və əlinizdən gələnköməyi bizdən əsirgəməyin. Irəvan quberniyasındakı bədbəxt müsəlmanların qalan hissəsini məhv etmək istəyən mustəbid daşnakların 60 000 əhalini qırmasına yol verməyin. Qeyri-bərabər mübarizədə öz ailələrimizi xilas etməkdə bizə kömək edin. Özü də bildiririk ki, biz məsum uşaqların, bədbəxt qadınların həyatlarını xilas etmək üçün bütün var-dövlətimizi sərf etməyə

hazırıq, sizin tərəfinizdən yardım ümidi ilə ərzaq toplamışıq. Vaxtında gəlib çıxmaga tələsin, vəziyyət dəhşətlidir, məhv edilirik". Bu çağırışı Yeni Bayazid mahalının 26 kəndinin, İrəvan quberniyasının darmadağın edilmiş 270 Azərbaycan kəndindən qalan sonuncu kəndlərin sakinləri imzalamışlar. Dörd ay sonra Azərbaycanın Ermənistandakı nümayəndəsi M.X.Tekinskiyə respublika Xarici İşlər Nazirliyinin "İrəvan quberniyasının və Qars vilayətinin müsəlmanlarına qarşı ermənilərin zorakılıqları barədə mufəssəl statistika məlumatları toplamaq zərurəti haqqında" depeşası göndərilmişdir. Depeşada deyilirdi: "Zərər çəkmiş, öldürülmüş, yaralanmış sakinlərin, əsrlikdən qayıtmış və qayıtmamış kişilərin və qadınların adları, soyadları, yaşayış yerləri və yaşları göstərilməklə müsəlmanların istər insan sarıdan, istərsə də əmlak sarıdan məruz qaldıqları itgilər, dağıdılmış kəndlər, bağlar, sürülüb aparılmış mal-qara və sair barədə məxfi surətdə, İrəvan quberniyasının var-yoxdan çıxarılıb viran qoyulmuş müsəlman kəndləri sakinlərinin, imkan daxilində isə Qars vilayəti sakinlərinin köməyi ilə statistika məlumatları toplanmasını xarici işlər nazirinin sərəncamına uygun olaraq xahiş edirəm. Yaxşı olar ki, ermənilərin müsəlman kəndlərinə böyük basqınları barədə məlumatlar şahidlərin nümayəndələrinin və ya zərərçəkənlərin özlərinin sözlərinə əsasən hazırlansın. Hökumət ermənilərin insan və əmlak sarıdan müsəlmanlara vurduğu zərər və itgilərin həcmini müəyyənləsdirmək üçün İngiltərənin, İtaliyanın və başqa ölkələrin nümayəndələrini cəlb etməklə beynəlxalq komissiya təşkil etməyi qərara almışdır. Lakin bu məsələnin həlli xeyli vaxt tələb edir, ona görə də yuxarıda Sizin üzərinizə qoyulan vəzifənin həyata keçirilməsinə başlayın".





"Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixli Fərmanında deyildiyi kimi: "Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirmişdir. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə fövqəladə istintaq kömissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və1920-ci ilin mart ayının 31-i iki dəfə Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd edilmişdir. Əslində bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı və bir əsrdən artıq davam edən torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi".[195]

**Mart 1919-cu il. Azərbaycan.** Erməni quldur və terror birləşmələri İrəvan mahalının Qaraxac, Gədilli, Qarabağlar, Ağasıbəyli, Dəhnəz, Şağanlı Azərbaycan kəndlərinə yenidən soxulmuşlar. Dinc müsəlman əhalisinə qarşı vəhşiliklər edilmişdir. Erməni quldurlar kişilərə divan tutduqdan sonra qadınları əsir götürmüşlər. Bu faciə ilə əlaqədar Azərbaycanın xarici işlər naziri növbəti direktiv vermişdir.[196]

**Mart 1919-cu il. Naxcıvan. Azərbaycan.** Erməni quldur və terror birləşmələri Naxçıvana hücuma başlamışlar. Faşistlər qarşılarına çıxan bir neçə Azərbaycan kəndini yer

üzündən silmişlər. Ordubad tərəflərdə Aşot Mosesyantsın quldur dəstəsi azğınlıqlar törədirdi. O, özünü "qəza rəisi" elan etmişdi. Arxiv sənədlərinə görə, hər gün 5-10 adam "erməni qaniçənlərinin qurbanı" olurdu.[197]

**6 aprel 1919-cu il. Azərbaycan.** 18 evdən ibarət Cavanşir Azərbaycan kəndində erməni quldurların basqını nəticəsində bir nəfər belə azərbaycanlı sağ qalmamışdır. 25 kişi, 20 qadın və 10 uşaq öldürülmüşdür. Beləliklə, "Daşnaksutyun" erməni terror təşkilatının göstərişi yerinə yetirilmişdir.[198]

**12 aprel 1919-cu il. Azərbaycan.** 60 evdən ibarət Mucu Azərbaycan kəndində erməni quldurlar bir gündə 150 kişi, 55 qadın və 25 uşaq öldürmüşlər. Kəndlilərin 35 evi yandırılmışdır. Uşaqların gözlərini çıxarmış, sonra da tonqala atmışlar.[199]

**13 aprel 1919-cu il. Azərbaycan.** 5-ci sahənin Dağlıq zolağının müvəkkili İsmayıl Sultanovun Gəncə qəza rəisinin adına 21.04.1919-cu il tarixli raportundan: "... Ararat Respublikası qoşunlarının Yeni Bayazid qəzasının Göyçə rayonunun dinc kəndlərinə basqını başlanmışdır. Bundan məqsəd ərazini Göyçə gölünün şərq və şimal həndəvərində məskunlaşmış müsəlmanlardan təmizləməkdir. Bir həftədə 60 000 əhalisi olan 22 kənd darmadağın edilmişdir. Bədbəxt müsəlmanlar Göyçə müsəlmanlarını qırıb-çatmaq məqsədi güdən erməni birləşmələrinin top-tüfəng atəşləri altında tələf olurlar. Ermənilərin və Ermənistan hökumətinin öz keçmiş qonşularına bu cür insanlıqdan kənar münasibətlərini görəndə adamı dəhşət bürüyür. Erməni qoşunlarının əlinə keçən





müsəlmanlara görünməmiş və eşidilməmiş əziyyətlərlə işgəncələr verirlər, çox az sayda gənc qadın və yeniyetmə qızlar istisna olmaqla, qalan bütün qadınları, uşaqları, qocaları və cavan kişiləri öldürürlər. Erməni quldurların təqib etdikləri azərbaycanlı və kürd qaçqınları sığınacaq tapmaq ümidi ilə üz tutduqları Gəncə mahalının 5-ci sahəsi ilə həmsərhəd qarlı dağ aşırımlarında həlak olmuşlar. Anonim müəllifin məxfi məruzəsinə görə, "Göyçə mahalında daha müsəlman yoxdur".[200]

**13 aprel 1919-cu il. Azərbaycan.** 70 evdən ibarət Haşman kəndində erməni quldurlar 120 adam öldürmüşlər. Onların 40- qadın, 20-si uşaq, 60-ı kişi idi. Haşman kəndində ermənilərin törətdikləri soyqırımın bütün qurbanları tanınmaz dərəcədə eybəcər hala salınmışdır.[201]

**14 aprel 1919-cu il. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni saqqallılar 30 evdən ibarət Zeyvə Azərbaycan kəndində 30 kişini, 20 qadını və 32 uşağı diri-diri yandırmışlar.[202]

**21 aprel 1919-cu il. Basarkeçər. Azərbaycan.** Kommunist hakimiyyəti adından erməni quldur birləşmələri Basarkeçər bölgəsində dinc sakinləri kütləvi surətdə qətlə yetirmişlər. Erməni tədqiqatçısı A.Lalayan erməni quldur birləşmələri başçılarından birinin bu barədə açıqlamalarını sitat gətirir: "Mən ağına-bozuna baxmadan Basarkeçərdə türk əhalisini qırıb məhv etmişəm. Bəzən gülləyə hayıfım gəlirdi. Bu köpəkləri qırmaq üçün ən münasib üsul döyüşdən sağ çıxanların hamısını bir yerə yığıb quyulara doldurmaq və üstündən də ağır daşlar salıb nəfəslərini biryolluq kəsməkdir... Mən belə də etdim:

bütün kişiləri, qadınları və uşaqları bir yerə yığıb quyuya atdım, quyunu daşla doldurub axırlarına çıxdım".[203]

**1919-cu ilin yazı. Paris. Fransa.** Erməni terrorizmini gücləndirməyin və genişləndirməyin zəruriliyi haqqında bəyanat həmin dövrdə verilmişdir. Söhbət "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının liderlərindən biri olan Ov.Kacaznuninin (1868-1937) proqram çıxışından - erməni terrorizminin yaxın onilliklər üçün metodoloji əsaslarını inkişaf etdirən açıq məruzəsindən gedir. Çıxışda SSRİ-nin türkdilli və müsəlman xalqlarının qarşıdakı kütləvi qırğınları və deportasiyası əsaslandırılır. Bunları "Daşnaksutyun" erməni terror təşkilatı SSRİ kommunist partiyasının bayrağı altında həyata keçirməli olacaqdır. Məruzədə Ermənistan ərazisini qonşu dövlətlərin, ilk növbədə, Gürcüstan və Azərbaycan torpaqları hesabına genişləndirməyə xüsusi diqqət yetirilir.

Ov.Kacaznuninin məruzəsindən: "1919-cu ilin yazında Parisdə milli nümayəndə heyəti ilə birlikdə respublikanın nümayəndə heyəti müttəfiq, böyük dövlətlərə Memorandum təqdim etmişlər. Memoranduma sülh konfransındakı tələblərimiz daxildir. Həmin Memoranduma görə, aşağıdakılar erməni dövlətinin tərkibinə daxil edilməli idi:

a) Zaqafqaziya Respublikası, genişləndirilmiş sərhədlərlə: bütün İrəvan quberniyası, Ərdəhanın şimal hissəsi istisna olmaqla Qars vilayəti (Türkiyə), Tiflis quberniyasının (Gürcüstan) cənub yarısı, Yelizavetpol quberniyasının (Gəncə - Azərbaycan) cənub-qərb hissəsi;

b) Türkiyədə yeddi vilayət: Van, Baqes, Diyarbəkir, Harberd, Sebastia, Karin, Trapezund;

c) Türkiyənin cənubunda dörd vilayət: Maraş, Siye, Cəlal, Bərəkət, Aleksandretta ilə birlikdə Adana.





Qara dənizdən Aralıq dənizinədək, Qarabağ dağlarından Ərəbistan səhralarınadək böyük Ermənistan adlı geniş ərazili dövlət yaratmaq layihələşdirilir və tələb edilirdi. Bu tələbləri necə həyata keçirmək olardı. Təəccüblü və inanılmaz olsa da, Parisin erməni diasporu bu tələbləri irəli sürmüşdür və nümayəndə heyətimiz hakim əhval-ruhiyyəyə tabe olmuşdur. Nümayəndə heyətinə deyilmişdir ki, əgər o, həmin tələbləri dəstəkləməsə, Türkiyədə yaşayan ermənilər milli nümayəndə heyətinin timsalında öz məsələsini "Yerevan" respublikasının məsələsindən ayıracaq və bizdən asılı olmayaraq, böyük dövlətlərə müraciət edəcəklər. Bundan başqa, göstərilirdi ki, Amerika kiçik Ermənistan üçün Mandatı qəbul etməyəcək, dənizdən dənizə Ermənistan üçünsə qəbul edəcəkdir. Nümayəndə heyətimiz razılığı verdi və Memorandumu imzaladı. Lakin Sevr müqaviləsi məyusluq doğurdu. Hesab edirdik ki, böyük dövlətlər ədalətsiz oldu, bizi qiymətləndirmədi və xidmətlərimizin əvəzini vermədi, şübhəsiz hüquqlarımızı azaltdılar. Bir qədər sonra daha böyük məyusluqlar oldu: ABŞ Senatı Ermənistan üzərində Mandatı qəbul etməkdən boyun qaçırdı, halbuki biz bu Mandata böyük ümidlər bəsləyirdik. Prezident Vudro Vilsonun layihələşdirdiyi Ermənistan sərhədləri də bizi qane etmədi. Daha əlverişsiz şəraitdə, bəlkə də, yanıla-yanıla və yıxıla-dura, nəhayət, yol tapa, ayağımızın altında möhkəm torpaq tapa və tədricən dövlət binası qura bilərdik. Amma o dəhşətli şəraitdə heç bir arxa-dayağı olmadan, təkbaşına Herakl işi görməyə qadir insanlar gərək idi. İnciməyin, axı, mən də gücsüzlərin ön sıralarında, sizinlə birlikdə, çiyin-çiyinə idim. Mən sizin əməldaşınız idim, məğlubiyyətimizə görə sizinlə birlikdə cavabdehəm. Bəs indi necə? Bu gün biz Arazla Sevan arasında adca müstəqil, əslində isə kiçik bir

muxtar respublikaya, dirçəlməkdə olan Rusiya imperiyasının ucqar bir vilayətinə malikik. Respublikanın hüdudlarından kənarda - Gürcüstanda, Azərbaycanda, Şimali Qafqazda, İranda, Suriyada, Konstantinopolda, Balkanlarda və hətta dünyanın bütün ölkələrində təxminən bir milyon erməni var. Ermənistan Respublikasında xarici ermənilərin ancaq cüzi bir hissəsi sığınacaq tapa bilər. Müvəqqəti çətinliklərdən asılı olmayaraq, respublikanın sərhədlərinin həddindən artıq darlığı onların yığcam şəkildə vətənə qayıtmasına imkan vermir. Xaricdəki ermənilər bugünkü Ermənistan üçün bütövlükdə dövlət elementi deyillər, buna görə də getdikcə daha çox yadlaşacaqlar. Ermənistandakı ermənilər və millətin qonşu respublikalarda - Gürcüstanda və Azərbaycanda olan iri hissəcikləri dövlət elementi olaraq qalırlar. Erməni dövləti onlara arxalanmalı və onlar üçün qurulmalıdır. Erməni koloniyaları, ən yaxşı halda, yardımçı qüvvə kimi, üstəlik, cüzi miqyasda, qeyri-müəyyən gələcək üçün bir növ ehtiyat kimi qalacaqdır (?!). Mövcud respublika, onun daxilində və ətrafında yaşayan erməni xalqı bu gün erməni siyasi fikrinin qayğılarının bilavasitə predmeti olmalıdırlar. Bu, gələcək fəaliyyətimiz üçün başlanğıc nöqtəsi olmalıdır. Faktiki olaraq, Ermənistan Moskvanın nəzarəti və komandası altında muxtar quberniyadır. Budurmu bizim siyasi amalımız? Əlbəttə, yox! Nə ruhda olmasına baxmayaraq, elə bir əsl daşnak olmayıb və yoxdur ki, o, müstəqillik ideyası ilə, daha doğrusu, müstəqillik instinkti ilə ruhlanmamış olsun.

Beləliklə, Sovet Ermənistanının nə siyasi vəziyyəti, nə idarəçilik qaydası, nə də daxili sosial-iqtisadi siyasəti bizi qane edə bilməz. Cavab qısa və sadədir- biz mübarizə aparmalıyıq! Mübarizə müəyyən məqsəd, ona nail olmağın mümkün və faydalı vasitələrini nəzərdə tutur. Biz





bolşeviklərlə hansı məqsədlər naminə əməkdaşlıq edə bilərik əgər cəsarətli olsaq, dönmədən işləsək və hər cür vasitəyə əl atsaq, bəlkə də, əməkdaşlıq edə bilərik. Qoy, antibolşevik Rusiyası Sovetlərin öhdəsindən bizsiz gəlsin. Erməni xalqı dincəlmək və öz dərin yaralarını müalicə etmək hüququnu çox əzab-əziyyətlərlə qazanmışdır. İndiki siyasi vəziyyətdə bolşeviklər Ermənistana gərəkdirlər. Ermənistan onlara möhtacdır, çünki Rusiyaya möhtacdır. Bu gün Ermənistanın özü Sovet Ermənistanı olmalıdır. Mən bolşeviklərin Ermənistanda fəaliyyətini yaxşı xatırlayıram, bolşevik sistemi Ermənistan üçün məqbul deyildir. Bəs nə etməli? Erməni xalqının yarısı tarac edilmişdir və uzun müddət dincliyə möhtacdır. "Daşnaksutyun" Ermənistanın iqtisadi dirçəlişinə kənardan yardım göstərməli, Ermənistana mal idxalı üçün, oradakı ələ gələn xammalın xarici bazarlara ixracı üçün, torpaqların suvarılması, ölkədə emalatxanalar və fabriklər yaradılması üçün ticarət və sənaye cəmiyyətləri təşkil etməlidir. "Daşnaksutyun"un həqiqi hüdudları bizim partiya təşkilatlarından çox-çox genişdir, partiyamız mübarizə aparan ermənilərin iradəsinin ifadə üsullarından yalnız biridir. Gerçəklik bizə göstərmişdir ki, indi, dərhal, mövcud əlverişsiz şəraitdə müstəqil dövlət qurulması erməni xalqının qüvvəsindən xaricdir. Orta vəziyyət, siyasi cəhətdən hazırlıqlı sinif lazımdır. Iri sarsıntılardan, qətliamdan və qarətlərdən sonra belə bir sinif tərbiyə etmək, dövlətçilik vərdişlərinə yiyələnmək üçün dinclik gərəkdir ki, təşkilatlanasan və qüvvələri cəmləşdirəsən. Yaranmış vəziyyətdə bu dövrü Ermənistan bolşevik bayrağı altında keçməlidir. Qoy, belə olsun. Tez-tez eşidirsən ki, məsələmizin həlli üçün təkcə bir yönüm olmamalıdır; ehtiyatlılıq bir və ehtiyat qüvvəsi kimi, ona paralel başqa yönüm də olmasını tələb edir. Bolşevik

ermәnilәr Rusiya xәtti yeridirlәr, qoy, yeritsinlәr. Amma başqa imkanları da öncәdәn görmәk gәrәkdir. Bir misal: bu gün rus bolşeviklәri türklәrlә vahid cәbhә tәşkil edirlәr, lakin sabah bu süni blok parçalana bilәr vә biz türklәrlә, habelә onların arxasında duran avropalılarla ümumi dil tapmaq zәrurәti qarşısında qala bilәrik. "Daşnaksutyun" Ermәnistana vә ermәni xalqına keçmişdә lazım olmuşdur, gәlәcәkdә isә onu başqa partiya, bәlkә dә, Ermәnistan dövlәt "Daşnaksutyun"u әvәz etmәlidir. Bolşevik ermәnilәr bizim işimizi davam etdirmәli, tutduğumuz mövqeyi istәr-istәmәz möhkәmlәtmәli, gәlәcәk nailiyyәtlәrә tәkan vermәlidirlәr. Bolşevik ermәnilәr mahiyyәtcә daşnakdırlar, bu gün yeganә daşnakdırlar, sәndәn dә, mәndәn dә daha çox daşnakdırlar. Çünki mәnim dә, sәnin dә aciz olduğumuz yerdә bizi onlar әvәz etmişlәr vә ömrümüzü hәsr etdiyimiz işlәri görürlәr. Sovet respublikası indiki Ermәnistanın qadir olduğu maksimum müstәqillikdir. Türklәrin nәzәrindә biz hansı mülahizәlәrlә arzuedilәn vә mәqbul vasitәçilәr olmalıyıq? Ona görә ki, bolşeviklәrin әleyhinә olmuşuq? Axı, türklәrin özlәrinin bolşeviklәrlә dost olduqları, onlarla ümumi bir siyasәt yeritdiklәri vaxtlarda bolşeviklәrin әleyhinә olmuşuq. Türklәr Brest-Litovskda bolşeviklәrlә sülh sazişi imzalayanda biz türklәrә qarşı üsyan qaldırdıq vә bu sazişi pozmaq üçün hәtta vuruşduq da. Axı, biz bolşeviklәrin ona görә әleyhinә deyildik ki, türklәri sevirdik, mәhz ona görә әleyhinә olmuşduq ki, hәm bolşeviklәrin, hәm dә dә türklәrin düşmәnlәrinin - Antantanın düşәrgәsindә idik. Axı, biz Türkiyәdәn dәnizdәn dәnizәdәk Ermәnistan tәlәb edirdik! Adananı da, Harberti dә, Svazı da, Trapezundu da tәlәb edirdik! Axı, biz Sevr sülh müqavilәsini - Türkiyәnin boynunu vurmalı olan müqavilәni imzalamışıq. Axı, biz





Avropaya vә Amerikaya öz ordularını Türkiyәyә yeritmәk vә şübhәsiz, onlara mәnsub olan vilayәtlәrdә bizim hakimiyyәtimizi bәrqәrar etmәk barәdә çağırışlar göndәrmişdik. Nәhayәt, axı, biz bütün mövcudluğumuz әrzindә türklәrlә fasilәsiz olaraq müharibә etmişik...

Ermәnistan bir şeyi - öz dövlәt mövcudlugunu, hәr halda, tәmin etmәlidir. O, üç yarım qәzaya (İrәvan, Yeni Bayazid, Ecmiәdzin vә Sirakın yarısı) sığışa bilmәz. Әgәr o, Gürcüstanın xeyrinә Axalkalakidәn vә Azәrbaycanın xeyrinә Dağlıq Qarabağdan әl çәksә, onda, hәr halda, Şәruru vә Naxçıvanı özündә saxlamalı, әgәr qalib Türkiyәnin xeyrinә Qarsdan imtina etsә, onda hәr halda, Sürmәlidәn vә Kağızmandan imtina edә bilmәz... Sonra, Ermәnistanın xarici alәmә çıxışı yoxdur. O, Avropa ilә Gürcüstan vasitәsilә әlaqә saxlamalıdır, demәli, Gürcüstan әrazi çıxışı olmasa da, ciddi tәminatlı tranzit çıxışı vermәlidir. Amma nә Türkiyә, nә Gürcüstan, nә dә Azәrbaycan ermәnilәrin hәtta bu minimal hәcmdә tәlәblәrini könüllü surәtdә ödәmәyә razı deyillәr. Bolşeviklәr bizi Rusiya ilә bağlayaraq, müstәqilliyin ancaq indiki şәraitdә mümkün olan dәrәcә vә formasını tәmin etmiş vә bununla da gәlәcәyi xilas etmişlәr".[204]

**4 iyul 1919-cu il. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri Böyük Vedi kәndinә yaxınlaşmışlar. Müsәlman ağsaqqalları ilә "görüş" üçün rәsmi sәbәb danışıqlar aparılması idi. Gözlәnilmәdәn, ermәnilәr tәrәfindәn atәşlәr açılmışdır. Böyük Vedi kәndinin iki nümayәndәsi - Zeynalabdin Şıxәli oğlu vә Nәsrulla bәy Bәşirbәy oğlu öldürülmüşdür...

Silahsız azәrbaycanlı kәndlilәr dinc әhaliyә qarşı hәtta artilleriyadan istifadә edәn saqqallılara qarşı qәhrә-

mancasına müqavimət göstərmişlər. 1919-cu ilin yayı ərzində erməni quldur birləşmələri 300 Azərbaycan kəndini yağmalamış və yandırmışlar. On minlərlə adam - kişilər, qadınlar və uşaqlar həlak olmuşdur. Bu barədə Azərbaycanın diplomatik nümayəndəsinin Ermənistana notasında məlumat verilir. Ermənilər hətta iki-üç günlük körpələrə də cəhənnəm əzabə vermişlər. Müsəlmanların zəbt edilmiş torpaqlarını Ermənistan hökuməti gəlmə ermənilərə güzəştli qiymətlərlə icarəyə verirdi. Azərbaycanın Gürcüstandakı diplomatik nümayəndəsinin müavini F.Vəkilovun Zaqafqaziyadakı Britaniya qüvvələrinin komandanı general-mayor Q.N.Koriyə notasında deyilirdi ki, "Azərbaycan hökuməti İrəvan quberniyasında müsəlmanların Ermənistan hökuməti tərəfindən gözümçıxdıya salınması haqqında hər gün məlumatlar alır. Erməni nizami qoşunları müsəlman kəndlərinə göndərilir və onları nə qadınlara, nə də uşaqlara rəhm etmədən dağıdırlar. Yağmalanmış kəndlərdən olan yüzlərlə qaçqın hər gün Tiflisdən keçərək, Azərbaycana pənah gətirir. İrəvan quberniyasının müsəlmanları, onların arzusuna rəğmən, müttəfiq dövlətlərin iradəsi ilə müvəqqəti olaraq Ermənistan hökumətinin idarəçiliyinə verilmişlər. Bu aktın yayılması ilə eyni zamanda ingilis komandanlığının nümayəndələri ictimai təşkilatlardan məsələnin bu cür həllinə qarşı bir sıra etirazlar almışlar. Bu etirazlarda aydınca deyilirdi ki, yaxın keçmişin faciəli hadisələri müsəlmanlarda Ermənistan hökumətinin onlara qərəzsiz münasibət göstərəcəyinə inam yaratmırdı və onları öz taleləri üçün ciddi narahat olmağa vadar edirdi. Bu narahatlıqların haqlı olduğu hazırkı vaxtda tamamilə aşkardır. Müstəqil dövlətlər tərəfindən müvəqqəti olaraq Ermənistan Respublikasının idarəçiliyinə verilmiş vilayətlərin daxili işlərinə qarışmaqda özümü haqlı hesab





etməsəm də, hər cür zorakılığa qarşı hökumətim adından insanlıq naminə öz qəti etirazımı bildirirəm".[205]

**İyul 1919-cu il. Türkiyə.** Andranikin erməni quldur birləşmələri Sarıqamıs şəhəri civarındakı kəndləri zəbt edərək, 803 adamı qətlə yetirmişlər. Onların hamısında vəhşicəsinə işgəncə izləri var. Öldürülənlər arasında uşaqlar, qadınlar və ruhi xəstələr də olmuşlar.[206]

**İyul 1919-cu il. Türkiyə.** Erməni quldurlar Allahuəkbər kəndində üç adamı xüsusi qəddarlıqla öldürmüşlər. Bunu İstanbuldakı "Osmanlı" arxivindəki sənədlər təsdiqləyir.[207]

**İyul 1919-cu il. Gerus. Türkiyə.** Qatil Andranikin erməni quldur dəstələri Gerus şəhərindən yuxarıda yerləşən kürd kəndlərini yağmalamışlar. Şahidlərin dediklərinə görə, saqqallıların dinc kəndlilərə qarşı törətdikləri vəhşilikləri müstəsna qəddarlığına görə təsvir etmək mümkun deyildir. Kürdlər Andranikin o dövr üçün müasir texnika ilə silahlanmış quldurlarına qarşı təkcə dəyənəklərlə qəhrəmancasına müqavimət göstərmişlər. Kürd əhalinin, demək olar, hamısı qırılıb-çatılmışdır.

Bununla əlaqədar arxiv sənədlərində deyilir ki, 1915-1918-ci illər dövründə Türkiyənin cənub vilayətlərində erməni terror qruplaşmaları 600 min nəfərdən çox kürdü məhv etmişlər.[208]

**İyul 1919-cu il.** Andranikin quldur birləşmələrinin qəddarlığından azərbaycanlılarla qonşuluqda yaşayan erməni kəndlilər də zillət çəkmişlər. "Qanlı general"ın dinc əhaliyə qarşı törətdiyi vəhşiliklər erməniləri dəhşətə gətir-

mişdir. Andranik isə, öz növbəsində, şikayətlənirdi ki, Əbrəqunusda və bəzi erməni kəndlərində lazımi səfərbərlik apara, hissələri azuqə və geyimlə təmin edə bilmir.[209]

**15 avqust 1919-cu il. Ərzurum. Türkiyə.** "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni quldur birləşmələri Ərzurum şəhərində 426 dinc sakini diri-diri yandırmışlar. Külə döndərilənlər arasında çox sayda qadınlar, uşaqlar və qocalar vardı.[210]

**19 sentyabr 1919-cu il. Azərbaycan.** 1-ci piyada alayının praporsiki Karaşarovun raportuna görə, Cəbrayıl rayonu kəndlərindən birinin yaxınlığında erməni quldurlar üç çobanı öldürmüşlər. Onlardan birinin başını kəsmişlər.[211]

**6 noyabr 1919-cu il.** Keçəldələ aşırımında sığınacaq tapan kürd qaçqınlarını təqib edən erməni quldurlar onları qaubitsalardan atəşə tutmuşlar. Qaçqınlar arasında öldürülənlər və yaralananlar çox olmuşdur.[212]

**23 noyabr 1919-cu il - 17 yanvar 1920-ci il. Azərbaycan.** Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri F.Xoyskinin müttəfiq dövlətlərin Zaqafqaziyadakı ali komissarı polkovnik V.Haskelə notasında göstərilir ki, Zəngəzur mahalında 40 müsəlman kəndi məhv edilmişdir. Onların siyahısı Amerika zabitlərinin komissiyasına təqdim olunmuşdur. Onlara Zəngəzur mahalındakı erməni quldur dəstələrini qısa müddətdə silahsızlaşdırmaq xahişi ilə müraciət də göndərilmişdir.[213]

**3 dekabr 1919-cu il. Cəbrayıl qəzası. Azərbaycan.** Erməni saqqallılar Cəbrayıl qəzasının Qoqa kəndini mühasirəyə alaraq, 10 müsəlmanı öldürmüşlər. Onlar





ağsaqqal Əsədağa Cavanşirə və ailəsinə xüsusi qəddarlıqla divan tutmuşlar.[214]

**3 dekabr 1919-cu il. Zəngəzur. Azərbaycan.** Deputat Mirzəsadıq Axundzadəyə teleqramdan: "Zəngəzurda qanlı hadisələr təkrarən başlanmışdır. Ermənilər Caylı və Oxcu kəndlərində 900 müsəlmanı öldürmüşlər. Adamlarla dolu olan məscid bombalarla dağıdılmışdır. 400 qadın və uşağı tikə-tikə etmişlər.[215]

**20 dekabr 1919-cu il. Azərbaycan.** Silahlı erməni dəstələri Xələfli, Aşıq Məlikli, Tatar və Şıxlar kəndlərinə basqın etmiş, 10 evi yağmalamış və yandırmış, iki qadını, 6 kişini yaralamış, mal-qaranı sürüb aparmışlar.[216]

**Dekabr 1919-cu il. Gəncə. Azərbaycan.** Gəncə qubernatorunun daxili işlər nazirinə məruzəsində deyilir ki, erməni quldur birləşmələri quberniyanın dinc müsəlman əhalisinə xüsusi qəddarlıqla divan tuturlar. "İnanmaq olmur ki, XX əsrdə bütün Avropaya özünün mədəniliyindən car çəkən, əslində isə, müdafiəsiz dinc əhaliyə qarşı vəhşiliyin bütün üsullarını tətbiq edən bir xalq mövcüddur. Quberniyanın bütün güşələrindən hər gün gələn raport və məlumatlarda əksini tapan dəhşətlərin təsiri altında bu sətirləri yazmaq ağırdır; qadınlar zorlanmışlar, uşaqları tonqallarda yandırır, qulaqlarını, dillərini kəsirlər; işgəncələrin, təhqirlərin həddi-hüdudu yoxdur".[217]

**1919-cu il.** İrəvan quberniyası müsəlman əhalisinin Amerika xalqına muraicətində yerli azərbaycanlı əhalinin qəsdən məhv edildiyi göstərilir: 88 kənd viran qoyulmuş, 1920 ev yandırılmış, 131 970 kişi öldürülmüşdür.[218]

**7 yanvar 1920-ci il. Türkiyə.** Donuxlu kəndinin bütün 12 müsəlman ailəsini erməni quldurlar qonşu Zeytun kəndinə apararaq, orada amansızcasına qırmışlar. Vəhşicəsinə divan tutulub öldürülən bu adamların arasında qadınlar, qocalar və uşaqlar da vardı.[219]

**12 yanvar 1920-ci il. Türkiyə.** "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni saqqallılar 450 nəfərdən ibarət süvari dəstəsinin tərkibində Antəpə vilayətinin Ərəbdar kəndində çox böyük sayda müsəlmana işgəncələr vermiş və qətlə yetirmişlər.[220]

**19 yanvar 1920-ci il. Şuşa. Azərbaycan.** İri erməni quldur birləşmələri Şuşa istiqamətində hücuma keçərək, yolları üstündəki bütün müsəlman kəndlərini darmadağın etmişlər. Uşaqlar, qadınlar, əlillər də öldürülmüşlər.[221]

**22 yanvar 1920-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri Hacı Qərib, Məkrə müsəlman kəndlərini varyoxdan çıxarmışlar. Ölüm-dirim mübarizəsi aparan kəndlilərin qəhrəmancasına vuruşmasına baxmayaraq, müasir silahları olan erməni quldurlar dinc əhaliyə divan tuta bilmişlər. Sağ qalanlar Burcanarlı kəndinə qaçmışlar.[222]

**2 fevral 1920-ci il. Şurəgöl. Türkiyə.** Erməni quldur dəstəsi Şurəgöl şəhərinə basqın etmişdir. Şəhərin dinc əhalisinin bir qismini qırıb-çatmışlar. Qacanları yaxalayaraq, öldürürdülər. Cəmən 1350 adam qətlə yetirilmişdir. Qadınlar və uşaqlar xüsusilə vəhşicəsinə işgəncələrə məruz qalmışlar. Quldurlar müasir silah tətbiq etdiklərinə görə onlara müqavimət göstərmək, əslində, mümkün deyildi.[223]





**2 fevral 1920-ci il. Zəruşət. Türkiyə.** Erməni quldur birləşmələri Zəruşət şəhərinə basqın etmişlər. "Daşnaksutyun" terror təşkilatının saqqallıları 2150 adam öldürmüş, onların çoxunu suda boğmuşlar.[224]

**10 fevral 1920-ci il. Türkiyə.** "Osmanlı" arxivinin sənədlərinə görə, "Daşnaksutyun" erməni terror təşkilatının göstərişini yerinə yetirən erməni quldur birləşməsi 100 adam qətlə yetirmişdir. Vəhşilik Cəldər adlı yerdə törədilmişdir.[225]

**28 fevral 1920-ci il. Pozantı. Türkiyə.** "Daşnaksutyun" terror təşkilatının erməni quldurları Türkiyənin Pozantı vilayətində 40 türkü vəhşicəsinə öldürmüşlər. Buna İstanbuldakı "Osmanlı" arxivinin sənədləri sübutdur.[226]

**9 mart 1920-ci il. Zəruşət. Türkiyə.** Zəruşət şəhəri həndəvərində dinc əhaliyə yenidən vəhşicəsinə divan tutulmuşdur. "Daşnaksutyun" terror təşkilatının faşistləri əsir götürdükləri 120 mülki şəxsi baltalarla şaqqalamışlar. Buna İstanbuldakı "Osmanlı" arxivinin sənədləri sübutdur. Quldurlar sakinlərə qanlı divan tutduqdan sonra əvvəlki mövqelərinə qayıtmışlar.[227]

**22 mart 1920-ci il. Türkiyə.** Şurəgöl və Zəruşət şəhərləri erməni quldur birləşmələrinin yenidən basqınına məruz qalmışdır. Silahsız kişilər özlərini əmək alətləri ilə müdafiə edirdilər. İşgəncələr nəticəsində çoxlu uşaq və qoca həlak olmuşdur. Təxminən 2000 adam öldürülmüşdür.[228]

**23 mart 1920-ci il. Əsgəran. Azərbaycan.** Ermənistanın hökumət qoşunları barışığı növbəti dəfə

pozaraq, Azərbaycanın Əsgəran şəhərini qəsb etmişlər. Qırğın əməliyyatında əsasən "tayqulaq Andranik"in quldur dəstələri iştirak edirdilər. Bundan əvvəl onlar dinc əhaliyə qarşı xüsusilə daha çox qəddarcasına cinayətlər törətmişdilər.[229]

**23 mart 1920-ci il. Şuşa, Xankəndi. Azərbaycan.** Ermənistan qoşunları quldur birləşmələrinin köməyi ilə Xankəndi və Şuşa şəhərlərinə basqın etmiş və bununla da 1919-cu il 23 noyabr tarixli barışıq sazişini pozmuşlar. Hər iki şəhərdə qadınlar, qocalar, uşaqlar qətlə yetirilmişlər.[230]

**24 mart 1920-ci il. Tərtər. Azərbaycan.** Erməni quldur birləşmələri "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirərək, Tərtər şəhəri yaxınlığındakı kəndlərə basqın etmiş və 1919-cu il 23 noyabr tarixli barışıq sazişini növbəti dəfə pozmuşlar.[231]

**25 mart 1920-ci il. Cəbrayıl. Azərbaycan.** Erməni quldur birləşmələri "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirərək, Cəbrayıl şəhərinə basqına başlamışlar. 1919-cu il 23 noyabr tarixli barışıq sazişinə aldanan dinc əhali döyüşə hazır deyildi və tarla işləri ilə məşğul idi. Mülki əhali arasında tələfat olmuşdur.[232]

**25 mart 1920-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri Xudərə, Dankeyrə, Davalı müsəlman kəndlərini qarət etmiş və yandırmışlar. Dinc əhali arasında çoxlu tələfat olmuşdur. Sağ qalanlar qonşu kəndlərə qaçmışlar.[233]

**30 mart 1920-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri qəfil basqın nəticəsində Bağırbəyli, Müsəlmanlar kəndlərini ələ keçirmişlər. Sağ qalanlar həmçinin qəsb edilmək təhlükəsi qarşısında olan Şuşa şəhərinə qaçmışlar. Arxiv sənədlərinə görə, əhalinin bütün kişi qismi özünümüdafiə dəstələri yaradaraq, son nəfərədək vuruşmağa hazır olmuşdur.[234]

**Mart-aprel 1920-ci il. Qars. Türkiyə.** Erməni quldur birləşmələrinin Qarsda müsəlmanlara qarşı törətdiyi qətliamı bütün Azərbaycanda güclü etiraz doğurmuşdur. Respublika parlamenti xüsusi iclas keçirmişdir. Iclasda bildirilmişdir: "İrəvan hadisələrini bilavasitə yaşayanlar, günün-günorta çağı ağına-bozuna baxmadan müsəlmanların gözümçıxdıya salınmasını görənlər, bir vaxtlar çiçəklənməkdə olan qəzaların yerlə yeksan edildiyini görənlər, əlbəttə, bilirlər ki, Ermənistan hökuməti Qarsa, Naxçıvana, Zəngəzura və Qarabağa dinclik verməyəcəkdir. Əvvəlcə İrəvan, Ecmiədzin, Surməli, Yeni Bayazid mahallarını müsəlmanlardan təmizləmək lazım idi. Bu, sözün əsl mənasında həyata keçirilmişdir. İndi orada bir nəfər də olsun müsəlman yoxdur". Xarici işlər naziri F.Xoyskinin müttəfiq dövlətlərin Zaqafqaziyadakı ali komissarlarına 1920-ci il 5 aprel tarixli notası: "Zati-alinizin aprelin 2-də aldığım teleqramına cavab olaraq aşağıdakıları bildirməyi özümə şərəf hesab edirəm: Azərbaycan hökuməti Zaqafqaziya xalqları arasında bütün məsələlərin dincliklə həll olunması mövqeyində dönmədən durmuşdur və durur, özünün bu sülhsevər siyasətini faktiki olaraq dəfələrlə göstərmişdir, hərçənd ki, keçmişdə sülh müqaviləsinin bizim tərəfimizdən deyil, məhz əks tərəfdən pozulması ilə bağlı bir çox ciddi hallar baş vermişdir və Azərbaycan hökumətini fəal çıxışlara sövq edən bir çox səbəblər olmuşdur. Misal olaraq, Surməli və Naxcıvan bölgələrində

müsəlman əhalinin qırılıb-çatılmasını və darmadağın edilməsini, Zəngəzurun hüdudları daxilində çox böyük sayda müsəlman kəndlərinin tar-mar olunmasını, Qars vilayəti müsəlmanlarının qırılıb-çatılmasını və digər halları göstərə bilərəm. Bütün bu ciddi hallarda, ictimaiyyətin güclü qəzəbinə baxmayaraq, Azərbaycan hökuməti təmkinini saxlamış və onların dinc yolla aradan qaldırılması üçün bütün tədbirləri görmüşdür. Bununla eyni zamanda Azərbaycan hökuməti 1919-cu ildə Tiflisdə Zaqafqaziya respublikalarının konfransında bütün mübahisəli məsələlərin saziş və arbitraj yolu ilə həll olunması ideyasını hər vasitə ilə dəstəkləmişdir, lakin bu ideya Azərbaycan hökumətinin təqsiri olmadan hamılıqla qəbul edilmişdir. Nəhayət, Zaqafqaziya respublikalarının konfederasiyasını yaratmaq təşəbbüsü Azərbaycan hökumətinə məxsusdur və bu məqsədlə yaxın günlərdə Tiflisdə yeni konfrans çağrılır".[235]

**5 aprel 1920-ci il. Qazax. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının erməni quldur dəstələri Qazax rayonunun Tatlı kəndi yaxınlığındakı kiçik bir Azərbaycan kəndini ələ keçirərək, onun bütün sakinlərinə qəddarcasına divan tutmuşlar.[236]

**5 aprel 1920-ci il. Azərbaycan.** Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri F.Xoyskinin Ermənistan Respublikasının xarici işlər nazirinə notasında deyilir ki, aprelin 5-də səhər saat 5-də Ermənistan tərəfindən erməni silahlı quldur birləşmələri Azərbaycan ərazisindəki Yaradulla kəndinə basqın etmişlər. Əhalinin üçdə bir qismindən çoxu məhv edilmiş, əmlakları yağmalanmışdır.[237]





**8 aprel 1920-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri təkrarən basqın etmiş və bu dəfə Yaradulla Azərbaycan kəndini və Qazax rayonundakı Tatlı kəndinin cənub hissəsini yandırmışlar.[238]

**9 aprel 1920-ci il. Qazax. Azərbaycan.** Qazax rayonunun azərbaycanlı kəndlilərinin barışıq haqqında imzalanmış müqaviləyə əməl edərək ağ bayraqlar qaldırmasına baxmayaraq, qaniçən Dronun erməni quldur birləşmələri Əskipara, Yuxarı Əskipara, Asağı Fərəhli, Xeyrimli, Bənası, Quşcu Ayrım, Ayrım, Salahlı kəndlərinə basqın etmiş və onları tamamilə yandırmışlar. Dinc əhali arasında çoxsaylı tələfat olmuşdur. Özünün qəddarlığı ilə ad çıxaran erməni faşist Dro (sonralar Himmlerin silahdaşı olub) bir sıra qətllərə şəxsən başçılıq etmişdir. Bu qətllər zamanı qadınlar və qocalar təsviredilməz işgəncələrə məruz qalmışlar.[239]

**19 aprel 1920-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirərək, Gulablı kəndinin ətraf məhəllələrini yandırmış, dinc sakinlər arasına çaxnaşma salmışlar. Bir neçə kəndli əsir götürülmüşdür. Bir həftə sonra erməni saqqallılar Abdal və Gulablı kəndlərini zəbt etmişlər, bu zaman Gulablı kəndinə od vurulub yandırılmışdır.[240]

**23 aprel 1920-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri Şişqaya Azərbaycan kəndinə basqın etmiş və bütün sakinləri öldürmüşlər. Qətlə yetirilənlər arasında qocalar və qadınlar da olmuşdur. Erməni quldurlar uşaqları diri-diri quyulara atmışlar.[241]

**5 may 1920-ci il. Qars. Türkiyə.** Erməni quldur birləşmələri Qars şəhərinə basqın etmişlər. Onlar odlu silah-

dan istifadə edərək və artilleriyanın köməyi ilə 774 dinc sakini öldürmüşlər. Bu fakt İstanbuldakı "Osmanlı" arxivinin sənədləri ilə təsdiq edilir.[242]

**11 may 1920-ci il. Azərbaycan.** Erməni silahlı quldur dəstələri Qarabağda azərbaycanlılara növbəti dəfə basqın etmişlər. Yaralananlar barədə məlumatlar var.[243]

**May 1920-ci il.** Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli siyasi və ictimai xadimi Nəsibbəy Yusifbəyli "Daşnaksutyun" təşkilatının erməni terrorçusu tərəfindən öldürülmüşdür.[244]

**19 iyun 1920-ci il. Tiflis, Gürcüstan.** Azərbaycanın görkəmli siyasi və ictimai xadimi, Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradıcılarından biri Fətəli xan Xoyski "Daşnaksutyun" erməni terror təşkilatının üzvü tərəfindən öldürülmüşdür. Qətl Tiflisin İrəvan meydanında, Fətəli xan Xoyski Azərbaycan Xalq Cümhuriyyətinin digər görkəmli xadimi Xəlil bəy Xasməmmədovla birlikdə indiki Paliaşvili adına opera və balet teatrının yanından keçərkən baş vermişdir. "Daşnaksutyun" erməni terror təşkilatının üzvləri Aram Erkayanın və Misak Qriqoryanın silahlı basqını nəticəsində X.Xasməmmədov ağır yaralanmış, F.Xoyski isə öldürülmüşdür.

Şərqdə ilk parlamentin yaradıcılarından biri, respublika hökumətinin başçısı olan Fətəli xan Xoyski tarixdə Zaqafqaziya dövlətlərinin demokratik inkişaf yolunun tərəfdarı kimi qalmışdır. Vətəndaş cəmiyyəti tipli cəmiyyətin əsaslarını qoyan, etnik, irqi mənsubiyyətindən, dini əqidələrindən asılı olmayaraq, bütün insanlara geniş imkanlar verən bir sıra proqram sənədləri Fətəli xan Xoyskinin bilavasitə rəhbərliyi ilə işlənib hazırlanmışdır. AXC-nin süqutundan sonra Fətəli xan Xoyski Tiflisə köçməli olmuşdur.





Fətəli xan Xoyskinin "Daşnaksutyun" erməni terror təşkilatı tərəfindən qətlə yetirilməsi bütün Zaqafqaziya regionunun demokratik qüvvələrinin hiddətinə səbəb olmuşdur. İyunun 23-də "Qruziya" qəzeti Şərqdə demokratik hərəkatın görkəmli nümayəndəsi olan Fətəli xan Xoyski haqqında başsağlığı dərc etmişdir.[245]

**19 iyul 1920-ci il.** Azərbaycanın məşhur ictimai və siyasi xadimi Həsənbəy Ağayev erməni terrorcu tərəfindən qətlə yetirilmişdir.[246]

**İyul 1920-ci il. Zəngibasar. Azərbaycan.** Erməni quldur dəstələri Zəngibasara basqın etmişlər. Terrorcular yüzlərlə dinc sakini qətlə yetirmişlər. Onlar qaçmağa çalışanları yaxalayaraq öldürmüş və meyitlərini xəndəklərə atmışlar. Həmin dövrdə "Joqovurd" erməni qəzeti yazırdı ki, "Daşnaksutyun"un siyasəti nəticəsində Ağbulaq, Ərdəniş, Toğulca və digər kəndlərin əhalisi doğma yerləri tərk edir, kartof, buğda, arpa əkinlərini atıb gedir.[247]

**Avqust 1920-ci il.** Fövqəladə nümayəndə Dövlətovun məruzəsinə görə, bütün Ermənistanda "... zabitlərin zorakılığı və özbaşınalığı hökm sürür, bütün ölkə özlüyündə, bir növ, silahlı düşərgəyə çevrilmişdir: bütün siyasəti hərbi güc yaradır... Azərbaycana yeganə və ən qəddar düşmən kimi, Sovet Rusiyasına isə türkləri dəstəkləyən ölkə kimi baxırlar".

"Daşnaksutyun" terror təşkilatının nəzarət etdiyi erməni quldur birləşmələri kommunistlərlə mübarizəni

gücləndirmək şüarları ilə pərdələnərək, İrəvanda və digər qəzalarda müsəlmanları güllələmişlər. Özü də söhbət siyasətdən tamamilə uzaq olan dinc sakinlərin kütləvi şəkildə öldürülməsindən gedirdi. Səciyyəvi haldır ki, kommunist ordusunun müzəffər yürüşü dövründə "Daşnaksutyun" erməni terror təşkilatının quldurları azərbaycanlılara - "kommunizm düşmənləri"nə məhz bu cür qəddar üsulla divan tuturdular.

Erməni tədqiqatçısı Z.Kardokyana görə, "Daşnaksutyun" terror təşkilatının nəzarət etdiyi Ermənistan hökuməti tərəfindən müsəlman əhalinin kütləvi qətlləri nəticəsində qısa müddətdə 565 min adam öldürülmüş, yaralanmış və didərgin salınmışdır.[248]

**2 sentyabr 1920-ci il. Qars, Ərzurum. Türkiyə.** "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni quldurlar həmin gün 408 müsəlman qaçqınını öldürmüşlər. Onların arasında türklər, kürdlər, azərbaycanlılar da vardı.[249]

**2 sentyabr 1920-ci il. Zəngibasar.** "Daşnaksutyun" terror təşkilatından olan erməni quldurların vəhşiliyindən can qurtarmaq üçün 1500 dinc sakin Olta çayını keçməyə çalışmışdır. İstanbuldakı "Osmanlı" arxivinin sənədlərində göstərildiyi kimi, 650 müsəlman çayda batıb boğulmuşdur.[250]

**15 oktyabr 1920-ci il. Bayburt. Türkiyə.** Erməni quldur birləşmələrinin Bayburt şəhəri ətrafındakı 99 kənddə törətdikləri vəhşiliklər nəticəsində 1387 meyit tapılmışdır. Qaçmağa çalışan uşaqları tutub, ölənədək işgənclər vermişlər.[251]





**17 oktyabr 1920-ci il. Pəsin. Türkiyə.** Pəsin şəhəri ətrafındakı 30 kənddə erməni quldurlar 9287 adamı qətlə yetirmişlər. Bir qayda olaraq, qatillər uşaqları və qocaları öldürmək üçün patron sərf etmirdilər: onlar vəhşicəsinə işgəncələr nəticəsində həlak olurdular.[252]

**19 oktyabr 1920-ci il. Ərzurum. Türkiyə.** "Daşnaksutyun" erməni terror təşkilatının saqqallıları Ərzurumun müxtəlif hissələrində dinc sakinlərə qarşı dəhşətli qətlam törətmişlər. "Etnik təmiz zonalar" yaradılmasına dair faşist siyasətinə uygun olaraq həyata keçirilən bu qırğın nəticəsində 8439 adam məhv edilmişdir.[253]

**Oktyabr 1920-ci il. Tortum. Türkiyə.** Erməni quldur birləşmələri Tortum şəhəri ətrafındakı 64 kənddə 3700 insanı vəhşicəsinə öldürmüşlər. Tapılmış bütün meyitlərdə işgəncə izləri qalmışdır. Müsəlmanların səcdəgahları ya yandırılmış, ya da murdarlanmışdır.[254]

**Oktyabr 1920-ci il. Qars. Türkiyə.** "Daşnaksutyun" terror təşkilatının erməni quldurları Qars şəhərinin həndəvərində müsəlman əhaliyə ağlasığmaz divan tutmuşlar. Dəhşətli edamlar nəticəsində 11 193 dinc sakinə işgəncələr verilmişdir. Elə həmin dövrdə "Daşnaksutyun"un mətbu orqanı "Arac" qəzeti yazmışdır: "Əgər erməni xalqı yaşamaq və özünün, dövlətinin varlığını təmin etmək istəyirsə, o, ruslara tərəf deyil, türklərə tərəf üz tutmalıdır". "Daşnaksutyun"un apardığı təbliğatın məqsədi də bir çox tədqiqatçıları aldatmış belə süni ziddiyyətdən ibarət idi.[255]

**14 dekabr 1920-ci il. Sarıqamış. Türkiyə.** Çox sayda qaçqının toplaşdığı Sarıqamış şəhərinin ətraflarındakı

18 kənddə erməni saqqallılar 5337 adamı öldürmüşlər. Edam edilənlər arasında kürdlər, türklər, ərəblər, başqa millətlərin nümayəndələri vardı. Dekabr ayında bu şəhərin 21 kəndində erməni quldur dəstələri ümumən 8202 müsəlmanı qətlə yetirmişlər.[256]

**Dekabr 1920-ci il. Türkiyə.** Qars və Diqor vilayətlərinin kəndlərində erməni quldur birləşmələri 18 620 dinc sakini qırıb-çatmışlar. Qadın və uşaqları öldürməzdən əvvəl inanılmaz işgəncələrə məruz qoymuşlar: südəmər körpələri diri-diri ocağa atır, əsir alınmış kişilərin əl-ayağını kəsirdilər. Bununla eyni zamanda "Daşnaksutyun" erməni terror təşkilatının təbliğatçıları "türklərin onlara qarşı soyqırım törətdikləri" barədə bütün dünyaya car çəkirdilər. Uzun illər üçün nəzərdə tutulan mənhus ssenari, bax, belə idi.

Lakin, əldə edilmiş məlumata görə, 1919-cu ildən 1927-ci illədək ABŞ-ın İstanbulda ali komissarı və səfiri olmuş Mark Bristol öz rəsmi yazışmalarında "erməni təbliğatının iddialarına araşdırmalar aparılmadan inanmaq"-dan dəfələrlə çəkindirmişdir. Bristolun xəbərdarlıqlarını Yaxın Şərqə yardımın təşkilinə başçılıq etmiş amerikalı missioner Ceyms Barton da təkrar etmişdir. Həmin yardımdan da elə məqsəd "ermənilərin iztirabları"nı yüngülləşdirmək idi. İş prosesində Türkiyə erməniləri ilə qarşılaşan və onların şişirtməyə meylliliyindən xəbərdar olan Barton etiraf edirdi ki, onların "əslində, heç zaman baş verməmiş vəhşiliklər haqqında daimi xəbərlərdən və ardı-arası kəsilməyən erməni dezinformasiyyasından ibarət olan məkrli təbliğatını dayandıra bilmir".[257]

**1920-ci il. Gürcüstan.** Etnik gürcülər erməni terror və quldur birləşmələrinin təcavüzünün növbəti dəfə qurban





ları olmuşlar. Erməni quldur dəstələri İori çayı hövzəsinin şimal bölgəsini ələ keçirmək məqsədilə Alaverdinin hüdudlarından kənara çıxaraq irəliləmişlər. Onların əzəli gürcü bölgəsinə iddiaları Qars, Ərzurum və Adana barədə tələbləri kimi eyni dərəcədə cəfəng idi. Cəllad Dronun başçılıq etdiyi erməni quldur birləşmələri Tiflisin bilavasitə həndəvərinə soxulmuşlar. Niyyətləri burada erməni xutor və kəndlərinin sayını artırmaq idi. Kəndləri viran qoyan və dinc gürcü kəndlilərini qırıb-çatan Dro Gürcüstan paytaxtını erməni yaşayış məskənləri - "əraziləri" ilə əhatələməyə çalışırdı. Erməni quldurların Tiflisə yürüşü heyrətdən donub qalan bütün dünya ictimaiyyətinin gözünü açdı. İlk dəfə aydın oldu ki, ermənilərin qonşuları "təqib edilən, günahsız, silahsız, sülhpərvər millətlə" deyil, əksinə, terror təşkilatının əlində alətə çevrilən xalqla qarşılaşmışlar. Bu təşkilat - "Daşnaksutyun" daha böyük hakimiyyətə yiyələnmək uğrunda və yüz minlərlə insanı məhv edərək "erməni" ərazilərini genişləndirmək uğrunda var qüvvə ilə mübarizə aparırdı.[258]

***1920-ci il.*** *Erməni kəndlilər "Daşnaksutyun" terror təşkilatının yaxşı silahlanmış dəstələrinə qarşı azərbaycanlılarla birləşməyə məcburdurlar. Həmin təşkilatın quldurları üsyana qalxan onlarca erməni kəndini darmadağın etmişlər. Quldur birləşmələri Qazax və Gədəbəy şəhərlərinə yaxınlaşdıqca kəndlərdə çox sayda müsəlman öldürülmüşdür. Qaçqın ermənilər (iki mindən çox) Azərbaycanda sığınacaq tapmış, başqaları dağlarda gizlənmişlər.*[259]

***1920-ci il. Naxçıvan. Azərbaycan.*** *Bu il dinc əhalinin kütləvi surətdə məhv edilməsinə dair mənhus faktlarla qeyd olunmuşdur. Naxçıvan Muxtar Respublikasının 75 il-*

liyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanında deyildiyi kimi, "...Azərbaycan Xalq Cümhuriyyətinin 23 aylıq tarixi boyu erməni silahlı quldur dəstələri İrəvan, Naxçıvan və Qarabağ bölgələrində dinc azərbaycanlı əhaliyə divan tutur, yerli azərbaycanlıların sayını süni surətdə azaltmaq üçün hər cür vasitəyə əl atırdılar. Qafqazda bolşeviklərin hakimiyyətinin bərqərar olduğu ilk günlərdən hələ 1918-ci ildə özünü mart qırğınları zamanı büruzə vermiş bolşevik-daşnak sövdələşməsi geniş vüsət aldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründəki sərhədlər alt-üst edilməyə başlandı. İlk olaraq əzəli Azərbaycan torpağı Zəngəzur mahalı Ermənistan SSR-in tərkibinə qatıldı. Əslində isə ermənilərin planları daha geniş idi və onların torpaq iddialarının əsas hədəfi məhz Naxçıvan idi. Onlar Zəngəzurun Ermənistana ilhaq edilməsini bu yolda atılmış mühüm addım hesab edirdilər. Beləliklə də, Naxçıvanı Azərbaycandan ayıran Azərbaycan torpaqlarının - Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruri etdi".

"Azərbaycan" qəzetinin 1920-ci ildə yazdığı kimi, "Qars, Naxçıvan, Zəngəzur və Qarabağ özgələrinin torpaqları hesabına "birləşmiş Ermənistan" yaratmaq niyyətinə düşən daşnakların döyüş proqramının yalnız ayrıca məntəqələri idi. Bu məntəqələr Ermənistan xəritəsinə çoxdan daxil edilmişdir və indi onun rəhbərləri ancaq düşünülmüş niyyəti həyata keçirirlər. 1920-ci ildə Zəngəzur və İrəvan Ermənistanın tərkibinə qatıldıqdan sonra daşnak proqramının bir hissəsi yerinə yetirildi".

Bölgədə Azərbaycan xalqına qarşı cinayətləri erməni terror və quldur birləşmələri əsas etibarilə bir şüar, ... bu dəfə kommunist hakimiyyəti uğrunda mübarizə şüarı altında





həyata keçirirdilər. Barışıqdan istifadə edən "Daşnaksutyun" terror təşkilatının erməni quldur dəstələri türklərə və azərbaycanlılara qarşı bu il iki dəfə qətlam törətmişlər. Öldürülmüş müsəlmanların ümumi sayı 69 715 nəfərdir. Qətlə yetirilənlər arasında qadınlar, qocalar və uşaqlar da var. Kommunist liderlərindən birinin - Q.K.Orconikidzenin partiya əməldaşlarına - Leninə, Stalinə və Cicerinə göndərdiyi məktubda deyilirdi: "Dro başda olmaqla daşnak qoşunlarının çıxıb getməsi Naxcıvanın və onun rayonunun bu hissələr tərəfindən ancaq tutulmaq təhlükəsi ilə izah edilir. Ermənistan hökuməti sizə bilərəkdən yalan məlumat verir. Mən sizinlə tam razıyam ki, kommunist pərdəsi altında millətçilik niyyətləri həyata keçirilir... Mən çox yaxşı başa düşürəm, belə bir imkan istisna deyil ki, məlum siyasi şəraitdə Ermənistan bizə lazım ola bilər. Özünüz necə lazım bilirsinizsə, elə də həll edin. Bizə nə tapşırılsa, biz hamısını yerinə yetirəcəyik, lakin, icazə verin, nəzərinizə catdırım ki, Azərbayçana bu cür münasibət Azərbaycanın geniş kütlələrinin gözündə bizi çox nüfuzdan salar".[260]

**Fevral-mart 1921-ci il.** S.Vratsyanın başçılıq etdiyi "Sovet hakimiyyətinə qarşı erməni döyüş təşkilatı" terror qrupu qırx gün ərzində etnik azərbaycanlıları qırıb-çatmışdır. Bu qətlamı S.Vratsyan *"kommunistlərə qarşı mübarizə" kimi* qələmə vermişdir. "Sovet hakimiyyətinə qarşı erməni döyüş təşkilatı"nın zərbə qrupları "Daşnaksutyun" erməni terror təşkilatının yaratdığı ixtisaslaşdırılmış "Qisas" birləşməsinin quldurlarından ibarət idi. Səciyyəvi haldır ki, "Daşnaksutyun" erməni terror təşkilatının ən qatı ideoloqlarından biri olan Simon Vratsyan (1882-1969) 1921-ci ilin yanvarında Sovet Ermənistanı hökumətinə başçılıq etmişdir. Onun şəxsi

göstərişi ilə Ermənistanda azərbaycanlı əhali kütləvi surətdə qırğına verilmişdir. O, həm də "Vətənin qurtuluşu" daşnak komitəsinin sədri idi.

1926-cı ildə Vratsyan xaricə qaçmışdır. Elə o vaxtdan ABŞ Dövlət Departamentinin Yaxın Şərq üzrə gizli müşaviri olmuşdur. Həmin vəzifədə o, erməni agentləri vasitəsilə "Daşnaksutyun" üzrə əməldaşı, yüksəkvəzifəli kommunist A.Mikoyana Mesxeti türklərinin (1943-1944-cü illər), çeçenlərin və inquşların (1942-1943-cü illər), Krım tatarlarının (1942-ci il) deportasiyası məsələlərində məsləhətlər verirdi.[261]

**15 mart 1921-ci il. Berlin. Almaniya.** Erməni qulduru, "Daşnaksutyun" terror təşkilatının üzvü Soqomon Texliryan Berlin küçələrindən birində Türkiyənin görkəmli ictimai və siyasi xadimi, daxili işlər naziri, sonralar isə hərbi naziri olmuş Tələt bəyi öldürmüşdür. Terrorçu yüksək vəzifəli sovet məmuru, "Daşnaksutyun" terror təşkilatının üzvü A.Mikoyanın köməyi ilə 30-cu illərdə SSRİ-yə qaçmışdır. Sonra o, yazıçı, "Xatirələr" kitabının müəllifi kimi gözlənilmədən Qahirədə peyda olmuşdur.[262]

**18 mart 1921-ci il. İstanbul. Türkiyə.** "Daşnaksutyun" erməni terror təşkilatının üzvü Misak Torlakyan Istanbulun Təpəbası məhəlləsindəki "Pera Palas" mehmanxanasının qarşısında - şəhərin mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin görkəmli ictimai və siyasi xadimi Behbud xan Cavanşiri qətlə yetirmişdir.[263]

**5 dekabr 1921-ci il. Roma. İtaliya.** Sabiq vəzir və xarici işlər naziri şahzadə Səid Həlim paşa Romada "Daşnaksutyun" erməni terror təşkilatının üzvü Arşavir





Şiracyan tərəfindən öldürülmüşdür. Qətl faktını erməni terrorçunun özü boynuna almışdır. Tədqiqatçı K.Səlimova görə, "...Belə bir fakt beynəlxalq milli terrorizmin bariz təzahürünə misal ola bilər: 20-ci illərdə Parisdə bir türk diplomatı həmkarı Vyanada qətlə yetirildikdən düz 48 saat sonra öz maşınında öldürülmüşdür. Erməni terrorçuların törətdikləri bu qətllər milli zəmində terror aktları silsiləsinin başlanğıcı oldu.[264]

**17 aprel 1922-ci il. Berlin. Almaniya.** Etnik türklər - tibb professoru Bəhaəddin Şakir və Kamal Əzmi evlərinin astanasında erməni terrorçular Arşavir Şiracyan və Aram Yerqanyan tərəfindən qətlə yetirilmişlər. B.Şakir İttihad və Tərəqqi Partiyasının rəhbərlərindən biri idi. Qətl faktını erməni terrorçu A.Şiracyanın özü etiraf etmişdir.[265]

**25 iyul 1922-ci il. Tiflis. Gürcüstan.** "Daşnaksutyun" erməni terror təşkilatının yaratdığı ixtisaslaşdırılmış "Qisas" birləşməsindən olan erməni terrorçular Petros Ter-Poqosyan və Zare Melik-Şahnazaryan görkəmli türk siyasi xadimi, Türkiyənin Suriyadakı 4-cü ordusunun baş komandanı Kamal (Camal) paşanı və müavini Surəyyə bəyi öldürmüşlər. Qətlin təşkilatçısı Artaşes Gevorkyan idi. Terror aktı hətta erməni ziyalılarında da hiddət doğurmuşdur. Buna tədqiqatçı, doktor Lepsiusun məlumatları da sübutdur.[266]

**Avqust 1922-ci il. Buxara. Özbəkistan.** "Daşnaksutyun" erməni terror təşkilatının üzvü Saruxanyan adlı birisi məşhur türk siyasi və ictimai xadimi, İttihad və Tərəqqi Partiyasının rəhbərlərindən biri olan Ənvər paşanı qətlə yetirmişdir.[267]

**1926-cı il. Amerika Birləşmiş Ştatları.** Bir sıra erməni terror təşkilatları Andranik Ozanyan Torosinin bəyanatını öz mətbuat xülasələrində "Mən yenə qayıdacağam!" sərlövhəsi ilə dərc etmişlər. Amerikada ömrünün son günlərini yaşayan və 680 quldurun qoruduğu tayqulaq Andranik (1927-ci ildə olmuşdur) "müraciət"ində rusları erməni xalqının qatı düşməni adlandırırdı.[268]

**1929-cu il. Azərbaycan.** Qərbi Azərbaycan torpaqlarının bir hissəsinin Ermənistana verilməsi haqqında Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı həmin tarixə aiddir. Naxcıvan Muxtar Respublikasının 75 illiyinin keçirilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanında bu barədə deyilir: "Ermənistan Naxçıvan Muxtar Respublikasının Azərbaycanın tərkibində olmasını rəsmən qəbul etməyə məcbur olsa da, bu faktla əslində heç cür razılaşa bilmir, Naxçıvana ərazi iddialarından, onu Ermənistana birləşdirmək niyyətlərindən əl çəkmirdi. Ermənistanın hakim dairələri Moskvadakı himayədarlarının köməyi ilə Naxcıvanın bəzi torpaqlarını qoparıb öz ərazisinə birləşdirməyə nail oldular. 1929-cu ildə Zaqafqaziya Mərkəzi İnqilab Komitəsinin qərarı ilə Naxcıvanın 657 kvadrat kilometr ərazisi - Şərur qəzasının Qurdqulaq, Xacik, Horadiz, Naxçıvan qəzasının Şahbuz nahiyəsinin Ogbin, Ağxac, Almalı, İtqıran, Sultanbəy kəndləri, Ordubad qəzasının Qorcevan kəndi, habelə Kilid kəndi torpaqlarının bir hissəsi Ermənistana verildi. 1930-cu ildə isə Aldərə, Lehvaz, Astazur, Nuvədi və sair yaşayış məntəqələri Ermənistana verilmiş və həmin ərazidə Mehri rayonu yaradılmışdır. Ermənistanın Naxcıvanla bağlı ərazi iddiaları sonrakı dövrlərdə də davam etmiş və indi də o, bu çirkin niyyətlərindən əl çəkmir".[269]





**24 sentyabr 1933-cu il. Nyu-York. Amerika Birləşmiş Ştatları.** Bu ölkədəki Qriqorian (erməni) kilsəsinin baş yepiskopu Leon Touryan ibadət zamanı yüzlərlə ibadətçinin gözləri qarşısında erməni terrorcular tərəfindən öldürülmüşdür. O, öz moizələrində ümmət arasında sülhsevərlik və müxtəlif dinlərin nümayəndələrinə qarşı dözümlülük ideyalarını yayırdı. Bu isə "Daşnaksutyun" terror təşkilatının ideoloji prinsiplərinə uygun gəlmirdi. Qətlin şahidi olan ermənilərdən heç kim qorxusundan məhkəmədə ifadə verməmişdir.[270]

**Dekabr 1942-ci il. Almaniya.** Əli minlərlə insanın qanına batmış qatil, erməni terrorçu "general" Dro (Drastamat Kananyan) və yazıçı Qaro Gevorkyan "reyx aristokratı" Himmleri "ziyarət etmiş" və pastor Lepsiusun "Erməni xalqının ölüm yürüşü" kitabını ona bağışlamışlar. Dronun və Himmlerin faşistlərə qoşulmaq barədə birgə çağırışına təxminən 30.000 erməni hay vermişdir. Dro cəza dəstələrində xidmət edən erməni əsgərlərə dəfələrlə baş çəkmiş, onların qarşısında çıxışlarında Hitlerin nasist ideyalarını təbliğ etmişdir. Tədqiqatçı E.Fayqlın fikrincə, "ermənilərin müharibədə nasional-sosialist Almaniyasının tərəfində iştirakından məqsəd, sözsüz, yəhudiləri də məhv etmək idi". Başqa bir tədqiqatçının, Səmyuel Uimsin yazdığına görə, Üçüncü reyxin dəstələrinin tərkibində olan 100 mindən çox erməni yəhudilərin qırılmasında iştirak etmişdir.

Maraqlıdır ki, Üçüncü reyxin ən məlumatlı adamlarından biri olan erməni terrorçu Dro təxminən həmin dövrdə Sovet İttifaqının rəhbəri Stalinlə də görüşmüş, onu özünün ən yaxın dostu və əməldaşı adlandırmışdır. Əldə olan məlumatlara görə, məhz o, Krım tatarlarına qarşı kütləvi Stalin repressiyalarında fəal iştirak etmiş, A.Mikoyanla bir-

likdә onların deportasiyasının tәşkilatçısı olmuşdur. Ermәni terrorizminin tәdqiqatçıları әxlaqsız hәyat tәrzinә misal kimi vә ermәnilәrin bәşәriyyәtә qarşı cinayәtlәrinin qanlı tarixinin iştirakçıları arasında әn mәnhus sima kimi Dronu ayrıca qeyd edirlәr.

Digәr bir ermәni faşisti - Balkan ölkәlәrindә, Türkiyә vә Azәrbaycanda qanlı cinayәtlәr törәtmiş Qaregin Njde vermaxtın Krımda apardığı döyüş әmәliyyatlarında fәal iştirak etmiş, Hitler ordusunun generalı rütbәsi almışdır. 2001-ci ildә Ermәnistanda buraxılmış nominal dәyәri 100 dram olan sikkәnin tәrs üzündә adı vә soyadı yazılmaqla faşist ordusunun generalı, ermәni terrorcu Q.Njde tәsvir edilmişdir.[271]

**1943-cü il. Berlin. Almaniya.** Ermәni terror tәşkilatları rәhbәrlәrinin reyxsfürer Adolf Hitlerә şәxsәn onun himayәsi altında ermәni faşist ordusu yaratmaq, habelә ermәni kalanbazların milyonlarla pul әmanәtlәrini faşistlәrin xәzinәsinә köçürmәk xahişlәrinә baxmayaraq, fürer rәdd cavabı verәrәk demişdir: "Üç dәfә xәyanәt edәnlәr (Rusiyaya, Türkiyәyә vә RSFSR-ә xәyanәtlәr nәzәrdә tutulur. - **Red.**) dördüncü dәfә dә xәyanәt edәrlәr". Bu sözlәri elә bir adam demişdir ki, onun üçün hәbs düşәrgәlәri yaradılan irqçi imperiyanın iqtisadiyyatının bir hissәsi olmuşdu.[272]

**Fevral 1945-ci il.** Ermәni terrorçu Dronun rәhbәrliyi ilә çıxan "Hayastan" qәzeti haqqında mәlumat. Qәzet faşist svastikasına oxşayan nişanla vә hәmişә dә birinci sәhifәdә Hitlerin portreti ilә nәşr olunurdu. Bu ermәni nasist qәzetinin çox az nüsxәlәri saxlanılmışdır, nüsxәlәrin çox böyük hissәsini "Daşnaksutyun"un ermәni agentlәri Hitler rejiminin





süqutundan sonra yandırmışlar. Qәzetin 1945-ci il fevral tarixli nömrәlәrindәn biri: birinci sәhifәdә Hitlerin fotoşәkli, ikinci sәhifәdә isә faşist generalı, ermәni nasisti Sarkisyanın yeni il tәbriki verilmişdir. Tәbrikdә deyilir: "Yeni il vәtәnin azad edilmәsi uğrunda gәrgin mübarizә ili kimi әlamәtdar olacaqdır. Sovet İttifaqındakı dostlarımız vә qohumlarımız Yeni ili bayram etmirlәr; onlar öz xilaskarlarının tezliklә qәlәbә qazanacağını son dәrәcә böyük ümidlә vә sәbirsizliklә gözlәyirlәr. Vәtәnimizi azad etmәkdәn ötrü biz mәhz onlar üçün var qüvvә ilә çalışmalıyıq... Uşaqlar onlara vә valideynlәrinә qarşı bolşeviklәrin törәtdiklәri әdalәtsizliyә görә onlardan qisas almağı tәlәb edirlәr vә biz onlara görә intiqam almalıyıq. Ötәn il sona yetdi, yeni il başlanır. Nә isә yeni bir şey baş verәcәkdir. Bolşevizmin dә sonu çatır vә onu da nә isә yeni bir şey әvәz edәcәkdir. Ermәni könüllülәri, siz bu yeni әmrin bayraqdarları olmalısınız; siz qaliblәr kimi qayıtmalısınız...". Faşist Dro ilә bağlı olan ermәni terror tәşkilatının mәtbu orqanında bu barәdә danışılması sәciyyәvi haldır. Bu hәmin Drodur ki, bundan әvvәl rus kommunist-bolşeviklәrin bayrağı altında minlәrlә türkü, tatarı, kürdü, lәzgini, azәrbaycanlını qanına qәltan etmiş, indi isә Hitlerin bayrağı altında rusları, polyakları, ukraynalıları, yәhudilәri qırıb-çatır.[273]

**19 aprel 1945-ci il. Moskva. SSRİ.** Ermәni arxiyepiskopu Gevork Corekcyan "Daşnaksutyun" ermәni terror tәşkilatının üzvü Anastas Mikoyanın vasitәsilә Sovet İttifaqının hakimiyyәt dairәlәrindәki әlaqәlәrindәn istifadә edәrәk, Stalinlә görüşmüşdür. Ermәni keşişi kommunist rejiminin başçısına uzun-uzadı xahişlәr siyahısı tәqdim etmişdir, o cümlәdәn: yeni ermәni kilsәlәri açmaq, onları valyuta hesabları ilә tәmin etmәk, ermәni diasporu ilә

әlaqәlәri genişlәndirmәk vә s. Davakar ateizmin hökm sürdüyü o dövrlәr üçün bu xahişlәr dövlәtin dinlәr - xristian pravoslav, xristian katolik, islam, iudaizm vә başqa konfessiyalar barәsindә yeritdiyi rәsmi siyasәtin çәrçivәsinә sığmırdı. İzahedilmәz sәbәblәrә görә, A.Mikoyan Stalini elә öz xәttinin әleyhinә getmәyә vә arxiyepiskopun bütün xahişlәrini yerinә yetirәcәyinә söz vermәyә mәcbur etmәyә müvәffәq olmuşdur. Şübhәsiz, mәhz Mikoyanın tәhriki ilә Stalin şәrt qoymuşdur: bütün dünyaya sәpәlәnmiş on minlәrlә ermәninin Ermәnistana köçürülmәsi tәmin edilsin. Stalin bunu onunla izah edirdi ki, Almaniya ilә müharibә tezliklә qurtaracaq vә SSRİ Türkiyә әrazisinin bir hissәsini zәbt etmәk niyyәtindәdir. O, hәmçinin izah edirdi ki, işğal olunacaq bu әrazilәrdә ermәnilәr yaşamalıdırlar. "Armyanskiy vestnik" qәzetinin yazdığına görә, Corәkcyan sevincini gizlәdә bilmirdi. O, gәlәcәk ermәni miqrantların ev-eşiklә vә әrzaqla tәmin olunmasını xahiş etmişdir. Stalin cavabında demişdir ki, suriyalı, iraqlı, yunanıstanlı vә livanlı ermәni köçkünlәrin çәtinliklәr çәkmәmәsi üçün dövlәt mümkün olan bütün işlәri görәcәkdir. Ermәnilәrin xaricdәn köçürülüb gәtirilmәsinә vә eyni zamanda Azәrbaycan әhalisinin Ermәnistandakı öz әzәli torpaqlarından deportasiya edilmәsinә dair gizli siyasәtә ciddi hazırlıq da mәhz hәmin görüşdәn sonra başlanmışdır. 1945-ci il iyunun 22-dә arxiyepiskop VI Gevork bütün ermәnilәrin katolikosu "seçildi". Türkiyәnin Qars, Әrdәhan vilayәtlәrinin Sovet Ermәnistanına birlәşdirilmәsinin zәruriliyi barәdә onun kommunist hökumәtinin rәhbәrlәrinә müraicәti dә o tarixdә olmuşdur. Rus tәdqiqatcısı V.L.Velickonun "vәhşilik ocağı vә qiyam yuvası" adlandırdığı ermәni kilsәsi ilә ateist Stalinin bu cür "sәmәrәli" әmәkdaşlığından ermәni kommunist mәmuru K.Brutensin "30 let na Staroy ploşşadi" ("30





il Starı meydanında") kitabında da danışılır. Onun yazdığına görә, "Türkiyәdәki azad edilmiş ermәni torpaqları"nda Kommunist Partiyasının iki vilayәt komitәsini yaratmaq nәzәrdә tutulurdu. İş cәfәng bir şәkil almışdır: Ermәni ruhanilәri ilә razılığa әsasәn, Kommunist Partiyasının Qars Vilayәt Komitәsinin katibi vәzifәsinә Kocinyan adlı birisi tәsdiq edilimşdir. Brutens hәmçinin yazır ki, 1945-ci ilin axırlarında - 1946-cı ilin әvvәllәrindә Ermәnistan KP MK-nın birinci katibi Arutyunov Dağlıq Qarabağın vә Naxçıvanın Ermәnistana birlәşdirilmәsi mәsәlәsini qaldırmışdır. Onu bәhanә gәtirirdi ki, Stalinin vә VI Gevorkun çağırışı ilә xaricdәn çox sayda ermәnilәr gәlir, ona görә dә Ermәnistanın әrazisini genişlәndirmәk lazımdır.

Tәdqiqatçılar hәmin faktları siyasi terrorun başlanğıcı kimi şәrh edirlәr: "Daşnaksutyun"un "etnik tәmiz zonalar yaradılması" xәttinin hәyata keçirilmәsinin iki ildәn sonra növbәti mәrhәlәsi başlanacaqdır.[274]

**23 dekabr 1947-ci il. Moskva. SSRİ.** "Daşnaksutyun" beynәlxalq ermәni terror tәşkilatının cinayәtkar fәaliyyәtinin qloballaşdırılmasında yeni mәrhәlә hәmin gündәn başlanır. Bu tәşkilat Hovanes Kacaznuninin belә bir tezisini Sovet İttifaqı rәhbәrliyinin praktikası әsasında tәsdiq etmişdir: "Bolşevik ermәnilәr bizim işimizi davam etdirmәlidirlәr, ... gәlәcәk nailiyyәtlәrә kömәk göstәrmәlidirlәr. Bolşevik ermәnilәr mahiyyәtcә daşnakdırlar, yeganә daşnakdırlar, bu gün sәndәn dә, mәndәn dә daha çox daşnakdırlar. Çünki mәnim dә, sәnin dә, mәnim dә aciz olduğumuz yerlәrdә onlar bizi әvәz etmiş vә ömrümüzü hәsr etdiyimiz işi görürlәr". H.Kacaznuni ölümündәn bir az әvvәl gözlәnilmәdәn "Daşnaksutyun"un әleyhinә cıxaraq, onun terrorçu vә cinayәtkar xarakterini ifşa etdikdә bu tәşkilatın yeni elitasına

aydın oldu: lideri dəyişdirmək vaxtı gəlib çatmışdır. "Daşnaksutyun" erməni terror təşkilatının üzvləri artıq Sovet Ittifaqının ali hakimiyyət dairələrinə daxil olmuşdular, onun rəhbərliyi adından öz cinayətkar fəaliyyətinin yeni mərhələsinə - Ermənistan ərazisindən azərbaycanlı əhalinin kütləvi surətdə deportasiyasını həyata keçirmək məqsədilə siyasi terrora və şantaja başladılar. Yüksək vəzifəli kommunist, "Daşnaksutyun" erməni terror təşkilatının üzvü, 1918-ci ildə Bakının dinc əhalisinə qarşı cinayətləri ilə ad çıxaran A.Mikoyan 1947-ci il dekabrın əvvəllərində "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köcürülməsi haqqında" sənədin layihəsini hazırladı. Stalin əvvəlcə könülsüz olaraq, amma sonra A.Mikoyan ona hansısa "sənədləri və fotoşəkilləri" göstərdikdə sənədin layihəsinə öz dərkənarını qoydu: "Ermənistandan 100-150 min azərbaycanlının könüllülük əsasında Azərbaycana - Kür-Araz ovalığına köçməsinə icazə verilsin". 1947-ci il dekabrən 23-də SSRİ Nazirlər Soveti *"Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köcürülməsi haqqında"* 4083 nömrəli Qərar qəbul etdi:

*1. 1948-1950-ci illərdə Ermənistan SSR-dən 100 min kolxozçu və başqa azərbaycanlı əhali könüllülük əsasında Azərbaycan SSR-in Kür-Araz ovalığına köcürülsün; onlardan: 10 min nəfər - 1948-ci ildə, 40 min nəfər - 1949-cu ildə və 50 min nəfər - 1950-ci ildə.*

*2. Azərbaycan SSR və Ermənistan SSR Nazirlər Sovetlərinə tapşırılsın:*

*a) kolxozcular və digər azərbaycanlı əhali arasında Azərbaycan SSR-nin Kür-Araz ovalığına köcürülənlərə dövlətin yaratdığı şəraitin və verdiyi güzəştlər barədə izahetmə işləri təşkil edilsin;*



Erməni terror və quldur birləşmələrinin bəşəriyyətə qarşı cinayətləri

*b) kolxozların köçkün kolxozçulara, onların yola düşməsinə 10 gün qalmasından gec olmayaraq, qazandıqları əmək günlərinin kolxozların istehsalat planları ilə nəzərdə tutulmuş ölçülərdə haqq-hesabı təmin edilsin;*

*v) köçkünlərin şəxsi istifadəsində olan bütün əmlakın, mal-qaranın və quşların daşınması təmin edilsin.*

*3. Nazirliklərin və baş idarələrin, idarə və müəssisələrin rəhbərlərinə bir vəzifə olaraq tapşırılsın ki, Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçən şəxsləri işdən azad etsinlər.*

*4. Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcək azərbaycanlı əhali üçün aşağıdakı güzəştlər təyin edilsin:*

*a) köçürülən hər ailəyə iki ton ev əşyası və kənd təsərrüfatı heyvanlarını aparması üçün dövlət hesabına pulsuz gediş təmin edilsin;*

*b) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürüləcək kolxozçulara, məcburi süd tədarükü üzrə güzəşt istisna olmaqla, "Kənd təsərrüfatında köcürmə işləri üzrə güzəştlər haqqında" SSRİ Mərkəzi İcraiyyə Komitəsinin və SSRI Xalq Komissarları Şurasının 1937-ci il 17 noyabr tarixli 115/2043 nömrəli Qərarı şamil edilsin;*

*v) köçmə zamanı köçkünlərin ailələrinə qaytarılmamaq şərtilə ailə başçısına 1000 manat və ailənin hər bir üzvünə 300 manat məbləğində müavinət verilsin;*

*q) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köcürülmüş ailələrə məskunlaşdığı yerlərində ailə başçısına 1,5 sentner və ailənin hər bir üzvünə 0,5 sentner nağd hesabla ərzaq taxıl satılsın.*

*5. Ermənistan SSR-dən Azərbaycan SSR-nin Kür-Araz ovalığına köcürülən azərbaycanlı əhaliyə məskunlaşacağı yerlərdə mübadilə qəbzləri əsasında həmin miqdarda məh-*

*sul və mal-qara almaq hüququnu saxlaması ilə, tərk etdikləri yerlərdə tədarük təşkilatlarına kənd təsərrüfatı məhsullarını (taxıl, kartof), habelə karantin şərtlərinə görə daşınması qadağan edilmiş mal-qaranı təhvil verməsinə icazə verilsin.*

*6. Kənd Təsərrüfatı Bankına tapşırılsın:*

*a) Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülənlərdən ehtiyacı olanlara hər təsərrüfata ev tikmək və həyətyanı tikinti üçün 20 min manat məbləğində, kreditin alındığından üç il sonra başlayaraq, 10 il müddətində ödəməklə kredit verilsin;*

*b) ehtiyacı olan köçkünlərə hər ailəyə, ssuda alındıqdan sonra, üçüncü ilindən başlayaraq 5 il müddətində ödənilməklə, mal-qara almaq üçün 3 min manat məbləğində uzunmüddətli ssuda verilsin.*

*7. Dəmir Yolları Nazirliyinə bir vəzifə olaraq tapşırılsın:*

*a) Ermənistan SSR Nazirlər Sovetinin sifarişləri əsasında azərbaycanlı əhalinin, onların əmlakının və mal-qarasının Azərbaycan SSR-ə daşınması xüsusi düzəldilmiş eşelonlarla dezinfeksiya edilmiş və avadanlıqla təchiz olunmuş vaqonlarda təmin edilsin;*

*b) köçkünlərin köçdükləri yerlərdə vaqona görə ödəniş tutulmadan Dəmir Yolları Nazirliyinin, Azərbaycan SSR Nazirlər Sovetinin və Ermənistan SSR Nazirlər Sovetinin təsdiq etdikləri qrafik üzrə Yollar İdarəsi vaqonların göndərilməsini həyata keçirsin. Azərbaycanlı əhalinin daşınmasına görə pul hesabı Dəmir Yol İdarəsi tərəfindən təqdim edilmiş hesabdan mərkəzləşdirilmiş qaydada ödənilsin.*

*8. SSRİ Səhiyyə Nazirliyinə tapşırılsın ki, çıxış yerlərində bütün köçkünlərin tibbi müayinədən keçirilməsini və onlara yol boyunca tibbi-sanitar xidməti göstərilməsini təmin etsin.*





*Eşelonları müşayiət etmək üçün tibb işçiləri və lazımı dərman ayrılsın.*

*9. SSRİ Maliyyə Nazirliyinə tapşırılsın ki, Azərbaycan SSR-nin 1948-ci il büdcəsində Ermənistan SSR-dən azərbaycanlı əhalinin Azərbaycan SSR-yə köçürülməsini təmin etmək üçün lazımi xərcləri nəzərdə tutsun.*

*10. Ermənistan SSR-nin Nazirlər Sovetinə və Azərbaycan SSR-nin Nazirlər Sovetinə tapşırılsın ki, Ermənistan SSR-dən köçürülən əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsini və orada yerləşdirilməsini təmin etmək üçün bu qərarın icrası ilə əlaqədar olaraq bir ay müddətində birgə konkret tədbirlər planı işləyib hazırlasın və onların haqqında SSRİ Nazirlər Sovetinə məlumat versinlər.*

*11. Ermənistan SSR-nin Nazirlər Sovetinə icazə verilsin ki, azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçməsi ilə əlaqədar onların boşaltdıqları tikililəri və yaşayış evlərini xaricdən Ermənistan SSR-yə gələn xarici erməniləri yerləşdirmək üçün istifadə etsinlər.*

SSRİ Nazirlər Sovetinin sədri
İ.Stalin

SSRİ Nazirlər Sovetinin İşlər İdarəsinin müdiri
Y.Cadayev

Erməni kommunistlərin azərbaycanlıların köçürülməsində tətbiq etdikləri çox sərt forma və üsullar "bəşəriyyətə qarşı cinayətlər"ə tam əsasla əyani misal ola bilər. Köçürülmə deyilən əməliyyatın - erməni kommunistlərin "etnik təmiz zonalar" yaratmaq siyasəti üzrə əməliyyatın

gedişində təxminən 10 000 insan həlak olmuşdur. Əsrlər boyu indiki Ermənistanın dağ yerlərində yaşamış Qərb regionundan olan azərbaycanlılar onlar üçün yeni yarımsəhra və çöl iqlim şəraitinə qətiyyən öyrəşməmişdilər. Əziyyət və iztirablardan sonra çöl-biyabanlıqda taleyin hökmünə buraxılmış insanlar kütləvi surətdə qırılırdılar. "Deportasiya" kitabında Ermənistanın Zəngibasar rayonundakı "Azad" kolxozundan Azərbaycanın Ağcabədi rayonundakı Molotov adına kolxoza deportasiya edilmiş Əmir İsmayılovun 1951-ci ildə Stalinə göndərdiyi teleqram misal gətirilir. Teleqramda deyilir: "Əziz atamız! Azərbaycanda bizim yaşamağımız üçün şərait yoxdur. Buranın iqlim şəraiti bizə düşmür. Uşaqlarımız ölürlər...". "Daşnaksutyun" erməni terror təşkilatının güddüyü məqsəd də minlərlə azərbaycanlı uşağın həyatına son qoyan məhz bu "təbii" ölüm idi.[275]

**10 mart 1948-ci il. Moskva. SSRİ.** "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi tədbirləri haqqında" SSRİ Nazirlər Sovetinin 754 nömrəli növbəti Qərarı. Güman etmək olar ki, azərbaycanlıların deportasiyası haqqında birinci Dekret "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının liderlərini tam razı salmamışdır. Sənədin ikinci layihəsini də A.Mikoyan hazırlamış və şəxsən İ.Stalin imzalamışdır. Azərbaycanlıların deportasiyası əməliyyatına Ermənistan tərəfindən əvvəllər Azərbaycanın Xalq Daxili İşlər Komissarlığı sistemində işləmiş general-mayor Qriqoryan başçılıq edirdi. "Daşnaksutyun" erməni terror təşkilatının göstərişini yerinə yetirən və eyni zamanda "sədaqətli kommunist" olan general Qriqoryan hələ Bakıda işləyərkən "xalq düşmənləri"nin çoxsaylı siyahılarını tuturdu. Həmin siyahılar





əsasında on minlərlə azərbaycanlı, ilk növbədə, ziyalılar edam edilmiş və sürgünə göndərilmişdir. Səciyyəvi haldır ki, azərbaycanlıları öz əzəli torpaqlarından kütləvi surətdə didərgin salınmasının təşkilini A.Mikoyan "Daşnaksutyun" terror təşkilatının qərarlarına dinməz-söyləməz tabe olan məhz bu "adama" tapşırmışdı. Deportasiya edilənlərin yerləşdirilməsi məsələləri ilə Azərbaycan tərəfindən respublika Nazirlər Sovetinin məsul işçiləri, A.Mikoyanın silahdaşları, etnik ermənilər N.Brutens və R.Sevumyan məşğul olurdular... Deportasiya faktları sübut edir: 1948-ci ildə 24 631 nəfər, 1949-cu ildə 54 373 nəfər, 1950-ci ildə 65 650 nəfər azərbaycanlı Ermənistandakı doğma yerlərindən zorakılıqlarla qovulmuşdur. O illərin sənədlərində və şahidlərin ifadələrində bu adamlara qarşı insanlığa zidd çoxsaylı ətürpərdən və dəhşətli misallar var. Aşağıda onlardan bəziləri göstərilir.

1949-cu ilin dekabrında Ermənistan Sovet Sosialist Respublikasının Noemberyan rayonundakı Ləmbəli Azərbaycan kəndinə erməni milis dəstələri ilə dolu 100-dək maşın gəlmişdir. Onlar divan tutacaqları ilə hədə-qorxu gələrək, bütün sakinləri doğma yerlərindən didərgin salmışlar. Milis forması geymiş erməni terrorçuların apardığı etnik təmizləmə əməliyyatı zamanı 2 azərbaycanlı qadın, 2 uşaq və 1 kişi döyülərək öldürülmüşdür. Ağır yaranlanmış onlarca adam xəstəxanaya qoyulmaq zərurəti bəhanəsi ilə naməlum istiqamətdə aparılmışdır. 1950-ci ilin noyabrında Cul, Qomur, Safoylu kəndlərindən azərbaycanlılar ölümlə hədələnərək qovulmuşlar. 16 ahıl azərbaycanlı qadın və bir neçə körpə Zar kəndinə gedib çıxmamış qar çovgununa düşərək həlak olmuşdur. "Azərbaycanlıların soyqırımı haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanında deyilir: "...ermənilər SSRİ Nazirlər

Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular. Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başladılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub oldugunu sübut etməyə çalışırdılar. Eyni zamanda onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənirdi. "Yazıq, məsum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəllərində regionda baş vermiş hadisələr şüurlu surətdə təhrif olunur, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilirdi. Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulur. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilir.

Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilir. toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş verir".

Tanınmış tədqiqatçı M.Nemətin məlumatlarına görə: "ermənilər azərbaycanlıları öz əzəli torpaqlarından qovan kimi kəndlərin, göllərin, çayların adlarını dərhal dəyişdirirdilər. Nəticədə Göyçə Sevana, Urud Oronta, Cəfərabad Arqavanda, Zəngəzur Sisiana, Qarabağ Artsaxa çevrilmişdir və s. Toponimlərin dəyişdirilməsi ilə yanaşı, maddi mədəniyyət abidələri, orta əsrlərə aid nekropollar, məscidlər də dağıdılır və yer üzündən silinirdi. Bu proses Sovet Ermənistanında xüsusilə intensiv aparılırdı. Orta əsr qəbiristanlığının, daha dəqiq desək, Zəngəzurun Urud kəndindəki XV-XVII əsrlərin qəbirüstü abidələrinin də taleyi beləcə olmuşdur. Bütün bu qəbiristanlığa kotan salınmış və yerlə yeksan edilmişdir".[276]

**24-25 aprel 1965-ci il. Yerevan. Ermənistan.** Uydurma "erməni soyqırımı" bəhanəsi ilə əlaqədar Yerevanda faşist şousu təşkil olunmuşdur. "Daşnaksutyun" beynəlxalq terror təşkilatının fəalları tərəfindən qızışdırılan 400 000 erməni küçələrə çıxaraq, türklər, azərbaycanlılar əleyhinə şuarlarla çığır-bağır salmış və Qarabağ, Naxçıvan torpaqlarının və Türkiyənin xeyli hissəsinin Ermənistana verilməsini tələb etmişdir. Bu, Ermənistandakı etnik azərbaycanlılara dövlət təzyiqinin və ictimai təzyiqin güclənməsinə gətirib çıxaran təbliğat xarakterli açıq-aşkar erməni terrorunun bir nümunəsi idi. Azərbaycanlıları işdən çıxarır, məktəblərə buraxmır, hüquq mühafizə orqanları nümayəndələrinin gözü qarşısındaca döyürdülər. Bu əməllər nəticəsində on minlərlə azərbaycanlı doğma yerlərini tərk etməli olmuşdur. Lakin müxtəlif erməni terror təşkilatlarının Ermənistanın və Sovet İttifaqının hakim kommunist strukturlarındakı üzvləri "etnik təmizləmə" xəttini gözlədikləri nəticəyədək gətirib çıxarmağa uzun müddət müvəffəq olmadılar. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1998-ci il mayın 27-də söylədiyi nitqində demişdir: "...30-cu, 40-cı, 50-ci, 60-cı, 70-ci illərdə erməni millətçiləri Dağlıq Qarabağı Azərbaycandan ayırıb Ermənistana birləşdirmək cəhdlərindən əl çəkməmişdilər.

Onlar dəfələrlə çox qızğın fəaliyyətə başlamışdılar. Ancaq onların qarşısı alınmışdır. Mən bunların şəxsən şahidiyəm və bir çox hallarda həmin cəhdlərin qarşısının alınmasının təşkilatçısıyam". Sonralar, M.Qorbaçovun hakimiyyəti illərində "Daşnaksutyun" Heydər Əliyevin hakimiyyətdən uzaqlaşdırılması üçün mümkün hər şeyi edəcək və onu hətta "antierməni fəaliyyəti"nə görə müttəhimlər kürsüsünə oturtmağa can atacaqlar. Buna İ.Muradyanın məktubu sübutdur.[277]

**5 sentyabr 1972-ci il.** Münxen. Almaniya Federativ Respublikası. ASALA-nın (Armenian Secret Army of Liberation of Armenia - Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu) banilərindən birinin - Hakop Hakopyanın öz karyerasına başladığı "Qara sentyabr" terror qruplaşması Münxendə keçirilən Olimpiya oyunlarında İsrail idmançılarının qətlə yetirilməsini təşkil etmiş və həyata keçirmişdir. "Armenian Reporter" qəzeti 1985-ci il 7 fevral tarixli nömrəsində Hakop Hakopyanın 1982-ci ildə həlak olduğu barədə mətbuatda verilmiş xəbərləri təkzib edərək, yazmışdı ki, o, gah Dəməşqdə, gah da Afinada yaşayır, burada ona hər cür şərait yaradılmışdır. Elə həmin mənbə Parisdə çıxan mötəbər "Le Matin" qəzetinə istinadla qeyd edir ki, Hakop Hakopyan Münxendə idmançıların öldürülməsinin (sonralar beynəlxalq mətbuat bunu "Münxen qətlamı" adlandıracaq) fəal iştirakçısı olmuşdur. Fransanın bu qəzetinin yazdığı kimi, Hakopyan (Bedros Ohanesyan) "İraqın Mosul şəhərində doğulmuşdur. 1982-ci ildə Beyrutun terror qruplarında iştirak etmiş, lakin İsrail qoşunları şəhərə daxil olduqda ölkədən qaçmışdır". "Le Matin" belə bir faktı təsdiqləyir ki, Hakop Hakopyan ASALA erməni terror təşkilatının "yaradıcısı və rəhbəridir".





Qəzet həmçinin yazır ki, "ASALA-nın xərcləri onu dəstəkləyən varlı ermənilərin verdikləri ianələrlə qismən ödənilir, qalan vəsait isə başqa mənbələrdən, o cümlədən də narkobiznesdə davam etməkdə olan iştirakdan əldə olunur". ASALA-nın terror təşkilatı oldugunu Amerika mənbələri də təsdiq edirlər.[278]

**1973-cü il.** "Daşnaksutyun" erməni terror təşkilatı həmin dövrdə daha bir hərbiləşdirilmiş bölmə yaradır: "Erməni soyqırımının qisasçıları". Lap əvvəldən bu bölmə öz fəaliyyətinin antitürk xarakteri daşıdığını açıqlamışdır. Dünyanın müxtəlif regionlarında müxtəlif adlarla fəaliyyət göstərən bu qurum 1980-1982-ci illərdə Avstriyada, Danimarkada, Portuqaliyada terror aktları keçirilməsində iştirak etmişdir. O, ən çox ASALA-dan olan erməni terrorçularla əlbir işləyir. "Erməni soyqırımının qisasçıları" təşkilatının rəhbərləri və ən fəal üzvləri bunlardır: Tiqran Abqaryan, Harutyun Avetisyan, Stepan Avyan, Hakop Haqolyan. İrəlicədən qeyd edək ki, bəzi mənbələrə görə, 1973-cü ildən 2002-ci ilədək erməni terror təşkilatları təkcə Qərbi Avropa ölkələrində 235 terror aktı və 70 qətl, 41 sui-qəsd törətmiş, 524 adamı yaralamışlar. Ermənilərin terror aktları nəticəsində 105 mülki şəxs girov götürülmüş və müxtəlif erməni terror təşkilatlarının hökmləri ilə 12 adam edam edilmişdir.[279]

**27 yanvar 1973-cü il. Santa-Barbara. Kaliforniya. Amerika Birləşmiş Ştatları.** Türkiyənin Los-Ancelesdəki baş konsulu Mehmet Baydar və bu şəhərdəki konsulu Bahadır Dəmir erməni terrorçu Qurgen Yanikyan tərəfindən qətlə yetirilmişlər. Cinayətlər Santa-Barbara şəhərinin "Biltmor" mehmanxanasında törədilmişdir. Təhlükə

gözləməyən türk diplomatları buraya dostları ilə görüşməyə gəlmişdilər. Məhkəmənin ömürlük həbs cəzası haqqında qərarına baxmayaraq, Qurgen Yanikyan "səhhətinin vəziyyətinə görə" bir müddətdən sonra azadlığa buraxılmışdır.[280]

**4 aprel 1973-cü il. Paris. Fransa.** Erməni terror qruplaşması Türkiyə konsullugunun və Türkiyə avianəqliyyat şirkətinin binası qarşısında bombalar partlatmışdır.[281]

**26 oktyabr 1973-cü il. Nyu-York. Amerika Birləşmiş Ştatları.** Türkiyə İnformasiya Xidməti poçt bağlaması alır. Onun içində 1973-cü il yanvarın 27-də Kaliforniya ştatının Santa-Barbara şəhərində türk diplomatlarını qətlə yetirən cinayətkarın adını daşıyan "Məhkum Qurgen Yanikyan" erməni terror qrupundan bomba və məktub vardı. Təhlükəsizlik xidmətləri bombanı vaxtında zərərsizlışdirmişlər.[282]

**1975-ci il. Beyrut. Livan.** Daha bir erməni terror təşkilatı yaradılmışdır: ACOA. Onun iqamətgahı Dəməşqdədir. 1975-ci ilin cəmi altı ayında ACOA dünyanın müxtəlif ölkələrində 19 türk diplomatının qətlə yetirilməsini təşkil etmişdir. Təşkilatın 1000-dən çox yaraqlısı var və onlar fələstinlilərin Suriyadakı bazalarında, Kipr adasının yunanlar yaşayan hissəsində yerləşən hərbi düşərgələrdə hazırlıq keçirlər.[283]

**1 yanvar 1975-ci il. Beyrut. Livan.** Erməni terrorçular bir sıra mülki obyektlərə silahlı basqın etmişlər.[284]





**20 yanvar 1975-ci il. Beyrut. Livan.** ASALA liderlərindən birinin mətbuat konfransında aşkar açıqlanmışdır ki, bu təşkilatın ilk terror aktı 1975-ci il yanvarın 20-də həyata keçirilmişdir. Həmin gün ASALA erməni terror təşkilatı Ümumdünya Kilsələr Şurasının Beyrutdakı idarələrini partlatmışdır.[285]

**7 fevral 1975-ci il. Beyrut. Livan.** Türkiyə İnformasiya Agentliyinin və Turizm Bürosunun binasına qoyulmuş bombanı zərərsizləşdirməyə çalışan bir livanlı mütəxəssis ağır yaralanmışdır. Partlayışa görə məsuliyyəti "Məhkum Qurgen Yanikyan" erməni terror qrupu öz üzərinə götürmüşdür.[286]

**20 fevral 1975-ci il. Beyrut. Livan.** Türkiyənin Beyrutdakı avianəqliyyat şirkətinin binası qarşısında bir kiloqramlıq bomba partladılmışdır.

Partlayışa görə məsuliyyəti "Məhkum Qurgen Yanikyan" erməni terror qrupu öz üzərinə götürmüşdür.[287]

**22 oktyabr 1975-ci il. Vyana. Avstriya.** Üç silahlı erməni terrorçu Türkiyənin Vyanadakı səfirliyinə soxularaq, səfir Dəniz Tunalicili öldürmüşdür. Qanlı cinayətə görə məsuliyyəti "Müzəffər erməni ordusu" terror qrupu öz üzərinə götürmüşdür.

Başqa bir erməni terror təşkilatı - ASALA da bildirmişdir ki, bu cinayəti o törətmişdir. Bir-birinə qarşı bu cür iddialar irəli sürməklə erməni terror təşkilatları özlərinə imic yaratmağa və beynəlxalq terrorizm sahəsində xüsusi statusa nail olmağa çalışırdılar.[288]

**24 oktyabr 1975-ci il. Paris. Fransa.** Səfir İsmayıl Ərəz və sürücüsü Talıb Yenər öldürülmüşlər. ASALA və CSAQ erməni terror təşkilatları bu qətlə görə məsuliyyəti öz üzərlərinə götürmək üçün bir-birilə mübahisə aparırlar. Erməni terror təşkilatları arasında rəqabət bəzən rüsvayçı hal alırdı. İmic uğrunda mübarizədə konkret adamın həyatı, tökülmüş qan unudulurdu.

CSAQ terror təşkilatı 1972-ci ildə "Daşnaksutyun" partiyasının Vyanada (Avstriya) keçirdiyi XX qurultayında yaradılmışdır. Onun məqsədi Livanın erməni mənşəli gənc vətəndaşlarını hərbiləşdirilmiş yeni terror bölməsində birləşdirməkdir.[289]

**28 oktyabr 1975-ci il. Beyrut. Livan.** Türkiyənin Beyrutdakı səfirliyi binasının raketlə bombardman edilməsi xeyli dağıntıya səbəb olmuşdur. Cinayətə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.

Armenian Secret Army of Liberation of Armenia (ASALA - Ermənistanın azadlığı uğrunda erməni gizli ordusu) 1975-ci ildə yaradılmışdır. İqamətgahı Beyrutdadır. ASALA Qərbi Avropada, Yaxın Şərqdə, əsasən Suriyada (Bəqa vadisi), Livanda, Şimali Amerikada infrastrukturlara malikdir. Əsas strukturlardan biri - təşkilat mərkəzi Afinada (Yunanıstan) yerləşir. Terror təşkilatının məqsədi "böyük Ermənistan" yaradılması uğrunda mübarizə aparmaqdır. ASALA Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı, habelə onların strateji müttəfiqlərinə qarşı terror fəaliyyəti aparır. Rəhbərləri və fəal üzvləri: Hakop Hakopyan, Simon Zakaryan, Vazgen Petrosyan, Vazgen Sisliyan, Seda Kavramyan, Gilbert Levon Molnasyan, Martiros Camdocyan.

1973-cü ildə ASALA-nın gələcək erməni yaraqlıları fələstinlilərin düşərgələrində təxribat-terror əməliyyatlarının təşkili və həyata keçirilməsi üzrə güclü hazırlıq keçirlər. Erməni terrorçular hazırlanması üçün əsas bazalardan biri də Kiprin yunanlara aid ərazisindəki Trodos dağlarında xüsusi olaraq yaradılmış düşərgədir. Bi-Bi-Si informasiya agentliyinin xəbərinə görə, İsrailin Mossad kəşfiyyat təşkilatı PKK və ASALA yaraqlılarının təlimi üçün Kiprdə, Trodos dağlarında yaradılmış düşərgələr barədə mühüm məlumata malik idi...

ASALA-nın liderlərindən biri - Akop Akopyan Münxen Olimpiadasında İsrail idmançılarının qətlə yetirilməsində fəal iştirak etmişdir. Mücahid müsəlman ləqəbi ilə də tanınan bu etnik erməni PFLQQ, Əbu Nidal və "Qara sentyabr" kimi terror təşkilatları ilə əməkdaşlıq etmişdir. 1975-ci ildə PFLQQ strukturu bazasında ASALA-nın yaradılmasının təşəbbüsçüsü olmuşdur. Terror aktları əvvəlcə yalnız Türkiyə vətəndaşlarına qarşı həyata keçirilirdi. Sonralar ən müxtəlif ölkələrin və millətlərin də nümayəndələri ASALA-nın qurbanları oldular. 1975-ci ildən 1985-ci ilədək ASALA erməni terror təşkilatı 168 beynəlxalq terror aktı törətmiş, bunların bir qismi ölümlə nəticələnmişdir. Mənbələrin məlumatlarına görə, ASALA-nın terror əməliyyatlarında Yaxın Şərqin müxtəlif ölkələrindən olan muzdlular da iştirak edirlər.[290]

**16 fevral 1976-cı il. Beyrut. Livan.** Türkiyənin Beyrutdakı səfirliyinin birinci katibi Oktar Sirit şəhərin Həmra küçəsində erməni terrorçu tərəfindən öldürülmüşdür. Quldur qaçıb aradan çıxa bilmişdir.

Qətlə görə məsuliyyəti "Daşnaksutyun"un ideologiyasına müvafiq surətdə fəaliyyət göstərən ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[291]

**17 may 1976-cı il. Frankfurt, Essen, Köln. Almaniya Federativ Respublikası.** Türkiyənin Frankfurt, Essen və Kölndəki diplomatik ofisləri eyni zamanda erməni terror təşkilatlarının bomba hücumlarının hədəflərinə cevrilmişdir.[292]

**28 may 1976-cı il. Sürix. İsveçrə.** Türkiyənin "Qaranti Bankası"nın İsveçrə filialı və Türkiyənin əmək məsələləri attaşesinin ofisi iki bomba partladılması nəticəsində dağılmışdır. Türkiyə Turizm Bürosunun ofisinə qoyulan üçüncü bombanı təhlükəsizlik xidmətləri vaxtında zərərsizləşdirmişlər. İsveçrənin asayiş orqanları təsdiqləmişlər ki, cinayəti "Daşnaksutyun"un ideologiyasına uygun olaraq fəaliyyət göstərən CSAQ erməni terror təşkilatı törətmişdir. Elə həmin vaxtlarda daha bir erməni terrorcu - narkotik maddələr alverçisi Nübar Safoyan Sürixdəki partlayışda əli olan erməni terror təşkilatlarını maliyyələşdirməkdə şübhəli bilinərək İsveçrədə həbsə alınmışdır.[293]

**2 may 1977-ci il. Beyrut. Livan.** Erməni terrorçular Türkiyənin hərbi attaşesi Nahit Qaraqayanın və inzibati-təsərrüfat məsələləri üzrə attaşesi İlham Ozbakanın avtomobillərini atəşə tutmuşlar. Məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür. Həmin vaxtadək ASALA böyük maliyyə kapitalına malik idi və bu, ona ən yeni silahlar almaga imkan verirdi.

Səkkiz il sonra tədqiqatçı Mark S.Steynts erməni terror təşkilatlarının maliyyələşdirilməsi məsələlərini öyrənərək, onların narkobizneslə əlaqələri olduğu faktını xüsusi qeyd edəcəkdir.[294]





**14 may 1977-ci il. Paris. Fransa.** Türkiyənin Parisdəki Turizm Bürosunun binasında partlayış baş vermişdir. Bir nəfər yaralanmışdır. Cinayətə görə məsuliyyəti iki müxtəlif erməni terror təşkilatı öz üzərinə götürmüşdür:

a) ASALA-nın tərkibinə daxil olan "Yeni erməni müqaviməti";

b) "Gənclərin çıxışları qrupu".[295]

**29 may 1977-ci il. İstanbul. Türkiyə.** İstanbulun "Yeşilköy" hava limanında güclü bomba partlamışdır: 5 adam olmuş və 42 nəfər yaralanmışdır (onların arasında ABŞ vətəndaşı da vardı). Elə həmin gün İstanbulun "Sirkeci" vağzalında da bomba partlamışdır. Burada bir nəfər olmuş və 10 adam yaralanmışdır. Vağzalın binası güclü zədələnmişdir. Bu qanlı əməllərə görə məsuliyyəti "28 may adına erməni təşkilatı" terror qrupu öz üzərinə götürmüşdür.[296]

**6 iyun 1977-ci il. Sürix. İsveçrə.** Yüclü partlayış nəticəsində milliyyətcə türk olan Hüseyn Bülbülə məxsus mağaza dağılmışdır. Bu cinayətə görə erməni terror təşkilatlarından birinin məsuliyyət daşıması ehtimalı sonralar istintaqın gedişində dəqiqləşdirilmiş bir sıra faktlarla təsdiqlənmişdir.[297]

**9 iyun 1977-ci il. Vatikan.** Türkiyənin Vatikandakı səfiri Taha Kərim öz iqamətgahı qarşısında iki erməni terrorçu tərəfindən öldürülmüşdür. CSAQ erməni terror təşkilatı Beyruta, informasiya agentliyinə zəng vuraraq, qətlə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[298]

**4 oktyabr 1977-ci il. Los-Anceles, Kaliforniya ştatı. Amerika Birləşmiş Ştatları.** Amerika professoru, milliyyətcə yəhudi, Kaliforniya Universitetinin şərq tarixi üzrə mütəxəssisi Stenford Şounun evi qarşısında bomba partlamışdır. Bunun nəticəsində bina xeyli dağılmışdır. Professor Şou sanki möcüzə sayəsində sağ qalmışdır. Cinayətə görə məsuliyyəti "Erməni qrupu - 28" terror təşkilatı öz üzərinə götürmüşdür.[299]

**2 yanvar 1978-ci il. Brüssel. Belçika.** Bomba partlayışı nəticəsində Türkiyə bankının binası dağılmışdır. Məsuliyyəti ASALA-nın bölməsi olan "Yeni erməni müqaviməti" terror qrupu öz üzərinə götürmüşdür.[300]

**3 yanvar 1978-ci il. London. Böyük Britaniya.** Londondakı Türkiyə bankında partayıcı qurğu işə düşmüşdür. Terror aktına görə məsuliyyəti ASALA-nın bölməsi - "Yeni erməni müqaviməti" terror təşkilatı öz üzərinə götürmüşdür.[301]

**8 yanvar 1978-ci il. Moskva. SSRİ.** Moskva metrosunda partlayış baş vermişdir. Terror aktını S.Zatikyan, Z.Baqdasaryan və A.Stepanyandan ibarət cinayətkar qrup törətmişdir. Məsuliyyəti Milli Birlik Partiyaşı erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[302]

**2 iyun 1978-ci il. Madrid. İspaniya.** Avtomat silahlı üç erməni terrorçu Türkiyə səfiri Zəki Kunerəl diplomatik nümayəndəliyin ərazisindən çıxarkən onun maşınına atəş açmışdır. Bu zaman səfirin xanımı Pəklə Kunerəl və istefadakı səfir Bəşir Balaşoğlu həlak olmuşlar. Milliyyətcə





ispan olan sürücü Antonio Torres ağır yaralar almış və xəstəxanada cərrahiyyə əməliyyatı zamanı ölmüşdür.

Qətllərə görə məsuliyyət üstündə ASALA və CSAQ erməni terror təşkilatları indiyədək öz aralarında mübahisə edərək, hərəsi onu öz adına çıxmağa çalışır.[303]

**8 iyul 1978-ci il. Paris. Fransa.** Parisdə Türkiyə səfirliyinin attaşesinə qəsd edilmişdir. Bir müddətdən sonra Türkiyə Turizm Bürosuna qumbara atılmışdır. Hər iki terror aktına görə məsuliyyəti "Erməni soyqırımının ədalətliliyi komandosları" terror təşkilatı öz üzərinə götürmüşdür.[304]

**6 dekabr 1978-ci il. Cenevrə. İsveçrə.** Türkiyə konsulluğunun binası qarşısında partlayış baş vermiş və bu, xeyli dağıntıya səbəb olmuşdur.

Terror aktına görə məsuliyyəti "Yeni erməni müqavimәti" terror təşkilatı öz üzərinə götürmüşdür.[305]

**17 dekabr 1978-ci il. Cenevrə. İsveçrə.** Cenevrədə Türkiyə avianəqliyyat şirkətinin binası qarşısında partlayış baş vermişdir.

Məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[306]

**1979-cu il.** Bu il "Erməni azadlıq cəbhəsi" terror təşkilatı yaradılmışdır. O, strukturca ASALA-nın tərkibinə daxildir, Türkiyə və Azərbaycan ərazilərinə göndərmək üçün terrorçular hazırlamaqla məşğuldur. Arsen Vasiyan, Razmik Vasiyan, Edik Zatikyan, Andrey Sirvanyan bu erməni terror təşkilatının ən fəal üzvləridir.[307]

**8 iyul 1979-cu il. Paris. Fransa.** Erməni terrorçular Türkiyənin aşağıdakı təşkilatlarında üç bomba partlayışı törətmişlər:

1) avianəqliyyat şirkəti;
2) əmək məsələləri üzrə attaşenin ofisi;
3) Turizm Bürosu.

İqtistadi əməkdaşlıq və İnkişaf Təşkilatının işləri üzrə Türkiyə daimi nümayəndəliyinin binasında qoyulmuş dördüncü bomba Parisin asayiş xidmətləri tərəfindən vaxtında zərərsizləşdirilmişdir. Partlayışlara görə məsuliyyəti CSAQ erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[308]

**22 avqust 1979-cu il. Cenevrə. İsveçrə.** Türkiyənin Cenevrədəki konsulu Niyazi Ədalinin maşınına qoyulmuş bombanın partlaması nəticəsində İsveçrə paytaxtının iki sakini yaralanmış və xəstəxanaya qoyulmuşdur.

Cinayətə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[309]

**27 avqust 1979-cu il. Frankfurt. Almaniya Federativ Respublikası.** Frankfurtda Türkiyə avianəqliyyat şirkətinin binası qarşısında partlayışlar nəticəsində şəhərin bir sakini ağır yaralalanmışdır. Oradan keçən tramvayın sərnişinləri də xəsarət almışlar.

Cinayətə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[310]

**4 oktyabr 1979-cu il. Kopenhagen. Danimarka.** Türkiyə avianəqliyyat şirkətinin binası yaxınlığında zibil qutusuna qoyulmuş bombanın partlaması nəticəsində ağır yaralanmış iki danimarkalı təcili xəstəxanaya aparılmışdır. Partlayış xeyli dağıntıya səbəb olmuşdur.





Cinayətə görə məsuliyyəti "Daşnaksutyun"un ideoloji xəttinə əməl edən ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[311]

**12 oktyabr 1979-cu il. Haaqa. Hollandiya.** Türkiyə səfiri Özdəmir Benlərin 27 yaşlı oğlu Əhməd Benler öz maşınında erməni terrorçu tərəfindən öldürülmüşdür. Delft Texniki Universitetinin doktorantı 10 şahidin gözləri qarşısında qətlə yetirilmişdir. Cani aradan çıxmışdır.

Qətlə görə məsuliyyəti CSAQ və ASALA erməni terror təşkilatları öz üzərinə götürmüşlər.[312]

**30 oktyabr 1979-cu il. Milan. İtaliya.** Türkiyə avianəqliyyat şirkətinin binası partlayış nəticəsində xeyli zədələnmişdir.

Partlayışa görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[313]

**8 noyabr 1979-cu il. Roma. İtaliya.** Türkiyə səfirliyinin binası partlayış nəticəsində dağılmışdır. Turizm üzrə attaşenin ofisi də burada yerləşirdi. Partlayışa görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[314]

**18 noyabr 1979-cu il. Paris. Fransa.** Parisin mərkəzində partlayışlar nəticəsində iki fransız qulluqçu yaralanmış və xəstəxanaya qoyulmuşdur. Aşağıdakı üç beynəlxalq aviaşirkətin ofisləri dağılmışdır:

1) Almaniyanın "Lufthansa" şirkəti;
2) Danimarkanın "KLM" şirkəti;
3) Türkiyə Hava Yolları şirkəti.

Hər üç terror aktına görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür. Tədqiqatçılar erməni terror təşkilatlarının maliyyələşdirilməsi məsələsini araşdıraraq, onların narkotik maddə alverçiləri ilə əlaqələri oldugunu qəti şəkildə göstərirlər. Bununla əlaqədar belə bir fakt gətirilir ki, ASALA həbsə alınmış qaçaqmalçıların müdafiəsi üçün tələblər irəli sürərək, onları məhz "siyasi məhbuslar" adlandırır.[315]

**25 noyabr 1979-cu il. Madrid. İspaniya.** Amerika aviaəqliyyat şirkətinin və "British Airways" şirkətinin Madrid filiallarının binaları qarşısında partlayışlar baş vermişdir. ASALA erməni terror təşkilatı partlayışlara görə məsuliyyəti öz üzərinə götürərək bildirmişdir ki, bu, Türkiyəyə səfərə hazırlaşan Roma Papasına xəbərdarlıq idi.[316]

**9 dekabr 1979-cu il. Roma. İtaliya.** Romanın mərkəzində iki partlayış nəticəsində 9 adam bədən xəsarəti almışdır. Yaralanmış italyanlar dərhal xəstəxanaya aparılmışlar. "Panam", "World Airlines", "British Airlines" və "Philippine Airways" avianəqliyyat şirkətlərinin binaları da zədələnmişdir.

Bu partlayışlara görə məsuliyyəti "Yeni erməni müqaviməti" terror qrupu öz üzərinə götürmüşdür.[317]

**17 dekabr 1979-cu il. London. Böyük Britaniya.** Bomba partlayışı nəticəsində Türkiyə avianəqliyyat şirkətinin London filialının binası ciddi zədələnmişdir. "Daşnaksutyun"un ideologiyasına əsasən fəaliyyət göstərən "Ermənistanın azadlığı uğrunda cəbhə" terror qrupu məsuliyyəti öz üzərinə götürmüşdür.[318]





**22 dekabr 1979-cu il. Paris. Fransa.** Türkiyə səfirliyinin turizm üzrə attaşesi Yılmaz Şolpan Yelisey meydanında erməni terrorçu tərəfindən öldürülmüşdür.

Diplomatın qətlə yetirilməsinə görə məsuliyyəti bir neçə erməni terror təşkilatı öz üzərinə götürmüşdür: ASALA, CSAQ və "Soyqırıma qarşı erməni yaraqlıları dəstəsi".[319]

**22 dekabr 1979-cu il. Amsterdam. Hollandiya.** Türkiyə aviannəqliyyat şirkətinin binası qarşısında partlayış nəticəsində ciddi dağıntılar olmuşdur. Məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[320]

**23 dekabr 1979-cu il. Roma. İtaliya.** Romada Ümumdünya Kilsələr Şurası yanında qaçqınların məsələləri üzrə mərkəzin (Dina pansionu) binası qarşısında partlayış baş vermişdir. Bu mərkəzdən livanlı erməni mühacirlər üçün "keçid məntəqəsi" kimi istifadə edilirdi.

ASALA erməni terror təşkilatı partlayışa görə məsuliyyəti öz üzərinə götürərək, İtaliyanın hakimiyyət dairələrindən livanlı etnik ermənilər üçün xüsusi güzəştlər tələb etmişdir.[321]

**23 dekabr 1979-cu il. Roma. İtaliya.** Fransa avianəqliyyat şirkətinin və Amerikanın "Trans World Airlines" avianəqliyyat şirkətinin Romadakı filiallarının ofisləri qarşısında üç partlayış nəticəsində onlarca romalı yaralanmış və xəstəxanaya aparılmışdır.

ASALA erməni terror təşkilatı partlayışlara görə məsuliyyəti öz üzərinə götürərək bildirmişdir ki, bombalar "Fransada yaşayan ermənilərə qarşı Fransa hakimiyyət dairələrinin repressiya tədbirlərinə cavab tədbiri kimi" partladılmışdır.[322]

**10 yanvar 1980-cı il. Tehran. İran.** Türkiyə avianəqliyyat şirkətinin ofisi qarşısında partlayış baş vermiş və nəticədə xeyli dağıntılar olmuşdur.

Partlayışa görə məsuliyyəti, əvvəllər olduğu kimi, yenə də "Daşnaksutyun"un ideoloji göstərişlərini yerinə yetirən ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[323]

**20 yanvar 1980-ci il. Madrid. İspaniya.** "Trans World Airlines", "British Airways", habelə "Swiss Air" və "Sabena" avianəqliyyat şirkətlərinin ofisləri qarşısında bir sıra partlayışlar baş vermiş və nəticədə çoxlu insan yaralanmışdır. Partlayışlara görə məsuliyyəti CSAQ terror təşkilatı öz üzərinə götürmüşdür.[324]

**2 fevral 1980-ci il. Brüssel. Belçika.** Brüsselin mərkəzində, Türkiyə avianəqliyyat şirkətinin və sovet "Aeroflot"unun binaları qarşısında beş dəqiqəlik fasilə ilə iki bomba partlamışdır.

"Yeni erməni müqaviməti" terror təşkilatı öz rəsmi məlumatında bildirmişdir ki, hər iki partlayışa görə məsuliyyəti öz üzərinə götürür.[325]

**6 fevral 1980-ci il. Bern. İsveçrə.** Türkiyənin Berndəki səfirliyinin binası qarşısında erməni terrorçu avtomobildə olan türk səfiri Doğan Türkmənə atəş açmışdır. Səfir yaralanmışdır. Erməni terrorçu Maks Klincyan sonralar Madriddə həbs edilmiş və istintaq aparılması üçün İsveçrəyə qaytarılmışdır. Qəsdə görə məsuliyyəti CSAQ erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[326]





**18 fevral 1980-ci il. Roma. İtaliya.** Iki partlayış nəticəsində üç avianəqliyyat şirkətinin ("Siss Air", "El Al" və "Lufthansa") ofisləri zədələnmişdir.

Partlayışlara görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür. Roma İnformasiya Agentliyinə anonim telefon zəngi bildirmişdir ki, hər üç aviaşirkətə aşağıdakı səbəblərə görə basqın edilmişdir:

a) "Swiss Air" - "günahsız erməniləri" həbs etməmək üçün İsveçrə hökumətinə xəbərdarlıq;

b) "Lufthansa" - "Türkiyə ilə əməkdaşlığa rəvac verən Almaniya hökumətinə cəza" olaraq;

c) "El Al" - "Yəhudilərlə əməkdaşlıqla əlaqədar..."[327]

**10 mart 1980-ci il. Roma. İtaliya.** Romanın "Piazza della Republica" meydanında Türkiyə avianəqliyyat şirkətinin ofisində və Türkiyə Turizm Burosunda iki güclü partlayış nəticəsində iki italiyalı həlak olmuş və 14 adam yaralanmışdır.

Partlayışlara görə məsuliyyəti "Yeni erməni muqaviməti" terror təşkilatı öz üzərinə götürmüşdür.[328]

**6 aprel 1980-ci il. Beyrut. Livan.** Həmin gün PKK terror təşkilatının "ən təhlükəli erməni terror qruplaşmalarından biri olan bədnam" ASALA ilə əməkdaşlığı haqqında saziş imzalanmışdır. "Exo" qəzetinin jurnalisti Nurani yazır ki, "artıq o vaxtadək ASALA beynəlxalq terrorizm aləmində sahmanlanmış əlaqələrə və marağı olan xüsusi xidmət idarələrinin, ilk növbədə, DTK-nın və "Ştazi"nin nümayəndələri ilə kontaktlara malik idi", amma Türkiyə ərazisində fəaliyyət göstərə bilmirdi. PKK isə, öz növbəsində, "xaricdən köməyə" möhtac idi. Odur ki, qarşılıqlı maraq olmuş-

dur. Erməni terror təşkilatlarının siyasəti bir daha təsdiq edilmişdir - öz məqsədlərinə nail olmaq naminə hətta qatı düşmənlə ittifaqa girmək: "Daşnaksutyun" təbliğatçıları dinc kürd əhalisinin erməni terror və quldur birləşmələri tərəfindən kütləvi surətdə qırılıb-çatılmasının üstündən artıq sükutla keçməyi üstün tuturdular.[329]

**17 aprel 1980-ci il. Roma. İtaliya.** Baş Kilsənin yanında üç erməni terrorçu Türkiyənin Vatikandakı səfiri Vesdi Turelə qəsd etmişdir. Səfir, onun cangüdəni və sürücüsü yaralanmışlar. Basqına görə məsuliyyəti CSAQ erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[330]

**19 may 1980-ci il. Marsel. Fransa.** Türkiyənin Marseldəki konsulluguna tuşlanmış raket aşkar edilmiş və zərərsizləşdirilmişdir. Nəzərdə tutulan cinayətə görə məsuliyyəti ASALA və "Qara aprel" erməni terror təşkilatları öz üzərlərinə götürmüşlər.Erməni tədqiqatcısı Samvel Manukyana görə, 1970-80-ci illərdə erməni terror təşkilatları türk diplomatlarına qarşı bütün dünyada bir sıra terror aktları keçirmişlər.[331]

**31 iyul 1980-ci il. Afina. Yunanıstan.** Türkiyənin Afinadakı səfirliyinin idarəetmə məsələləri üzrə attaşesi Qalib Ozman və ailəsi maşında olarkən erməni terrorçular tərəfindən atəşə tutulmuşlar. Qalib Ozman və 14 yaşlı qızı Nəslixan həlak olmuşlar. Onun xanımı Sevil və 16 yaşlı oğlu Kənan yaralanmışlar. Qətllərə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür. Elə həmin dövrdə mətbuatda belə bir ehtimal güclü şəkildə yayılmışdır ki, Yunanıstandakı erməni terrorçular narkobizneslə əlaqəyə





girmişlər. Sonralar bu ehtimal narkotik maddələr alverçisi N.Safoyanın Yunanıstan hüquq-mühafizə orqanları tərəfindən yaxalanması ilə təsdiqlənmişdir. İctimaiyyətə məlum olur ki, əvvəllər o, erməni terrorçularını maliyyələşdirməkdə şübhəli bilinərək həbs edilmişdir.[332]

**1 avqust 1980-ci il.** ASALA-nın liderlərindən biri - 1980-ci ildə Afinada Türkiyə səfirinin qətlə yetirilməsində əli oldugunu boynuna alan Hakop Hakopyan açıq bəyanat verir: Bizim düşmənlərimiz türk rejimi, NATO və bizimlə olmayan ermənilərdir". Sonralar doktor Hit U.Louri bildirmişdir ki, terror aktları təkcə Türkiyə vətəndaşlarına qarşı deyil, erməni terror təşkilatlarının sərsəm məqsədləri ilə heç bir əlaqəsi olmayan müxtəlif ölkələrin vətəndaşlarına qarşı da törədilmişdir.[333]

**5 avqust 1980-ci il. Lion. Fransa.** İki terrorçu Türkiyənin Liondakı konsulluguna soxularaq, qapıçıdan konsulun yerini göstərməyi tələb etmişdir. Basqın nəticəsində iki vətəndaş öldürülmüş və bir neçə adam yaralanmışdır.

Cinayətə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[324]

**11 avqust 1980-ci il. Nyu-York.** Amerika Birləşmiş Ştatları. Türkiyənin BMT-dəki nümayəndə heyətinin və Türkiyənin Nyu-Yorkdakı konsullugunun yerləşdikləri "Türk Evi"nin qarşısına qəlp bombalar atılmışdır. Bombalardan birinə yapışdırılmış məktubda türk diplomatlarına qarşı cəza tədbirləri görüləcəyi barədə hədə-qorxu gəlirdilər. Məktubda imza qoyulmuşdu: "Erməni qrupu".[335]

**26 sentyabr 1980-cı il. Paris. Fransa.** Erməni terrorçular Türkiyənin Parisdəki səfirliyinin mətbuat məsələləri üzrə muşaviri Səlçuq Baqqalbaşı evə qayıdarkən ona silahlı basqın etmişlər. Həkimlərin bütün səylərinə baxmayaraq, S.Baqqalbaşı ömürlük iflic olmuşdur.

Silahlı basqına görə məsuliyyəti ASALA erməni terror təşkilatı və "Erməni gizli ordusu təşkilatı"ndan olan bir qrup peşəkar qatil öz üzərinə götürmüşdür.[336]

**3 oktyabr 1980-ci il. Cenevrə. İsveçrə.** Cenevrə mehmanxanalarından birində qəsdə hazırlaşan iki erməni terrorçu bombanın təsadüfən partlaması nəticəsində yaralanmışdır. Hər iki terrorçunun - Suzi Maxserecyanın və Aleksandr Yenikomeciyanın İsveçrə polisi tərəfindən həbsə alınması ASALA erməni terror təşkilatının yeni "filial"ının, sonralar bütün dünyada İsveçrə müəssisələrinə dəfələrlə basqın etmiş "3 oktyabr təşkilatı"nın yaradılmasına səbəb olmuşdur.[337]

**3 oktyabr 1980-ci il. Milan. İtaliya.** Türkiyə avianəqliyyat şirkətinin ofisi qarşısında partlayış nəticəsində iki italiyalı yaralanmışdır. Partlayışa görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.

1970-1980-ci illərdə bütün dünyada türklərə qarşı bir sıra terror aktları keçirildiyi barədə S.Manukyanın yuxarıda göstərilən fikrinə istinadən qeyd edək ki, tədqiqatçı bu aktların əsas təşkilatçısı kimi ancaq təkcə "Daşnaksutyun"un adını təkidlə çəkir və digər erməni terror təşkilatlarının "fəaliyyət"ini diqqətdənkənar qoyur. Ola bilsin ki, bunun öz məntiqi var: əslində bütün erməni terror qrupları "Daşnaksutyun"un ideoloji sistemi şəbəkəsinə bu və ya digər şəkildə daxil idi.[338]





**5 oktyabr 1980-cı il. Madrid. İspaniya.** İtaliyanın "Al Italy" aviaşirkətinin ofisi qarşısında partlayış nəticəsində Madridin 12 sakini yaralanmış və xəstəxanaya aparılmışdır. Terror aktına görə məsuliyyəti ASALA öz üzərinə götürmüşdür.[339]

**6 oktyabr 1980-cı il. Los-Anceles, Kaliforniya. Amerika Birləşmiş Ştatları.** Türkiyənin Los-Ancelesdəki baş konsulu Kamal Arkanın evinə yandırıcı maddə doldurulmuş butılkalar atılmışdır. Anonim telefon zəngi bildirmişdir ki, partlayış "ermənilərin naminə" törədilmişdir.[340]

**10 oktyabr 1980-cı il. Beyrut. Livan.** Qərbi Beyrutda İsveçrə idarələrinin qarşısında partlayışlar törədilmişdir. Bir neçə gün sonra "3 oktyabr təşkilatı" erməni terror qrupu cinayətə görə məsuliyyəti öz üzərinə götürərək, İsveçrənin İngiltərədəki təşkilatlarında törədilmiş partlayışlarda da əli olduğunu bildirmişdir.[341]

**12 oktyabr 1980-cı il. Nyu-York. Amerika Birləşmiş Ştatları.** Oğurlanıb qaçırılmış avtomobilə qoyulan bombanın partlaması nəticəsində dörd amerikalı ağır yaralar almışdır. Partlayış Nyu-Yorkdakı türk mehmanxanası qarşısında, avtomobilin saxlandığı yerdə olmuşdur. Qonşu binalara da ciddi zərər dəymişdir.

CSAQ erməni terror təşkilatı kütləvi informasiya vasitələrinin nümayəndələrinə zəng vuraraq, törədilmiş cinayətə görə məsuliyyəti öz üzərinə götürdüyünü bildirmişdir.[342]

**12 oktyabr 1980-cı il. Los-Anceles, Kaliforniya. Amerika Birləşmiş Ştatları.** Partlayış nəticəsində Hollivud-

da Amerika mənşəli türkün başçılıq etdiyi Səyahətlər Agentliyinin ofisi dağılmışdır. Partlayışa görə məsuliyyəti CSAQ erməni terror təşkilatı öz üzərinə götürmüşdür. Təxminın həmin vaxtda ABŞ-da erməni narkotik maddələr alverçisi, Liviya vətəndaşı Nübar Safoyana qarşı heroin qaçaqmalçılığında iştiraka görə ittiham irəli sürülmüşdür. Qeyd edək ki, bir qədər əvvəl Safoyan erməni terrorçularını maliyyələşdirməkdə şübhəli bilinərək İsveçrədə həbsə alınmış, lakin sonra azadlığa buraxılmışdır.[343]

**12 oktyabr 1980-cı il. London. Böyük Britaniya.** Türkiyənin Londondakı Turizm və İnformasiya Bürosunun binasına partlayış nəticəsində zərər dəymişdir.

Partlayışa görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[344]

**12 oktyabr 1980-cı il. London. Böyük Britaniya.** Elə həmin gün Britaniya paytaxtının mərkəzində İsveçrə ticarət kompleksi partlayış nəticəsində zədələnmişdir.

Cinayətə görə məsuliyyəti "3 oktyabr təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[345]

**13 oktyabr 1980-ci il. Paris. Fransa.** Partlayış nəticəsində İsveçrənin Parisdəki turizm bürosunun binası zədələnmişdir.

Məsuliyyəti "3 oktyabr təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[346]

**21 oktyabr 1980-cı il. İnterleykn. İsveçrə.** Parisdən İnterleyknə gedən İsveçrə qatarında asayiş orqanları gec-partlayan bomba aşkar etmişlər. İstintaq müəyyən etmişdir





ki, qatara partlayıcı qurgunu "3 oktyabr təşkilatı" erməni terror qrupu qoymuşdur.[347]

**4 noyabr 1980-cı il. Cenevrə. İsveçrə.** Cenevrədə İsveçrə məhkəməsinin binası partlayış nəticəsində ciddi şəkildə zədələnmişdir. İsveçrənin hakimiyyət orqanları bildirmişlər ki, cinayəti ASALA erməni terror təşkilatının iki üzvü törətmişdir. Sonralar partlayışa görə məsuliyyəti başqa bir erməni terror qrupu - "3 oktyabr təşkilatı" da öz üzərinə götürmüşdür.[348]

**9 noyabr 1980-cı il. Strasburq. Fransa.** Türkiyənin Strasburqdakı konsulluğunun binasına partlayış nəticəsində ciddi ziyan dəymişdir.

Cinayətə görə məsuliyyəti "Daşnaksutyun"un ideologiyasına uygun surətdə fəaliyyət göstərən ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[349]

**10 noyabr 1980-cı il. Roma. İtaliya.** İsveçrə avianəqliyyat şirkətinin və İsveçrə Turizm Bürosunun ofislərində partlayışlar nəticəsində beş adam yaralanmışdır.

Partlayışlara görə məsuliyyəti "3 oktyabr təşkilatı" erməni terror qrupu dərhal öz üzərinə götürmüşdür.[350]

**19 noyabr 1980-cı il. Roma. İtaliya.** Türkiyə səfirliyinin Turizm Bürosunun və Türkiyə avianəqliyyat şirkətinin nümayəndəliklərinin yerləşdiyi bina partlayış nəticəsində zədələnmişdir.

Partlayışa görə məsuliyyəti "Daşnaksutyun"un ideoloji göstərişlərini yerinə yetirən ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[351]

**25 noyabr, 1980-cı il. Cenevrə. İsveçrə.** Cenevrədə partlayış nəticəsində bir adam yaralanmış, İsveçrə Banklar Birliyinin binası ciddi zədələnmişdir.

Cinayətə görə məsuliyyəti "3 oktyabr təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[352]

**5 dekabr 1980-cı il. Marsel. Fransa.** Polis eksperti İsveçrə konssullugunda aşkar edilmiş bombanı zərərsizləşdirmişdir. Tədqiqatçı E.Fayqlın məlumatına görə, bombanı "3 oktyabr təşkilatı" erməni terror qrupu qoymuşdur.[353]

**15 dekabr 1980-cı il. London. Böyük Britaniya.** Turist təşkilatının ofisində bomba tapılaraq zərərsizləşdirilmişdir. "3 oktyabr təşkilatı" erməni terror qrupu bildirmişdir ki, bu qəsd erməni terrorizminə qarşı mübarizədə Fransa-İsveçrə əməkdaşlığına görə qisasdır.[354]

**17 dekabr 1980-cı il. Sidney. Avstraliya.** CSAQ-dan olan erməni terrorçular iki türk diplomatını - baş konsul Şərik Ərsəki və təhlükəsizlik üzrə attaşe Əngin Sevəri qətlə yetirmişlər.[355]

**25 dekabr 1980-cı il. Sürix. İsveçrə.** Sürixin Kloten hava limanında partlayış nəticəsində radiolokasiya qurğusunun nəzarət aparatı sıradan çıxmışdır. Hava limanının qalxma-enmə zolağına qoyulmuş ikinci bombanı xüsusi ekspertlər dəstəsi zərərsizləşdirmişdir. Cinayətə görə məsuliyyəti "3 oktyabr təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[356]

**29 dekabr 1980-cı il. Madrid. İspaniya.** İsveçrənin "Swiss Air" aviaşirkətinin binasında partlayışın səbəbləri





araşdırılarkən orada olan ispan reportyoru ciddi yaralar almışdır (o, redaksiyaya telefonla xəbər verərkən ikinci bomba partlamışdır).

"Daşnaksutyun"un proqram göstərişlərini yerinə yetirən "3 oktyabr təşkilatı" erməni terror qrupu hər iki partlayışa görə məsuliyyəti öz üzərinə götürmüşdür.[357]

**30 dekabr 1980-cı il. Beyrut. Livan.** Beyrutda "Credit-Swiss" şirkətinin ofisi partladılmışdır. Partlayışa görə məsuliyyəti "3 oktyabr təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[358]

**1981-ci il. Paris. Fransa.** Həmin il daha bir erməni terror təşkilatı - Türkiyənin Fransadakı baş konsullugunu tutmaq planını hazırlamış və həyata keçirmiş "Ölüməgedənlər eskadronu" yaradılmışdır. Ona Yan Kaskayan başçılıq edirdi. Lakin sonralar liderlik ASALA ilə sıx əlaqədə olan Vasken Sakasasleyana keçmişdir.[359]

**2 yanvar 1981-ci il. Beyrut. Livan.** ASALA erməni terror təşkilatı mətbuatda "bütün dünyada Isveçrə diplomatlarına basqınlar etmək" hədə-qorxusu ilə çıxış etmişdir. Bu bəyanat ASALA-nın İsveçrədə həbsxanaya salınmış iki terrorçusuna - Suzi və Aleksə guya pis münasibət göstərildiyinə cavab olaraq verilmişdir.[360]

**14 yanvar 1981-ci il. Paris. Fransa.** Türkiyənin Parisdəki səfirliyinin iqtisadi məsələlər üzrə müşaviri Əhməd Ərbəylinin maşınında partlayış baş vermişdir. Özünü "Aleks Yenikomeciyanın dəstəsi" adlandıran erməni terror qrupu partlayışa görə məsuliyyəti öz üzərinə götürmüşdür.[361]

**27 yanvar 1981-ci il. Milan. İtaliya.** Milanda İsveçrənin "Swiss Air" şirkətinin binasında və Turizm bürosunda bomba partlayışları nəticəsində iki italyan ağır yaralanmışdır. "3 oktyabr təşkilatı" erməni terror qrupu kütləvi informasiya vasitələrinin nümayəndələrinə zəng vuraraq, terror aktına görə məsuliyyəti öz üzərinə götürmüşdür.[362]

**3 fevral 1981-ci il. Los-Anceles, Kaliforniya.** Amerika Birləşmiş Ştatları. Los-Ancelesin xüsusi ekspertlər dəstəsi İsveçrə konsullugunun girəcəyində pilləkənin altına qoyulmuş bombanı zərərsizləşdirmişdir. Anonim telefon zəngi bunun "3 oktyabr təşkilatı" erməni terror qrupunun "işi" oldugunu bildirmiş, habelə "vəd" etmişdir ki, "dostumuz Suzi Maxserecyan" azadlığa buraxılmayınca, bu cür əməllər davam etdiriləcəkdir.[363]

**5 fevral 1981-ci il. Paris. Fransa.** Amerikanın "Trans World Airlines" avianəqliyyat şirkətinin və Fransanın "Air France" aviaşirkətinin binalarına qoyulmuş bombaların partlaması nəticəsində bir nəfər ciddi yaralanmışdır. Binalara xeyli ziyan dəymişdir."3 oktyabr təşkilatı" erməni terror qrupu cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[364]

**4 mart 1981-ci il. Paris. Fransa.** İki terrorçu Türkiyənin Fransadakı səfirliyinin əmək məsələləri üzrə attaşesi Rosat Moraliyə, səfirliyin yanında dini işlər üzrə məsul Təsəlli Ariyə və Parisdəki "Anadolu bank"ın nümayəndəsi İlkay Qaraqosa atəş açmışdır. Həmin vaxt onlar R.Moralinin yanından çıxıb maşınlara minirdilər. Terrorçular Rosat Moralini güllələmişlər. Ağır yaralanan Təsəlli Ari ertəsi gün Paris xəstəxanalarından birində vəfat etmişdir. ASALA-nın





"Saxan Natali" erməni terror təşkilatından olan bir qrup saqqallı qətllərə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[365]

**12 mart 1981-ci il. Tehran. İran.** Erməni terrorçular Türkiyənin Tehrandakı səfirliyinə basqın etmişlər. İki mühafizəçi öldürülmüşdür. Yerli asayiş xidmətlərinin əməkdaşları cinayətkarları yaxalamış və ədalət mühakiməsi orqanlarına təhvil vermişlər.Basqına görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[366]

**3 aprel 1981-ci il. Kopenhagen. Danimarka.** Türkiyənin Danimarkadakı səfirliyinin əmək məsələləri üzrə attaşesi Kavit Dəmir evə qayıdarkən terrorçu tərəfindən atəşə tutulmuşdur.

Qanlı cinayətə görə məsuliyyəti ASALA və CSAQ erməni terror təşkilatlarının quldurları öz üzərlərinə götürmüşlər.[367]

**3 iyun 1981-ci il. Los-Anceles, Kaliforniya. Amerika Birləşmiş Ştatları.** Erməni terrorçuların "Anahaym Konven Mərkəzi"nə qoyduqları bombanın partlaması nəticəsində türk xalq rəqsləri ansamblının çıxışı dayandırılmışdır. Sonrakı iki gündə bu cür partlayışlar törətmək hədə-qorxuları Şimali Kaliforniyadan olan türk rəqs qrupunun çıxışlarına imkan verməmişdir.[368]

**9 iyun 1981-ci il. Cenevrə. İsveçrə.** Türkiyənin Cenevrədəki konsullugunun katibi Mehmet Savaş Ərguz konsullugun binasından çıxarkən terrorçu tərəfindən öldürülmüşdür. Etnik erməni olan qatil M.Camdocyan həbs edilmişdir. Cinayətə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür. Camdocyanın həbsə

alınması ASALA-nın yeni bir qrpunun - "9 iyun təşkilatı"nın yaranmasına səbəb olmuşdur. Sonralar bu terror təşkilatı İsveçrə təsisatlarında - həm İsveçrənin özündə, həm də digər Avropa ölkələrində - bir neçə partlayış törətmişdir.

"9 iyun təşkilatı" bu dövlətin ərazisində həbs edilmiş erməni terrorçuların azadlığa buraxdırılması məqsədilə 1981-ci ildə yaradılmışdır. O, "Daşnaksutyun"un faşist ideologiyasına uygun olaraq fəaliyyət göstərir.[369]

**11 iyun 1981-ci il. Paris. Fransa.** Ara Toranyanın başçılıq etdiyi bir qrup erməni terrorçu Parisdə Türkiyə avianəqliyyat şirkətinin binasını tutmuşdur. Fransanın təhlükəsizlik xidmətləri ASALA erməni terror təşkilatının quldurlarını zərərsizləşdirmişlər.[370]

**19 iyun 1981-ci il. Tehran. İran.** İsveçrənin "Swiss Air" aviaşirkətinin Tehrandakı şöbəsinin binasında partlayış törədilmişdir. Terror aktına görə məsuliyyəti ASALA-nın bölmələrindən biri olan "9 iyun təşkilatı" öz üzərinə götürmüşdür.[371]

**26 iyun 1981-ci il. Los-Anceles, Kaliforniya. Amerika Birləşmiş Ştatları.** Los-Ancelesdəki İsveçrə bankları korporasiyasının binası qarşısında bomba partlamışdır. Məsuliyyəti "9 iyun təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[372]

**19 iyul 1981-ci il. Bern. İsveçrə.** Berndə İsveçrə parlamentinin binasında zibil qutusuna qoyulmuş bomba partlamışdır. Sonra anonim zəng bildirmişdir ki, partlayışa görə "9 iyun təşkilatı" erməni terror qrupu məsuliyyət daşıyır.[373]





**20 iyul 1981-ci il. Sürix. İsveçrə.** Sürixin beynəlxalq hava limanının fotoavtomatında partlayış baş vermişdir. Məsuliyyəti "9 iyun təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[374]

**21 iyul 1981-ci il. Lozanna. İsveçrə.** Univermağın qadın geyimləri şöbəsində güclü partlayış nəticəsində 20 qadın müxtəlif dərəcədə ağır xəsarət almışdır. Cinayətkarlar qaçıb gizlənə bilmişlər.Partlayışa görə məsuliyyəti "Daşnaksutyun"un ideoloji göstərişinə əməl edən "9 iyun təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür. [375]

**22 iyul 1981-ci il. Cenevrə. İsveçrə.** Cenevrə vağzalında avtomat saxlama kamerasına qoyulmuş bombanın partlaması nəticəsində dörd adam yaralanmışdır. Asayiş orqanları partlayışa görə məsuliyyəti "9 iyun təşkilatı" erməni terror təşkilatının üzərinə qoymuşdur.[376]

**22 iyul 1981-ci il. Cenevrə. İsveçrə.** Elə həmin gün bir saat sonra saxlama kamerasında daha bir partlayış baş vermişdir. Vətəndaşların binadan çıxarılması üçün vaxtında görülən tədbirlər sayəsində tələfat olmamışdır. Asayiş orqanları bu cinayətə görə məsuliyyəti "9 iyun təşkilatı" erməni terror qrupunun üzərinə qoymuşdur.[377]

**11 avqust 1981-ci il. Kopenhagen. Danimarka.** İsveçrənin "Swiss Air" aviaşirkətinin Kopenhagendəki ofisində bomba partlaması nəticəsində bir amerikalı turist qəlpə yaraları almışdır. Partlayışa görə məsuliyyəti "9 iyun təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[378]

**20 avqust 1981-ci il. Los-Anceles, Kaliforniya ştatı. Amerika Birləşmiş Ştatları.** İsveçrə dəqiq cihazlar korporasiyasının Los-Ancelesdəki binası qarşısında partlayış baş vermişdir. Məsuliyyəti "9 iyun təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[379]

**20 avqust 1981-ci il. Paris. Fransa.** Səhər tezdən baş verən partlayış "Al Italy" aviaşirkətinin Paris filialı binasına ziyan vurmuşdur. Anonim telefon zəngi bildirmişdir ki, partlayışa görə məsuliyyəti "3 oktyabr təşkilatı" erməni terror qrupu öz üzərinə götürür.[380]

**22 avqust 1981-ci il. Paris. Fransa.** "Olimpic Airlines" şirkətinin Paris filialının binası qarşısında səhər tezdən partlayış baş vermişdir. Anonim telefon zəngi bildirmişdir ki, partlayışa görə məsuliyyəti "3 oktyabr təşkilatı" erməni terror qrupu öz üzərinə götürür.[381]

**15 sentyabr 1981-ci il. Kopenhagen. Danimarka.** "Türk hava yolları" avianəqliyyat şirkətinin Kopenhagendəki binası qarşısında partlayış nəticəsində iki danimarkalı xəsarət almışdır (onların biri ağır yaralanmışdır). Polis ikinci bombanı zərərsizləşdirə bilmişdir. Məsuliyyəti "Altıncı erməni azadlıq ordusu" adlı erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[382]

**17 sentyabr 1981-ci il. Tehran. İran.** Partlayış nəticəsində İsveçrənin İrandakı səfirliyinin binasına zərər dəymişdir. Məsuliyyəti "9 iyun təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[383]





**24 sentyabr 1981-ci il. Paris. Fransa.** Dörd erməni terrorçu Türkiyənin Parisdəki konsulluğunu tutmuşdur. Onlar binaya soxularaq, konsul Qaya İnalı və təhlükəsizlik xidmətinin nümayəndəsi Kamal Ozəni ağır yaralamışlar. Terrorçular 56 adam girov götürmüşlər. Bu zaman iki terrorçu yüngülcə yaralanmışdır. Terrorçular yaralanmış İnalın və Ozənin xəstəxanaya aparılmasına icazə vermişlər. Lakin Ozən burada vəfat etmişdir. Terrorçuların "Türkiyədəki erməni siyasi məhbusları"nın buraxılması barədə tələbi rədd edildikdən sonra onlar "siyasi məhbus statusu" istəmiş və Fransanın hakimiyyət orqanlarına təslim olmuşlar. Məlum olmuşdur ki, onların hamısı livanlı etnik erməni, ASALA erməni terror təşkilatının üzvləridir.[384]

**3 oktyabr 1981-ci il. Cenevrə. İsveçrə.** Cenevrə Baş Poçtunun və ASALA terrorçusu tərəfindən törədilmiş qətl barədə iş üzrə məhkəmə prosesinin keçiriləçəyi Cenevrə Şəhər Məhkəməsinin binaları partlayış nəticəsində dağılmışdır. Bu zaman bir nəfər yaralanmışdır.

"Daşnaksutyun" ideoloqlarının xəttinə uygun fəaliyyət göstərən "9 iyun təşkilatı" erməni terror qrupu partlayışa görə məsuliyyəti öz üzərinə götürmüşdür.[385]

**25 oktyabr 1981-ci il. Roma. İtaliya.** Erməni terrorçu Türkiyənin Romadakı səfirliyinin ikinci katibi Gokbork Ərcenekona sui-qəsd etmişdir. Əlindən yaralanan Ərcenekon maşından çıxaraq, xidməti silahdan terrorçuya cavab atəşi açmışdır. Amma cinayətkar qaçıb aradan çıxmışdır.

ASALA erməni terror təşkilatı, demə, "24 sentyabr ölüməgedənlər dəstəsi" naminə, yəni, Türkiyənin Parisdəki konsulluğunu tutmuş cinayətkarların şərəfinə törədilmiş sui-qəsdə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[386]

**25 oktyabr 1981-ci il. Paris. Fransa.** Parisin Yelisey xiyabanındakı məşhur "Fuks" restoranında partlayışlar nəticəsində üç fransız qulluqçu ağır yaralanmışdır. Partlayışlara görə məsuliyyəti "September France" erməni terror qrupu öz üzərinə götürmüşdür.[387]

**26 oktyabr 1981-ci il. Paris. Fransa.** Yelisey xiyabanındakı aptek mağazası qarşısında bilərəkdən qoyulmuş maşında bomba partlamışdır.

"Daşnaksutyun" ideologiyasına uygun olaraq fəaliyyət göstərən "September France" erməni terror qrupu məsuliyyəti öz üzərinə götürmüşdür.[388]

**27 oktyabr 1981-ci il. Paris. Fransa.** Parisin "Roissy" hava limanındakı avtomobil dayanacağında partlayış olmuşdur. Partlayışa görə məsuliyyəti "September France" erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[389]

**27 oktyabr 1981-ci il. Paris. Fransa.** Həmin gün "Roissy" hava limanında adamla dolu olan eskalatorun yanındakı zibil qutusunda ikinci bomba partlamışdır. Məsuliyyəti "September France" erməni terror qrupu öz üzərinə götürmüşdür.[390]

**28 oktyabr 1981-ci il. Paris. Fransa.** Paytaxtın kinoteatrlarından birində partlayış nəticəsində üç parisli yaralanmışdır. "Daşnaksutyun"un ideoloji xəttinə əməl edən "September France" erməni terror qrupu məsuliyyəti öz üzərinə götürmüşdür.[391]

**3 noyabr 1981-ci il. Madrid. İspaniya.** "Swis Air" aviaşirkətinin Madriddəki ofisi qarşısında partlayış





nəticəsində üç ispan yaralanmışdır. Bir neçə qonşu binanın zədələnməsinə gətirib çıxaran partlayışa görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[392]

**5 noyabr 1981-ci il. Paris. Fransa.** Parisin "Gare de Lion" vağzalında törədilmiş partlayış nəticəsində bir nəfər yaralanmışdır. Saxlama kamerasına xeyli ziyan dəymişdir. Partlayışa görə məsuliyyəti "Orli Təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[393]

**12 noyabr 1981-ci il. Beyrut. Livan.** Fransanın Beyrutda aşağıdakı üç təsisatın qarşısında eyni zamanda bombalar partladılmışdır:

a) mədəniyyət mərkəzi;

b) "Air France" şirkətinin binası;

c) Fransa konsulunun evi.

Müstəntiq Hit U.Louriyə görə, saxta sənədlərdən istifadə etməkdə təqsirli bilinərək Fransanın "Orly" hava limanında həbsə alınmış erməninin şərəfinə "Orli Təşkilatı" adlandırılan erməni terror qrupu məsuliyyəti öz üzərinə götürmüşdür. Terrorçular təxribatlar törətməkdə təqsirləndirilərək, Fransada həbsə alınmış Amerika mənşəli erməni Monte Melkonyanın həbsxanadan dərhal buraxılmasını tələb etmişlər.

Erməni narkotik maddə alverçisi Nübar Safoyanın bir daha həbs edilməsi də həmin vaxta düşür. Lakin sonra Safoyan Livana təhvil verilmiş və ölkənin ədliyyə nazirinə siyasi təzyiqlər göstərilməsi nəticəsində tezliklə azadlığa buraxılmışdır.[394]

**14 noyabr 1981-ci il. Paris. Fransa.** Parisdəki Eyfel qülləsi yanında dayanmış bir maşın partlayış nəticəsində

sıradan çıxmışdır. Telefon zəngi bildirmişdir ki, partlayışa görə məsuliyyəti "Orli Təşkilatı" erməni terror qrupu öz üzərinə götürür. "Orli Təşkilatı"nı Fransada yaşayan erməni gənclər ASALA erməni terror təşkilatının həbsə alınmış üzvlərinin azadlığa buraxılması məqsədilə 1981-ci ildə yaratmışlar. 1981-ci ildən 1982-ci ilədək bir neçə terror aktı törətmiş və bunların nəticəsində konkret tələblərin yerinə yetirilməsinə nail olmuşdur. Müxtəlif mənbələrə görə, "Orli Təşkilatı" bir sıra dövlətlərin hava limanlarında 10-dan çox terror aktı törətmiş və bunlar ağır nəticələr vermişdir.[395]

**14 noyabr 1981-ci il. Paris. Fransa.** Sena çayında gəzintidən qayıtmış bir qrup turistin üstünə qumbaralar atılmışdır. Hücuma görə məsuliyyəti "Orli təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[396]

**15 noyabr 1981-ci il. Paris. Fransa.** "Orli təşkilatı" erməni terror qrupu kütləvi informasiya vasitələri ilə xəbər yaymışdı ki, "Air France" şirkətinə məxsus təyyarəni havada partladacaqdır. Fransanın xüsusi xidmət orqanları bütün təhlükəsizlik tədbirləri görmüşdülər.[397]

**15 noyabr 1981-ci il. Beyrut. Livan.** Fransanın üç ofisinə - Sığorta Təşkilatı bürosunun, "Fransa-Livan bankının" və "Air France"nin ofislərinə qumbaralar atılmışdır. Terror aktlarına görə məsuliyyəti "Orli təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[398]

**15 noyabr 1981-ci il. Paris. Fransa.** "Şeptember France" erməni terror təşkilatı "McDonalds" restoranında partlayış törətmişdir.[399]





**16 noyabr 1981-ci il. Paris. Fransa.** Parisin "Gare de l'Est" vağzalının yük saxlama kamerasına qoyulmuş bombanın partlaması nəticəsində iki fransız ağır yaralanmışdır. Binaya ciddi maddi ziyan vurulmuşdur. Partlayışa görə məsuliyyəti "Orli təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[400]

**18 noyabr 1981-ci il. Paris. Fransa.** "Orli təşkilatı" erməni terror qrupu Fransanın hakimiyyət orqanlarını siyasi şantaj etmək məqsədi ilə Parisin "Gare de Nord" vağzalının binasına bomba qoyulduğunu bildirmişdir. Fransanın asayişi mühafizə xidmətləri təcili surətdə lazımi təhlükəsizlik tədbirləri görmüş və insan tələfatının qarşısı alınmışdır.[401]

**20 noyabr 1981-ci il. Los-Anceles. Kaliforniya ştatı. Amerika Birləşmiş Ştatları.** Türkiyənin Beverly Nills-dəki konsulluğu partlayış nəticəsində dağılmışdır. Partlayışa görə məsuliyyəti CSAQ erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[402]

**1981-ci il. İsveç.** İsveç polisi narkotik vasitələr qaçaqmalçılığı ilə məşğul olan bir qrup ermənini həbs etmişdir. Bu cinayətkar qrupun ASALA ilə əlaqədar olduğunu belə bir fakt sübut edir ki, həmin erməni terror təşkilatı dəfələrlə İsveç hökumətini hədələyərək, narkotik vasitələr alverçilərinin azadlığa buraxılmasını tələb etmişdir.[403]

**13 yanvar 1982-ci il. Toronto. Kanada.** Partlayış nəticəsində Türkiyənin Torontodakı konsulluğunun binası zədələnmişdir. ASALA erməni terror təşkilatından olan cinayətkarlar məsuliyyəti öz üzərinə götürmüşdür.[404]

**17 yanvar 1982-ci il. Cenevrә. İsveçrә.** Avtomobil dayanacağının yanında iki partlayıcı qurğu işә düşmüşdür. Cinayәtә görә mәsuliyyәti "9 iyun tәşkilatı" ermәni terror qrupu öz üzәrinә götürmüşdür.[405]

**17 yanvar 1982-ci il. Paris. Fransa.** Paris Bankları Birliyinin şöbәsindә partlayış baş vermişdir. "Credit Lyonnais" şöbәsindә ikinci partlayıcı qurğu zәrәrsizlәşdirilmişdir. Mәsuliyyәti "Orli tәşkilatı" ermәni terror qrupu öz üzәrinә götürmüşdür.[406]

**19 yanvar 1982-ci il. Paris. Fransa.** Konqres Sarayında "Air France" şirkәtinin ofisindә partlayış baş vermişdir. "Orli tәşkilatı" ermәni terror qrupu mәsuliyyәti öz üzәrinә götürmüşdür.[407]

**28 yanvar 1982-ci il. Los-Anceles, Kaliforniya ştatı. Amerika Birlәşmiş Ştatları.** Türkiyәnin Loc-Ancelsdәki baş konsulu Kamal Arkan işә gedәrkәn iki terrorçu tәrәfindәn qәtlә yetirilmişdir. Qatillәrdәn biri - Xampua Sasunyan ( 19 yaşlı livanlı mühacir) hәbs olunmuş, sonra müqәssir bilinәrәk mәhkum edilmişdir. Kaliforniyadakı San-Kventin hәbsxanasında ömürlük hәbs cәzası çәkmişdir. Onun cinayәt yoldaşı (ehtimala görә Krikor Saliba) Livana qaçmışdır. Bu qәtlә görә mәsuliyyәti CSAQ ermәni terror tәşkilatı öz üzәrinә götürmüşdür.[408]

**22 mart 1982-ci il. Kembric, Massaçusets ştatı. Amerika Birlәşmiş Ştatları.** Türkiyәnin Bostondakı fәxri konsulu Orxan Gündüzün ofisi partladılmışdır. Partlayış nәticәsindә O.Gündüz ağır yaralanmışdır. Partlayışa görә





mәsuliyyәti CSAQ ermәni terror tәşkilatı öz üzәrinә götürmüşdür. ABŞ әrazisindә ermәni terror tәşkilatlarının fәaliyyәtinin genişlәnmәsi ölkә hökumәtinin narahatlığına sәbәb olmuşdur. Aşağıda müdafiә nazirinin siyasi mәsәlәlәr üzrә müavini F.S.Ayklın 1982-ci il 11 mart tarixli bәyanatından parçalar verilir: "...Ən tәhlükәli vә bununla belә diqqәtdәn kәnarda qalmış terror hәrәkatlarından biri - Ermәnistanın Azadlığı Uğrunda Ermәni Mәxfi Ordusu formal olaraq elan etmişdir ki, onun strateji mәqsәdi Türkiyәnin şәrq hissәsini öz nәzarәti altına almağa nail olmaq, onu, necә deyәrlәr, Türkiyә idarәçiliyindәn "azad etmәk" vә Ermәnistan Sovet Sosialist Respublikasına birlәşdirmәkdir... Ermәni Mәxfi Ordusunun fәaliyyәtinin bilavasitә Moskvadan idarә edilib-edilmәmәsindәn asılı olmayaraq, o, yaxşı hazırlıq keçmiş vә günahsız vәtәndaşları amansızlıqla qәtlә yetirәn ordudur. O, Türkiyәnin müttәfiqi olan dövlәtlәrә vә qanunpәrәst ermәni icmasına tәhlükә törәdir".

Beynәlxalq cinayәtkarlar şәbәkәsinә nәzarәt edәn "Daşnaksutyun" terror tәşkilatının ermәni tәbliğatçıları belә ictimai rәy yaratmağa nail olmuşlar ki, ermәni terrorizmi ilә kommunist Moskvası arasındakı әlaqәlәr Rusiya vә rus xalqı tәrәfindәn dәstәklәnir. Yәni belә bir fikir yaradılırdı ki, dinc sakinlәrin ermәni terrorçuları tәrәfindәn qәtlә yetirilmәsinin arxasında Rusiya dayanır.[409]

**26 mart 1982-ci il. Beyrut. Livan.** Ermәni mәhәllәsindә törәdilәn güclü partlayış nәticәsindә burada tez-tez türk filmlәrinin nümayiş etdirildiyi kinoteatr dağılmış, iki nәfәr ölmüş vә 16-dan artıq adam yaralanmışdır. Cinayәtә görә mәsuliyyәti ASALA ermәni terror tәşkilatı öz üzәrinә götürmüşdür.[410]

**8 aprel 1982-ci il. Ottava. Kanada.** Türkiyәnin Ottavadakı sәfirliyinin ticarәt attaşesi Kani Güngör qarajında ona hücum etmiş ermәni terrorçuları tәrәfindәn ağır yaralanmışdır. Sui-qәsdә görә mәsuliyyәti ASALA ermәni terror tәşkilatı öz üzәrinә götürmüşdür.[411]

**24 aprel 1982-ci il. Dortmund. Almaniya Federativ Respublikası.** Partlayış nәticәsindә Türkiyәnin bir neçә kommersiya firmasının binalarına xeyli ziyan dәymişdir. Partlayışlara görә mәsuliyyәti "Yeni Ermәni Müqavimәti" terror tәşkilatı öz üzәrinә götürmüşdür.[412]

**4 may 1982-ci il. Kembric, Massaçusets ştatı. Amerika Birlәşmiş Ştatları.** Türkiyәnin Bostondakı fәxri konsulu Orxan Gündüz şәxsi maşınında ermәni terrorçusu tәrәfindәn qәtlә yetirilmişdir. Hücuma görә mәsuliyyәti CSAQ ermәni terror tәşkilatı öz üzәrinә götürmüşdür.

ABŞ prezidenti Ronald Reyqan cinayәti törәdәn şәxslәri axtarıb tapmağı tapşırsa da, heç kim hәbs olunmadı. Sonradan ABŞ hökumәti ermәni terror tәşkilatları ilә әlaqәdar olan şәxslәrin hamısına qarşı әlaqәlәndirilmiş operativ tәdbirlәr görülmәsinin zәruriliyini bәyan etdi.[413]

**10 may 1982-ci il. Cenevrә. İsveçrә.** Yerli banklardan ikisindә patlayışlar baş vermiş vә xeyli maddi ziyan vurulmuşdur.

Cinayәtlәrә görә mәsuliyyәti özünü "Ümumi qisas tәşkilatı" adlandıran ermәni terror qrupu öz üzәrinә götürmüşdür.[414]

**18 may 1982-ci il. Tampa. Florida ştatı. Amerika Birlәşmiş Ştatları.** İki ermәni cinayәtkarın terror aktı törәtmәk mәqsәdi ilә Türkiyә konsulluğu binasına soxulmaq cәhdinin qarşısı alınmışdır. Ermәni terror tәşkilatlarının Amerika Birlәşmiş Ştatları әrazisindә cinayәtkar fәaliyyәtlәrini genişlәndirmәsi ABŞ-ın dövlәt katibi Corc Şultsun nümayәndәlәr palatasının spikeri Tomas O'Neylә göndәrdiyi retrospektiv mәktubunda da öz әksini tapacaqdır.[415]





**18 may 1982-ci il. Toronto. Kanada.** Ölkәdәn qeyri-qanuni yolla pul çıxarmağa cәhd göstәrdiyinә görә dörd nәfәr yaxalanmışdır. Mәlum olmuşdur ki, bir qәdәr әvvәl onlar ermәni terror tәşkilatlarından birinin kassasına pul köçürmәkdәn imtina etmiş imkanlı bir ermәninin evini partladan terrorçulardır.[416]

**26 may 1982-ci il. Los-Anceles, Kaliforniya ştatı. Amerika Birlәşmiş Ştatları.** Partlayış nәticәsindә İsveçrә Banklar Korporasiyasının binası zәdәlәnmişdir. İstintaq versiyasına görә, bu cinayәtdә Cәnubi Kaliforniyadan olan 4 ermәni terrorçusunun - Viken Çarkyatunun, Xraç Kozibukyanın, Straniç Kozibukyanın vә Vrant Çirinyanın әli olmuşdur. Onların dördü dә ASALA ermәni terror tәşkilatının üzvlәri olmaqda ittiham edilmişlәr.[417]

**30 may 1982-ci il. Los-Anceles, Kaliforniya ştatı. Amerika Birlәşmiş Ştatları.** ASALA ermәni terror tәşkilatının üç üzvü "Air Canada" şirkәtinin bürosuna bomba qoymağa cәhd göstәrәrkәn yaxalanmışdır. Bununla da, mülki әhali arasında çoxsaylı qurbanların qarşısı alınmışdır.[418]

**7 iyun 1982-ci il. Lissabon. Portuqaliya.** Türkiyәnin Lissabondakı sәfirliyinin inzibati-tәsәrrüfat mәsәlәlәri üzrә attaşesi Erkut Akbay vә onun xanımı Nadidә Akbay evlәrinin qapısı ağzında terrorçu tәrәfindәn qәtlә yetirilmişlәr.

Qətlə görə məsuliyyəti "Daşnaksutyun"un ideoloji ehkamlarını dəstəkləyən CSAQ erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[419]

**1 iyul 1982-ci il. Rotterdam. Niderland.** Dörd erməni terrorçusu (onlardan biri sonra Danimarka polisi tərəfindən yaxalanacaq) Türkiyənin Amsterdamdakı baş konsulu Kəmaləddin Dəmirərin avtomobilini atəşə tutmuşdur.

Sui-qəsdə görə məsuliyyəti əvvəllər məlum olmayan, özünü "Erməni Qızıl Ordusu" adlandıran terror qrupu öz üzərinə götürmüşdür.[420]

**21 iyul 1982-ci il. Paris. Fransa.** Saint-Severin meydanında həmişə adamla dolu olan Paris kafesi önündə partlayış nəticəsində 16 fransız ağır yaralanmışdır.

Partlayışa görə məsuliyyəti "Orli təşkilatı" erməni terror qrupu öz üzərinə götürərək bəyan etmişdir: "Bu qanlı aksiya 1981-ci il sentyabrın 24-də Türkiyə konsulluğunu ələ keçirmiş dörd erməni terrorçusuna siyasi sığınacaq vermək barədə vədinə əməl etməyən Fransa hökumətindən alınan qisasdır".[421]

**26 iyul 1982-ci il. Paris. Fransa.** Parisdə - "Pub Saint-Germain"də partlayış nəticəsində iki fransız qadın ağır yaralanmışdır.

Məsuliyyəti "Orli təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[422]

**2 avqust 1982-ci il. Paris. Fransa.** Erməni terrorçusu Pyer Qulumyan Parisdəki mənzilində törədiləcək terror aktında istifadə etməyə hazırlaşdığı bombanın təsadüfən partlaması nəticəsində həlak olmuşdur.[423]





**7 avqust 1982-ci il. Ankara. Türkiyə.** "Esenboğa" hava limanında erməni terrorçuları müxtəlif ölkələrin (ABŞ, AFR, Türkiyə və s.) vətəndaşlarını qətlə yetirmişlər. Erməni silahlı cinayətkarlar gözləmə salonunda atəş açmış, silahlı terrorçulardan biri hava limanının restoranında 20-dən artıq adamı girov götürmüşdür. Digər terrorçu polis tərəfindən yaxalanaraq zərərsizləşdirilmişdir. Adamları girov götürmüş terrorçu ilə atışma zamanı 9 adam ölmüş, 82 nəfər yaralanmışdır. Cinayətə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür. Tutulmuş terrorçu Levon Əkməkcyan sonradan cinayət məsuliyyətinə cəlb olunmuş və mülki əhali arasında çoxsaylı insan tələfatına gətirib çıxarmış terror aktında iştirakına görə təqsirli bilinmişdir.[424]

**8 avqust 1982-ci il. Paris. Fransa.** Fransanın xüsusi xidmət orqanları Parisin On yeddinci rayonunda telefon mərkəzinin yaxınlığında tapılmış bombanı vaxtında zərərsizləşdirmişlər.

Məsuliyyəti "Orli təşkilatı" erməni terror qrupu öz üzərinə götürmüşdür.[425]

**12 avqust 1982-ci il. Paris. Fransa.** Erməni terrorçuları Türkiyənin turizm üzrə attaşesinin mühafizəçilərini atəşə tutmuşlar. Tədqiqatçı E.Fayqlın məlumatına görə, cinayət Fransada fəaliyyət göstərən erməni terror təşkilatlarından biri tərəfindən törədilmişdir.[426]

**27 avqust 1982-ci il. Ottava. Kanada.** Türkiyənin Ottavadakı səfirliyinin hərbi attaşesi polkovnik Atilla Altıkatın maşını şəhərin küçələrindən birində qırmızı işıqda dayanarkən atəşə tutulmuş və diplomat qətlə yetirilmişdir.

Qətlə görə məsuliyyəti CSAQ erməni terror təşkilat öz üzərinə götürmüşdür.[427]

**9 sentyabr 1982-ci il. Burqas. Bolqarıstan.** Türkiyənin Burqasdakı konsulluğunun inzibati-təsərrüfat məsələləri üzrə attaşesi Bora Suelkan öz evində terrorçu tərəfindən qətlə yetirilmişdir. Qatil aradan çıxmış və belə bir məzmunda kağız yazıb qoymuşdur: "Türk diplomatını biz - erməni xalqının soyqırımı əleyhinə haqq-ədalət kombatı öldürmüşük". Naməlum bir şəxs "Assosiated Press" informasiya agentliyinə zəng vuraraq xəbər vermişdir ki, qətli ASALA erməni terror təşkilatı törətmişdir".[428]

**26 oktyabr 1982-ci il. Los-Anceles, Kaliforniya ştatı. Amerika Birləşmiş Ştatları.** Beş etnik erməni (Los-Ancelesin sakinləri) Türkiyənin Filadelfiyadakı (Pensilvaniya ştatı) konsulluğunun binası önündə partlayış törətmək niyyətinə görə məsuliyyətə cəlb olunmuşdur. Onlar konsul Kanot Ərbəyin kabinetinə partlayıcı qurğu qoymağı planlaşdırmışdılar. Müttəhimlər CSAQ erməni terror təşkilatının üzvləri idilər.[429]

**8 dekabr 1982-ci il. Afina. Yunanıstan.** İki erməni terrorçusu Səudiyyə Ərəbistanı hava yollarının Afinadakı şöbəsinə qumbara atmışdır. Təhlükəsizlik xidmətinin nümayəndələri ilə atışma nəticəsində terrorçulardan biri öldürülmüş, onun yoldaşı - Vaxex Kontaverdyan adlı İran mənşəli etnik erməni isə partlayış törətməkdə ittiham olunaraq həbs edilmişdir.[430]

**21 yanvar 1983-cü il. Anahaym, Kaliforniya ştatı. Amerika Birləşmiş Ştatları.** Anahaymda çörəkbişirən ermənidən doqquz əldəqayırma yandırıcı bomba müsadirə edilmişdir. Bu, detonatorlardan biri özü-özünə alovlanıb yanğın törətdikdən sonra baş vermişdir. İstintaq müəyyən etmişdir ki, bombalar ABŞ-da terror aktları törətmək üçün nəzərdə tutulmuşdu. Erməni terror təşkilatlarının ABŞ-da mülki obyektləri özünün əsas hədəfi seçmiş digər terror qruplarla fəal əməkdaşlıq etdiyini iki il keçdikdən sonra Amerikanın yüksək vəzifəli bir məmuru da təsdiq edəcəkdir.[431]

**22 yanvar 1983-cü il. Paris. Fransa.** Fransa polisi Parisdə "Orli" hava limanında Türkiyə hava yollarının kassası önündə 1 kq partlayıcı maddə aşkar etmişdir.

Terror aktı törətmək cəhdinə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[432]

**22 yanvar 1983-cü il. Paris. Fransa.** İki terrorçu Türkiyə hava yollarının Parisdəki şöbəsinə əl qumbaraları atmışdır. Yalnız təsadüf üzündən mülki əhali arasında tələfat olmamışdır. Terrorçulardan biri həbs edilmişdir. O, ASALA erməni terror təşkilatının üzvü idi. Tədqiqatçı J.Malevilin fikrincə, ...gözlənildiyi kimi, erməni terrorçuları, tərəfdarlarının təəssüfünə səbəb olsa da, əsl simalarını göstərdilər. "Erməni məsələsi uğrunda" bədnam qisasçılar müəyyən sayda ünvanlı qətllərdən sonra müxtəlif ölkələrin aviasiya şirkətlərinin ofislərini partlatmaq, aeroportlarda silahsız adamları pulemyotdan atəşə tutmaq kimi hərəkətlərə başlayanda, ictimai rəy dərhal bu yalançı hüquq müdafiəçilərini beynəlxalq terrorizm tərəfindən idarə olunan, cinayət hüququnun bütün gücü ilə cəzalandırılmalı olan əli qana batmış divanələr kimi tanıdı".[433]

**2 fevral 1983-cü il. Brüssel. Belçika.** Brüsseldә Türkiyә hava yollarının nümayәndәliklәrindә partlayışlar. Cinayәtlәrә görә mәsuliyyәti "Daşnaksutyun" beynәlxalq terror tәşkilatının ideoloji şәbәkәsinә daxil olan növbәti bölmәsindәn - "Yeni Ermәni Müqavimәt Tәşkilatı"ndan olan qatillәr öz üzәrinә götürmüşdür.[434]

**28 fevral 1983-cü il. Lüksemburq.** Türkiyә sәfirliyi binasının önünә qoyulmuş partlayıcı qurğu aşkar edilmiş vә zәrәrsizlәşdirilmişdir. Ermәni qәzetinin Nyu-Yorkdakı müxbiri xәbәr vermişdir ki, "Yeni Ermәni Müqavimәt Tәşkilatı" kimi tanınan terror qrup rәsmi mәlumatında nәzәrdә tutulan cinayәtә görә mәsuliyyәti öz üzәrinә götürür. "Yeni Ermәni Müqavimәt Tәşkilatı" ASALA-nın tәrkibinә daxildir. Qәrargahı Fransadadır. Hazırda terror aktlarını әsasәn keçmiş SSRİ respublikaları әrazisindә hәyata keçirir.[435]

**28 fevral 1983-cü il. Paris. Fransa.** Türkiyәnin "Marmara travel agency" firmasının Parisdәki şöbәsindә bomba partlaması nәticәsindә şirkәtin katibi Rone Morina hәlak olmuş vә doqquz fransız yaralanmışdır. Güclü partlayış firmanın binasını ciddi zәdәlәmişdir. Partlayışdan bir neçә dәqiqә sonra ASALA ermәni terror tәşkilatı bu cinayәtә görә mәsuliyyәti öz üzәrinә götürmüşdür.[436]

**9 mart 1983-cü il. Belqrad. Yuqoslaviya.** Belqradın mәrkәzindә iki ermәni terrorçusu Yuqoslaviya vәtәndaşlarını atәşә tutmuşdur: bir tәlәbә hәlak olmuş vә cavan qadın yaralanmışdır. Bundan әvvәl isә Türkiyәnin Belqraddakı sәfiri Qalib Balkar qәtlә yetirilmişdi. Onun sürücüsü Nekati Keyer ağır yaralanmışdır. Cinayәtkarlardan biri polkovnik rütbәsindә olan yuqoslaviyalı zabiti dә yaralamışdır. Terrorçular aradan çıxmaq istәrkәn Yuqoslaviya hüquq-mühafizә orqanlarının әmәkdaşları tәrәfindәn yaxalanmışlar. CSAQ ermәni terror tәşkilatı mәsuliyyәti öz üzәrinә götürmüşdür. Terrorçuların hәr ikisi - Krikor Levonyan vә Rafi Elbekyan Yuqoslaviya hakimiyyәt orqanları tәrәfindәn cinayәt mәsuliyyәtinә cәlb olunmuş vә mәhkum edilmişdir. Lakin tezliklә - aprelin 24-dә gözlәnilmәdәn azad edilmişlәr, bu da dünya mәtbuatında hamılıqla ciddi şәkildә pislәnilmişdir. 1987-ci il iyulun 30-da "Armenian Reporter" qәzetindә dәrc olunmuş mәqalәdә xәbәr verilmişdir ki, yuxarıda adı çәkilәn ermәni terrorçuları Yunanıstanda sığınacaq tapmışlar.[437]





**31 mart 1983-cü il. Frankfurt. Almaniya Federatif Respublikası.** ASALA ermәni terror tәşkilatından bir nәfәr Türkiyәnin "Tәrcüman" qәzetinin Frankfurtdakı şöbәsinә zәng vuraraq, "ermәni mәsәlәsi" әleyhinә yazılar dәrc edilmәsi dayandırılmazsa, redaksiyanı partlatmaqla hәdәlәmişdir.[438]

**24 may 1983-cü il. Brüssel. Belçika.** Brüsseldә Türkiyә sәfirliyinin mәdәniyyәt-informasiya mәrkәzlәrinin vә Türkiyәnin "Marmara" sәyahәtlәr bürosunun ofislәri qarşısında partlayışlar. Sәyahәtlәr agentliyinin milliyyәtcә italyan olan direktoru qәlpә yarası almışdır.

ASALA ermәni terror tәşkilatı bu cinayәtә görә mәsuliyyәti öz üzәrinә götürmüşdür.[439]

**16 iyun 1983-cü il. İstanbul. Türkiyә.** Ermәni terrorçularının növbәti cinayәti: İstanbulun dünyada

məşhur olan bazarında - "Qapalı çarşı"da qumbaralarla və avtomatla silahlanmış saqqallılar 2 nəfəri qətlə yetirmiş və 21 nəfəri yaralamışlar.

ASALA erməni terror təşkilatı məsuliyyəti öz üzərinə götürmüşdür. Bununla əlaqədar Mark S.Steyntsin tədqiqatları diqqətə layiqdir. O, yazırdı ki, İnterpoldan olan mənbələr hələ 1983-cü ilin əvvəllərində Kiprin yunanlara aid olan hissəsində ASALA terror təşkilatının maliyyələşdirdiyi narkotik vasitələr alverçilərinə məxsus olan 9 kq heroin ələ keçirilməsi faktını xatırlatmışdılar. Elə həmin mənbələrə görə,"Qapalı çarşı"da qanlı terror aktında iştirak etmiş ASALA yaraqlılarından biri bundan sonra narkotik vasitələr alverçisinin mənzilində gizlənmişdi.[440]

**8 iyul 1983-cü il. Paris. Fransa.** Erməni terrorçuları Britaniya səfirliyinin binasına hücum edərək, bununla da Londonda erməni terrorçularının mühakimə olunmasına etirazlarını bildirmişlər.[441]

**13 iyul 1983-cü il. Paris. Fransa.** Türkiyənin yeddi vətəndaşı Paris hava limanında təyyarə gözləyərkən erməni terrorçuları tərəfindən qətlə yetirilmişdir.[442]

**14 iyul 1983-cü il. Brüssel. Belçika.** Türkiyənin Brüsseldəki səfirliyinin attaşesi Dursun Aksoy öz maşınında güllə ilə öldürülmüşdür. Üç erməni terror təşkilatı - ASALA, CSAQ və "Erməni İnqilabi Ordusu" qətlə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[443]

**15 iyul 1983-cü il. Paris. Fransa.** Parisin "Orli" hava limanında Türkiyə hava yollarının kassası önündə partlayış





nəticəsində 8 nəfər həlak olmuşdur. Onların arasında 4 fransız, 2 türk, 1 amerikalı, 1 isveçli var idi. Bundan əlavə, 60 nəfər yaralanmışdır. ASALA erməni terror təşkilatının Fransadakı şöbəsinə başçılıq edən Suriya mənşəli 29 yaşlı etnik erməni Varocan Qarabedyan partlayışın təşkilində iştirak faktını etiraf etmiş və demişdir ki, bomba təyyarədə partlamalı idi. Qeyd edək ki, erməni terror təşkilatları şəbəkəsinə Yaxın Şərqdən muzdurlar cəlb etməyin təşəbbüskarları məhz Qarabedyan və onun yaxın adamları olmuşdur.[444]

**15 iyul 1983-cü il. London. Böyük Britaniya.** "Orli"də partladılmış bomba ilə eyni olan bomba aşkar edilmiş və vaxtında zərərsizləşdirilmişdir. Bu dəfə insan tələfatının qarşısını almaq mümkün olmuşdur.

Nəzərdə tutulmuş terror aktına görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[445]

**18 iyul 1983-cü il. Lion. Fransa.** ASALA Lion vağzalında bomba partlatmaqla hədələmişdir.[446]

**20 iyul 1983-cü il. Lion. Fransa.** ASALA erməni terror təşkilatı növbəti dəfə Lion dəmir yolunun "Perrache" stansiyasını partlatmaqla hədələmişdir: sərnişinlər təcili surətdə oradan çıxarılmışdır.[447]

**22 iyul 1983-cü il. Tehran. İran.** Tehranda iki partlayış törədilmişdir: Fransa səfirliyində və "Air France"nin nümayəndəliyində.

ASALA bəyan etmişdir ki, terror aktına görə "Orli təşkilatı" erməni terror qrupu məsuliyyət daşıyır.[448]

**27 iyul 1983-cü il. Lissabon. Portuqaliya.** Beş erməni terrorçusundan ibarət qrup Türkiyənin Lissabondakı səfirliyini hücumla ələ keçirməyə cəhd göstərmişdir. Lakin onlar buna nail olmamış və çarəsiz qalaraq səfirin müavininin mənzilini tutmuş, onun arvadını və uşaqlarını girov götürmüşlər. Bomba kamikadze ermənіnin əlində partlamış, missiya başçısının arvadı və dörd terrorçu həlak olmuşdur. Y.Mıxçıoğlunun müavini və onun oğlu Ağasoy yaralanmışlar. Beşinci terrorçu Türkiyə təhlükəsizlik qüvvələrinin nümayəndələri ilə atışmada öldürülmüşdür. Portuqaliyanın bir polis əməkdaşı qətlə yetirilmiş, bu ölkənin digər vətəndaşı yaralanmışdır.

EİO erməni terror təşkilatı cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür.

Bir neçə aydan sonra ABŞ-dakı erməni kilsələrində "Lissabon dördlüyünün şərəfinə ibadətlər" keçiriləcək və orada qriqorian keşişləri qatilləri "böyük əzabkeşlər" dərəcəsinə ucaldacaqlar. "Armenian Weekly" qəzetinin yazdığına görə "...Müqəddəs Vartanyans kilsəsində dörd yüzdən çox adam iştirak etmişdir. 1) "Beş qəhrəmanın" ruhları barədə qısa yadetmə ibadəti; 2) "Boy scout" erməni ordusunun yerli dəstəsi bayraqla və şam yandırmaqla mərasim keçirmişdir. Əllərində yanar şam və qarşılarında üçrəngli erməni bayrağı olan uşaqların hər biri "qəhrəmanları" təsvir edirdi: ... Mərasim belə bir səhnə ilə başa çatmışdır: eyni paltar və qara başlıqlar geymiş beş cavan kişi səhnəyə çıxmış və "beş qəhrəmanın" portretinə salam verərək, qırmızı bayrağı açmışdır..."[449]

**28 iyul 1983-cü il. Vaşinqton. Amerika Birləşmiş Ştatları.** ABŞ Prezidenti Ronald Reyqanın bəyanatından: "Türkiyənin Lissabondakı səfirinə qarşı Portuqaliyada dünənki sui-qəsd türk diplomatlarına və digər günahsız





vətəndaşlara qarşı qəddar, nizamsız aksiyalar seriyasında axırıncı olmuşdur. "Erməni İnqilabi Ordusunun" məsuliyyət daşıdığı dünənki sui-qəsd nəticəsində səfirin xanımı həlak olmuş, uşağı ağır yaralanmışdır. Elə iki həftə bundan əvvəl Brüsseldə türk diplomatı evindən çıxarkən qətlə yetirilmiş, bir gün əvvəl isə Türkiyənin digər yeddi vətəndaşı Paris hava limanında öldürülmüşdür. Həmin günlərin dəhşətlərinə heç bir real və yaxud uydurma inciklik bəraət qazandıra bilməz. ABŞ xalqı və hökuməti adından Türkiyə hökumətinə və günahsız qurbanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm. Lakin başsağlığı ilə kifayətlənmək azdır. Bu günlərdə mən sivil cəmiyyətdə belə vəhşi və insanlıqdan kənar hərəkətlərə son qoymaq üçün təcili və daha əlaqəli tədbirlər görmək barədə digər dövlətlərin rəhbərləri ilə danışacağam". Bəyanatın mətnini Ağ ev yaymışdır.[450]

**28 iyul 1983-cü il. Lion. Fransa.** Lion dəmir yolunun "Perrache" vağzalında partlayıcı qurğu qoyulduğu barədə növbəti hədə-qorxu daxil olmuşdur. Sərnişinlər təcili surətdə çıxarılmışdır. İnsanlar arasında çaxnaşma az qala faciə ilə nəticələnəcəkdi. KİV-lərə zəng vuran şəxs xəbər vermişdir ki, nəzərdə tutulan aksiyaya görə məsuliyyəti "Daşnaksutyun"un ideologiyasına uyğun fəaliyyət göstərən ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[451]

**29 iyul 1983-cü il. Tehran. İran.** Tehrandakı Fransa səfirliyinin binasını partlatmaq təhlükəsi barədə siqnal daxil olmuşdur. İranın hakimiyyət orqanları mühafizəni gücləndirməli olmuşdur. Hədə-qorxu Fransada 21 erməni cinayətkarın buraxılmasını tələb edən "Orli təşkilatı" erməni terror qrupundan daxil olmuşdur.[452]

**31 iyul 1983-cü il. Lion, Reyn. Fransa.** Erməni terrorçularının bomba partlatmaq hədə-qorxusu hökuməti daxili reyslərdə uçan və 424 sərnişin aparan iki təyyarəni təcili surətdə yerə endirməyə məcbur etmişdir. Təyyarələr Lionda və Reyndə yerə enmişlər. Tədqiqatçılar bu cür vahimə törətmək aksiyalarını erməni terror təşkilatlarının siyasi şantaj məqsədi ilə tez-tez istifadə etdikləri aksiyalar sırasına aid edirlər.[453]

**10 avqust 1983-cü il. Tehran. İran.** ASALA erməni təşkilatının törətdiyi növbəti terror aktı: Tehrandakı Fransa səfirliyinin binası önündə partlayıcı maddələr qoyulmuş maşın partlamışdır. "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatı sanki bütün dünyaya müharibə elan etmişdir.[454]

**17 avqust 1983-cü il. Tehran. İran.** "Air France"nin Tehrandakı nümayəndəsi öz avtomobilində güllə ilə öldürülmüşdür.

ASALA erməni terror təşkilatı bu cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[455]

**27 avqust 1983-cü il. Almaniya Federativ Respublikası.** Fransa konsulluğunda bomba partlaması nəticəsində, əsasən, Almaniya və Fransa vətəndaşları olan 2 adam ölmüş, 23 nəfər isə yaralanmışdır.

ASALA erməni terror təşkilatı cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[456]

**9 sentyabr 1983-cü il. Tehran. İran.** Polşa səfirliyinin iki maşını partladılmışdır. Nəticədə səfirliyin iki əməkdaşı zərər çəkmişdir.





ASALA erməni terror təşkilatı partlayışa görə məsuliyyəti öz üzərinə götürmüşdür.[457]

**1 oktyabr 1983-cü il. Marsel. Fransa.** Beynəlxalq ticarət yarmarkasında baş vermiş partlayış nəticəsində Sovet İttifaqının, ABŞ-ın və Əlcəzairin pavilyonları dağılmış, 1 adam həlak olmuş, 26 nəfər yaralanmışdır.

ASALA və "Orli təşkilatı" bu cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşlər.[458]

**6 oktyabr 1983-cü il. Tehran. İran.** Fransa səfirliyinə məxsus avtomobil partladılmış, 2 sərnişin yaralanmışdır.

"Orli təşkilatı" bu cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[459]

**29 oktyabr 1983-cü il. Beyrut. Livan.** Beyrutda Fransa səfirliyinin binasına yaxınlaşan avtomobildən pilləkan meydançasına əldəqayırma qumbara atılmışdır. Təhlükəsizlik xidmətlərinin nümayəndələri terrorçulardan birini yaxalamış, digəri isə aradan çıxa bilmişdir.

ASALA erməni terror təşkilatı məsuliyyəti öz üzərinə götürmüşdür.[460]

**29 oktyabr 1983-cü il. Beyrut. Livan.** Üç erməni terrorçusu Türkiyə səfirliyini ələ keçirmişdir. Terrorçulardan biri, 19 yaşlı Sarkis Danielyan təhlükəsizlik xidməti tərəfindən həbs olunmuşdur.

ASALA erməni terror təşkilatı məsuliyyəti öz üzərinə götürmüşdür.

Amerika mənbələri Yaxın Şərqdə erməni terror təşkilatlarının fəallaşmasını bununla izah edirlər ki, erməni

terrorçularının bazalarının әksәriyyәti Livanın әrazisindә yerlәşir vә burada onlar narkotik vasitәlәrin tranzitindә fәal iştirak edirlәr.[461]

**4 fevral 1984-cü il. Paris. Fransa.** Ermәni terror tәşkilatları "Air France"ni vә "New York-Machine"ni partlatmaqla hәdәlәyirlәr.[462]

**8 fevral 1984-cü il. Paris. Fransa.** Terrorçu xәbәrdarlıq etmişdir ki, "Air France" şirkәtinin saat 13.00-da Nyu-Yorka uçan tәyyarәsindә partlayıcı qurğu qoyulmuşdur. Tәdqiqatçı E. Fayqlın dediyinә görә, terror aktı törәtmәk barәdә hәdә-qorxu Fransada yerlәşәn ermәni terror tәşkilatlarının birindәn daxil olmuşdur.[463]

**28 mart 1984-cü il. Tehran. İran.** İran paytaxtında Türkiyә diplomatlarına qarşı әvvәlcәdәn planlaşdırılmış bir sıra sui-qәsdlәr edilmişdir:

- İki ermәni terrorçusu Türkiyә vәtәndaşı İsmayıl Pamukçunu ağır yaralamışdır, o, Tehrandakı Türkiyә hәrbi attaşesinin şöbәsinә çatdırılmışdır.

ASALA ermәni terror tәşkilatı bu cinayәtin törәdilmәsinә görә mәsuliyyәti öz üzәrinә götürmüşdür.

- Türkiyә sәfirinin birinci katibi Hәsәn Sәrvәt Öktәm terrorçuların sui-qәsdi nәticәsindә yaralanmışdır.
- Türkiyә sәfirliyinin inzibati attaşesi İbrahim Özdәmir evinin qarşısında iki şübhәli şәxsin olması barәdә İran polisinә xәbәr vermişdir. E.Fayqlın araşdırmalarına görә, İran tәhlükәsizlik xidmәtlәrinin tutub saxladıqları şәxslәr ermәni terror tәşkilatlarından birinin üzvlәri idilәr.
- Saat 14.00-da İran polisi Türkiyә sәfirliyinin binası önündә üç ermәni terrorçusunu yaxalamışdır.





- Türkiyә sәifrliyinin maliyyә mәsәlәlәri üzrә müşaviri kömәkçisinin avtomobilinә bomba qoymaq istәyәn ermәni terrorçusu onun vaxtından әvvәl partlaması nәticәsindә hәlak olmuşdur. Hәlak olmuş terrorçunun şәxsiyyәti müәyyәn edilmişdir. Sultan Qreqoryan Semaperdan adlı etnik ermәni ASALA ermәni terror tәşkilatının İran şöbәsinin üzvü idi.[464]

**29 mart 1984-cü il. Los-Anceles. Kaliforniya ştatı. Amerika Birlәşmiş Ştatları.** Türkiyәnin Los-Ancelesdәki konsulluğuna ünvanlanmış mәktubda deyilir ki, Türkiyә idmançıları Los-Anceles Olimpiadasında iştirak edәrsә, onlardan intiqam alınacaqdır. Mәktubu ASALA ermәni terror tәşkilatı imzalamışdır.[465]

**8 aprel 1984-cü il. Beyrut. Livan.** ASALA ermәni terror tәşkilatı rәsmi mәlumat yaymış vә xәbәrdarlıq etmişdir ki, ermәni terrorçuları Türkiyәyә uçan bütün xarici tәyyarәlәri hәrbi hәdәf hesab edirlәr.[466]

**26 aprel 1984-cü il. Ankara. Türkiyә.** Elan edilmişdir ki, Türkiyәnin baş naziri Turqut Özal hәdә-qorxu mәktubu almışdır. Mәktubda baş nazirә xәbәrdarlıq olunmuşdur ki, әgәr Tehrana nәzәrdә tutulmuş sәfәrindәn imtina etmәsә, ASALA onun ölkәsinә qarşı bir sıra terror aktları tәşkil edәcәkdir.[467]

**28 aprel 1984-cü il. Tehran. İran.** İki ermәni terrorçusu Türkiyә vәtәndaşı İşik Yöndәrin maşınını atәşә tutmuşdur. Onun arvadı Sәdiyyә Yöndәr dә, sәfirliyin qulluqçusu da maşında idi. Nәticәdә İşik Yöndәr hәlak olmuşdur.

Qətlə görə məsuliyyəti ASALA erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[468]

**20 iyun 1984-cü il. Vyana. Avstriya.** Türkiyənin Avstriyadakı səfirliyinin sosial məsələlər üzrə müşavirinin köməkçisi Ərdoğan Özənə məxsus avtomobil partladılmışdır. Partlayış nəticəsində Özən həlak olmuş, digər beş vətəndaş, o cümlədən Avstriyanın iki polis əməkdaşı ciddi yaralanmışdır.

Qanlı cinayətə görə məsuliyyəti EİO erməni terror təşkilatı öz üzərinə götürmüşdür.[469]

**25 iyun 1984-cü il. Paris. Fransa.** Parisdə informasiya agentliyinə ASALA erməni terror təşkilatı tərəfindən imzalanmış məktub daxil olmuşdur. Məktubda Türkiyənin Los-Ancelesdə Olimpiya oyunlarında iştirakına hər hansı yolla kömək göstərən hökumət təşkilatlarına və şirkətlərinə qarşı terror aktı törətmək barədə hədə-qorxu gəlinirdi.[470]

**13 avqust 1984-cü il. Lion. Fransa.** Lion dəmir yol vağzalında partlayış.

ASALA erməni terror təşkilatı məsuliyyəti öz üzərinə götürmüşdür.[471]

**1 sentyabr 1984-cü il. Tehran. İran.** İran hökuməti bəyan etmişdir ki, erməni terrorçularının Türkiyənin İrandakı səfiri İsmət Birselə sui-qəsd planının üstünü açmışdır.[472]

**3 sentyabr 1984-cü il. İstanbul. Türkiyə.** İstanbulda Topqapı sarayının önündə saxlanmış maşına bomba qoymağa cəhd göstərilərkən, bomba vaxtından əvvəl partlamış və





nəticədə iki livanlı terrorçu erməni ölmüşdür. EİO erməni terror təşkilatı məsuliyyəti öz üzərinə götürmüşdür.[473]

**Sentyabr 1984-cü il. Tehran. İran.** İranda bir neçə türk şirkəti onların erməni terror təşkilatının hədəfi olması barədə hədə-qorxu məktubu almasından sonra hücumlara məruz qalmışdır. Birinci terror aktı Türkiyənin nəhəng "Sezzay-Türkish-Fevzi Akkaya Company" tikinti şirkətinə qarşı törədilmişdir. Bu şirkətin şöbəsində partlayıcı qurğu işə düşmüşdür. Bir qulluqçu yaralanmış və xəstəxanaya qoyulmuşdur.[474]

**19 noyabr 1984-cü il. Vyana. Avstriya.** "BMT-nin sosial və humanitar məsələlər mərkəzinin" Vyanadakı şöbəsində işləyən və milliyyətcə türk olan Ənvər Ərgün avtomobili qırmızı işıqda saxlayarkən qətlə yetirilmişdir. Avtomobildə "Daşnaksutyun"un ideoloqlarının göstərişləri ruhunda fəaliyyət göstərən EİO erməni terror təşkitının "EİO inisialları olan parça qırığı" tapılmışdır.[475]

**1984-cü il. Bakı. Azərbaycan.** Bakıda 106 nömrəli sərnişin avtobusu partladılmış, nəticədə iki uşaq anası olan bir qadın həlak olmuş və bir neçə nəfər yaralanmışdır. Azərbaycanın təhlükəsizlik xidmətləri müəyyən etmişlər ki, iyunun 17-də baş vermiş bu cinayəti Ermənistanda fəaliyyət göstərən terror təşkilatlarla əlaqədə olan Vartanov familiyalı erməni terrorçusu törətmişdir.[476]

**Dekabr 1984-cü il. Brüssel. Belçika.** Belçika polisi Türkiyənin Brüsseldəki səfirliyinin əməkdaşı Səlcuk İnçiunun mənzilinin qabağında partlayıcı qurğu aşkar etmişdir.

Bir çox tədqiqatçılar bu faktı Qərbi Avropada fəaliyyət göstərən erməni terror təşkilatlarının törətdikləri cinayətlər sırasına aid edirlər.[477]

**29 dekabr 1984-cü il. Beyrut. Livan.** Şərqi Beyrutda iki fransız müəssisəsinin ofisləri partladılmışdır.

ASALA erməni terror təşkilatı bu cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[478]

**29 dekabr 1984-cü il. Paris. Fransa.** ASALA erməni terror təşkilatından "Air France" şirkətinə məxsus təyyarənin partladılacağı barədə hədə-qorxu daxil olduqdan sonra, polis Parisin "Charle de Gaulle" hava limanında mühafizəni gücləndirmişdir.[478]

**3 yanvar 1985-ci il. Beyrut. Livan.** Partlayış nəticəsində Qərbi Beyrutda "France-Press" agentliyinin şöbəsi ciddi ziyan çəkmişdir.

ASALA erməni terror təşkilatı bu cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür. Xarakterik cəhətdir ki, elə həmin ay "Armenian Reporter" qəzeti ASALA erməni terror təşkilatının ABŞ-ın Beyrutdakı dəniz piyadaları qoşunlarının baraklarını partlatmış "Cihad-İslami"nin hərəkətlərini müdafiə etdiyini bildirmişdir. "Armenian Reporter"in yazdığına görə, ASALA Beyrutun həm qərbində, həm də cənubunda ABŞ səfirliyində partlayışlara görə məsuliyyət daşıyan terror yönümlü radikal Livan qruplarına və ilk növbədə "Cihad-İslami" təşkilatına tərəfdar olduğunu bəyan etmişdir.

"Müqəddəs islam müharibəsində" erməni terrorçularının əli olması yalnız onların öldürmək peşəsi ilə izah olunur.[480]





**3 yanvar 1985-ci il. Beyrut. Livan.** Hərbi istehkamçılar dəstəsi Qərbi Beyrutun Ramlet əl-Bayd rayonunda "Fransa-Livan bankı"nın girişində basdırılmış 6 funt partlayıcı maddəni aşkar edib zərərsizləşdirmişlər. ASALA erməni terror təşkilatı törədiləcək cinayətə görə məsuliyyəti öz üzərinə götürdüyünü bəyan etmişdir. Mark S.Steyntsin araşdırmalarına görə, "erməni terror təşkilatları bir çox ölkələrdə fəaliyyət göstərirlər, lakin onlar əsasən Livanda, ələlxüsus da Beyrutda yerləşirlər və burada narkotik vasitələrin daşınmasında erməni icmasının üzvləri xeyli üstünlük təşkil edirlər. Bu yaxınlarda Fransa mətbuatının yazdığına görə, narkobiznesdən əldə edilən gəlirin bir hissəsi terrorçuların cibinə axır".[481]

**3 mart 1985-ci il. Paris. Fransa.** ASALA erməni terror təşkilatından telefonla zəng edib bütün dünyada Fransanın mənafelərinin təqib olunacağı ilə hədələyirlər. "France Press" agentliyinə edilmiş telefon zəngində səslənmiş hədə-qorxu "Orly"də terror aktlarında iştirak etmiş üç terrorçu barədə hökm çıxarılması ilə əlaqədar Fransa hökumətinə ünvanlanmışdı. Ertəsi günü, 1985-ci il martın 4-də ABŞ-ın dövlət katibi Corc Şults Nümayəndələr Palatasının spikeri Tomas O`Neylə məktub göndərmişdir. Türkiyə ilə əməkdaşlıq baxımından Amerikanın təhlükəsizlik məsələlərinə həsr olunmuş məktubda "bugünkü erməni terrorizmi kimi təhlükəli probleminin" mövcudluğuna işarə edilərək bildirilir ki, "1975-ci ildən etibarən 50-dən artıq türk vətəndaşı, əsasən, diplomatlar erməni terrorçuları tərəfindən qətlə yetirilmişdir". ABŞ dövlət katibinin məktubunda daha sonra deyilir: "Təkcə Türkiyə vətəndaşları deyil, bizim vətəndaşlar da erməni terrorçularının qurbanı olurlar. Dörd qətl bizim ərazidə baş vermişdir. Bu terror kampaniyasının

gedişindә bir neçә partlayış törәtmәk cәhdi vә bu cür digәr hadisәlәr zamanı Amerika vәtәndaşları hәdәfә çevrilmişlәr vә onlardan biri ermәnilәrin Türkiyә aeroportuna hücumu zamanı hәlak olmuşdur. Bu işlә iri ermәni terror tәşkilatlarından biri olan ASALA mәşğul olur, bu tәşkilat әsas obyekti amerikalılar olan digәr terror qruplara da kömәk edir. ASALA Livanda terror aktlarının әksәriyyәtinә görә mәsuliyyәt daşıyan "İslam cihadı"nı dәstәklәdiyini açıq-aşkar bәyan etmişdir".[482]

**12 mart 1985-ci il. Ottava. Kanada.** Üç silahlı ermәni terrorçusu Türkiyәnin Kanadakı sәfirliyini atәşә tutmuşdur. Atışma zamanı "Pinkerton" federal tәhlükәsizlik xidmәtinin agentlәri öldürülmüşlәr. Sonra terrorçular çöl qapısını partlayıcı maddә ilә partladaraq binaya soxulmuş vә girov götürmüşlәr. Sәfir Coşqun Kirsә özünü ikinci mәrtәbәnin pәncәrәsindәn ata bilmişdir. O, tullanarkәn ciddi zәdәlәnmiş, dörd saatlıq mühasirә әrzindә yerdә uzanmış halda qalmışdır. EİO-dan olan ermәni terrorçuları polis tәrәfindәn yaxalanmış, hәbs olunmuş vә Kanadada mәhkәmәyә verilmişdir.

Qeyd edәk ki, sәfirliyә hücumdan bir neçә hәftә әvvәl ABŞ-ın müdafiә naziri K.Uaynberger ABŞ Konqresinin Nümayәndәlәr Palatasının Xarici İşlәr komitәsindә bәyanat verәrәk, ermәni terrorçuları tәrәfindәn "Türkiyә vәtәndaşlarının, әsasәn dә, diplomatların" qәtlә yetirilmәsini pislәmişdir.[483]

**26 mart 1985-ci il. Toronto. Kanada.** "Vәtәnin Azadlığı Uğrunda Mәxfi Ermәni Ordusu" növbәti, bu dәfә qlobal terror aktı ilә - Toronto şәhәrindә kommunikasiya sistemini partlatmaqla hәdәlәyir. Xüsusi xidmәt orqanlarının hәyata keçirdiyi tәcili tәdbirlәr nәticәsindә ermәni terror





tәşkilatının bu cinayәtinin qarşısını almaq mümkün olmuşdur. Şәhәrin hәr yerindә tәhlükәsizlik tәdbirlәri güclәndirilmiş, bu da tәbiidir ki, şәhәr nәqliyyatının, digәr kommunikasiya sistemlәrinin normal iş ahәngini pozmaya bilmәzdi.[484]

**21 iyul 1985-ci il. Gәncә (Kirovabad). Azәrbaycan.** Şәhәr qәzetindә "Yeni doğulanlar... fәlakәt" mәqalәsi bu tarixdә dәrc olunmuşdur. Mәqalәdә dәmir yol xәstәxanasının doğum şöbәsindә yeni doğulanlar arasında ölüm hallarının çox olması faktı göstәrilir. Sonradan mәlum olmuşdur ki, körpәlәrin qatili adı çәkilәn xәstәxananın tibb bacısı, ermәni Roznina Kapilyan imiş. Bu qadın bir müddәt sonra istintaqdan yayınaraq, sağ-salamağ Ermәnistana köçür vә orada saqallılar ona "Killer Rozanna" adını qoyurlar.

Rövşәn Novruzoğlunun araşdırmalarına görә, Rozanna Kapilyan snayperlәr qrupunun başçısıdır, azәrbaycanlı vә türk diplomatlarını özünün hәdәfi elan etmişdir. "Killer Rozanna" Şuşa rayonunun Zarıslı kәndindә әhalinin kütlәvi qırğınında fәal iştirak etmişdir.[485]

**22 iyul 1985-ci il.** Ermәni terror tәşkilatlarının fәaliyyәtlәrinin guya siyasi mәqsәd daşıması barәdә uydurmasının növbәti dәfә iflasa uğraması hәmin günә tәsadüf edir. Bütün dünyada beynәlxalq qatil kimi tanınmış narkobaron Karlos (lәqәbi Çaqqal) İspaniya televiziyasına verdiyi müsahibәdә "böyük Ermәnistan" vә "1915-ci il soyqırımı" әfsanәlәrini alt-üst etmiş, ermәni tәşkilatlarının cinayәtkar-kriminal xarakterini tәsdiq etmişdir: "Ermәni terror tәşkilatları ilә bizim әlaqәlәrimiz var. Biz bir-birimizә kömәk vә sıx әmәkdaşlıq edirik". Karlos bunu da әlavә etmişdir ki, narkobiznes "bizim әsas silahımızdır, deyә bilәrik ki, bizim nüvә silahımızdır". Bu, ermәni terror

tәşkilatlarının beynәlxalq narkobiznesdә bilavasitә iştirak etmәsi barәdә açıq etiraflardan biri idi.[486]

**Noyabr 1985-ci il. Brüssel. Belçika.** Belçika polisinin terrorizmlә mübarizә üzrә xüsusi dәstәsi Brüsseldә Türkiyәnin NATO-dakı nümayәndәsi Osman Orkeyin evinin qabağında üstlәrindә Portuqaliya pasportları olan, milliyyәtcә ermәni olan iki şübhәli şәxsi hәbs etmişdir. İstintaq hәmin şәxslәrin yalnız bir әmәliyyat üçün mobil terror qrupları prinsipi ilә fәaliyyәt göstәrәn ermәni terror tәşkilatlarından birinә mәxsus olduqlarını müәyyәn etmişdir.[487]

**28 noyabr 1985-ci il. Paris. Fransa.** Fransa polisi "Ermәnistanın Azadlığı Uğrunda Mәxfi Ermәni Ordusu-inqilabi hәrәkat" (ASALA-P) ermәni terror tәşkilatının lideri, amerikalı ermәni Monte Melkonyanı yenidәn hәbs etmişdir. Əvvәllәr M.Melkonyan terrorçu Akop Akopyanın (ASALA ermәni terror tәşkilatının әsasını qoyanlardan birinin) adyutantı idi. Sonra özünün ASALA-P adlanan terror tәşkilatını yaradır. Bu iki terror tәşkilatının liderlәri arasında şәxsi fikir ayrılığı olsa da, bir sıra hallarda ümumi dil tapa bilirdilәr. Mәsәlәn, Parisin "Orli" hava limanında qanlı aktları ASALA vә ASALA-P birgә törәtmişdilәr. Ermәni terrorçusu Melkonyanın "FƏTH" tәşkilatının nümayәndәsi Əbu Nabillә әmәkdaşlığı da bu tarixdәn başlayır. Onun missiyası ermәni cinayәtkarlarla bir yerdә Beyrutda terror aktları törәtmәkdәn ibarәt idi.[488]

**12 dekabr 1985-ci il. Paris. Fransa.** Ən iri supermarketlәrdә (Galerie Lafayette vә Printemps) iki partlayış nәticәsindә 41 adam yaralanmışdır. "Armenian Reporter"





qәzetinin 12 dekabr tarixli nömrәsindә deyilir ki, Fransanın hüquq-mühafizә orqanları bu aktların törәdilmәsindә ASALA-nın әli olması versiyasını inandırıcı hesab edirlәr. Sonradan ASALA bu iki partlayışa görә mәsuliyyәt daşıdığını tәsdiq etmişdir.

Maraqlıdır ki, elә hәmin gün, 1985-ci il dekabrın 12-dә, ABŞ Konqresinin iclas salonunda ermәni konqressmeni Ç.Paşayanın bәyanatı sәslәnmişdir: "...Bu gün mәn burada dayanıb, hәr cür terrorizmi, әlәlxüsus da ermәni terrorizmini pislәyirәm. Lakin eyni zamanda, bunu da demәliyәm ki, nә qәdәr ki, onun sәbәblәri әdalәtsizcәsinә inkar edilir, açıq-aşkar bu terrorizmi törәdәn DTK vә kommunist partiyasının әlindә, әvvәlki kimi, alova tökmәk üçün benzin olacaqdır".

Tarix sübut edir ki, "Daşnaksutyun" beynәlxalq ermәni terror tәşkilatının tәbliğatçıları törәtdiklәri cinayәtlәrә görә hәmişә günahkar tapa bilirdilәr. Ç.Paşayanın mәntiqinә görә, Parisdә son partlayışlara görә SSRİ kommunistlәri mәsuliyyәt daşıyırlar.[489]

**17 mart 1986-cı il. Lion. Fransa.** Qismәn etnik ermәnilәrdәn-әrәb ölkәlәrindәn gәlmәlәrdәn vә ASALA ermәni terror tәşkilatının üzvlәrindәn ibarәt olan KSAMEPP terror tәşkilatı ilә әmәkdaşlığın başlanması bu tarixә tәsadüf edir: Lion-Paris ekspresindә bomba partladılmışdır. KSAMEPP vә ASALA bu cinayәtә görә mәsuliyyәti öz üzәrlәrinә götürmüşdür.[490]

**20 mart 1986-cı il. Paris. Fransa.** Parisdә ticarәt mәrkәzinin binasına qoyulmuş partlayıcı qurğu işә düşmüşdür. 2 nәfәr hәlak olmuş vә 30-a yaxın adam yaralanmışdır.

Bu cinayətə görə məsuliyyəti "Orli" hava limanında Türkiyə hava yollarının kassası önündə partlayışla əlaqələr iş üzrə məhkum olunmuş erməni terrorçusu V.Qarabedyanın azad olunmasını yenidən tələb edən KSAMEPP terror təşkilatı öz üzərinə götürmüşdür.[491]

**4 sentyabr 1986-cı il. Paris. Fransa.** Paris qatarına qoyulmuş partlayıcı qurğunun detonatoru işə düşməmiş, partlayıcı qurğunun özü isə vaxtında zərərsizləşdirilmişdir. Sərnişinlər oradan aparılmışdır.

KSAMEPP terrorçu təşkilatı nəzərdə tutulan bu terror aktına görə məsuliyyəti öz üzərinə götürdüyünü bəyan edərək, ASALA-nın üç terrorçusunun, o cümlədən V.Qarabedyanın azadlığa buraxılmasını növbəti dəfə tələb etmişdir. Növbədə ASALA-nın Jorj Xabaşin başçılıq etdiyi Fələstin Xalq Azadlıq Cəbhəsi (FAC) ilə erməni terror təşkilatlarının, ilk ittifaqı bu ilə təsadüf edir. 1986-cı il aprelin 20-də Basam Əbu Səlim Yunanıstanda çıxış edərək, FAC-nin adından bəyan etmişdir ki, fələstinlilərin hərbi-təlim düşərgələri erməni yaraqlıları üçün həmişə açıqdır. Paradoks da olsa, bu bir faktdır ki, hələ on illərlə bundan əvvəl erməni terror təşkilatları müsəlmanları erməni xalqının əsas düşməni elan etmişdilər.[492]

**9 sentyabr 1986-cı il. Paris. Fransa.** "Paris City Nall"ın binasında partlayış nəticəsində poçt xidmətinin işçisi həlak olmuş, daha 18 fransız yaralanmışdır.

Bu cinayətə görə məsuliyyəti V.Qarabedyanın və KSAMEPP-in digər iki terrorçusunun həbsdən azad olunmasını yenidən tələb edən KSAMEPP terror təşkilatı öz üzərinə götürmüşdür.[493]





**10-15 sentyabr 1986-cı il. Paris. Fransa.** Bir sıra bomba partlayışları iki nəfərin həlak olması və 100-dən artıq parislinin yaralanması ilə nəticələnmişdir.

ASALA ilə birgə fəaliyyət göstərən KSAMEPP terror təşkilatı bu cinayətlərə görə məsuliyyəti öz üzərinə götürmüşdür.[494]

**16 sentyabr 1986-cı il. Paris. Fransa.** Fransa paytaxtının Montrarnass məhəlləsində KSAMEPP terrorçu--ları tərəfindən qoyulmuş bombanın partlaması nəticəsində 5 fransız həlak olmuş və 52 nəfər yaralanmışdır. Daha bir neçə nəfər aldığı yaralardan xəstəxanada ölmüşdür. Cinayətkarlar partlayışlara və qətllərə görə məsuliyyət daşıyan ASALA-nın terrorçusu V.Qarabedyanın və daha iki saqqallının həbsdən azad olunması tələbini təkrar etmişlər.

Bir neçə gündən sonra "Miami Gerald" qəzetində belə bir məlumat çıxacaq oldu ki, "Türkiyənin ermənilərə qarşı uydurulmuş soyqırımı ucbatından birinci dünya müharibəsindən əvvəl də, sonra da türklərin işinə böyük ziyan vuran ASALA erməni terror birləşməsi Kipr ərazisindən idxal-ixrac şirkətinin və dini təhsil institutunun adı ilə pərdələnməklə idarə olunur".[495]

**9 oktyabr 1986-cı il. Beyrut. Livan.** ASALA Beyrutda Qərb xəbərlər agentliyinə əllə yazılmış və V.Qarabedyan və Yaxın Şərqin iki digər terrorçusu həbsdən azad edilmədiyi təqdirdə, Fransaya qarşı yönəldilmiş tədbirlərin sərtləşdiriləcəyi barədə xəbərdarlıq edən bəyanat vermişdir. Sənəddə deyilir ki, ASALA Fransadakı erməni məhəllələrinə reydlərə görə qisas almaq üçün bu ölkənin təyyarələrinə, hava limanlarına, gəmilərinə,

qatarlarına, eləcə də diplomatlarına zərbələr endirəcəkdir. Daha sonra terrorçular Qarabedyan azadlığa buraxılmasa, Fransanı "daha çox ziyan vuran və daha dəhşətli nəticələrə gətirib çıxaracaq" əlavə partlayışlarla hədələyirlər.

"Daşnaksutyun" erməni terror təşkilatının tarixi və təcrübəsi də təsdiq edir ki, ASALA-nın hədələri həyata keçirilə bilər. Yaddan çıxarmaq olmaz ki, 1986-cı ilin sentyabrında Fransa paytaxtını sarsıdan qanlı cinayətlərin hazırlanmasında məhz bu təşkilat iştirak etmişdir. O zaman 10 adam həlak olmuş, 160-dan çox adam isə yaralanmışdı.[496]

**15 oktyabr 1986-cı il. Beyrut. Livan.** ASALA-nın nümayəndəsi Miqran Miqranyan başda olmaqla bu təşkilatın üç terrorçusu Livanın paytaxtında fransız jurnalistləri ilə görüşmüş və qətllərə, partlayışlara görə həbs olunmuş tərəfdarları azad olunmasa, Fransaya qarşı cinayətləri davam etdirəcəkləri barədə hədə-qorxuları təkrar etmişlər. Cinayətkarlar Fransa hökuməti ilə danışıqlar aparıldığını bildirmişdir. Erməni terror təşkilatının fəal üzvü M.Miqranyan ultimatum vermişdir: "Biz Fransa hökumətindən verdiyi vədə əməl etməsini - Qarabedyanın azadlığa buraxılmasını gözləyirik. Əks təqdirdə aksiyalarımızı davam etdirəcəyik və sizi əmin edə bilərik ki, bu aksiyalar daha amansız olacaqdır. ASALA artıq bütün dünyada fransızları hərbi düşmənlər elan etmişdir. Siyasi məhbusları azad etmək barədə verdikləri vədə əməl etməsələr biz Şiraka xəbərdarlıq edir, Mitterana isə fəlakət vəd edirik".

"Washington Post" qəzeti 1986-cı il 31 oktyabr tarixli nömrəsində yazır: ...Türkiyə kəşfiyyat xidmətinin yüksək vəzifəli nümayəndələri üç ildən çoxdur ki, fransızlara müraciət edərək, Akon Akopyan adı ilə fəaliyyət göstərən 1 nömrəli erməni terrorçusunun, heç olmasa, bir fotoşəklini verməyi





xahiş edirlər... Fransızların Akopyanın fotoşəklini türklərə verməkdən imtina etmələri barədə versiyalardan biri odur ki, Fransada həbs cəzası çəkən erməni terrorçusu Qarabecyan (Qarabedyan), əslində, ələkeçməz Akopyan ola bilər".

"Akopyan-Qarabecyan (və yaxud Qarabedyan)" versiyası Parisdəki partlayışların səbəblərini izah edə bilərdi. ASALA əvvəlki razılaşmanı presedent kimi nəzərə alaraq, öz banisinin azad olunmasını (Əbu Nidalın azacıq köməyi ilə) istəyir, erməni terrorçuları əmindirlər ki, yeni partlayışlar törətməklə Akonyanın (Qarabecyanın və yaxud Qarabedyanın) azad edilməsinə nail ola biləcəklər".[497]

Noyabr 1986-cı il. Paris. Fransa. "Erməni İnqilabi Ordusu" (EİO) erməni terror təşkilatının yaraqlıları Kanadada ASALA-dan olan üç erməni terrorçusu barədə hökm çıxarılmasına etiraz əlaməti olaraq Parisdə "Air Canada"nın ofisini ələ keçirmişlər. Yalnız Fransanın xüsusi xidmət orqanlarının vaxtında gördükləri tədbirlər sayəsində qan tökülməsinin qarşısını almaq mümkün olmuşdur.

Maykl A. Ledinin 1986-cı ildəki tədqiqatlarına görə, ASALA Fransada və Almaniyada yerləşir, Suriya terrorçularından böyük yardım alır.[498]

**23 noyabr 1986-cı il. Melburn. Avstraliya.** Türkiyə konsulluğunun yanında partlayıcı maddə qoyulmuş maşın partlamışdır. Partlayış nəticəsində bir nəfər həlak olmuş, beşmərtəbəli binaya böyük ziyan vurulmuşdur. İstintaqın gedişində iki cinayətkarın adı məlum olmuşdur: onlar Viktoriyadan olan erməni terrorçuları Xaqop Levonyan və Levon Dəmiryan idi.

Qətlə görə məsuliyyəti "Yunan-Bolqar-Erməni Cəbhəsi" (YBEC) adlanan qrup öz üzərinə götürmüşdür. Erməni terror təşkilatı ilk dəfə idi ki, bu adla təqdim olunmuşdu.[499]

**19 yanvar 1987-ci il. Brisben. Avstraliya.** Poçt çeşidləmə şöbəsində bomba partlayışı nəticəsində Avstraliyanın altı vətəndaşı zərər çəkmişdir. Bu cinayətə görə məsuliyyəti "Yunan-Bolqar-Erməni Cəbhəsi" adlanan terror qrupu öz üzərinə götürmüşdür.

Tədqiqatçı Hit U.Louriyə görə, erməni terror təşkilatları təkcə türk vətəndaşlarını qətlə yetirməklə kifayətlənmirdilər. Müxtəlif millətdən olan günahsız adamlar da - amerikalılar, portuqaliyalılar, isveçlilər, kanadalılar, fransızlar, avstraliyalılar... tez-tez bu sərsəm ideyanın qurbanları olmuşlar... Maraqlıdır ki, bir ildən sonra erməni yazıçısı Silva Kaputikyan təklif edəcək ki, Avstraliya hökumətinə müraciət edib, erməni xalqını oraya köçürmək üçün torpaq ayırmaq xahiş olunsun.[500]

**20 yanvar 1987-ci il. Afina. Yunanıstan.** ASALA öz "yubileyi" - yaradılmasının 12-ci ildönümü münasibətilə Afinadakı mərkəzi qərargahından bütün ermənilərə müraciət etmişdir. ASALA-nın siyasi rəhbərliyinin müraciətində "Türkiyə dövlətinin və onu dəstəkləyən beynəlxalq imperializm və sionizm qüvvələrinin" simasında erməni xalqının düşmənlərinin adları çəkilir. "ASALA-nın müraciəti" Yunanıstan mətbuatında, o cümlədən ingilis dilində çıxan hökumət yönümlü "Athens News" qəzetində geniş işıqlandırılmışdır.

Elə həmin 1987-ci ildə "Armenian Reporter" qəzetində deyilir: "İsrailin "Mossad" kəşfiyyat xidməti Türkiyənin məxfi polisinə ASALA ilə Livanın gizli radikal ekstremist qrupu - "Hizbullah" arasında sıx əməkdaşlıq yaranması ilə əlaqədar hər ehtimala qarşı hadisələrin yeni inkişafına göz qoymağı məsləhət görmüşdür... İsrailin kəşfiyyat xidməti Türkiyənin kəşfiyyat xidmətinə xəbər vermişdir ki, ASALA





"Hizbullah"la əməkdaşlıq edərək, türk diplomatlarına qarşı bir sıra zorakılıq aktları həyata keçirməyi planlaşdırır..."[501]

**11 fevral 1987-ci il. Beyrut. Livan.** Livan paytaxtında yayılmış rəsmi məlumat 1986-cı ildə Parisdə partlayışlara görə ASALA erməni terror təşkilatının məsuliyyət daşıdığını təsdiq edir. Erməni terror təşkilatının Qərb informasiya agentliyinə çatdırılmış bəyanatında deyilir: "Fransa erməni və ərəb vətənpərvərlərini azad etmək üçün addımlar atmalı və lazımi prosedurlar həyata keçirməlidir. Bizimlə Fransa hökuməti arasında əmin-amanlıq dövrü olaraq atəşin dayandırılması ictimai rəyi əmin etməlidirlər ki, biz Fransanın və onun xalqının təhlükəsizlik mənafelərinə hörmətlə yanaşırıq. Fransanın küçələrində, zavodlarında, təyyarələrində, dəniz obyektlərində yenidən partlayışlar dalğasının törədilməsi sabotaj kimi qiymətləndiriləcəkdir. Daha sonra ASALA 1986-cı ildə Parisdə partlayışlara görə məsuliyyəti öz üzərinə götürür və Varocan Qarabedyanın azadlığa buraxılması tələbini bir daha təkrar edir". Bu mətndən aydın görünür ki, artıq ASALA erməni terror təşkilatı Fransa hökuməti ilə güc mövqeyindən "danışmağı" mümkün sayır.[502]

**6 iyul 1987-ci il.** "BBC" informasiya agentliyinin məlumatında deyilir ki, Fələstin Xalq Azadlıq Cəbhəsinin lideri Jorj Xabaş öz adamlarına ASALA-nın və PKK-nın həyata keçirdiyi əməliyyatlarda iştirak etməyi əmr etmiş və onları ifrat irqçi, ifrat millətçi, ifrat faşist təşkilatları kimi qiymətləndirmişdir. Elə həmin məlumatda deyilir ki, ASALA erməni terror təşkilatı narkotiklər alveri üzrə beynəlxalq tranzitlə əlaqədardır.[503]

**Oktyabr 1987-ci il. Yerevan. Ermәnistan.** "Daşnaksutyun" ermәni terror tәşkilatı tәrәfindәn "Qarabağ" deyilәn komitәnin yaradılması bu dövrә tәsadüf edir. Bu komitәnin qarşısında Azәrbaycan torpağı olan Qarabağın dağlıq hissәsindә genişmiqyaslı hәrbi әmәliyyatlar aparmaq, kütlәvi terror metodlarından vә üsullarından istifadә etmәklә azәrbaycanlıları vә kürdlәri bu әrazidәn zor gücünә çıxarmaq vәzifәsi qoyulmuşdu. "Qarabağ" komitәsinin yarandığı vaxtdan qarşısında duran mәqsәdlәrin araşdırılması onun növbәti ermәni terror tәşkilatı olub, bir tәrәfdәn, "Daşnaksutyun"un proqramından kәnara çıxmadan, digәr tәrәfdәn terror әmәliyyatları keçirmәkdә tәcrübәsi olan etnik ermәnilәri öz sıralarına cәlb etmәk üçün Yaxın Şәrqin radikal tәşkilatları ilә qarşılıqlı әlaqәdә fәaliyyәt göstәrdiyini demәyә tam әsas verir. Yerevanda Puşkin adına parkda "Qarabağ" komitәsinin ilk mitinqi olmuşdur. Komitәnin liderlәri İqor Muradyan vә Levon Ter-Petrosyan o zaman 250-dәn çox adam toplaya bilmәmişdi. Lakin artıq "Axı bu gün Qarabağa canlı bütlәr lazımdır" döyüş himni sәslәndi. Bu himn olduqca davakar ruhda bitirdi: "Qarabağımızı xilas etmәk üçün ölümdәn dә, hәbsxana qorxusundan da çәkinmәyә bilәrik". Bununla әlaqәdar qeyd etmәk lazımdır ki, "Qarabağ" ermәni terror tәşkilatı yaranandan cәmi bir neçә gün sonra SSRİ-nin başçısı Mixail Qorbaçov noyabr ayında Amerika Birlәşmiş Ştatlarında sәfәrdә olarkәn, onun arvadı Raisa Qorbaçova "Daşnaksutyun" tәşkilatının nümayәndәri ilә görüşmüşdür. Tanınmış jurnalist T.Çaladze bu barәdә deyir: "Bu görüş Qafqazda, yәqin ki, aşağıdakı tipli mәlumat kimi effekt doğurardı: "Dövlәt başçısı "Schrandau" hәbsxanasında Rudolf Qessә baş çәkmiş vә nahar süfrәsi arxasında onunla uzun-uzadı vә dostcasına söhbәt etmişdir". Ona görә ki, ermәni diasporunun nümayәndәlәri yaşayan hәr yerdә geniş şәbәkәsi olan "Daşnaksutyun" millәtçi tәşkilat kimi qadağan olunmuşdu. Yüksәk sәviyyәdә qәbul edildikdәn sonra isә sovet mәtbuatında belә bir mәlumat peyda oldu: "1921-ci ildәki antisovet qiyamından sonra ilk dәfә olaraq "Daşnaksutyun" partiyasının Ermәnistanda mәrkәzi ofisi, mәtbuat orqanı vә informasiya mәrkәzi olacaqdır".





ABŞ-dakı bu görüşdәn sonra "Lenin, Partiya, Qorbaçov" sözlәri bir sıra ermәni terror qruplarının şüarına çevrildi. Bununla әlaqәdar tәdqiqatçılar D.Furmanın vә S.Aseniusun fikri maraq doğurur: "... Әgәr millәtçilik mentaliteti özünü aldatmaya vә mifologemlәrә meylliyi ilә Türkiyә Ermәnistanının geri qaytarılmasını әlçatmaz vә az qala mümkünsüz hesab edirdisә, Moskvanın kömәyi ilә Dağlıq Qarabağın әlә keçirilmәsi tamamilә real görünürdü."[504]

**1988-ci il. Moskva. SSRİ.** "Daşnaksutyun"un hәrbilәşdirilmiş bölmәlәri ilә sıx әlaqәdә olan "Ermәnilәr İttifaqı" (Eİ) terror tәşkilatının yaradılması bu ilә tәsadüf edir. Mәqsәd ASALA terror tәşkilatı üzvlәrinin SSRİ әrazisindә manеәsiz yerdәyişmәsi üçün onları saxta sәnәdlәr vә pulla tәmin etmәk idi. Eİ Azәrbaycan Respublikasının әrazisi olan Qarabağın dağlıq hissәsindә terror aktları hәyata keçirmәk üçün silah-sursat vә muzdlular göndәrmәk mәsәlәlәrindә fәal iştirak edirdi. Bu terror tәşkilatı ASALA ilә, әsasәn, terrorçu V.Sislyan vasitәsilә әlaqә saxlayırdı.[505]

**20 fevral 1988-ci il. Yerevan. Ermәnistan.** Bir sıra tәdqiqatçıların fikrincә, "Daşnaksutyun"un ideoloji xәttinin tәrәfdarları olan ermәni terror tәşkilatlarının etnik azәrbaycanlıların kütlәvi qırğınlarının vә deportasiyanın yeni mәrhәlәsinin başlandığını elan etmәsi mәhz bu günә tәsadüf edir.

Yerevanda Yazıçılar evində "Qarabağ" erməni terror təşkilatının fəaliyyət proqramı açıq bəyan edilmiş və dövrün konyukturasına uyğun olaraq, mətbuatda az qala "demokratiya və insan hüquqları" uğrunda mübarizənin nümunəsi kimi təqdim edilmişdir. 1988-ci ildə "Qarabağ"ın fəalları Xankəndində (Stepanakert) özlərinin "Krunk" ("Durna") adlı şöbəsini yaratdılar. Bu şöbə hələ əsrin əvvəllərində erməni ideoloqları tərəfindən hazırlanmış məşum ssenarini həyata keçirməli idi. Hələ 1906-cı ildə Azərbaycan publisisti Ömər Faiq Nemanzadə "İrşad" qəzetinin səhifələrində məhz bu dəhşətli ssenari barədə yazırdı: "Ermənilər nə olur-olsun, Ermənistan yaratmaq niyyətini hökmən yerinə yetirəcəklər və bu məqsədə çatmaq naminə, şübhəsiz ki, bizi İrəvandan, Qarabağdan və Qarsdan qovmağa cəhd göstərəcəklər. Biz bilməliyik və yadda saxlamalıyıq ki, ermənilər hər bir alçaqlığa hazırdırlar. Onlar müsəlmanları öz üstlərinə qaldırıcaq, onları hücuma təhrik edəcək, bilərəkdən böyük itkilər verib, sonradan başı müsibətlər çəkmiş millət kimi bütün Avropanı onların halına acımağa qaldıracaqlar. Ermənilər öz cinayətləri üçün tədricən planlar qurmağa və onların həyata keçirilməsi yollarını axtarmağa başlayacaqlar". "Daşnaksutyun" erməni terror təşkilatının Qafqazdakı bölmələrindən biri olan "Krunk" da ondan belə bir tapşırıq almışdı. "Krunk"dan olan saqqallılar "İzvestiya" qəzetinin müxbiri A.Qazıxanovun üzünə qışqırıb demişdilər: "Biz ölümə gedənlərik. Bizi Azərbaycandan ayırmasalar, hər şeyə əl atacağıq". Bir müddətdən sonra məhz "Krunk" erməni terror təşkilatının fəalları Sumqayıt şəhərində erməni talanlarına təhrik edəcəklər.

"Krunk" təşkilatı sonradan Gürcüstanın Cavaxetiya rayonuna köçəcək və burada digər erməni terror qrupları ("Fədainlər", "Cavaxk") ilə yanaşı, ölkədə sabitliyi pozacaqlar.[506]





**22-24 fevral 1988-ci il.** Ermənistanın rayonlarından, əsas etibarilə Qafandan Azərbaycana qaçqınların böyük dəstələri - "yaxşı müsəlman - ölü müsəlmandır" prinsipi ilə fəaliyyət göstərən erməni terror və quldur birləşmələri tərəfindən zorla doğma yurd-yuvalarından qovulmuş etnik azərbaycanlılar gəlməyə başladı. Yerevanın rəsmi dairələri erməni terrorizmini açıq-aşkar dəstəkləyir, Moskvada Sovet İttifaqının siyasi rəhbərliyi isə buna dinməzcə göz yumurdu. Cinayətlər "Qorbaçov demokratiyasının" həyata keçirilməsi şüarı altında törədilirdi. Azərbaycan qaçqınlarının əksəriyyəti mərkəzi hakimiyyətin qərarı ilə bilərəkdən Sumqayıt şəhərində yerləşdirilirdi.[507]

**24 fevral 1988-ci il. Azərbaycan.** Rus alim-publisisti Y.Pompeyevin yazdığına görə, Azərbaycanın Əskəran rayonunda erməni saqqallıları 16 və 23 yaşlı iki azərbaycanlını qətlə yetirmişlər. Fitnə baş tutdu. Bu, "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının "demokratiya və insan hüquqları" uğrunda mübarizə adı ilə başladığı Dağlıq Qarabağ münaqişəsinin müasir mərhələsinin ilk qurbanları idi.[508]

**26 fevral 1988-ci il. Sumqayıt. Azərbaycan.** Ermənistandan zor gücünə qovulmuş və övlad, qohum-qardaş itkisinin acısını dadmış çoxsaylı azərbaycanlı qaçqınların sığınacaq tapdığı Sumqayıtda, sonradan məlum olduğu kimi, "Krunk" erməni terror qrupu və SSRİ DTK tərəfindən təşkil edilmiş talanlar törədildi. Tədqiqatçılar Q.Sadıxov və R.Məmmədovun məlumatına görə, Sumqayıt hadisələri ərəfəsində imkanlı erməni ailələri şəhəri tərk etmiş və orada gözlənilmədən erməni foto və telemüxbirləri peyda olmuşdu.

Sumqayıt hadisələri ilə bağlı istintaq nəticəsində bu da məlum olmuşdur ki, şəhərdə ermənilərin qətlə yetirilməsinin əsas təşkilatçılarından biri əvvəllər üç dəfə məhkum olunmuş Eduard Qriqoryan adlı erməni idi. İstintaq "Krunk" erməni terror təşkilatının üzvü olan bu adamın insanların xüsusi qəddarlıqla qətlə yetirilməsinin fəal iştirakçılarından biri olduğunu müəyyən etmişdir. Şəxsən o, 5 sumqayıtlı ermənini öldürmüşdür. İstintaq bir sıra digər hallarda E.Qriqoryanı həm cinayətlərin iştirakçısı, həm də ermənilərdən intiqam almağa çağıran bir şəxs kimi səciyyələndirmişdir.

İstintaq sənədlərindən:

... Edik Qriqoryan kütlənin toplaşdığı yerin lap ortasında dayanmışdı. Hamı kimi o da: "Qarabağ bizimdir! - deyə qışqırırdı. Qışqırıqlar kəsilən kimi Qriqoryan əmr verdi: "Ardımca!" ... Məclumyanın mənzilinin qapısını sındırıb içəri girdilər. Otaqda bir qız var idi. Qriqoryan Edik onu zorlamağa başladı. Sonra yaxındakına yaxınlaşıb dedi: "Get, sən də elə". L.Məclumyan (zərərçəkən): "Mən huşumu itirdim. Gözlərimi açanda üstümdə uzanmış kişini gördüm, sonradan öyrəndim ki, Eduard Qriqoryan imiş. Onun qolunda "Rima" ya da "Rita" sözü yazılmışdı. (Qriqoryanın qolunda həqiqətən "Rita" sözü yazılmışdı). Digər mənzildə E.Qriqoryan balta ilə M.Petrosyana hücum çəkir. M.Petrosyan cinayətkarın onu vurmasına mane ola bilsə də, aldığı zərbənin gücündən yıxılır. Onun bəxti onda gətirir ki, cinayətkar onu ölmüş bilir. İstintaq zamanı üzləşdirmədə M.Petrosyan E.Qriqoryanı tanıdı. Milliyyətcə erməni olan E.Qriqoryan ermənilərin kütləvi surətdə qətlə yetirilməsinə rəhbərlik etdiyinə və bu vəhşiliklərdə şəxsən iştirakına görə Rusiya məhkəməsi tərəfindən 12 il müddətinə azadlıqdan məhrum edilmiş, sonradan isə Ermənistana təhvil verilmişdir.





R.Novruzoğlunun araşdırmalarına görə, Sumqayıtda ermənilərin qətlə yetirilməsinin fəal iştirakçılarından biri də erməni Laura Lalayan olmuşdur. Şəhər MİS-də pasportçu işləyən bu qadın "Krunk" erməni terror təşkilatı üçün siyahılar hazırlayır və bu siyahılarda adı çəkilən erməni terror təşkilatının fonduna pul köçürməkdən imtina etmiş ermənilərin familiyalarının altından xətt çəkirdi (sonradan L.Lalayan Dağlıq Qarabağda qadınları və uşaqları qətlə yetirməkdə ixtisaslaşan cəza dəstəsinə başçılıq edəcək).

Erməni publisisti R.Arakelov "Dağlıq Qarabağ: günahkarlar məlumdur" kitabında erməni terror təşkilatlarının özlərinin erməni qırğınlarına olan əsl münasibətini göstərmişdir: "Sumqayıt gözəl fürsət idi. Lakin təəssüf ki, biz belə əlverişli məqamdan lazımi qədər istifadə edə bilmədik". Sumqayıt hadisələrinin araşdırılması belə bir faktı təsdiq edir ki, baş verənlər haqqında həqiqət o vaxt cidd-cəhdlə gizlədilirdi. Məsələn, aydın olmuşdur ki, hadisələrin gedişində qətlə yetirilən ermənilər "Krunk" erməni terror təşkilatına pul köçürməkdən imtina edənlər olmuşdur. Əksinə, terrorçuların tapşırıqlarını dinməz-söyləməz yerinə yetirən ermənilər isə irəlicədən əmanət kassalarından pullarını götürmüş, mənzillərini satmış və şəhəri sağ-salamat tərk etmişdilər.

Ümumiyyətlə, "özününkülərə divan tutmaq" üsulu hələ XIX əsrdə yaradılmış "Hnçaq" erməni terror təşkilatının porqram müddəalarına əsaslanan erməni terrorizmi üçün ənənəyə çevrilmişdir: "Öz məqsədlərinə xəyanət edən ermənilərə heç vaxt aman verməmək, onlardan intiqam almaq".[509]

**3 mart 1988-ci il. Bakı. Azərbaycan.** Erməni terrorçu - kamikadze cavab reaksiyasına təhrik etmək və bununla da millətlərarası zəmində toqquşma yaratmaq üçün dəhşətdən

nitqi qurumuş adamların gözü qabağında bir azərbaycanlını güllələmişdir.

Hələ 1919-cu ildə ingilis jurnalisti Skotland-Liddel erməni terrorçularının qanlı tamaşalar qurmağa meylli olduqlarını qeyd edərək, ermənilərin belə "ssenariləri" barədə demişdir: "Daşnak üçün öldürülmüş erməni dəyərlidir. Bu fürsətdən istənilən kimi istifadə edilərsə, o, təbliğat işinə çox xeyir verə bilər".[510]

**Mart 1988-ci il. Ermənistan.** Ermənistanın Vedi rayonunun Şirazlı kəndindən olan və erməni quldur birləşmələri tərəfindən Türkiyə sərhədinə sıxışdırılmış 54 azərbaycanlı ailəsi uzun müddət əsgərlərlə tikanlı məftillər arasındakı bir parça torpaqda qalmağa məcbur olmuşdur. Tədqiqatçı İ.Vəliyevin gətirdiyi bu fakt göstərir ki, Sovet İttifaqının mərkəzi hakimiyyət orqanları dinc əhaliyə qarşı bu cür görünməmiş cinayəti gizlətmiş, erməni quldur birləşmələrinin vəhşiliyini təsdiq edən fotoşəkillərin, video və audio kassetlərin, sənədlərin üzə çıxmasına yol verməmişlər.[511]

**May 1988-ci il. Ermənistan.** Bu ayın ilk on günü ərzində Ermənistandan deportasiya olunmuş azərbaycanlı qaçqınların növbəti on min nəfəri Azərbaycana gəlir. 1988-ci ilin fevral-may ayları ərzində bütünlükdə 50.000-ə yaxın azərbaycanlı qətlə yetirilməkdən qorxaraq, doğma yerləri tərk etməyə məcbur olmuşdur.[512]

**14 iyun 1988-ci il. Ermənistan.** Ermənistandan qovulmuş 4000 azərbaycanlı qaçqın Azərbaycana pənah gətirir. Şahidlərin dediyinə görə, erməni quldurlar yaxşı





silahlanmışdılar, onların zirehli texnikası və vertolyotları var idi. "İzvestiya" qəzetinin 1988-ci il 17 iyun tarixli nömrəsində xəbər verilirdi ki, Ermənistan SSR Ali Sovetinin (respublika parlamenti - **red.**) sessiyası qərar qəbul etmişdir və həmin qərarda o cümlədən deyilir ki, Dağlıq Qarabağda və onun ətrafında yaranmış gərgin vəziyyəti, eləcə də DQMV-nin və Ermənistanın erməni əhalisinin iradəsini nəzərə alaraq, SSRİ Konstitusiyasının millətlərin öz müqəddəratını sərbəst təyin etmək hüququ haqqındakı 70-ci maddəsinə əsaslanaraq, DQMV-nin Ermənistan SSR-in tərkibinə daxil olmasına icazə verilsin.[513]

**9 iyul 1988-ci il.** Taqətdən düşmüş 150 azərbaycanlı qaçqın "Ararat" dəmir yol stansiyasında səbirsizliklə qatarı gözləyirdi. Erməni quldur dəstəsi qəfildən onların üstünə hücum etdi. Ermənilərin qaçqınlara vəhşicəsinə divan tutması nəticəsində 50-dən artıq adam çox ağır yaralandı. Bu adamların sonrakı taleyi barədə heç nə məlum deyildir.

Tamlığı şübhə doğuran rəsmi statistikaya görə, ölüm təhlükəsindən qurtarmaq üçün 1988-ci il iyulun 9-dək Ermənistandan Azərbaycana 20.000 qaçqın gəlmişdi.[514]

**Avqust 1988-ci il. Xankəndi. Azərbaycan.** Azərbaycanlıların yaşadıqları məhəllələr yandırılmışdır. Erməni polisləri və hakimiyyət orqanları terrorçulara açıq-aşkar havadarlıq edirlər. Azərbaycan ailələrinə ultimatum verilir və doğma şəhəri tərk etmək üçün müddət qoyulur. "Qarabağ" terror təşkilatının ideoloqlarından biri V.Vardanyan ermənilərin azərbaycanlılara olan nifrətini belə izah edirdi: "Ermənilərin və azərbaycanlıların qardaş ola biləcəkləri tarixi baxımdan sübut edilməmişdir... Erməni əlində silah doğulmalıdır... Millət orduya

çevrilərsə, millətin dini isə hansısa uydurulmuş allah yox, millətin özü olarsa, erməni xalqı əbədi yaşayacaq."[515]

**3-21 sentyabr 1988-ci il. Azərbaycan.** Dağlıq Qarabağın azərbaycanlı əhalisinə qarşı növbəti terror aktları. Xankəndində azərbaycanlıların - şəhərin yerli sakinlərinin evləri erməni quldurları tərəfindən atəşə tutulmuşdur.[516]

**6-7 sentyabr 1988-ci il. Azərbaycan.** Ermənilərin iri quldur birləşmələri Xocalıya və Kərkicahana hücum etdilər. Yerli sakinlər - azərbaycanlılar arasında ölənlər və yaralananlar vardır. Müxtəlif məlumatlara görə, Azərbaycan kəndlərinə hücumlarda yaxşı təşkil olunmuş və müasir silahlarla təchiz edilmiş 6 minədək yaraqlıdan ibarət erməni quldur dəstələri iştirak etmişlər.[517]

**12 noyabr 1988-ci il. Spitak. Ermənistan.** Ermənistan Kommunist Partiyası Spitak rayon komitəsinin birinci katibi H.Muradyan, rayon icraiyyə komitəsinin sədri F.Abuçyan, rayonun baş həkimi R.Baqdaryan, hakim E.Nazaryan, milis rəisi V.Sarkisyan, prokuror Arakisyan bir neçə silahlı saqqalının müşayiəti ilə azərbaycanlı ailələrini evlərindən qovmuş və onlara divan tutmuşlar. 36 nəfər dəhşətli işgəncələrə tab gətirməyərək həlak olmuşdur. 5 yaşından 12 yaşınadək 70 uşağı valideynlərinin gözü qabağında əvvəlcədən hazırlanmış, uzunluğu 20 metr, diametri isə 1,5 metr olan boruya doldurub ağzını bağlamışlar. Daha 27 azərbaycanlı uşağı naməlum istiqamətə aparmışlar.[518]

**25 noyabr 1988-ci il. Ermənistan.** Akademik B.Budaqovun məlumatına görə, Ermənistan Kommunist





Partiyası Mərkəzi Komitəsinin qərarı ilə etnik azərbaycanlıların respublika ərazisindən zorakılıqla qovulması planı təsdiq edilmişdir. Planın həyata keçirilməsinə 1988-ci il dekabrın 5-dək vaxt verilmişdir. Hadisələrin sonrakı gedişi göstərdi ki, bu ssenari Silva Kaputikyanın "demokratiyanın ilk nümunəsi" adlandırdığı "Qarabağ" terror təşkilatının fəal iştirakı ilə həyata keçirilmişdir. Bu təşkilat həmin dövrdə artıq rəsmən mövcud olmasa da, əslində respublikada bütün hakimiyyət məhz onun əlində idi. S.Kaputikyan bu barədə belə yazırdı: "Qarabağ" komitəsi həyati zərurətdən yaranmış, kor-təbii xalq kütləsi tərəfindən təşkil olunmuşdur, elə o da, öz növbəsində bu kortəbii kütləni təşkil etmişdir".[519]

**27 noyabr 1988-ci il. Masis. Ermənistan.** Zəhmət kəndində 10 yaşlı qız uşağı, 60 yaşlı qadın və üç azərbaycanlı gənc erməni quldurları tərəfindən qətlə yetirilmişdir. Qətllər dinc əhalini qorxutmaq məqsədi ilə törədilmişdir. Elə həmin Masis rayon mərkəzində müsəlman məscidinə od vurub yandırmışlar. Yerevanda məscid, M.F.Axundov adına Azərbaycan məktəbi və Azərbaycan Dram Teatrı yandırılmışdır. Erməni vandallar azərbaycanlıların qəbirstanlığını büsbütün viran etmişlər.[520]

**27 noyabr 1988-ci il. Quqark. Ermənistan.** Şahidlərin bildirdiyinə görə, Şaumyan kəndində erməni quldurları qanlı cinayətlər törətmişlər. Onlardan bəzilərini diqqətə çatdıraq:

Əliyeva Bəsti (təxminən 35 yaşında), güllə ilə öldürülmüş, başı kəsilmiş, cəsədi kəndin mərkəzindəki körpüdən atılmışdır;

Qazaxəliyev Əhməd - qətlə yetirilmiş, cəsədi yandırılmışdır;

Bayramov Qərib (70 yaşdan yuxarı) - müharibə və əmək veteranı, öz evinin həyətində güllə ilə öldürülmüş, cəsədi yandırılmışdır;

İsgəndərov Mehralı (45 yaşında), arvadı Xanım (40 yaşında), oğlu Alim - öz evlərinin həyətində vəhşicəsinə qətlə yetirilmişlər;

Məmmədov Süleyman (təxminən 50 yaşında) - güllə ilə öldürülmüş, cəsədi yandırılmışdır;

Əliyev Oruc (70 yaşında), arvadı Əliyeva Gülsüm (50 yaşında), oğlu Abdulla - vəhşicəsinə qətlə yetirilmişlər;

Abbasova Fatimə (20 yaşında) öz evində güllə ilə öldürülmüşdür;

Qasımov Vaqif - ağır yaralanmışdır. Onun sonrakı taleyi barədə heç nə məlum deyildir.

Ermənistanın Quqark rayonunda erməni terror qruplarının və quldurların törətdikləri qanlı hadisələr nəticəsində ölənlərin və itkin düşənlərin siyahısını davam etdirmək də olar...[521]

**28 noyabr 1988-ci il. Stepanavan. Ermənistan.** Akademik B.Budaqovun bildirdiyinə görə, Kuybışev kəndində təxminən saat 22.00-da Böyük Vətən müharibəsi iştirakçısı, 82 yaşlı İsgəndərov Təmraz Yusif oğlu öz həyətində erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir.[522]

**27-29 noyabr 1988-ci il. Ermənistan.** Həmin günlərdə Ermənistanın Quqark, Spitak, Stepanavan şəhərlərində terror aktları nəticəsində 33 azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdir.[523]

**28 noyabr 1988-ci il. Spitak. Ermənistan.** Öldürülməklə hədələnərək öz evlərindən qovulmuş bir





qrup azərbaycanlı qaçqın erməni terror qrupu tərəfindən güllləbaran edilmişdir. Şahidlərin sözlərinə görə, qətllərə ermənri milis zabiti rəhbərlik edirdi. Elə onun göstərişi ilə sağ qalmış qaçqınların axırına çıxırdılar. Nəticədə:

işgəncələrdən sonra qətlə yetirilmişdir - 35 adam;
döyülməkdən ölmüşdür - 41 adam;
diri-diri yandırılmışdır - 11 adam;
işgəncədən sonra 2 adamın başını kəsmişlər;
öldürüb sonra yandırmışlar - 4 adam;
asmışlar - 1 adam;
suda boğmuşlar - 3 adam;
maşınla basıb öldürmüşlər - 7 adam;
odlu silahla qətlə yetirilmişdir - 16 adam;
elektrik cərəyanı ilə öldürülmüşdür - 1 adam və s.

Cəmi 216 adam, o cümlədən 57 qadın, 5 körpə və müxtəlif yaşlı 18 uşaq qətlə yetirilmişdir. Bir neçə yaralı möcüzə nəticəsində xilas ola bilmişdir.[524]

**29 noyabr 1988-ci il. Spitak. Ermənistan.** Ermənistanın Spitak rayon milis şöbəsinin rəisi V.Sarkisyan Spitak rayonunun Saral kəndinə gəlmişdir. O, kənd sakinlərini yığıb xəbərdarlıq etmişdir: "Sabah biz sizə avtobuslar, avtodükanlar və yük maşınları verəcəyik. Şey-şüylərinizi yığıb Azərbaycana yola düşün. Sizi iki ZTR müşayiət edəcək. Siz bundan sonra burada yaşaya bilməyəcəksiniz. Heç kim həyatınıza zəmanət verə bilmir". Sənədlərdə deyildiyinə görə, "gecə kənd sakinlərini güclə bu avtobuslara doldurdular. Kənddən cəmi 2-3 kilometr aralanmışdılar ki, maşınları saxladılar. Noyabrın 30-da səhər 35-40 ədəd yükünü özü-boşaldan maşın kəndə girdi. Camaatın bütün əşyalarını sahiblərindən icazəsiz bu maşınlara yükləyib kənddən çıxardılar. Vətəndaşların əmlakının bir hissəsini yolda boşaltdılar,

üstünə benzin töküb yandırdılar. Digər hissəsini isə rayon mərkəzinə apardılar. Gündüz saat ikidə Xalsaçəmən kəndi yaxınlığında silahı ermənilərin böyük bir qrupu azərbaycanlıların və onları müşayiət edən adamların getdikləri avtobus karvanına hücum edərək onları atəşə tutdular. Oradaca Balacayev Mövsüm Məhəmməd oğlu, cavan qadın, üç uşaq anası, 1954-cü il təvəllüdlü Qəhrəmanova (Balacayeva) Süräyya Hüseyn qızı, onun əri - Balacayev Teymur Məsim oğlu və onun on iki yaşlı qohumu Balacayev İlqar Səyyad oğlu. 1935-ci il təvəllüdlü Qafarov Vəli İsa oğlu qətlə yetirildilər. Daha 7 nəfər ağır yaralandı. Bundan başqa, 18 nəfər də vəhşicəsinə döyülüb sonra qətlə yetirildi".[525]

**29 noyabr 1988-ci il. Ermənistan.** 17.00-da təxminən 60 nəfərdən ibarət erməni quldur dəstəsi Ermənistan SSR-in Masis rayonunda azərbaycanlıların yaşadıqları Zəhmət kəndinə soxuldu. Saqqallılar yaxşı silahlanmışdılar. Quldur dəstəsinə rayonun hakimiyyət orqanlarının nümayəndələri - - kənd sovetinin katibi Qazaryan, Masis rayon milis şöbəsi rəisinin müavini İsgəndəryan, rayon prokuroru rəhbərlik edirdilər. Şahidlərin dediklərinə görə, azərbaycanlıları qətlə yetirməklə hədələyərək onlara ultimatum verdilər ki, iki saat ərzində evlərini tərk etsinlər. Sonradan məlum oldu ki, yüksək vəzifəli erməni məmurlarının bu quldur dəstəsi soyğunçuluqla məşğul olurmuş və etnik təmizləmə dövründə azərbaycanlılardan "müsadirə edilmiş" avtomobilləri satmaqda ixtisaslaşmışdı.

Beləliklə, beynəlxalq erməni terror təşkilatı olan "Daşnaksutyunun" tapşırığı növbəti dəfə yerinə yetirildi.[526]

**2 dekabr 1988-ci il.** Azərbaycanlı qaçqınların Ermənistann kütləvi axını barədə 1988-ci il dekabrın 2-nə olan





rəsmi statistikaya görə, onların sayı 78.000-i ötmüşdü. Xatırladaq ki, bu, sovet senzurasından keçmiş rəsmi rəqəmlərdir.[527]

**7 dekabr 1988-ci il. Spitak. Ermənistan.** SSRİ xalq deputatı, "Qarabağ" terror təşkilatının üzvü N.Muradyan Ermənistanda baş vermiş zəlzələdən sonrakı gecə yeraltı təkanlardan ciddi zərər çəkmiş Qursalı kəndindən bütün azərbaycanlıları qovmağı tələb etmişdir. Ağlasığmaz olsa da, faktdır ki, beynəlxalq erməni terror təşkilatı "Daşnaksutyunun" və onun regional bölmələrinin fəalları öz xalqı üçün belə faciəli dəqiqələrdə də antiazərbaycan isteriyasını gərginləşdirməyi davam etdirirdilər. Zəlzələdən zərər çəkənlərin hamısına ərzaq ayrılırdı. Hamıya, azərbaycanlılardan başqa. On gün aclıq çəkdikdən, işgəncələrə məruz qaldıqdan sonra azərbaycanlılar Qursalı kəndini tərk etməyə məcbur oldular.

"Kommunist" qəzetinin 1988-ci il 9 dekabr tarixli nömrəsində yazıldığına görə, Ermənistan SSR daxili işlər naziri Y. Arutyunov öz rəsmi məlumatında etiraf etmişdir ki, respublikada insanların milli xüsusiyyətlərinə görə köçürülməsi faktları mövcuddur.[528]

**7-9 dekabr 1988-ci il. Spitak. Ermənistan.** Dağıdıcı zəlzələdən sonra şəhərdə "Qarabağ" erməni terror təşkilatının fəallarından ibarət xırda qruplar təşkil olunmuşdur. Bu qruplar maşın oğurlamaqla, dünyanın hər yerindən "Zvartnots" hava limanına gətirilmiş dava-dərmanları mənimsəməklə, zəlzələdən zərər çəkmiş şəhərlərdə mağazaları çapıb-talamaqla, cəsədlərin üstündəki saatları, qızıl əşyaları, pulları yığmaqla məşğul olurdular.[529]

**12 dekabr 1988-ci il. Spitak. Ermənistan.** "Qardaş" erməni xalqının köməyinə tələsən 77 könüllünün olduğu İL-76 təyyarəsi Ermənistanın Spitak rayonunun Quqark şəhəri yaxınlığında erməni yaraqlıları tərəfindən "Stinger" raketi ilə vurulmuşdur. Möcüzə nəticəsində bir nəfər - Bakıdan olan avtomobil çilingəri F.Balayev sağ qalmışdır. Onu ağır vəziyyətdə Yerevan qospitalına gətirəndə ora zəng vurub hədə-qorxu gəlməyə başlayırlar ki, azərbaycanlı xəstəyə ermənilərin arasında yer yoxdur. Əks təqdirdə bir erməni terror təşkilatı sonrakı nəticələr üçün məsuliyyət daşımır".

Əldə olan məlumatlara görə, həmin dövrdə Ermənistanda milliyyətcə azərbaycanlı olan bütün rəhbər işçiləri, o cümlədən deputatları işdən çıxarmış və respublikadan qovmuşdular.[530]

**15 dekabr 1988-ci il.** "Andronik" erməni terror təşkilatı Erməni Ümummilli Hərəkatının beş liderinin - Ermənistanda və Azərbaycan ərazisi olan Qarabağın dağlıq hissəsində mülki əhalinin kütləvi surətdə qovulması və qətlə yetirilməsi üçün məsuliyyət daşıyan şəxslərin həbs edilməsi ilə bağlı bəyanat yaymışdır. Bəyanatda deyilirdi: "Qarabağ" təşkilatı üzvlərinin (həbs olunanların hamısı eyni zamanda "Qarabağ" terror qrupunun üzvləri idilər - **red.**) və bu günlərdə həbs edilmiş bütün siyasi məhbusların dərhal azad olunmasını tələb edirik. Əks təqdirdə kütləvi terrora keçirik. Fəaliyyətə başlayacağımızın vaxtını və yerini göstərmirik. Bizdə dostlarımızın verdikləri "Stinger"lər vardır. "Andronik" terror dəstəsi.

Rus alim-publisisti Y.Pompeyevin bildirdiyinə görə, təxminən elə bu vaxtlarda Parisdə çıxan qəzetlərdən birinin müxbiri Klod-Mari Vardo özünün redaksiya materialında yazırdı: "Son həftələr Livandan Yerevana ağır silah, minaatan və avtomat yüklənmiş təyyarələr gəlməkdədir. Təyyarələr gecə erməni gömrükçülərinin mühafizəsi altında boşaldılır. Artıq neçə gündür ki, hava limanı gömrükxanasında bir nəfər də olsun rus işləmir. Dağlıq Qarabağda vətəndaş müharibəsinin qızışdığı bir vaxtda, Yerevanda və kəndlərdə, paytaxtla Azərbaycan sərhədi arasındakı ərazidə silahlı adamlar getdikcə daha çox görünür. Bu quldur dəstələrinin başında Beyrutdan və Dəməşqdən gəlmiş erməniləri getdikcə daha çox görmək olar. "Qarabağ" komitəsi Azərbaycana həmlələrin təşkili işini öz əlində saxlayır.[531]

**30 dekabr 1988-ci il. Ermənistan.** "Daşnaksutyun" erməni beynəlxalq terror təşkilatının Ermənistanın mülki azərbaycanlı əhalisinə qarşı zorakılığı nəticəsində 1988-ci il dekabrın 30-dək Azərbaycana 100.000-dən çox qaçqın gəlmişdir. Cinayətlər "Qorbaçov demokratiyasının" və "insan hüquqları uğrunda mübarizənin" həyata keçirilməsi şüarı altında törədilirdi. Şahidlərin dediyinə görə, bu, dəhşətli mənzərə idi. Erməni başkəsənləri tərəfindən təqib olunan azərbaycanlı qaçqınlar pay-piyada qarlı dağ aşırımlarından keçib gedirdilər, burada onların bir hissəsi soyuqdan həlak olmuş, çoxları isə donaraq ömürlük şikəst qalmışdır. Ölənlər arasında uşaqlar, qadınlar, qocalar da vardır. S. Kaputikyanın "İlk dəfə... Oçerklər kitabı" adlı faşizm ruhlu növbəti "əsərinin" nəşri həmin günlərə təsadüf edir. Kitabın müəllifi həyasızcasına yazır: "Hayk bilməlidir ki, allahı sevən ermənilərin ailəsində dünyaya göz açmış erməni yaşamaq üçün yox, erməni millətinə kömək etmək üçün doğulmuşdur. Buna görə də təzə doğulmuş ermənin qulağına bərkdən, lap bərkdən qışqırmaq lazımdır: "Ey, Aram... sənin düşmənin türkdür... Vətən allahdan vacibdir.

Vətəndən vacibi kilsədir. Kilsədən vacibi Böyük Tiqrandır. Böyük Tiqrandan vacibi "Böyük Ermənistandır..."

Yeri gəlmişkən, "Böyük Tiqran" barədə. Tədqiqatçı J.Malevil yazır ki, "...Tiqranı erməni hökmdarı kimi qələmə verməyə can atmaq Versinjetoriksdən (qalların sərkərdəsi) fransız generalı etməyə cəhd göstərmək qədər mifikdir.[532]

**Fevral 1989-cu il. Yerevan. Ermənistan.** Ermənistanın siyasi rəhbərliyi nəhayət etiraf etməyə məcbur oldu ki, Stepanavan, İcevan, Yeheqnadzor, Quqark, Krasnoselsk, Ararat, Amasya, Noyemberyan rayonlarında vətəndaşların konstitusiya hüquqlarının kobud şəkildə pozulması, şantaj və hədə-qorxularla müşayiət olunan ixtişaşlar ucbatından respublika sakinləri - etnik azərbaycanlılar doğma torpaqlarını tərk etməyə məcbur olmuşlar. Tədqiqatçı N.Vəlixanlının məlumatına görə, həmin dövrdə azərbaycanlı qaçqınların sayı 200.000 nəfərə çatmışdı.[533]

**27 may 1989-cu il. Azərbaycan.** Yerevandan Bakıya gedən qatarda Ermənistan vətəndaşı - erməni terror təşkilatlarından birinin üzvü olan V.Minasyan həbs edilmişdir. Bu qadında partladıcı qurğu aşkar olunmuşdur. Həbs edilmiş erməni Bakıda terror aktı həyata keçirmək barədə tapşırığı yerinə yetirdiyini boynuna almışdır.[534]

**2 iyun 1989-cu il. Moskva.** Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi S.Q.Arutyunyanın SSRİ xalq deputatlarının I qurultayındakı çıxışından: "1989-cu il iyunun 1-nə olan vəziyyətə görə, Ermənistanda bir dənə də azərbaycanlı ailəsi yoxdur..." "Daşnaksutyunun" "demokratiya və insan hüquqları uğrunda mübarizə" siyasətini həyata keçirmək şüarı altında Ermənistanda dinc əhaliyə qarşı





törətdiyi cinayətlərin nəticəsi belədir. Əldə olan məlumatlara görə, bütün bunlara baxmayaraq, etnik azərbaycanlıların kiçik qrupları hələ də Masis rayonunda qalmaqdadır.[535]

**18-19 iyun 1989-cu il. Masis. Ermənistan.** Erməni quldur dəstələri dinc azərbaycanlı əhalisini Masisdən qovmaq üçün şəhərin rəsmi rəhbər şəxslərinin köməyi ilə onlara divan tutmuşlar. "Daşnaksutyun" terror təşkilatının şüarı əvvəlki kimi, yenə də "demokratiya və insan hüquqları uğrunda mübarizədir". Yüzlərlə azərbaycanlının evi talan edilmiş və yandırılmışdır. S.Kaputikyanın "tövsiyəsi", əslində, yerinə yetirilmişdir: "...türkləri, xüsusən də onların azərbaycanlı qanadını həmişə əzmək. Hər bir azərbaycanlıya qarşı mübarizə dövlət proqramı səviyyəsində aparılmalıdır".[536]

**7 iyul 1989-cu il. Azərbaycan.** Dağlıq Qarbağın azərbaycanlılar yaşayan Kərkicahan kəndi erməni quldur birləşmələri tərəfindən yandırılmışdır. Tədqiqatçı K.Səlimovun yazdığına görə, "...son illər (əsasən milli və etnik zəmində) siyasi-ideoloji və açıq-aşkar şovinist təmayüllü silahlı birləşmələr peyda olmağa başlamışdır. Güman etmək çətin deyildir ki, ictimai-siyasi vəziyyətin pozulması prosesində ayrı-ayrı qruplar onları formalaşdırmış siyasi qüvvələrin nəzarətindən çıxacaq (artıq çıxırlar) və açıq-aşkar quldurluq üsullarından istifadə edən mütəşəkkil cinayətkar birləşmələrə çevriləcəklər. Dağlıq Qarabağdakı vəziyyət belə şəraitin kütləvi miqyasda reallaşacağını təsdiq edən nümunə ola bilər. Sərbəst surətdə odlu silah əldə etmək, digər regionlarda törədilmiş cinayətlərlə bağlı istintaqdan yayınmaq imkanı terror birləşmələrinin bu regiona axınına gətirib çıxarmışdır. Onlar təkcə bu

vilayətdə yox, həm də onun hüdudlarından kənarda da qorxub-çəkinmədən ağır cinayətlər törədirdilər.[537]

**11 iyul 1989-cu il. Xankəndi. Azərbaycan.** Şəhərdən kənarda erməni quldurları iki azərbaycanlını - Orduxan Səfərovu və Əli Nəbiyevi vəhşicəsinə qətlə yetirmişlər. Natiq Salahov ağır yaralanmışdır.[538]

**12-13 iyul 1989-cu il. Ağdərə. Azərbaycan.** Erməni quldur dəstəsi QETB-ya (Qarabağ Elmi Təcrübə Bazası) məxsus olan və Ağdərə (Mardakert) rayonunun Leninavan qəsəbəsində yerləşən idarə binasına hücum etmişdir. QETB-nin milliyyətcə azərbaycanlı olan işçilərinin mənzillərinə zərər dəymişdir. İyulun 13-də səhər təxminən 100 nəfər saqqallı inzibati binanı mühasirəyə alaraq, azərbaycanlı alimlərə işə başlamağa imkan verməmişlər. Qan tökülməsinin qarşısını almaq üçün azərbaycanlı alimlərin ailələri bazanın ərazisini tərk etmişlər. Onların əmlakı talan edilmişdir. Bu, ermənilərin "demokratiya və insan hüquqları uğrunda mübarizə" psixozuna növbəti nümunə idi.[539]

**13-14 iyul 1989-cu il. Ağdərə. Azərbaycan.** Ağdərədə maşın-traktor parkının gözətçisi azərbaycanlı F.Sultanovun ailəsi hücuma məruz qalmışdır. Hücum zamanı erməni saqqallılar odlu silahdan istifadə etmişlər. F.Sultanovun çoxuşaqlı, doqquz nəfərdən ibarət ailəsi, eləcə də altı azərbaycanlı ailəsi (təxminən 30 nəfər) - heyvandarlıq fermasının işçiləri evlərini tərk etməyə məcbur olmuşlar. Onların əmlakı talan edilmişdir. Azərbaycanlılarla bir yerdə təcrübə təsərrüfatının baş aqronomu, milliyyətcə yunan olan K.N.Budaqov da qovulmuşdur.[540]





**14 iyul 1989-cu il. Xankəndi. Azərbaycan.** Zorge küçəsində 26 azərbaycanlı ailəsinin yaşadığı binadakı mənzillərin birində əldəqayırma partladıcı qurğu işə düşmüşdür. "Demokratiya və insan hüquqları uğrunda Qorbaçov mübarizəsi" şüarı altında azərbaycanlıları şəhərdən qovmaq məqsədi ilə erməni terrorçularının həyata keçirtdiyi daha bir cinayət.[541]

**18 iyul 1989-cu il. Xankəndi. Azərbaycan.** Erməni terrorçuları bir sıra elmi müəssisənin qırx illik fəaliyyətinin nəticəsi olan və taxıl, paxla, yem və digər bitkilərin 25 minə yaxın nadir nümunəsinin toplandığı çox qiymətli elmi tədqiqat laboratoriyasını məhv etməyə başlamışlar.[542]

**22 iyul 1989-cu il. Şuşa. Azərbaycan.** Azərbaycanlılar yaşayan Quşçular kəndinin sakinləri Hacıyeva Məxmər, Əmiraslanova Sayalı, Cəfərov Şərəf və başqaları Şuşa şəhər xəstəxanasına çatdırılmışlar. Bu adamlar erməni terrorçularının və onların tərəfdarlarının Quşçular kəndinə hücum etməsi nəticəsində ağır yaralanmışdılar. Əlil Sərvər Hacıyev tanınmayacaq dərəcədə döyülmüş halda hospitala gətirilmişdir.[543]

**24 iyul 1989-cu il.** Erməni terrorçuları Qarçıvan stansiyasında sərnişin qatarında partlayış törətmişlər.[544]

**18 avqust 1989-cu il. Naxçıvan. Azərbaycan.** Erməni terrorçusu Artuş Parsaqanyan Azərbaycan dəmir yolunun 344-cü kilometrində, Qarçıvan stansiyası yaxınlığında dəmir yol magistralını partlatmağa cəhd göstərərkən qurğu partlayıb özü ölmüşdür.[545]

**30 avqust 1989-cu il.** Milliyyətcə erməni olan Q.T.Petoyanın ölümqabağı məktubundan: "Öz ölümümdə Dağlıq Qarabağın və Ermənistanın erməni ekstremistlərini günahlandırıram. Qəzetlərdən, televiziya verilişlərindən onların Azərbaycan xalqına nə qədər fəlakət və bədbəxtlik gətirdiyindən xəbər tuturam. Yuxusuz gecələr mənə əzab verir. Mən bütün günü bu barədə düşünürəm və bu biabırçılığa dözə bilmirəm. Etiraz əlaməti olaraq özümü qurban verirəm".[546]

**31 avqust 1989-cu il. Bakı. Azərbaycan.** Azərbaycan SSR Elmlər Akademiyasının müraciətində deyilir: "DQMV-nin (Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti red.) bütün ərazisində indi "saqqallıların" çoxsaylı quldur dəstələri qorxub çəkinmədən istədiklərini edirlər. Erməni quldurlar bir qayda olaraq, "Qarabağ hərəkatının" təşkilatçılarının səxavətlə onlara verdikləri odlu silahlarla və digər silah növləri ilə silahlanmışlar. Son hadisələr (Laçın rayonunda) sübut edir ki, bu silah əsas etibarilə Ermənistan SSR-dən daxil olur. DQMV-nin erməni əhalisinin müxtəlif növ silahlarla, o cümlədən xarici silahlarla və əldəqayırma partladıcı qurğularla və s. ilə mütəşəkkil surətdə təchiz olunması millətlərarası münasibətləri günbəgün daha da gərginləşdirir və onları uçuruma aparır. İndi ermənilər DQMV-dən bütün azərbaycanlıların qovulmasını başa çatdırır. Kəlbəcər, Laçın və digər ətraf rayonların əhalisini terrorla qorxutmağa çalışırlar... DQMV-nin Azərbaycandan zorla qopardılmasına yönəldilmiş bütün bu cinayətkar hazırlıq Ermənistanın partiya sovet rəhbərliyi tərəfindən dəstəklənir və istiqamətləndirilir.[547]





**16 sentyabr 1989-cu il. Azərbaycan.** Erməni terrorçuları Tbilisi-Bakı reysi ilə işləyən sərnişin avtobusunu partlatmışlar. 5 adam həlak olmuş və 25 nəfər yaralanmışdır.[548]

**26 sentyabr 1989-cu il.** Ağbulaq kəndində faciə baş vermişdir. Öz toyundan sonra evə qayıdan 23 yaşlı Barxudar Əsgərov erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir.

**Sentyabrın axırı. 1989-cu il.** Rəsmi sənədlərə görə, Ermənistan ərazisi ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikasına gedən qatarlar sentyabrın axırlarından erməni terror qrupları tərəfindən atəşə tutulmuşdur.[550]

**5 oktyabr 1989-cu il. Ağdam. Azərbaycan.** Odlu silahlarla baş nahiyəsindən yaralanmış Kərkicahan qəsəbəsinin azərbaycanlı sakinləri İbrahimov Nadir (11 yaşında), onun qardaşı Nicat (9 yaşında) səhər saat 10.55-də Ağdam rayon xəstəxanasına gətirilmişlər. Uşaqlar Xankəndində "Daşnaksutyundan olan erməni saqqallıların şəhərin yaxınlığında azərbaycanlılar yaşayan qəsəbəyə vəhşicəsinə hücumu zamanı yaralanmışlar. Xankəndində erməni cərrahlar ağır yaralanmış azərbaycanlı uşaqlar üzərində cərrahiyyə əməliyyatı aparmaqdan imtina etmişlər. Bir neçə aydan sonra Yerevanda Movses Xorenatsinin "Ermənistan tarixi" kitabı dərc olunacaq. Müəllif bu kitabda "erməni allahı" adından ermənilərə məsləhət görür ki, "...onlar hər bir türkü doğulduğu gündən ölümə məhkum etsinlər".[551]

**7 oktyabr 1989-cu il. Xankəndi. Azərbaycan.** Erməni terrorçusu Artur Abramyan Azərbaycan Respublikasının Dağlıq Qarabağ vilayətindəki Xankəndi

şəhərinin cənubunda yerləşən Xəlfəli çayın üstündəki avtomobil körpüsünü partlatmışdır.[552]

**Noyabrın axırı. 1989-cu il. Ermənistan.** Ermənistan ərazisində Azərbaycan qatarlarına mütəmadi hücumlar Azərbaycanla Ermənistan arasında dəmir yol hərəkətinin dayanmasına gətirib çıxarmışdır. Erməni terrorçularının bu təxribatından məqsəd Azərbaycanın Naxçıvan Muxtar Respublikasını blokadaya almaq idi.[553]

**Dekabr 1989-cu il.** Quldur dəstələri Ermənistan ərazisindən Azərbaycanın sərhəd kəndlərinə bir sıra hücumlar etmişlər. Bununla eyni vaxtda iri erməni hərbi hissələri Azərbaycanın Xanlar və Goranboy (Şaumyan) rayonları istiqamətində hücuma başlamışlar.

**4 yanvar 1990-cı il. Ağdam. Azərbaycan.** Erməni terror qrupu Dağlıq Qarabağda Əsgəran qəsəbəsi ilə Ağdam şəhəri arasındakı körpünü partlatmışdır.[555]

**9 yanvar 1990-cı il. Şuşa. Azərbaycan.** Qraçik Sarkisyanın başçılıq etdiyi erməni terrorçuları Azərbaycanın Şuşa rayonundan olan azərbaycanlıları girov götürmüşlər.[556]

**9 yanvar 1990-cı il. Yerevan. Ermənistan.** Ermənistan Ali Soveti cari ildə respublikanın iqtisadi inkişafına dair dövlət planını təsdiq edir və həmin plana Dağlıq Qarabağ da daxil olunur. Ermənistan hökuməti bu qərarla Azərbaycan Respublikasının ərazisi olan Qarabağın dağlıq hissəsində dinc əhaliyə qarşı kütləvi cinayətlər törədən erməni terrorçularını və quldur təşkilatlarını





dəstəklədiyini de-yure və de-fakto təsdiq etdi. İsrail publisisti R.Davidin sözlərinə görə, "Dağlıq Qarabağ millətçilik taununun ilk yarası oldu, sonra bu yara yerini dəyişərək, İttifaqın cənub və qərb ucqarlarına da yayılmağa başladı". İndən belə erməni terrorizminin "qərargahı" rəsmən Yerevana dəyişdi. Azərbaycan Respublikası ərazisinin işğalına dair hərbi əməliyyatların əlaqələndirilməsi və onlara rəhbərlik oradan həyata keçirilirdi.[557]

**13 yanvar 1990-cı il. Naxçıvan Muxtar Respublikası. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatından olan erməni saqqallılarının intensiv silahlı hücumları nəticəsində Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Kərki kəndi mühasirəyə alındı. Erməni quldur birləşmələri artilleriyadan və kütləvi tələfat sistemindən istifadə edirlər.[558]

**15 yanvar 1990-cı il. Xanlar. Azərbaycan.** Xanlar rayonunun Quşçu kəndinə erməni terrorçularının silahlı desantı çıxarılmışdır. Dinc əhali arasında ölənlər vardır.[559]

**19 yanvar 1990-cı il. Naxçıvan. Azərbaycan.** Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının 75 illiyinin qeyd edilməsi barədə Fərmanında deyildiyi kimi, yanvarın 19-dan 20-nə keçən gecə erməni silahlı dəstələri Azərbaycanın Naxçıvan Muxtar Respublikasının Kərki kəndini işğal etmişlər. Erməni quldur birləşmələri Sədərək qəsəbəsinə də hücum etmişlər. Dinc əhali arasında ölənlər var. Naxçıvanın azərbaycanlılar yaşayan digər kəndləri də ağır toplardan və "Qrad" tipli kütləvi tələfat sistemindən

müntәzәm suratdә atәşә tutulurdu. Respublika Prezidenti Heydәr Əliyevin yuxarıda adı çәkilәn Fәrmanında deyilir "Ermәnistanın apardığı tәcavüzkarlıq siyasәti nәticәsindә vaxtilә Ümumittifaq şәbәkәsinә daxil olan, Azәrbaycanı Naxçıvanla bağlayan dәmir yol xәtlәri vә avtomobil yolları kәsilmiş, Naxçıvana Azәrbaycandan tәcrid olunmuş vәziyyәtdә, blokada şәraitindә yaşamaq taleyi qismәt olmuşdur".[560]

**30 yanvar 1990-cı il. Azәrbaycan.** Gәdәbәy rayonunun beş azәrbaycanlı sakini ermәni terrorçularının qәfil hücumu nәticәsindә itkin düşmüşdür. Bir neçә gündәn sonra beşinin dә cәsәdi eybәcәr hala salınmış vәziyyәtdә Ermәnistan әrazisindә tapılmışdır.[561]

**18 fevral 1990-cı il. Azәrbaycan.** Yevlax-Laçın yolunun 105-ci kilometrindә Şuşadan Bakıya gedәn marşrut avtobusunda partlayış törәdilmişdir. 13 nәfәr yaralanmışdır. Fransa mәtbuatının mәlumatına görә, "Daşnaksutyun" ermәni terror tәşkilatı 1990-cı il yanvarın axırlarında silah almaq üçün lazım olan pul vәsaiti yığılmasına dair sәylәrini artırmışdır. Azәrbaycan Respublikasının әrazisi olan Qarabağın dağlıq hissәsinә silahla bir yerdә "könüllülәr" adlandırılan cinayәtkarlar da göndәrilmişdir. Hәmin dövrün mәlumatlarına görә, tәkcә Fransadakı ermәni icmasından müvafiq hazırlıq keçdikdәn sonra Azәrbaycan әrazisinә 400-dәn artıq terrorçu yollanmışdır.[562]

**23 fevral 1990-cı il. Yerevan. Ermәnistan.** Ermәnistan SSR Mәrkәzi Seçki Komissiyasının qәrarı ilә





Azәrbaycan Respublikasının әrazisi olan Qarabağın dağlıq hissәsindә Ermәnistan SSR Ali Sovetinә deputatlar seçilmәsi üzrә 12 seçki dairәsi yaradılmışdır. Bu qәrar dünya praktikasında misli görünmәmiş haldır: bir dövlәt qәrar qәbul edib digәr dövlәtin әrazisindә öz parlamentinә seçkilәr keçirir. Tәdqiqatçlar bu faktı "Daşnaksutyunun" göstәrişini yerinә yetirәn ermәni terror vә quldur birşmәlәrinin işğalçılıq fәaliyyәtindә Ermәnistan hökumәtinin birbaşa iştirak etmәsinin növbәti sübutu kimi qiymәtlәndirmişlәr. Maraqlıdır ki, bütün bunlara baxmayaraq, Ermәnistan "münaqişәdә" iştirak etdiyini bu günәdәk boynuna almır.[563]

**24 mart 1990-cı il. Qazax. Azәrbaycan.** Yaxşı silahlanmış ermәni quldur birlәşmәlәri әvvәlcә "Qrad" tipli kütlәvi tәlәfat sistemindәn atәş açaraq, Azәrbaycanın Qazax rayonunun kәndlәrinә hücum etmişlәr. Mülki әhali arasında çoxlu ölәn var.[564]

**11 iyul 1990-cı il. Ağdәrә. Azәrbaycan.** Azәrbaycan Respublikasının Ağdәrә rayonunun Getavan vә Çәrәktar kәndlәri arasında Kәlbәcәr şәhәrinә gedәn avtomobil dәstәsini müşayiәt edәn qoşun hissәsinә terror hücumu olmuşdur. Nәticәdә 3 adam hәlak olmuş vә 23 nәfәr yaralanmışdır. İstintaq nәticәsindә mәlum olmuşdur ki, terror aktı Xankәndinin sakinlәri - "Daşnaksutyun" beynәlxalq ermәni terror tәşkilatının yerli qruplaşmalarından birinin üzvlәri - Napoleon lәqәbli Arkadi Ayriyan vә Samvel Babayan tәrәfindәn törәdilmişdir.[565]

**10 avqust 1990-cı il. Azәrbaycan.** Ermәni terrorçuları Tbilisi-Ağdam marşrutu ilә hәrәkәt edәn sәrnişin avto-

busunu partlatmışlar. 20 adam hәlak olmuş, 30 nәfәr yaralanmışdır. Elә hәmin qrup 1991-ci il iyulun 17-dә Ağdam-Tbilisi reys avtobusunu partlatmağı planlaşdırmışdı. Terrorçular yaxalanmışdır. Cinayәtin tәşkilatçısı A.M.Avanesyan Azәrbaycan Respublikası Ali Mәhkәmәsinin 1992-ci il 27 may tarixli qәrarı ilә әn ağır qәzaya - güllәlәnmәyә, qrupun digәr üzvü - M.M.Tatevosyan 15 il hәbs cәzasına mәhkum edilmişdir. Bir neçә min saqqallı quldurdan ibarәt olan "Ermәni Milli Ordusu" (EMO) ermәni terror tәşkilatının üzvlәri dә tәxribat fәaliyyәtinin analoji üsullardan istifadә etmişlәr. 1990-cı il 31 iyul tarixli "Krasnaya zvezda" qәzeti nömrәsindә yazır ki, EMO-nun nәinki qәrargahları, silah-sursat anbarları, tәdris mәrkәzlәri, hәtta tribunalları da var idi. Moskvalı jurnalistin "Sizin orduda ölüm cәzası varmı?" sualına hәrbi şuranın sәdri güclә sezilәcәk tәbәssümlә belә cavab vermişdi: "Bizdә ölüm cәzası yoxdur. Lakin biz ondan da dәhşәtli cәza icad etmişik. Günahkara bir neçә qumbara verib, Azәrbaycan әrazisinә yollayırıq". Ermәnistan Daxili İşlәr Nazirliyinin 1990-cı il 10 avqust tarixli mәlumatına görә, respublika әrazisindә ümumi sayı tәxminәn 10.000 nәfәr olan bir neçә quldur birlәşmәsi vә qrupu fәaliyyәt göstәrir: "Ermәni Milli Ordusu" (EMO) - 5 min saqqallı; "Sasunlu David", "Qisasçılar" (Vretaruner), "Ermәnilәrin mәhkәmәsi" (Aydat) terror qrupları; bitәrәf dәstәlәr; "Muş" milli ittifaqı; EAH-nın rәsmәn qeydiyyatdan keçmiş silahlı dәstәlәri. EAH tәşkilatı (Ermәni Azadlıq Hәrәkatı) 1991-ci ildә Fransada yaranmışdır. ASALA ilә qarşılıqlı әlaqәdәdir vә "Daşnaksutyun"un ideoloji göstәrişinә uyğun siyasәt yeridir. Qәrargahı Yerevandadır. EAH-nın rәhbәrlәri vә tәşkilatın fәal üzvlәri Aşot Serec Aqababayan, Norayr Zurabyan, Artur Malxasyandır.[566]





**1990-cı ilin yayı. Qazax. Azәrbaycan.** SSRİ Prezidenti Mixail Qorbaçovun qeyri-qanuni hәrbi birlәşmәlәrin tәrksilah edilmәsi haqqında Fәrmanına baxmayaraq, ermәni terror qrupları Azәrbaycan әrazisindә dinc әhaliyә qarşı qanlı cinayәtlәri davam etdirirlәr. Əfqanıstan müharibәsinin dәhşәtlәrini görmüş rus zabiti, baş leytenant O.Çetenovun xatirәlәrindәn: "Küllükdә dizin-dizin sürünüb qardaşının cәsәdinin qalıqlarını vedrәyә yığan qocanı, boğazı kәsilmiş qadınları, qundaqla başı xıncım-xıncım әzilmiş körpәni görmәk dәhşәtdir. Beynindә bir-birinin ardınca buna uyğun obrazlar canlanır: Xatın, Oradur, Liditse. Lakin azәrbaycanlıların kiçik Baqanis-Ayrım kәndini onların sırasına aid edә bilmәdim".[567]

**8 sentyabr 1990-cı il. Xocavәnd. Azәrbaycan.** QAZ-53 maşınında Laçından gәlәn üç azәrbaycanlı, Süleymanov qardaşları Xocavәnd rayonunda pusquda durmuş ermәni terrorçularının hücumuna mәruz qalmışlar. İki qardaş hәlak olmuş, biri isә ağır yaralanmışdır.[568]

**15 sentyabr 1990-cı il. Xankәndi. Azәrbaycan.** Bir qrup ermәni terrorçusu Xankәndi şәhәrindә radiotelevisiya mәrkәzini partlatmışdır.[569]

**Noyabr 1990-cı il.** Azәrbaycanın hüquq-mühafizә orqanları ermәni terrorçuları qrupunu ifşa vә tәrksilah etmişlәr. Qrupa Ermәnistanın Ecmiәdzin rayonunun sakinlәri T.Xaçatryan, Z.Ohanyan, A.Qriqoryan daxil idilәr. Qrup Ermәnistanda "Daşnaksutyun"un ideoloji xәttinә riayәt edәn "Yekrapa" terror tәşkilatı tәrәfindәn yaradılmışdır. Azәrbaycana terror aktları törәtmәk vә sabotaj etmәk üçün göndәrilmişlәr.[570]

**20 noyabr 1990-cı il. Azərbaycan.** Erməni cinayətkarları tərəfindən törədilmiş terror aktı nəticəsində Azərbaycanın Laçın rayonunun iki sakini həlak olmuş, biri yaralanmışdır. Rus zabiti, donanma admiralı V.N.Çernavinin dediyinə görə, Azərbaycanla Ermənistan sərhədində vəziyyəti normallaşdırmaq üçün erməni saqqallılarının terror və ekstremist hərəkətlərinin qabağını almaq, onların dinc əhaliyə qarşı zorakılığının bütün forma və növlərinə son qoymaq lazımdır. Rus zabiti həyəcanla deyir: "Bu il (1990-cı il - **red.**) Ermənistan ərazisində döyüş atıcı silahına, reaktiv və artilleriya sisteminə malik olan hərbiləşdirilmiş mütəşəkkil dəstələr ("ordular") formalaşmışdır. Onlar bu silah-sursatı OADKYC, DİN bölmələrindən və Sovet Ordusunun hərbi hissələrindən ələ keçirirdilər... Ermənistan SSR hökuməti quldur birləşmələrinin qadağan olunması, onların tamamilə tərksilah edilməsi və silah-sursat anbarlarının ləğv olunması üçün tədbirlər görməli, bu və ya digər məsələlərin həllində zorakılıq tədbirlərinin yolverilməzliyi barədə əhali arasında təbliğat aparmalı idi. Lakin bu, baş vermədi". "Krasnaya zvezda" qəzeti 1990-cı il 7 dekabr tarixli nömrəsində yazırdı ki, "Ermənistanda milli hərbi birləşmələr tam sürətlə təşkil edilir".[571]

**15 dekabr 1990-cı il. Əsgəran. Azərbaycan.** S. Babayanın və A.Ayrumyanın başçılıq etdiyi erməni terrorçuları qrupu Əsgəran rayonunun Cəmilli və Kosalar stansiyaları arasında 3 azərbaycanlını qətlə yetirmişdir. S. Babayan həbs olunmuş, 1992-ci ildə onu əsir azərbaycanlı ilə dəyişmişlər. Samvel Babayan 1993-1999-cu illərdə qondarma "Dağlıq Qarabağ Respublikasının" müdafiə naziri olmuşdur.[572]





**9 yanvar 1991-ci il. Azərbaycan.** Şuşa-Laçın yolunun 5-ci kilometrliyində erməni terrorçuları "Molodyoj Azerbaydjana" qəzetinin jurnalisti S.Əsgərovanı və hərbi qulluqçular - podpolkovnik S.M.Larionovu, mayor İ.Y.İvanovu və serjant İ.İ.Qoyeki qətlə yetirmişlər. Terrorçular - A.M.Mkrtçyan, Q.A.Petrosyan, A.A.Manqasaryan, Q.M.Arutyunyan və Q.Q.Arustamyan Azərbaycan Respublikası Ali Məhkəməsinin 1993-cü il 23 mart tarixli hökmü ilə ən ağır cəzaya - güllələnməyə məhkum olunmuş, terror təşkilatının digər üzvləri isə müxtəlif müddətlərə azadlıqdan məhrum edilmişlər.[573]

**19 yanvar 1991-ci il. Xankəndi. Azərbaycan.** A. Baqmanyan, S.Baqmanyan və A.Antonyan növbəti terakt törətmiş - DQMV Dİİ-nin rəisi, rus generalı V.Kovalyova silahlı hücum etmişlər.[574]

**Yanvar 1991-ci il. Ağdərə. Azərbaycan.** V.Qalayanın başçılıq etdiyi erməni terrorçuları qrupu Azərbaycan Respublikasının Qarabağ vilayətinin dağlıq hissəsinin Ağdərə rayonundakı Drmbon kəndi yaxınlığında Kəlbəcər şəhərinə gedən avtomobil dəstəsinə silahlı hücum etmişdir. Maşının sürücüsü öldürülmüşdür.[575]

**Yanvar 1991-ci il. Xocalı. Azərbaycan.** Erməni terrorçuları A.Baqmanyan, S.Babayan, A.Abramyan və "Qarabağ" təşkilatının digər üzvləri Xocalı şəhər hava limanının rəisini qətlə yetirmişlər.[576]

**20 fevral 1991-ci il. Xanlar. Azərbaycan.** Erməni terrorçuları Xanlar rayonunda mülki maşını gülləyə tutmuşlar. İki azərbaycanlı həlak olmuşdur.[577]

**25 fevral 1991-ci il. Azərbaycan.** Ağdam rayonunun Gülablı kəndi yaxınlığında erməni terrorçuları iki azərbaycanlı kəndliyə hücum etmişlər. Onlardan biri öldürülmüşdür.[578]

**Aprelin əvvəli. 1991-ci il. Rostov-Don. Rusiya.** Rusiya Federasiyasının Rostov şəhərinin mərkəzində SSRİ DİN-in Şimali Qafqazdakı və Cənubi Qafqazdakı Daxili Qoşunlarının komandanı polkovnik V.P.Blaxotin öz evinin girəcəyində qətlə yetirilmişdir. Rus zabitinin qatilləri Yerevanda əvvəlcədən təlimatlandırılmış etnik ermənilər olmuşlar. İstintaqın gedişində müəyyən edilmişdir ki, bu şəxslər Ermənistan Respublikasının rəsmi hökumətinin nəzarəti altında olan terror təşkilatı ilə əlaqədə olmuşlar. Rus yazıçı-publisisti Y.Pompeyev yazır ki, "Dağlıq Qarabağ milli ordusunun qurultayı daxili qoşunların bir sıra zabitlərini ölümə məhkum etmişdir... Terrorçular niyə Rostovdan başladılar? Bu, uzaqgörən məqsəd idi: ermənilərin kazaklarla qonşuluqda yaşadığı Donu Rusiya Qarabağına çevirmək". Qarabağdakı canişinlərdən biri Levon Melik-Şahnazaryan isə bu qətli belə izah edir: "Çox güman ki, terrorçular səhv ediblər. Rostovda öldürülmüş polkovnik Blaxotin boy-buxunda general-mayor V.Safronova oxşayırdı. Maşınının nömrəsi də Safronovunkundan cəmi bircə rəqəmlə fərqlənirdi" (rus generalı Safronov Dağlıq Qarabağda fövqəladə vəziyyət rayonunun keçmiş komendantıdır - **red.**) V.P.Blaxotinin qətli ilə bağlı "İzvestiya" qəzeti "Xeyriyyə ezamiyyətinə. Öldürməyə..." məqaləsində yazır ki, Rostovda həbs edilmiş qatillərin sənədlərinin üstündə şpili təsvir olunmuş Eçmiədzin (erməni - **red.**) kilsəsinin möhürü var idi".[579]

**16 aprel 1991-ci il. Azərbaycan.** Erməni terrorçuları Xocavənd (Martuni) rayonu yaxınlığında Fizuli avtomobil





bazasının maşınını atəşə tutmuşlar. Avtobazanın iki işçisi həlak olmuş, digər iki nəfər isə ağır yaralanmışdır.[580]

**18 aprel 1991-ci il. Azərbaycan.** Q. Sarkisyanın başçılıq etdiyi erməni terrorçuları Azərbaycan Respublikasının Dağlıq Qarabağ vilayətinin Xocavəd rayonundakı Amaras" kilsəsi yanında dayanmış avtomobili atəşə tutmuşlar. 3 milis əməkdaşı həlak olmuşdur.[581]

**23 aprel 1991-ci il. Şuşa. Azərbaycan.** "Qarabağ" terror təşkilatının nəzarət etdiyi erməni quldur birləşmələri azərbaycanlıların Şuşa şəhərini ağır toplardan atəşə tutmuşlar. Yaşayış binalarına zərər dəymişdir. Vətəndaşlar arasında ölənlər var.[582]

**25 aprel 1991-ci il. Tərtər. Azərbaycan.** Erməni quldurları azərbaycanlıların yaşadığı Umudlu kəndini, eləcə də Tərtər rayonunun Qapanlı və Qaradağlı kəndlərini atəşə tutmuşlar. Dinc əhali arasında ölənlər var.[583]

**28 aprel 1991-ci il. Naxçıvan Muxtar Respublikası. Azərbaycan.** Erməni quldur birləşmələri azərbaycanlıların Sədərək qəsəbəsini Ermənistan tərəfdən ağır toplardan atəşə tutmuşlar. Dinc əhali arasında ölənlər var.[584]

**29-30 aprel 1991-ci il. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirən erməni quldur birləşmələri Qazax və Laçın rayonlarının kəndlərini ağır toplardan atəşə tutmuşlar. Dinc əhali arasında ölənlər var.[585]

**30 may 1991-ci il. Xasavyurt. Rusiya.** Erməni terrorçuları Xasavyurt stansiyası yaxınlığında Moskva-Bakı

sərnişin qatarını partlatmışlar. 11 adam həlak olmuş, 22 nəfər yaralanmışdır.[586]

**May 1991-ci il. Azərbaycan.** Hüquq mühafizə orqanlarının nümayəndələri Şəmkir stansiyasında Bakı--Tbilisi qatarında Ermənistanın Noyemberyan rayonunun sakini, erməni terrorçusu S.Aznaryanı həbs etmişlər. Onda iki mina, avtomat və Azərbaycanın dəmir yollarının və avtomobil yollarının xəritələri aşkar olunmuşdur.[587]

**9 iyun 1991-ci il. Tərtər. Azərbaycan.** Erməni terrorçuları Tərtər rayonunun azərbaycanlılar yaşayan Kaçanlı kəndinin 2 sakinini qətlə yetirmişlər, daha 2 nəfər yaralanmışdır.[588]

**27-28 iyun 1991-ci il. Xocavənd. Azərbaycan.** "Qarabağ" terror təşkilatından olan erməni quldurları qrupu gecə Azərbaycan Respublikasının Xocavənd rayonunun Qaradağlı kəndinə hücum etmişdir. Kəndin 6 dinc sakini qətlə yetirilmişdir.[589]

**3 iyul 1991-ci il. Fizuli. Azərbaycan.** Erməni quldur dəstəsi Fizuli rayonunun Qacar kəndinin sakinlərinə hücum etmişdir. Kəndlilər arasında ölənlər var. "Daşnaksutyun" beynəlxalq terror təşkilatının "Etnik cəhətdən təmiz zonalar" yaradılmasına dair ideoloji göstərişi növbəti dəfə yerinə yetirildi.[590]

**4 iyul 1991-ci il. Azərbaycan.** Erməni terrorçuları azərbaycanlıların Umudlu kəndinin sakinini qətlə yetirmişlər.[591]





**8 iyul 1991-ci il. Əsgəran. Azərbaycan.** Ot biçini zamanı Əsgəran rayonu Cəmilli kəndinin sakinləri erməni quldurları tərəfindən atəşə tutulmuşlar. Kəndlilər arasında ölənlər var.[592]

**22 iyul 1991-ci il. Laçın. Azərbaycan.** "Qarabağ" terror təşkilatından olan erməni saqqallılar zirehli texnikanın köməyi ilə Azərbaycanın Laçın rayonundakı yay otlağına hücum etmişlər. Doqquz çoban vəhşicəsinə qətlə yetirilmişdir.[593]

**31 iyul 1991-ci il. Temirtau. Rusiya.** Temirtau stansiyası (Dağıstan) yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmışdır. 16 adam həlak olmuş, 23 nəfər yaralanmışdır.[594]

**5 avqust 1991-ci il. Laçın rayonu. Azərbaycan.** Erməni quldurları Laçın rayonunda azərbaycanlıların Fərəcan kəndini atəşə tutmuşlar. Bir nəfər yaralanmışdır. Xocavənd rayonunun azərbaycanlılar yaşayan Dopanpar kəndi də güclü atəşə tutulmuşdur.[585]

**8 avqust 1991-ci il. Azərbaycan.** Nüvədi kəndi erməni quldur birləşmələrinin hücumuna məruz qalmışdır. Terrorçular yaxşı silahlanmışlar, hərbi texnikaya malikdirlər. Kəndin vəhşicəsinə talan edilməsi nəticəsində orada bir nəfər də olsun azərbaycanlı qalmamışdır.[586]

**18 avqust 1991-ci il. Goranboy. Azərbaycan.** Erməni saqqallıları Goranboy rayonundakı kəndlərin birinə hücum etmişlər: 2 kəndli öldürülmüş və 3 nəfər yaralan-

mışdır. Tədqiqatçı A. Eyyubovun yazdığına görə, 1991-ci il avqustun 13-dən 16-dək SSRİ DİN-in daxili qoşunlarının ayrı-ayrı bölmələri silah-sursatları ilə bir yerdə Azərbaycan Respublikasının Qarabağ vilayətinin dağlıq hissəsində fəaliyyət göstərən erməni terror birləşmələrinə "girov" verilmişlər. "İzvestiya" qəzeti 1991-ci il 16 avqust tarixli nömrəsində həmin faktla əlaqədar SSRİ DİN-in ictimai əlaqələr mərkəzinin rəisi A.Çernenkonun sözlərini sitat gətirir: "Hərbçilər silah işlədə bilmədilər, çünki ermənilər pusqunun yanında qadınları və uşaqları "ön xəttə" çıxarmışdılar. Belə şəraitdə heç də hər kəs adama güllə ata bilməz". A.Eyyubov bununla əlaqədar yazır: "Dünya xalqlarından heç biri mərd-mərdanə döyüşə girməmək üçün arvad-uşağını belə alçaqcasına irəli verməzdi. Arvad tumanı altında gizlənmək Qafqazda xüsusilə təhqiramizdir".[597]

**23 avqust 1991-ci il. Şuşa. Azərbaycan.** Erməni terrorçuları Şuşa-Cəmilli yolunda avtobusu gülləyə tutmuşlar. 4 adam həlak olmuş, 13 nəfər yaralanmışdır.[598]

**Avqust 1991-ci il.** Erməni terror birləşmələri Rusiyanın qoşun bölməsini (28 nəfər) girov götürmüşlər. Rusiya deputatlarının müdaxiləsindən sonra əsgərlər buraxılmış, onların silahları isə qənimət kimi erməni saqqallılarında qalmışdır. Əldə olan məlumatlara görə, 1991-ci il oktyabrın 10-dək erməni terrorçuları rus ordusunun "Daşnaksutyun"un göstərişini yerinə yetirməkdən imtina etmiş 40 hərbi qulluqçusunu öldürmüşlər.[599]

**Yay 1991-ci il. Xankəndi. Azərbaycan.** Erməni terror qrupu rus zabiti, SSRİ DİN-in daxili qoşunlarının mayoru Xomiçi qətlə yetirmişdir.[600]





**1991-ci ilin yayı. Kərkicahan. Azərbaycan.** Rusiyanın "Mayak" radiostansiyasının jurnalisti Leonid Lazareviç erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir.[601]

**7 sentyabr 1991-ci il. Xocavənd. Azərbaycan.** Erməni terrorçuları Xocavənd rayonunun Tuğ kəndində 2 azərbaycanlını öldürmüşlər. Terror aktı dinc əhalini qorxutmaq məqsədi ilə törədilmişdir.[602]

**7 sentyabr 1991-ci il. Xankəndi. Azərbaycan.** Erməni terrorçuları Xankəndindən gələn avtobusu atəşə tutmuşlar. 3 sərnişin ölmüş, 4-ü yaralanmışdır.[603]

**8 sentyabr 1991-ci il. Ağdam. Azərbaycan.** "Qarabağ" təşkilatından olan erməni terrorçuları Ağdam-Xocavənd yolunda avtobusu qumbaraatandan atəşə tutmuşlar. Terror aktı nəticəsində 4 azərbaycanlı həlak olmuş, 20-si yaralanmışdır.[604]

**14-18 sentyabr 1991-ci il. Goranboy. Azərbaycan.** Erməni quldur birləşmələri artilleriyanın və ZTR-lərin köməyi ilə Goranboy rayonunda azərbaycanlılar yaşayan bir neçə kəndə hücum etmişlər. Dinc əhali arasında ölənlər var. ABŞ Dövlət Departamenti tərəfindən təqdim edilmiş 2001-ci il 30 mart tarixli "Arayış: Dağlıq Qarabağ münaqişəsinin tarixi" adlı sənəddə deyildiyinə görə, məhz bu dövrdə, 1991-ci ilin sentyabrında "...erməni yaraqlıları zorakılıq kampaniyasına başlamışlar". Lakin "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatı ideoloqlarının özlərinin mətbuat üçün şüarı yenə də əvvəlki idi: "demokratiya və insan hüquqları uğrunda mübarizə".[605]

**21 sentyabr 1991-ci il. Goranboy. Azərbaycan.** Goranboy rayonunun Todan kəndinin sakini erməni terrorçusu tərəfindən yaralanmışdır.[606]

**25 sentyabr 1991-ci il. Xankəndi. Azərbaycan.** Kərkicahanın (Xankəndinin yaxınlığında) erməni terrorçuları tərəfindən atəşə tutulması nəticəsində 1 adam həlak olmuş və 6 nəfər yaralanmışdır.[607]

**29 sentyabr 1991-ci il. Goranboy. Azərbaycan.** Erməni quldurları azərbaycanlıların Zeyvə və Şəfəq kəndlərini atəşə tutmuşlar: 1 adam həlak olmuş, 9 nəfər yaralanmışdır.[608]

**Sentyabr 1991-ci il. Goranboy. Azərbaycan.** Erməni quldur birləşmələri "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirərək, artilleriya hücumundan və "Qrad" sistemindən atəşə tutduqdan sonra Azərbaycanın Goranboy rayonunun qərb hissəsinə hücuma keçmiş, bir sıra yaşayış məntəqələrini işğal etmişlər.[609]

**Sentyabr 1991-ci il. Paris. Fransa,** ASALA-nın üzvü Vazgen Sislyanın başçılıq etdiyi erməni terror qrupu Usman məhəllələsində 60 turisti girov götürmüşdür.[610]

**7 oktyabr 1991-ci il. Afina. Yunanıstan.** Erməni terrorçuları Türkiyə səfirliyinin attaşesi Çətin Görgünü qətlə yetirmişlər.[611]

**Oktyabr-noyabr 1991-ci il. Xocavənd. Azərbaycan.** "Qarabağ" terror təşkilatından olan erməni quldur birləşmələri Dağlıq Qarabağın Xocavənd rayonu ərazisindən





azərbaycanlı əhalini qovmaq üçün "Qrad" sistemindən atəş açdıqdan sonra bir sıra amansız hücumlar etmişlər. 30-dan artıq yaşayış məntəqəsi işğal olunmuşdur.[612]

**15 noyabr 1991-ci il. Xocavənd. Azərbaycan.** Zamzur kəndinin 5 sakini erməni quldurları tərəfindən qətlə yetirilmişdir. Ertəsi günü bu kənd işğal olunmuş və tamamilə yandırılmışdır.[613]

**20 noyabr 1991-ci il. Xocavənd. Azərbaycan.** Azərbaycan Respublikasının Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları "Mi-8" vertolyotunu vurmuşlar. Vertolyotda Azərbaycan Respublikasının dövlət katibi, xalq deputatı T.K.İsmayılov, Azərbaycan Respublikası baş nazirinin müavini, xalq deputatı Z.S.Hacıyev, Azərbaycan Respublikası Prezidentinin dövlət müşaviri, xalq deputatı general-mayor M.N.Əsədov, Azərbaycan Respublikasının baş prokuroru, xalq deputatı, dövlət ədliyyə müşaviri İ.İ.Qayıbov, xalq deputatları V.D.Cəfərov və V.T.Məmmədov, Azərbaycan Respublikası Prezidenti Aparatının mətbuat mərkəzinin müdiri O.M.Mirzəyev, Azərbaycan Respublikasının meliorasiya və su təsərrüfatı nazirinin birinci müavini Q.Q.Namazəliyev, DQMV-nin prokuroru İ.A.Plavski, MTN-in DQMV üzrə şöbəsinin rəisi S. S.İvanov, DQMV DİI-nin rəisi general-mayor V.V.Kovalyov, DQMV fövqəladə vəziyyət rayonunun komendantı N.V.Jinkin, Azərbaycan Respublikası dövlət katibinin köməkçisi R.M.Məmmədov, Azteleradionun jurnalistləri A.M.Mustafayev, A.İ.Hüseynzadə və F.İ.Şahbazov, Rusiya Federasiyasından müşahidəçilər general-mayor M. D.Lukaşov və podpolkovnik V.M.Koçarov, Qazaxıstan daxili işlər nazirinin birinci müavini

general-mayor S.D.Serikov olmuşlar. Nümayəndə heyəti bu regiona sülhməramlı missiya ilə gedirdi. Bütün sərnişinlər və uçuş heyəti həlak olmuşdur.[614]

**8 dekabr 1991-ci il. Xankəndi. Azərbaycan.** Erməni quldurları Kərkicahan qəsəbəsini PDM və ZTR-lərdən atəşə tutmuşlar. 8 nəfər ağır yaralanmışdır.[615]

**22 dekabr 1991-ci il. Laçın. Azərbaycan.** Dekabrın 22-dən 23-nə keçən gecə "Yevangiley" erməni terror qrupu tərəfindən Laçın rayonunun azərbaycanlılar yaşayan Qaraqışlaq kəndində ilk ekoloji terror aktı törədilmişdir. Politoloq R.Novruzoğlunun tədqiqatlarına görə, bu qrupun cinayətlərinin xüsusiyyəti ən qısa vaxtda meşələri, bağları və evləri yandırmaqdan ibarət idi. Adı çəkilən terror qrupuna öz "karyerasına" "İntiqam" erməni terror təşkilatında başlamış Yevangiley Vaskanyan başçılıq edir. İxtisasca uşaq həkimi olan Y.Vaskanyan indi azərbaycanlı uşaqları öldürməkdə ixtisaslaşır. "Yevangiley" terror qrupu kifayət dərəcədə çevikdir (14 yaraqlıdan ibarətdir), yaxşı silahlanmış və təchiz olunmuşdur. Bu qrup "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının yeni xəttinin ekoloji terroru həyata keçirməkdə istifadə edilən erməni təşkilatları sırasına daxildir.[616]

**23 dekabr 1991-ci il. Əsgəran. Azərbaycan.** "Qarabağ" terror təşkilatından olan erməni quldurları Əsgəran rayonunun Meşəli kəndinə hücum etmişlər. 6 adam öldürülmüş və 15 nəfər yaralanmışdır.[617]

**Dekabr 1991-ci il. Budapeşt. Macarıstan.** Erməni terrorçusu Vazgen Sislyan türk səfiri Bədrəddin Tunabaşa





sui-qəsd etmişdir. ASALA-nın üzvü olan bu erməni terrorçusu kütləvi informasiya vasitələrində də bu təşkilatın qanlı əməliyyatlarında iştirak etməsi faktını gizlətmir.[618]

**1991-ci il.** Erməni təşkilatlarının liderlərini "məhvetmə instinktini cilovlamağa" və yaxud heç olmazsa, "başqalarının" yaşamağa təbii hüquqları olduqlarını etiraf etməyə cəhd göstərməyə çağıran bir sıra siyasətçilər həmin il erməni terrorçuları tərəfindən qətlə yetirilmişlər. A.İşxanyan evində partlayış törədilməklə, sülh danışıqlarının iştirakçısı V.Qriqoryan küçədə güllə ilə öldürülmüşdür. ASALA erməni terror təşkilatının liderlərindən biri Akop Akopyanın "New-York Times" qəzetində getmiş bəyanatında deyilir: "Bizim düşmənimiz türk rejimidir, NATO-dur və bizimlə bir yerdə olmayan ermənilərdir".[619]

**1 yanvar 1992-ci il. Ağdam. Azərbaycan.** "Qarabağ" terror təşkilatından olan erməni quldur birləşmələri Ağdam rayonunun Əhmədavar və Çuxurməhlə kəndlərinə hücum etmişlər. Dinc əhali arasında ölənlər var.[620]

**8 yanvar 1992-ci il.** Erməni terrorçuları Krasnovodskdan (Türkmənistan) Bakıya sərnişin daşıyan "Sovetskaya Kalmıkiya" bərəsini partlatmışlar. 25 adam həlak olmuş və 88 nəfər yaralanmışdır.[621]

**11 yanvar 1992-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri Füzuli rayonunun Cuvarlı. Hoğa və Xocavənd rayonunun Axullu kəndlərinə hücum etmişlər. Kənd sakinləri arasında ölənlər var.[622]

**18 yanvar 1992-ci il. Şuşa. Azәrbaycan.** Ermәni terrorçuları Şuşa rayonunun Nәbilәr kәndini işğal edib yandırmışlar. Yerli әhali arasında ölәnlәr var.[623]

**22 yanvar 1992-ci il. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri Şuşa rayonunun Qeybalı, Ağdam rayonunun Xıdırlı kәndlәrinә hücum etmişlәr. Dinc әhali arasında ölәnlәr vә yaralananlar var.[624]

**28 yanvar 1992-ci il. Şuşa. Azәrbaycan.** Şuşa şәhәri yaxınlığında ermәni terrorçuları Ağdam-Şuşa marşrutu ilә uçan mülki vertolyotu vurub salmışlar. Uçuş heyәtinin 3 üzvü vә 41 sәrnişin, әsasәn, qadınlar vә uşaqlar hәlak olmuşlar.[625]

**10 fevral 1992-ci il. Şuşa. Azәrbaycan.** "Qarabağ" terror tәşkilatının rәhbәrlik etdiyi ermәni quldurları azәrbaycanlılar yaşayan Malıbәyli vә Quşçular kәndlәrini işğal etmişlәr. Dinc әhali arasında çoxlu ölәnlәr var. Saqqallılar yaralıların axırına çıxırdılar.[626]

**13 fevral 1992-ci il. Ağdam. Azәrbaycan.** Sәhәr saat 6-da müasir silahlarla silahlanmış ermәni quldur birlәşmәsi azәrbaycanlılar yaşayan Qaradağlı kәndinә soxulmuş vә mülki әhalini qırıb-çatmışdır. Qanlı divanın gedişindә 90-dan artıq azәrbaycanlı girov götürülmüşdür. Onların 41-i qadındır. Tәxminәn 200 kәndli öldürülmüşdür. Sonra quldurlar әvvәlki mövqelәrinә qayıtmışlar.[627]

**16 fevral 1992-ci il. Yerevan. Ermәnistan.** Respublika Tәhlükәsizlik Şurasının iclasında "Milli Azadlıq Hәrәkatının" liderlәri O.Şahnazaryanın vә Q.Markarovun tәşәbbüsü ilә "Ermәni millәtinin azәrbaycanlı





millәtinә qarşı ekoloji proqramı" adlı sәnәd müzakirә olunmuşdur. Politoloq R.Novruzoğlunun bildirdiyi kimi, sәnәddә Azәrbaycan Respublikasının Qarabağ әrazisinin dağlıq hissәsindә fәaliyyәt göstәrәn ermәni terrorçularının ekoloji terror sahәsindәki tәcrübәsi nәzәrә alınaraq, Azәrbaycan xalqına qarşı ekoloji terrorun tәşkil edilmәsi vә hәyata keçirilmәsinә dair konkret tövsiyәlәr öz әksini tapmışdır. Sonradan bu sәnәd "Ekologiya" adı ilә kitab şәklindә 1500 nüsxә çap olunmuşdur.[628]

**17 fevral 1992-ci il. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri Xocavәnd rayonunun azәrbaycanlılar yaşayan bir neçә kәndini işğal etmişlәr. Xarici kütlәvi informasiya vasitәlәrinin mәlumatına görә, dinc әhaliyә qarşı cinayәtlәrdә ermәni quldur vә terror birlәşmәlәri sırasında öz vәtәnlәrindә mәhkum olunmuş vә hәbsxanadan qaçmış әrәb muzdluları da iştirak edirlәr.[629]

**18 fevral 1992-ci il. Ağdam. Azәrbaycan.** "Qarabağ" terror tәşkilatından olan ermәni saqqallılar azәrbaycanlılar yaşayan Şelli kәndindәn iki mәktәblini - Natiq vә Niyamәddin İbadovları girov götürmüşlәr. Sonra isә ultimatum vermişlәr: Şelli kәndinin sakinlәri qısa müddәtdә doğma yerlәrini tәrk etmәlidirlәr, әks tәqdirdә uşaqlara divan tutulacaqdır.[630]

**19 fevral 1992-ci il. Qubadlı. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri Ermәnistan әrazisindәn Qubadlı rayonunun kәndlәrini atәşә tutmuşlar. Dinc әhali arasında ölәnlәr var.[631]

**Fevral 1992-ci il. Azərbaycan.** "Qarabağ" terror təşkilatının nəzarəti altında olan erməni quldur birləşmələri Xankəndinin həndəvərində azərbaycanlıların yaşadıqları məhəllələri, eləcə də Şuşa-Xocalı yolu boyunca və Şuşa şəhərinin ətrafında yerləşmiş bir sıra kəndləri işğal etmişlər.[632]

**26 fevral 1992-ci il. Xocalı. Azərbaycan.** Ermənistan silahlı qüvvələri Rusiyanın, sonradan məlum olduğu kimi, əsasən, erməni zabitlərindən və praporşiklərindən ibarət olan 366-cı alayının köməyi ilə Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan etmişlər. Minə yaxın adam, əsas etibarilə qocalar, qadınlar və uşaqlar vəhşi aksiyanın qurbanları olmuşlar. Bu qanlı cinayət XX əsrdə beynəlxalq terrorizmin mülki əhaliyə qarşı törətdiyi ən dəhşətli əməllərdən biri olmuşdur. Azərbaycanın Dağlıq Qarabağ regionunda Xocalı şəhərinin dinc sakinlərinin kütləvi qırğını 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermişdir. Yüzlərlə günahsız insan bir gecədə vəhşicəsinə öldürülmüşdür. Xocalı cinayətinin faciəli nəticəsi belədir: 613 adam, o cümlədən 106 qadın və 23 uşaq qətlə yetirilmiş, 487 nəfər əlil olmuş, 1257 nəfər erməni əsirliyinin müsibətlərindən keçmiş, 150 nəfər itkin düşmüşdür. Bu vəhşi əməliyyat zamanı onlarca uşaq, qadın və qoca yaxın məsafədən güllələnmişdir. Erməni terror təşkilatları və muzdlu silahlı birləşmələr bütöv ailələri məhv edir, "nümunəvi" qətllər təşkil edirdilər: adamların diri-diri dərilərini soyur, qulaqlarını kəsir, başının dərisini soyurdular. Adi faşizm: hamilə qadınların qarınlarını yırtıb uşağı... çıxardırdılar... artıq ölmüş qadınların yırtılmış qarınlarına ərlərinin kəsilmiş başlarını dürtüb sonra tikirdilər - bütün bu dəhşətləri təsvir etmək qeyri-mümkündür.





ASALA erməni terror təşkilatının fəal yaraqlılarından biri, bütün dünyada törədilən bir sıra qanlı terror aktlarının fəal iştirakçısı Vazgen Sislyan Xocalıda azərbaycanlı uşaqların qətlə yetirilmələrində əli olduğunu mətbuatdan gizlətmirdi. Səciyyəvi haldır ki, bir müddətdən sonra Ermənistan Respublikasının prezidenti R.Koçaryanın təşəbbüsü ilə V. Sislyan Qarabağ müharibəsinin qəhrəmanı hesab ediləcək. Xocalı faciəsinin iştirakçısı, erməni Daud Xeyriyanın kitabından: "...martın 2-də "Qaflan" erməni qrupu (meyitləri yandırmaqla məşğul olurdu) 100-dən artıq türk (azərbaycanlı - **red.**) meyiti yığıb, Xocalıdan təxminən 1 kilometr aralı qəbirdə yandırdı... Axırıncı maşında mən alnından və əlindən yaralanmış on yaşlı qız uşağını gördüm. Sifəti göyərmiş bu uşaq ac olmasına, soyuğa və aldığı yaralara baxmayaraq, hələ də sağ idi. O, sakitcə nəfəs alırdı. Ölümlə çarpışan bu uşağın baxışlarını unuda bilmirəm... Bir qədər sonra Tiqranyan deyilən əsgər bu hərəkətsiz qızı götürüb meyitlərin üstünə atdı... Sonra onları yandırdılar. Mənə elə gəlirdi ki, yanan meyitlərin arasında kim isə qışqırır, köməyə çağırırdı... Bundan sonra mən daha yeriyə bilmədim..."

Xocalıda baş vermiş qanlı faciə barədə bütün həqiqəti dünyaya Azərbaycanın görkəmli sənədli film yaradıcısı Çingiz Mustafayevin çəkdiyi film yaydı. Kamera qulaqları kəsilmiş uşaqları, baş dərisi soyulmuş kişiləri lentə almışdır. Erməni saqqallıları yaşlı bir qadının üzünün sol tərəfinin kəsib çıxarmışdılar. Bütün meyitlərdə əzab-əziyyətli işgəncələrin izləri qalmışdı. Azərbaycanın Xocalı şəhərinin erməni terrorçuları tərəfindən məhv edilməsi ABŞ-da "ilin ən böyük faciəsi" adlandırılmışdır. 366-cı rus motoatıcı alayı Rusiyaya qaytarıldı və buraxıldı, lakin onun zabitlərindən heç kim törədilmiş cinayətlərə görə məsuliyyət daşımadı.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı faciəsinin 10-cu ildönümü ilə əlaqədar Azərbaycan xalqına Müraciətində deyilir: "Bu qəddar və amansız soyqırım aktı insanlığın tarixinə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi daxil olmuşdur. Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırım aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir".[633]

**Fevral-mart 1992-ci il.** Xarici kütləvi informasiya vasitələri erməni terrorçularının və quldur birləşmələrinin Xocalı şəhərində törətdikləri soyqırım faktını təsdiq edirlər.

*"Washington Post" qəzeti: "Dağlıq Qarabağın qurbanları Azərbaycan şəhərində basdırılmışlar. Qaçqınlar deyirlər ki, ermənilər hücum edərkən yüzlərlə adam həlak olmuşdur. Həlak olanların yeddisinin cəsədlərini bu gün göstərdilər, ikisi uşaq idi, üçü isə qadın. 120 qaçqın Ağdam hospitalındadır, çoxlarının bədənində şişuclu silah yaraları vardır".*[634]

*"Times" qəzeti: Erməni əsgərləri yüzlərlə ailəni qırıb çatmışlar. Sağ qalanlar deyirlər ki, erməni əsgərləri 450-dən artıq azərbaycanlını güllələmişlər, onların da çoxu qadınlar və uşaqlar idi. Yüzlərlə, bəlkə də, minlərlə adam itkin düşmüşdür. Xocalıdan qaçan digər qadınlarla və uşaqlarla bir yerdə Ağdama gəlmiş Raziyə Aslanova demişdir: "Onlar ardı-arası kəsilmədən atəş açırdılar". Onun dediyinə görə, əri, qaynı və oğulluğu qətlə yetirilmiş, qızı isə itkin düşmüşdür.*[635]

*"Times" qəzeti: Qırğının üstü açılmışdır. Anatoli Levin: "Dağlıq Qarabağda təpələrin döşündə 60-dan artıq adamın, o cümlədən qadınların və uşaqların cəsədləri tapılmışdır. Bu da erməni qoşunlarının azərbaycanlı qaçqınları qırıb-çatdıqlarını sübut edir. Yüzlərlə qaçqın indiyədək tapılmamışdır".*[636]

*"Times" qəzeti: Çoxları şikəst olmuşdur, balaca bir qızın isə yalnız başı tapılmışdır.*[637]

*"İzvestiya" qəzeti: Videokamera qulaqları kəsilmiş uşaqları göstərmişdir. Yaşlı bir qadının üzünün yarısını kəsmişlər. Kişilərin başlarının dərisi soyulmuşdur.*[638]

*"Sunday Times" qəzeti: Tomas Qolts erməni əsgərlərinin təşkil etdikləri qırğın haqqında xəbər verən ilk müxbir idi. "Xocalı kasıb, mağazaları boş, yolları çirkli və yaşıllıqsız şəhər idi. Bununla belə, o, yaxşı dövrlərdə torpağı əkib-becərən, toyuq-cücə saxlayan minlərlə azərbaycanlının evi idi. Ötən həftə bu şəhər yer üzündən silindi".*[639]

*"Financial Times" qəzeti: Ermənilər Ağdama üz tutmuş qaçqınlar dəstəsini atəşə tutmuşlar. Azərbaycanlılar burada 1200-ə qədər meyit saydılar. Livanlı kinooperator təsdiq etdi ki, onun ölkəsinin varlı daşnak icması Qarabağa canlı qüvvə və silah göndərir.*[640]

*"İzvestiya" qəzeti: Mayor Leonid Kravets: "Mən təpənin üstündə yüzə yaxın meyiti öz gözlərimlə gördüm.*

*Bir oğlanın başı yox idi. Hәr yanda xüsusi qәddarlıqla öldürülmüş qadın, uşaq, qoca meyiti görünürdü".*[641]

*"Financial Times" qәzeti: General Polyakov bildirdi ki, 366-cı alaydan olan 103 ermәni hәrbi qulluqçusu Dağlıq Qarabağda qalmışdır.*[642]

*"La Mond" qәzeti: Ağdamda olan xarici jurnalistlәr Xocalıda qәtlә yetirilmiş qadınlar vә uşaqlar arasında başının dәrisi soyulmuş, dırnaqları çıxardılmış üç meyit görmüşlәr. Bu, azәrbaycanlıların tәbliğatı deyil, reallıqdır.*[643]

*"Valer actual" jurnalı: Bu muxtar regionda ermәni hәrbi birlәşmәlәri dә, Yaxın Şәrqdәn gәlәnlәr dә әn müasir hәrbi texnikanı, o cümlәdәn vertolyotları işlәdә bilirlәr. ASALA-nın Suriyada vә Livanda hәrbi düşәrgәlәri vә silah-sursat anbarları vardır. Ermәnilәr Qarabağ azәrbaycanlılarını mәhv etmiş, yüzdәn çox müsәlman kәndindә qırğın törәtmişlәr.*[644]

*"Krua L'Eveneman" jurnalı: Ermәnilәr Xocalıya hücum etdilәr. Bütün dünya eybәcәr hala salınmış cәsәdlәri gördü. Azәrbaycanlılar min adamın öldürüldüyünü deyirlәr.*[645]

Azәrbaycan Milli Elmlәr Akademiyasının İnsan Hüquqları İnstitutunun Ekspert Şurasının elmi tәdqiqatlarına görә, (V.İbayevin vә E.Qәdirovun mәruzәlәri) yuxarıda göstәrilәn faciәli hadisәlәr beynәlxalq hüquqda belә şәrh edilir:

*1. Xocalı soyqırımı insanlığa qarşı beynәlxalq cinayәt kimi.* "Soyqırım" anlayışının hüquqi mәnası "Soyqırım cinayәtinin qarşısının alınması vә ona görә cәza haqqında" Konvensiya, BMT Baş Mәclisinin 1948-ci il dekabrın 9-da qәbul etdiyi 260 A/III nömrәli qәtnamә ilә müәyyәn edilir vә hәr hansı bir milli, etnik, irqi vә yaxud dini qrupu





tamamilә vә yaxud qismәn mәhv etmәk mәqsәdi ilә edilmiş aşağıdakı hәrәkәtlәr göstәrilir: belә qrupun üzvlәrinin öldürülmәsi; belә qrupun üzvlәrinә ciddi bәdәn vә yaxud әqli xәsarәt yetirilmәsi; bilәrәkdәn hәr hansı bir qrup üçün onun fiziki cәhәtdәn tamamilә vә yaxud qismәn mәhv olunmasına gәtirib çıxaracaq hәyat şәraiti yaradılması; belә qrup içәrisindә uşaq doğumunun qarşısını almaq üçün nәzәrdә tutulmuş tәdbirlәr; uşaqları zor gücünә bir insan qrupundan digәrinә vermәk.

Soyqırım cinayәti üçün xüsusi mәqsәdin olması zәruri element hesab edilir. Bu obyektiv cәhәt soyqırım cinayәtini digәr analoji beynәlxalq cinayәtlәrdәn fәrqlәndirir. Soyqırım cinayәtini tәşkil edәn әmәllәrin hәr biri şüurlu surәtdә vә qәsdәn edilir. Bu әmәllәr әsla tәsadüfәn vә yaxud ehtiyatsızlıq nәticәsindә edilmir. Eyni zamanda, belә әmәllәr törәtmәk mәqsәdi vә bu әmәllәrin mümkün nәticәlәrinin ümumәn dәrk edilmәsi onları soyqırım kimi qiymәtlәndirmәk üçün kifayәt deyildir. Burada әmәllәrin mәnfi nәticәlәri ilә bağlı olan cinayәtkar niyyәtin vә konkret mәqsәdin xüsusi istiqamәtlәrini üzә çıxarmaq tәlәb olunur. Xilas olmağa cәhd göstәrәn azәrbaycanlı mülki әhalinin әvvәlcәdәn nәzәrdә tutulmuş pusqulardan avtomatlarla, pulemyotlarla vә digәr silah növlәri ilә güllәlәnmәsi soyqırımın mәqsәdini sübut edir.

Bu cinayәtin mәhz azәrbaycanlı milli qrupuna yönәldilmәsi göz qabağındadır. Soyqırım cinayәtini araşdırarkәn onun üç әsas tәrkib hissәsi üzә çıxır: 1) mәlum milli, etnik, irqi vә yaxud dini qrupun mövcudluğu; 2) belә qrupu tamamilә vә yaxud qismәn mәhv etmәk niyyәtinin olması (mens rea); bu mәlum qrupa münasibәtdә soyqırım kimi izah olunan hәr hansı bir hәrәkәtin törәdilmәsi (astus reus).

Belәliklә, soyqırım aktı mütlәq milli, etnik, irqi vә yaxud dini qrupa qarşı yönәldilmişdir. Yәni digәr qrupa, mәsәlәn, siyasi vә yaxud sosial qrupa qarşı yönәldilmiş hәrәkәt soyqırım kimi qiymәtlәndirilә bilmәz. "Soyqırım" anlayışı ümumi nәticәlәrinә görә qadağan edilmiş hәrәkәt kimi konkret mәqsәdin olmasını tәlәb edir. Mәqsәd soyqırım cinayәtinin xüsusi әlamәti kimi bir neçә fәrqlәndirici tәrkib hissәdәn ibarәtdir:

- mәqsәd bu vә ya digәr konkret qrupa mәxsus olan tәsadüfi bir vә ya bir neçә şәxsi mәhv etmәkdәn yox, qrupu bütövlükdә mәhv etmәkdәn ibarәt olmalıdır. Soyqırım qurbanlarını müәyyәn edәn hәlledici әlamәt onların fәrdiliyi yox, mәhz hәmin qrupa mәxsus olmasıdır;
- mәqsәd qrupun özünü mәhv etmәkdәn ibarәt olmalıdır. Soyqırım bütöv bir insan qrupunun yaşamaq hüququnu tanımaqdan imtina etmәkdir. Ayrıca bir adamın öldürülmәsi isә (homosid) ayrıca fәrdin yaşamaq hüququnu tanımaqdan imtina kimi xarakterizә olunur. Demәli, actus reus (qadağan edilmiş hәrәkәt) bir adamla da kifayәtlәnә bilәr, lakin mens rea (mәqsәd) qrupun mövcudluğuna qarşı yönәlmәlidir;
- mәqsәd qrupu mәhz tamamilә vә ya qismәn mәhv etmәkdәn ibarәt olmalıdır;
- mәqsәd mәhz milli, etnik, irqi vә yaxud dini qruplardan birini mәhv etmәkdәn ibarәt olmalıdır;

Soyqırım cinayәtinә görә mәsuliyyәtә qiymәt vermәk üçün bütöv bir qrupun mәhv edilmәsi kimi son nәticәyә nail olmaq tәlәb edilmir. Bunun üçün qrupun özünü tamamilә vә ya qismәn mәhv etmәk mәqsәdi ilә törәdilmiş cinayәtin obyektiv tәrәfini tәşkil edәn hәrәkәtlәrdәn birini etmәk kifayәtdir. Soyqırımın obyektiv tәrәfi olan mәhvetmә





anlayışı fiziki vә bioloji tәsir göstәrmәk yolu ilә hәyatdan mәhrum etmәk demәkdir. BMT-nin Beynәlxalq Mәhkәmәsi "Barselona Traction" işi üzrә qәrarında soyqırım aktlarının qadağan edilmәsi üçün öhdәliklәri erqa omnes öhdәliklәri adlandırmışdır. Beynәlxalq Mәhkәmә "Soyqırım cinayәtinin qarşısının alınması vә ona görә cәza haqqında" Konvensiyanın әsasını tәşkil edәn prinsiplәri bütün dövlәtlәr üçün mütlәq xarakterli normalar kimi qәbul etmişdir.

*II. Xocalı hadisәlәrinin beynәlxalq hüquq tәrәfindәn soyqırım cinayәti aktı kimi tanınmasının hüquqi әsasları.* Aşağıdakı sәnәdlәr Xocalı hadisәlәrini beynәlxalq hüquq әsasında soyqırım cinayәti aktı kimi qiymәtlәndirmәyә imkan verir: 1) BMT Baş Mәclisinin 1948-ci il 9 dekabr tarixli 260 A (III) nömrәli qәtnamәsi ilә qәbul edilmiş "Soyqırım cinayәtinin qarşısının alınması vә ona görә cәza haqqında" Konvensiya; 2) Nürnberq Hәrbi Tribunalının Nizamnamәsi. Nizamnamәdә soyqırım cinayәtinә birbaşa istinad edilmәsә dә, soyqırımı tәşkil edәn hәrәkәtlәr insanlığa qarşı cinayәtlәr vә hәrbi cinayәtlәr kimi qiymәtlәndirilmişdir; 3) Beynәlxalq Cinayәt Tribunalının Yuqoslaviyaya dair Nizamnamәsi (maddә 4); 4) Beynәlxalq Cinayәt Tribunalının Ruandaya dair Nizamnamәsi (maddә 1); 5) Beynәlxalq Cinayәt Mәhkәmәsinin Nizamnamәsi (maddә 6); Azәrbaycan Respublikasının Cinayәt Mәcәllәsi (maddә 103); 7) "Azәrbaycanlıların soyqırımı haqqında" Azәrbaycan Respublikası Prezidentinin 1998-ci il 26 mart tarixli Fәrmanı.

*III. Xocalı hadisәlәrinin beynәlxalq hüquq tәrәfindәn "soyqırım" hüquqi normasına uyğun gәlәn cinayәt kimi qәbul edilmәsinin hüquqi nәticәlәri.* Beynәlxalq hüquq soyqırım cinayәti ilә әlaqәdar müәyyәn etmişdir; 1) Soyqırım cinayәti törәtmiş şәxslәrin cinayәt tәqibi vә cәzalandırılması labüddür;

2) Cinayәtin tәrkib hissәsi tәkcә soyqırım aktının törәdilmәsi yox, hәm dә soyqırım törәtmәk mәqsәdi ilә dilbirliyi, soyqırım törәtmәyә birbaşa vә açıq-aşkar tәhrik, soyqırım törәtmәyә tәşәbbüs vә soyqırımda iştirak etmәdir; 3) Soyqırım cinayәti törәtmiş şәxslәrә qarşı universal yurisdiksiya prinsiplәri tәtbiq olunmalıdır; 4) Soyqırım cinayәti törәdilәrkәn әmrin yerinә yetirilmәsinә istinad mәsuliyyәtdәn azad etmir; 5) Rәhbәrlәr soyqırım cinayәtinin qarşısının alınması barәdә tәdbirlәr görülmәmәsinә görә mәsuliyyәt daşıyırlar; 6) Coyqırım cinayәtlәrinә cinayәt mәsuliyyәtinin tәtbiq olunması üçün müddәt qoyulmur; 7) Soyqırım cinayәtinә münasibәtdә qanunun retroaktiv tәtbiqinә yol verilir; 8) Soyqırım cinayәti törәtmiş şәxslәr cinayәt mәsuliyyәtinә cәlb edilmәk üçün onları tәlәb edәn ölkәyә tәhvil verilmәlidir.

Belәliklә, ermәnilәr tәrәfindәn Xocalı şәhәrinin sakinlәrinә - etnik azәrbaycanlılara qarşı törәdilmiş әmәllәr beynәlxalq hüquq sәnәdlәrinә uyğun olaraq, soyqırım vә beynәlxalq hüquq prinsiplәrinә әsasәn insanlığa qarşı cinayәt kimi qiymәtlәndirilir.[646]

**28 fevral 1992-ci il. Ağdam. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri şәhәri raketlәrlә atәşә tutmuşlar. Sakinlәr arasında ölәnlәr var.[647]

**5 mart 1992-ci il. Ağdam. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri Ağdam rayonunun Sırxavәnd kәndini atәşә tutmuşlar. 10 nәfәr hәlak olmuşdur.[648]

**12 mart 1992-ci il. Ağdam. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri Ağdam şәhәrini növbәti dәfә raket atәşinә tutmuşlar. 30 adam hәlak olmuş, 100 nәfәr yaralanmışdır.[649]





**17 mart 1992-ci il. Azәrbaycan.** Ermәni terror qrupları "Daşnaksutyun" tәşkilatının göstәrişini yerinә yetirәrәk, yenidәn Qaradağlı kәndinә soxulmuş vә dinc әhaliyә divan tutmuşlar. Kәnd tamamilә yandırılmışdır. 77 nәfәr qәtlә yetirilmişdir, kәnddә, әsasәn, yaşlı adamlar qalmışdır. İtkinlәrin vә ermәni әsirliyinә düşәnlәrin dәqiq sayı mәlum deyildir.[650]

**18 mart 1992-ci il. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri Tәrtәr şәhәrini, Qazax vә Zәngilan rayonlarının kәndlәrini raket atәşinә tutmuşlar. Dinc әhali arasında ölәnlәr var.[651]

**20 mart 1992-ci il. Bakı. Azәrbaycan.** Bakı şәhәrinin rusdilli müәllimlәrinin açıq mәktubu: "Azәrbaycan torpağında müharibә gedir, beşinci ildir ki, müxtәlif xalqların nümayәndәlәrinin qanı tökülür. Bu müharibәni bütün milli azlıqların sıxışdırılıb çıxarıldığı monomilli Ermәnistan Respublikası başlamışdır. İndi dә Azәrbaycan xalqının açıq-aşkar mәhv edilmәsi prosesi gedir... Tәkcә son ay әrzindә Azәrbaycanın 30-dan artıq kәndi mәhv edilmişdir".[652]

**21 mart 1992-ci il. Qazax. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri tәrәfindәn Aşağı Әskipara kәndinin artilleriya atәşinә tutulması nәticәsindә 5 nәfәr hәlak olmuşdur, yaralananlar var.[653]

**24 mart 1992-ci il. Füzuli. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri Füzuli rayonunun Divanalılar kәndini raket atәşinә tutmuşlar. Dinc әhali arasında ölәnlәr var.[654]

**25 mart 1992-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri Tərtər, Goranboy, Zəngilan və Qubadlı rayonlarının kəndlərini atəşə tutmuşlar. Dinc əhali arasında çoxlu ölən var.[655]

**31 mart 1992-ci il. Füzuli. Azərbaycan.** Erməni quldur birləşmələri Füzuli rayonunun kəndlərini və Füzuli şəhərini artilleriya və raket atəşinə tutmuşlar. Dinc əhali arasında ölənlər var.[656]

**2 aprel 1992-ci il. Kəlbəcər. Azərbaycan.** Yalnız bir gecə ərzində Kəlbəcər rayonunun Başlıbel kəndində 28 kişi və qadın tikə-tikə doğranmış, 18 nəfər əsir düşmüşdür. Kəndin elə bir silahı olmayan özünümüdafiə dəstəsi müasir texnika ilə təchiz olunmuş erməni quldur birləşmələrinə qızğın müqavimət göstərmişdir. Kəndlilərin var-yoxları talan edilmiş, evlərə od vurulmuşdur.[657]

**6 aprel 1992-ci il. Tovuz. Azərbaycan.** Erməni quldur birləşmələri Tovuz rayonunun Əlibəyli kəndini artilleriya atəşinə tutmuşlar. Dinc əhali arasında ölənlər və yaralananlar var.[658]

**7-8 aprel 1992-ci il. Kəlbəcər. Azərbaycan.** Azərbaycan Respublikasının Kəlbəcər rayonunun Ağdaban kəndi erməni terror birləşmələri tərəfindən yandırılmışdır. Kəndin 80-100 yaşlı 8 ağsaqqalı, 2 azyaşlı uşaq, 7 qadın öldürülmüş, 2 nəfər itkin düşmüş, 5 nəfər girov götürülmüş, 12 nəfər ağır yaralanmışdır.[659]

**Aprel 1992-ci il.** Erməni milli hərəkatının liberal qanadının nümayəndəsi Artur Mkrtçyan azərbaycanlılara





qarşı müharibəni "insanlığa təhqir" və "qabağıalınmaz məhvetmə instinkti" adlandırdığı üçün "Daşnaksutyun" təşkilatından olan erməni terrorçusu tərəfindən qətlə yetirilmişdir. Mkrtçyan öz evində, özü də mühafizə olunan mənzildə arvad-uşağının gözü qabağında avtomatla güllələnmişdir. Erməni terrorizminin "...öz məqsədlərinə xəyanət edən ermənilərə heç vaxt aman verməmək, onlardan intiqam almaq" tezisi növbəti dəfə "işə salınmışdır". Bir neçə ildən sonra Erməni Ümummilli Hərəkatının idarə heyəti sədrinin müavini Andranik Ovakimyan "Daşnaksutyun"un beynəlxalq terrorizmlə əlaqədə olduğunu təsdiq edəcəkdir.[660]

**7-8 may 1992-ci il. Şuşa. Azərbaycan.** Erməni quldur birləşmələri artilleriya və raket atəşi nəticəsində Şuşa şəhərini ələ keçirmişlər. Dinc əhali arasında ölənlər var. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra edən Y.Məmmədovun Rusiya Prezidenti B.Yeltsinə yazdığı məktubunda deyilir ki, "Şuşa şəhərinin "Qrad" və "Kristal" sistemlərindən atəşə tutulması mayın 9-na keçən gecə başlanmış və artilleriya hazırlığından sonra erməni terrorçuları və quldur birləşmələri şəhərə daxil olmuşlar". ABŞ Dövlət Departamentinin yaydığı 2001-ci il 30 mart tarixli "Arayış: Dağlıq Qarabağ münaqişəsinin tarixi" adlı sənəddən: "...1992-ci ilin mayında erməni və Qarabağ qoşunları Şuşanı (regionun azərbaycanlılar yaşayan tarixi paytaxtını) və Laçını ələ keçirmiş, bununla da DQ ilə Ermənistanın coğrafi əlaqəsini təmin etmişlər". Politoloq R.Novruzoğlunun məlumatına görə, Şuşa şəhərinin işğal edilməsi planı Fransanın Lion şəhərində və İranın paytaxtı Tehranda fəaliyyət göstərən erməni terror təşkilatları

tərəfindən işlənib hazırlanmış və mükəmməl planlaşdırılmış ssenarinin nəticəsi olmuşdur. Erməni yazıçısı Z.Balayanın 1994-cü ildə Fransanın "Antenn-III" telekanalına verdiyi müsahibə də bu versiyanı təsdiq edir. Elə həmin Balayan özünün "Le Progress" qəzetinə verdiyi 1994-cü il 14 aprel tarixli müsahibəsində demişdir: "...Şuşa ilə bağlı ilk plan mayın 2-də Tehranda işlənib hazırlanmışdır. Mayın 3-də isə artıq bilirdik ki, Şuşa ən yaxın vaxtlarda bizim olacaq". "Zerkalo" qəzetinin yazdığına görə, mayın 13-də İranın İsfahan şəhərində "erməni icmasının iclas salonunda rejissor Əhməd Bağır Yadigari Şuşanın işğal edilməsi və 114 azərbaycanlının (söhbət Şuşa həbsxanasında saxlanılan 114 azərbaycanlıdan gedir -- red.) taleyi haqqında öz filmini nümayiş etdirir. Onların hamısı vəhşicəsinə öldürülmüşdür. Tehranda bu filmi nümayiş etdirmək qadağan olunmuşdu. "Keyhan" qəzetinin yazdığına görə, bu kadrlar (18 dəqiqəlik lent) Rusiya səfirliyinin əməkdaşı, Qudev familiyalı bir adama satılmışdır". Yadigari deyirdi ki, erməni yaraqlıları tərəfindən köməksiz adamlara divan tutulması məni dəhşətə gətirdi. 37 yaşlı rejissor Əhməd Bağır Yadigari bir müddətdən sonra terror aktı nəticəsində (planlaşdırılmış avtomobil qəzası) həlak olmuşdur.

1977-ci ildə Azərbaycan hökuməti tərəfindən tarix-memarlıq qoruğu elan edilmiş Şuşa şəhərində məscidlər dağıdılmışdır. N.Ələkbərovanın tədqiqatlarına görə, bəşəriyyətə dünya musiqisi və ədəbiyyatının görkəmli şəxsiyyətlərini bəxş etmiş və çoxdan "Qafqazın konservatoriyası" kimi məşhur olan bu şəhərdə erməni terrorçuları və quldur birləşmələri tarix muzeyini, qədim qəbiristanlığı, Şərq poeziyasının klassiki, Qarabağ xanının vəziri Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmişlər.[661]





**8 may 1992-ci il.** Xarici muzdluların da daxil olduğu "erməni quldur birləşmələri "Daşnaksutyun" beynəlxalq terror təşkilatının göstərişini yerinə yetirərək, bütün Şuşa rayonunu işğal etmişlər.

"Laura" erməni terror qrupu xüsusi qəddarlığı ilə fərqlənmişdir. Lalayan Laura Gevorkovna 1962-ci ildə Sumqayıtda anadan olmuş, şəhər MİS-in pasport şöbəsində işləmişdir. Sumqayıtda "Krunk" erməni terror təşkilatının yaradılmasının təşəbbüskarlarından biri idi. "Krunk" təşkilatının fonduna pul köçürmək istəməyən ermənilərin qətlə yetirilməsinin fəal iştirakçısı olmuşdur. Sonradan Yerevana köçmüşdür. Politoloq R.Novruzoğlunun əldə etdiyi məlumatlar təsdiq edir ki, L.Lalayan əsir qadınların və uşaqların dindirilməsi və onlara işgəncələr verilməsi sahəsində ixtisaslaşmışdı. Faşist yönümlü "American qrinion" jurnalındakı yazılara görə, Azərbaycanın Şuşa şəhəri ərazisində əsir götürülmüş 19 uşaq xüsusi qəddarlıqla öldürülmüşdür. "Lauranın otağı" - Laura Lalayanın əsirlər üzərində təcrübələr, o cümlədən amputasiya üzrə cərrahiyyə əməliyyatları apardığı yer belə adlanır. Versiyalardan birinə görə, keçmiş pasportçu qadının "fəaliyyət" dairəsinə indi transplantasiya olunan insan orqanlarının kriminal alveri də daxildir.[662]

**18-19 may 1992-ci il. Laçın. Azərbaycan.** Erməni quldur birləşmələri "Daşnaksutyun" terror təşkilatının göstərişini yerinə yetirərək, ağır artilleriyanın köməyi ilə Azərbaycan Qarabağının dağlıq hissəsindən kənarda yerləşən Laçın rayonunu işğal etmişlər. Dinc əhali arasında çoxlu ölən və yaralanan vardır. İşğal nəticəsində 63341 azərbaycanlı doğma yerlərindən qovulmuşdur.

N.Ələkbərovanın tədqiqatlarına görə, erməni terrorçuları və quldur birləşmələri Laçın rayonu ərazisində Soltan Əhmədin və Həmzə Soltanın saraylarını, müqəddəs ocaqları, mağaraları - qədim insanın sakin olduğu yerləri, məzarları, kurqanları, tarixi abidə sayılan binaları məhv etmişlər. Milli ədəbiyyatın bircə-bircə toplanmış ən nadir nümunələrinin saxlandığı Laçın tarix-diyarşünaslıq muzeyinin çox zəngin fondları talanıb Yerevana aparılmışdır.[663]

**18-19 may 1992-ci il. Naxçıvan Muxtar Respublikası. Azərbaycan.** Erməni quldur birləşmələri Sədərək qəsəbəsini işğal etməyə növbəti cəhd göstərmişlər. Dinc əhali arasında ölənlər var.[664]

**21 may 1992-ci il. Paris. Fransa.** "Continental" otelində erməni alimi A.Aqanbekyan erməni icması nümayəndələrinin, ayrı-ayrı erməni terror təşkilatlarının üzvlərinin iştirakı ilə "Erməni millətinin azərbaycanlı millətinə qarşı ekoloji proqramı" adlı sənədin müzakirəsini keçirmişdir.

Sənədin şifrlənmiş və "A 214-1" adlanan bölməsində ekoloji terrorun aşağıdakı istiqamətləri nəzərdən keçirilir: a) Azərbaycan ərazisində kişilərin əsəb sisteminə təsir göstərən və onun iflicinə gətirib çıxaran tibb preparatlarının yayılması; b) orta və ali məktəblərdə təhsil alan qızlar və qadınlar arasında müəyyən (tibbi, ekoloji) tədbirlərin keçirilməsi; v) Azərbaycanda doğumun kütləvi surətdə aşağı düşməsinə səbəb olacaq (tibbi, ekoloji) tədbirlərin təşkili və həyata keçirilməsi. R.Novruzoğlunun verdiyi məlumata görə, bu müzakirə ilə azərbaycanlılara qarşı yönəlmiş ekoloji terror siyasətinin metodoloji əsasları qoyulmuşdur.[665]





**11 iyun 1992-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri Ağdərə rayonunun Nariştar kəndini və Ağdam rayonunun kəndlərini atəşə tutmuşlar. Dinc əhali arasında ölənlər var.[666]

**11-12 iyun 1992-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri Sədərək qəsəbəsini, Qazax, Tovuz, Kəlbəcər, Füzuli, Cəbrayıl rayonlarının yaşayış məntəqələrini artilleriya atəşinə tutmuşlar. Dinc əhali arasında çoxsaylı ölən var.[667]

**25 iyun 1992-ci il. Naxçıvan Muxtar Respublikası. Azərbaycan.** Erməni quldur birləşmələri Ermənistan ərazisindən Azərbaycanın qədim Ordubad şəhərini raket-artilleriya atəşinə tutmuşlar.[668]

**24 sentyabr 1992-ci il. Naxçıvan. Azərbaycan.** Erməni quldur birləşmələri Naxçıvanın yaşayış məntəqələrini artilleriya atəşinə tutmuşlar. Dinc əhali arasında ölənlər var.[669]

**Dekabr 1992-ci il. Azərbaycan.** Erməni quldur birləşmələri ağır artilleriyadan və "Qrad" sistemindən istifadə edərək, Azərbaycanın Zəngilan rayonunun 8 kəndini işğal etmişlər. Müxtəlif ərəb mənbələrinin məlumatına görə, Azərbaycan Respublikasının Qarabağ ərazisinin dağlıq hissəsində dinc əhaliyə qarşı terror əməliyyatlarında erməni yaraqlıları ilə yanaşı, Suriyadan olan muzdlular da iştirak etmişlər.

1992-ci ildə Qarabağın dağlıq hissəsində erməni terror qrupunun tərkibində döyüşmüş Şəhab əl-Qasım 1996-cı

ildә Dәmәşqdә oçerklәr kitabı dәrc etdirmişdir. Mәsәlәn, o yazır: "Dağlıq Qarabağda döyüşәnlәr arasında mәnim çoxlu tanışım var idi. Onlardan biri dә Henri Ayvazoviç Arustamyandır. O, mәnim diqqәtimi ona görә cәlb etdi ki, Dәmәşqdә ermәni azadlıq hәrәkatı üzvlәrindәn biri idi... Onun adı ASALA-nın fәxri siyahısına salınmışdır".[670]

**Dekabr 1992-ci il. Azәrbaycan.** Qarabağın dağlıq hissәsinin ermәni terror vә quldur birlәşmәlәri tәrәfindәn işğal olunmuş әrazilәrindә kimyәvi silah hazırlayan üç laboratoriya açılmışdır. Laboratoriyalardan biri - "DK-3" cürbәcür zәhәrli maddәlәr vә qazlar almaq üçün geniş istifadә edilәn pestisidlәr üzrә ixtisaslaşır. Ermәni terrorçuları ilk tәcrübәlәri әsir götürdüklәri azәrbaycanlı qadınlar üzәrindә aparırdılar. Bu barәdә çıxan yazılara görә, әsirlәr üzәrindә tәcrübәlәr nәticәsindә vәrәmin dörd növü aşkar olmuşdur. Bununla yanaşı, işğal olunmuş әrazilәrdә ekoloji terror hazırlamaq vә hәyata keçirmәklә mәşğul olan ermәni mütәxәssislәri mәxfi laboratoriyalar yaradırlar vә bunlarda zәhәrli "ERRİ-BAL" maddәlәri saxlanılır. Tәdqiqatçı R. Novruzoğlunun versiyasına görә, bu preparat kütlәvi kimyәvi qırğın silahının bir növü kimi, tәhlükәli xәstәliklәrin yaranmasına sәbәb olur vә 5 kilometrdәn 75 kilometrәdәk yayılır. Ekoloji terrorçular hazırlanması üzrә proqramın rәhbәri vәzifәsinә 1981-ci ilәdәk ABŞ-da yaşamış Karapet Qazaxyan tәyin edilmişdir. Laboratoriyalar şәbәkәsi yaradıldıqdan iki il sonra "İdeal" bülleteninin 6-cı nömrәsindә belә bir mәlumat peyda oldu: "Ermәnistan özünün hәrbi potensialının saxlanması vә güclәndirilmәsi sahәsindә böyük iş görmüşdür. Mәsәlәn, Beylәqan-Ağcabәdi istiqamәtindә tәcrübә sıqnaqları keçirildikdәn sonra biz yaxşı nәticәlәr aldıq..." Bu yazıda ermәni terrorçularının keçirdiklәri





tәcrübәlәrin nәticәlәri konkret göstәrilmәsә dә, "İdeal" bülletenindә qeyd olunmuş elә "Beylәqan-Ağcabәdi istiqamәtindә" azәrbaycanlılar yaşayan Qәhrәmanlı vә Şahsevәn kәndlәri sakinlәrinin sәhhәtinin vәziyyәtinә dair materiallarla tanış olduqdan sonra çox şey aydın olur. Adı çәkilәn tәdqiqatçının hәmin kәndlәrdәn gәtirdiyi statistika belәdir: uşaq ölümü halları 3,5 dәfә artmış, hamilә azәrbaycanlı qadınların hәr beş nәfәrindәn ikisi hәlak olmuşdur. Azәrbaycanın Ağcabәdi rayonunun Arazbarı vә Kürdlәr kәndlәrindә dә belә vәziyyәt müşahidә olunur.

Qarabağın dağlıq hissәsinin ermәni terrorçularının nәzarәti altında olan әrazilәrindә mәxfi laboratoriya tәcrübәlәri keçirilmәsi barәdә YUNESKO-nun Bioetika üzrә Beynәlxalq Komitәsinin 2001-ci il sentyabrın 12-dәn 14-dәk Parisdә keçirilmiş 8-ci sessiyasında deyilmişdir. Sentyabrın 12-dә, ABŞ-da terror aktlarının ertәsi günü YUNESKO-nun Bioetika üzrә Beynәlxalq Komitәsinin 8-ci sessiyasında Azәrbaycan nümayәndә heyәti professor R.Mustafayevin hazırladığı "Azәrbaycan nümayәndә heyәtinin YUNESKO-nun Bioetika üzrә Beynәlxalq Komitәsinin 8-ci sessiyasına tövsiyәlәri: bioetik tövsiyәlәr kontekstindә klassik Alqoritm" adlı sәnәdi paylamışdır. Bu sәnәdin 3-cü bәndindә deyilir: "...Söhbәt tәkcә hәrbi rejimlәrdәn yox, hәm dә xarici terror tәşkilatlarını açıq-aşkar dәstәklәyәn rejimlәrdәn dә gedir. İndi bu tәşkilatların maliyyәlәşdirilmәsi sxemindәn vә bir sıra transplantasiya klinikaları ilә әlaqәlәrindәn danışmaq istәmirәm. Zaqafqaziyada bütün dünya tәrәfindәn qәbul edilmiş yurisdiksiyalardan heç birinin, o cümlәdәn Avropa Şurasının yurisdiksiyasının işlәmәdiyi bütöv regionlar vardır. Hamı tәrәfindәn qәbul edilmiş yurisdiksiyalardan kәnarda qalmış vә terrorçuların nәzarәti altında olan kriminal dәhlizlәrin mövcudluğu, hәr hansı etik vә mәnәvi normalara

riayәt olunmaması bir yana, bәşәriyyәtin tәhlükәsizliyi üçün dә әn ciddi qorxudur. Mәsәlәn, Dağlıq Qarabağ, burada hakimiyyәtin demaqoqluq bayrağı altında kriminal dәhlizin sahiblәrinin nәzarәti altında olması bunu bir daha tәsdiq edir. Elә bir dәqiq formul müәyyәnlәşdirmәk zәruridir ki, ona әsasәn әn yeni texnologiyalar terror rejimlәri vә separatizm hәrәkatları ilә bir araya sığa bilmәsin. Terror rejimlәri şәraitindә klonlaşdırma praktikasının yayılması obyektiv olaraq ona gәtirib çıxaracaqdır ki, insan burada şәxsiyyәt kimi yox, manipulyasiya obyekti kimi nәzәrdәn keçirilә bilәr. ABŞ-da dünәnki terror aktları bu tezisi tәsdiq edir".[671]

**3 fevral 1993-cü il. Riqa. Latviya.** Ermәni terrorçuları "Latviyas Layks" qәzetinin redaktoru, tanınmış jurnalist Tatyana Çaladzeyә sui-qәsd etmişlәr. T.Çaladze 90-cı illәrin әvvәllәrindә Rusiyada Latviya Xalq Cәbhәsinin qәzetinin vә "Azad Avropa" radiosunun xüsusi müxbiri işlәmişdir. 1991-ci ildә o, Almaniyada beynәlxalq müsabiqәdә öz ölkәsinin әn yaxşı jurnalisti adını almışdır. T.Çaladze ermәni terror tәşkilatlarının cinayәtlәri haqqında mәsәlә qaldırmış ilk xarici jurnalistlәrdәn biridir. 1993-cü il fevralın 3-ü jurnalistin özünün yaddaşında belә qalmışdır: "Mәnim hәlә redaktor olduğum "Latviyas Layks" qәzeti cümә axşamları çıxırdı. Әgәr Riqala olurdumsa, hәr çәrşәnbә günü, onun buraxılışına nәzarәt etmәli, yәni bütün texnoloji prosesi izlәmәli vә müәyyәn problemlәr meydana çıxdığı halda onları hәll etmәli idim. Qәzetin maketi axşam saat sәkkizdә hazır olurdu vә yalnız bundan sonra onu çap üçün mәtbәәyә vermәk olardı, maket mәtbәәyә daxil olana qәdәr mәn öz yerimdә, redaksiyada olmalı idim. Elә hәmin gün, fevralın 3-dә dә belә oldu. Tәxminәn axşam saat altıda sürücümü çağırdım vә ondan





kafeyә gedib hamburger almağı xahiş etdim. O gedәndәn sonra yadıma düşdü ki, mineral su almağı demәdim. Küçәyә çıxdım, gördüm ki, Pyotr (sürücü - **red.**) tini dönür. Elә onu çağırmaq istәyirdim ki, kimin isә yanımda söyüş söydüyünü eşitdim. Arxaya döndüm - әyinlәrinә tünd rәngli qısa gödәkçә geymiş, toxunma papaqlarını gözlәrinin üstünәdәk çәkmiş iki cavan oğlan dayanmışdı. Mәnә mәlum olmayan dildә danışırdılar vә tәkәbbürlә sәslәnәn "Hayastan" sözünü (ermәnicә "Ermәnistan" demәkdir - **red.**) eşitdim. Ağzımı açıb, "mәnә deyilәsi sözünüz varsa, tәrcümә edin ki, başa düşüm" demәk istәyirdim ki, onlardan biri әlini cibindәn çıxarıb, mәnә tәrәf çevirdi. Parlaq işartı gördüm, sәs eşitmәdim. Lakin şüurәn başa düşdüm ki, mәnә atәş açırlar". Onu bilirdim ki, qaçıram. Özümü binanın girәcәyinә çatdırdım vә atәş sәsi eşitdim. T.Çaladzeni son anda sürücü xilas etdi. Yaxınlıqdakı evin sakinlәri polis çağırdılar vә onlar hadisә yerindә iki güllә tapdılar: onlardan biri binaya dәyib çovuyaraq minik avtomobilini zәdәlәmiş, ikincisi isә küçә qapısının yan taxtasına dәymişdi. T.Çaladzenin özü, Latviyadakı hәmkarlarının çoxu kimi, ermәni tәşkilatlarından biri tәrәfindәn törәdilmiş terror aktı versiyasını irәli sürür.[672]

**28 fevral 1993-cü il. Qudermes. Rusiya.** Ermәni terrorçuları Qudermes stansiyası yaxınlığında Kislovodsk-Bakı sәrnişin qatarını partlatmışlar. 11 adam hәlak olmuş vә 18 nәfәr yaralanmışdır.[673]

**27 mart-3 aprel 1993-cü il. Kәlbәcәr. Azәrbaycan.** "Daşnaksutyun" terror tәşkilatının ideoloji göstәrişini yerinә yetirәn ermәni quldur birlәşmәlәri Azәrbaycanın Qarabağ әrazisinin dağlıq hissәsinin hüdudlarından

kənarda yerləşən Kəlbəcər rayonunu işğal etmişlər. Nəticədə 60.698 azərbaycanlı daimi yaşayış yerlərindən qovulmuşdur. BMT Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Kəlbəcər rayonunda yaranmış vəziyyətlə əlaqədar 822 nömrəli Qətnamə (1993) qəbul etmişdir. BMT Təhlükəsizlik Şurası "...regionda, o cümlədən Kəlbəcər rayonunda çoxsaylı mülki şəxsin yerinin dəyişməsi və fövqəladə humanitar vəziyyətin yaranması ilə əlaqədar ciddi narahatlığını ifadə edərək; regionda bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət etdiyini bir daha təsdiq edərək; eləcə də beynəlxalq sərhədlərin pozulmazlığının və ərazi əldə etmək üçün güc tətbiq olunmasının yolverilməzliyini yenidən təsdiq edərək", Kəlbəcər rayonunun və Azərbaycanın digər rayonlarının dərhal azad olunmasını tələb etmişdir.

Kəlbəcər rayonunun erməni terror birləşmələri tərəfindən işğalı dövründə Əmrəliyeva Arzu Binnət qızı biryaşlı oğlu və bütün qohumları ilə bir yerdə əsir düşmüşdür. Saqqallılar əsirləri yük maşınlarına mindirmiş, maşınlarda yerləşdirilə bilməyən 19 nəfəri isə yerindəcə güllələmişlər. Həmin gün erməni başkəsənləri Arzunun gözü qabağında onun ərini, qardaşını, bacısını, baldızını, qayınatasını, qaynını, əmisi arvadını, kiçik yaşlı qohumlarını öldürmüşlər.

Şahidlərin dediyinə görə, Kəlbəcər rayonu işğal edilərkən, 1993-cü il martın 13-də bir neçə ailə erməni saqqallılarının əlinə keçməmək üçün "UAZ-69", "QAZ-52" və "KAMAZ" maşınlarında kənddən çıxarkən "tunel" deyilən yerdə gülləbaran edilmişdir: kişilər qətlə yetirilmiş, sağ qalmış 60-a yaxın qadın və uşaq əsir düşmüşdür. Onların taleyi məlum deyildir. İtkin düşənlərdən bəzilərinin adları:





Alışova Vəsilə Cəfər qızı, 1976-cı il təvəllüdlü;
Alışova Qumru Qəmbər qızı, 1973-cü il təvəllüdlü;
Alışova Cahan Məşədi qızı, 1937-ci il təvəllüdlü;
Cəmilova Məsmə Hidayət qızı, 1969-cu il təvəllüdlü;
Əliyev Tural Nadir oğlu, 1982-ci il təvəllüdlü;
Əliyeva Qənirə Zülfüqar qızı, 1975-ci il təvəllüdlü;
Əliyeva Nüşabə Məhəmməd qızı, 1950-ci il təvəllüdlü;
Quliyev Məzahir Qara oğlu, 1983-cü il təvəllüdlü;
Quliyev Yaşar Qara oğlu, 1981-ci il təvəllüdlü;
Quliyeva Aygün Qara qızı, 1990-cı il təvəllüdlü;
Zeynalov Hafiz Davud oğlu, 1984-cü il təvəllüdlü;
Zeynalova Təranə Davud qızı, 1965-ci il təvəllüdlü;
Zeynalova Röya Abbasəli qızı, 1959-cu il təvəllüdlü;
Zeynalova Qədəmkar Salman qızı, 1936-cı il təvəllüdlü;[674]

**Mart-aprel 1993-cü il. Kəlbəcər. Azərbaycan.** Cinayətkar "Qarabağ" təşkilatına daxil olan erməni terror və quldur birləşmələri Kəlbəcər rayonunu və şəhərini tamamilə işğal etmişlər. Dinc əhalinin kütləvi qırğını nəticəsində 511 adam həlak olmuş, 321 adam itkin düşmüş və əsir götürülmüş, mülki əhalidən 50 nəfər yaralanmışdır. Müxtəlif erməni terror və quldur birləşmələri tərəfindən öz doğma yerlərindən deportasiya olunmuş qaçqınların və məcburi köçkünlərin ümumi sayı 58340 nəfərdir. Qaçqınların etnik tərkibi: azərbaycanlılar və kürdlər - 57008, ruslar - 14, türklər - 45, tatarlar - 3, ukraynalılar - 9, ləzgilər - 9, yəhudilər - 4 nəfər. Onlardan 29336-sı qadın, 37044-ü 17 yaşınadək uşaq və yeniyetmə, 12506-sı pensiyaçıdır. Kərəmli, Çərəktar, Narınclar kəndləri, ümumiyyətlə, 129 kənd dağıdılmış və talan edilmişdir. Dörd tarixi abidə məhv olunmuşdur. İlkin hesablamalara görə, Kəlbəcər rayonuna 761 milyon ABŞ dolları məbləğində maddi ziyan vurulmuşdur.

Erməni quldur və terror birləşmələrinin kütləvi cinayətləri beynəlxalq mətbuatın diqqətindən kənarda qala bilməzdi. Latviyanın tanınmış jurnalisti, "Azad Avropa" radiosunun müxbiri Tatyana Çaladze deyir: "Kəlbəcər rayonunun işğal olunması iki tərəfdən başlandı: DQVM-dən və eyni vaxtda Azərbaycanın dövlət sərhədini pozmaqla Ermənistan ərazisindən. Bu sürətli əməliyyatlar nəticəsində mülki əhalinin taleyi faciəli oldu. Bütün vertolyot meydanları atəşə tutuldu, özlərini vertolyotlara çatdıran adamların isə bəxti gətirmədi: ermənilər onları elə göydə vurdular. Qaçqınlar üçün yalnız bir həyat yolu qalırdı ki, o da Murovdağdan keçirdi. Aşırım hələ qarla bağlanmışdı, amma insanlar gedirdilər. Onların başqa çıxış yolu yox idi. Bu binəvaları - qocaları, qadınları, uşaqları dəhşətli aqibət gözləyirdi. Şaxtadan donmuş qadınlar qucaqlarında uşaq, olan qalanlarını belinə şələləyib heydən düşmüş qocalar qara, dumana baxmadan irəliləyirdilər. Yaxşı ki, duman idi. O, ermənilərə adamları nişana almağa imkan vermirdi. Onda ermənilər aşırımın qabağını kəsməyə cəhd göstərdilər - onların iki T-72 tankı sol tərəfdən düz yola çıxdı. Ermənilər iriçaplı pulemyotlardan əliyalın insanları atəşə tutmağa başladılar. İkinci tank qülləsini çevirərək, mərmiləri aşırımda dayanıb qaçqınları gözləyən maşınların üstünə yağdırmağa başladı. Mərmilərdən biri düz qaçqınlarla dolu olan və artıq yerindən tərpənmiş yük maşınına düşdü... Sonra, qar əriyəndə ətrafda xeyli qadın, uşaq meyitləri tapıldı, çoxları güllə yarasından yox, sadəcə olaraq şaxtadan donub ölmüşdü. Axı onların əksəriyyəti ev paltarında idi..."[675]

**1 aprel 1993-cü il.** Erməni terror qrupu Azərbaycanın Kəlbəcər rayonundakı kurort qəsəbəsini - İstisuyu işğal edib





yandırmışdır. N.Ələkbərovanın tədqiqatlarına görə, erməni işğalçıları Kəlbəcər rayonunda Azərbaycan mədəniyyətinin uzun illər boyu toplanmış ən nadir məmulatlarının saxlandığı tarix-diyarşünaslıq muzeyinin çox zəngin fondlarını mənimsəmişlər. Təkcə Kəlbəcər muzeyində 30.000-dən artıq eksponat saxlanılırdı. 4000 yerli bitki növü nümunələri (o cümlədən 150-dən artıq dərman bitkisi), 10.000 ədəd müxtəlif rənglərə çalan daş, qədim dövrə aid olan müxtəlif eksponatlar, ilk növbədə bürüncdən hazırlanmış canavar və keçi totemləri, silah, kənd təsərrüfatı alətləri, qədim qab-qaşıq, tarixi sənədlər, sikkələr və əskinaslar, milli xalça sənətinin ən nadir nümunələri - fərşlər, kilimlər, şəddələr, cecimlər, vərnilər, duz kisələri, çullar və s. muzeydə xüsusi yer tuturdu. Burada Kəlbəcərin həmişə fəxr etdiyi, yaşı 100-ü ötüb keçmiş uzunömürlüləri barədə geniş məlumatlar toplanmışdı. Ən maraqlısı isə o idi ki, muzeyin xüsusi ayrılmış otaqlarında milli geyimdə olan manekenlər qədimdən bu diyarda geniş yayılmış xalq adət-ənənələrindən səhnələr "nümayiş etdirirdilər". Kəlbəcər muzeyi də erməni terrorizminin qurbanı oldu.

2001-ci ilin məlumatlarına görə, Kəlbəcər rayonu erməni terror təşkilatları tərəfindən mümkün bakterioloji silah kimi vərəm növlərinin hazırlanması poliqonuna çevrilmişdir. Tədqiqatçı R.Novruzoğlu bildirir ki, Yerevanda işlənib hazırlanmış "Plan-02"yə görə, işğal olunmuş Kəlbəcər rayonunda azərbaycanlı əsirlər üzərində vərəmin yeni növləri sınaqdan keçirilir, Ermənistanın Vardenis şəhərindəki vərəm dispanseri də bura köçürülmüşdür.[676]

**2 iyun 1993-cü il. Bakı. Azərbaycan.** Şəhər dəmir yol vağzalının ehtiyat yollarında dayanmış sərnişin qatarı partladılmışdır. Bu, Rusiya Federasiyasının vətəndaşı

Xatkovskinin törətdiyi növbəti terror aktıdır. Xatkovskinin ifadələrinə əsasən müəyyən edilmişdir ki, o, Ermənistan Respublikası MTBİ tərəfindən ələ alınmışdı. Onun Azərbaycana göndərilməsində podpolkovnik D.Oqanesyan və mayor A.Qaloyan, eləcə də Ermənistan xüsusi xidmət orqanları ilə əlaqədar olan Moskva sakinləri B.Simonyan və V.Petrosyan, MDB ərazisində fəaliyyət göstərən erməni terror təşkilatlarının digər üzvləri fəal iştirak etmişlər.[677]

**23-24 iyun 1993-cü il. Ağdam. Azərbaycan.** "Daşnaksutyun" terror təşkilatının tapşırığını yerinə yetirən erməni quldur birləşmələri Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən Ağdam rayonunu işğal etmişlər: 150.000 azərbaycanlı zor gücünə daimi yaşayış yerlərindən qovulmuşdur.

Aşağıda erməni terroru dəhşətlərini öz üzərində hiss etmiş insanların təəssüratları verilir.

Ağdam rayonunun sakini, milliyyətcə rus olan Şevelyov Vladimir İvanoviç deyir ki, işğal zamanı onun 89 yaşlı anası Vera Davidoviç, ahıl bacısı Svetlana İvanovna, eləcə də 58 yaşlı xəstə qardaşı qətlə yetirilmiş, sonra isə yandırılmışdır. Vladimir İvanoviçin dediyinə görə, Ağdam kanalının sahilində çoxlu qadın və uşaq meyitləri var idi. Onların çoxu eybəcər hala salınmışdı. Bu da məlumdur ki, erməni saqallıları yeddi ruhi xəstəni, o cümlədən iki qadını psixiatriya klinikasından çıxarıb, birini ölənədək döymüş, qalanlarını isə naməlum istiqamətə aparmışlar.

Erməni terror birləşmələri şəhərə soxulanda Ağdam rayonunun sakini Şirinova Şərqiyyə Rza qızı öz evində idi. Soyğunçular onun evini qarət etmiş, bütün pulları və qiymətli əşyaları götürüb aparmışlar. Qadının 70 yaşında olmasına baxmayaraq, erməni yaraqlıları ona işgəncələr





vermiş, kəlbətinlə dişlərini çıxarmışlar. Ermənilər ağrıdan huşunu itirmiş Şərqiyyəni döymüş və əsir götürmüş, sonra isə səkkiz ay ona ağır işgəncələr vermişlər.

Ağdam rayonunun erməni terrorçuları tərəfindən işğalı dövründə Əliyevlər ailəsindən 6 nəfər girov götürülmüşdür. Xaqani Əliyevin arvadı Könül və onların üç yaşlı oğlu Şövqi yaralanmışdır. Qan içində olan uşağa tibbi yardım göstərmək əvəzinə, erməni həkimi onun bazu sümüyünü vətəri ilə bir yerdə kəsib götürmüşdür (orqanı transplantasiya etmək məqsədi ilə). Uşaq ömürlük şikəst qalmışdır.[678]

**26-28 iyun 1993-cü il. Ağdərə. Azərbaycan.** Erməni quldur birləşmələri Azərbaycanın Ağdərə şəhərini işğal etmişlər. Dinc əhali arasında çoxsaylı ölən vardır.[679]

**24 iyul 1993-cü il. Ağdam. Azərbaycan.** Özlərini "Dağlıq Qarabağ Ordusu" (DQO) adlandıran erməni quldur və terror birləşmələri Azərbaycanın Ağdam şəhərini işğal etmişlər. DQO "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının "etnik cəhətdən təmiz zonalar" yaradılması ideoloji xəttinə dəqiq əməl edən terror birləşməsidir.

"Azadlıq" radiosunun 1993-cü il 25 iyul tarixi məlumatına görə, bəzi qərb dövlətləri, o cümlədən ABŞ hərbi əməliyyatları davam etdirdiklərinə görə erməni birləşmələrini pisləmişlər. N.Ələkbərovanın tədqiqatlarına görə, erməni terrorçuları və quldur birləşmələri Ağdamda keçmiş SSRİ-də yeganə olan çörək muzeyini, XVII-XVIII əsrlərə aid karvansaraları məhv etmiş, qədim alban kilsələrini erməniləşdirmişlər. 1993-cü il iyulun 29-da BMT Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının

Ağdam rayonunun erməni quldur və terror birləşmələri tərəfindən işğal olunması ilə əlaqədar 853 nömrəli (1993) Qətnamə qəbul etmişdir. Sənəddə deyilir: "... Azərbaycanın və regiondakı bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək; beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün zor tətbiq olunmasının yolverilməzliyini yenidən təsdiq edərək; 1) Ağdam rayonunun və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş bütün digər rayonlarının zəbt olunmasını pisləyir; həmçinin regionda bütün düşmənçilik hərəkətlərini, o cümlədən mülki vətəndaşlara hücumları və yaşayış məntəqələrinin bombardman edilməsini, artilleriya atəşinə tutulmasını pisləyir...". Daha sonra Qətnamədə Ağdam rayonunun və Azərbaycan Respublikasının digər rayonlarının qeyd-şərtsiz azad edilməsi tələbi öz əksini tapmışdır.[680]

**1 avqust 1993-cü il. Rusiya.** Şimali Osetiyanın Priqorodnı rayonunun Tarskoye kəndində terror aktı nəticəsində Azərbaycan Respublikasının DQMV üzrə təşkilat komitəsinin keçmiş üzvü V.P.Polyaniçko qətlə yetirilmişdir. Bu, rus zabitinə qarşı ikinci sui-qəsd idi; birincisi erməni terrorçuları tərəfindən 1991-ci il mayın 9-da Xankəndi şəhərində törədilmişdi.[681]

**11 avqust 1993-cü il. Azərbaycan.** DQO terror təşkilatından olan erməni yaraqlıları Füzuli və Cəbrayıl şəhərlərinə hücum etmişlər. Ölənlər arasında qadınlar, qocalar, uşaqlar vardır. Ermənistan Respublikasının erməni terror və quldur birləşmələri vasitəsilə həyata keçirdiyi təcavüz Azərbaycanın əzəli ərazilərinin işğal olunmasına gətirib çıxarmışdır. Azərbaycanın etnik və tarixi yaddaşını





məhv etmək kimi cinayətkar məqsədi yerinə yetirən erməni işğalı bu yerlərin mənən Azərbaycan xalqına məxsus olduğunu sübut edəcək nə varsa, hamısının müntəzəm və sistemli şəkildə məhv edilməsi ilə müşayiət olunurdu. Azərbaycanın mədəni dəyərlərinin dağıdılması və mənimsənilməsi ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin (parlamentinin) 2002-ci il aprelin 19-da qəbul etdiyi qərarda deyilir ki, Ermənistan Respublikasının Azərbaycan əhalisinə qarşı yeritdiyi soyqırım siyasəti, əzəli Azərbaycan ərazilərinin erməni silahlı və terror birləşmələri tərəfindən işğal edilməsi nəticəsində Azərbaycan Respublikası vətəndaşlarının hüquqları pozulmuş, onun 1 milyonu bu gün qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Erməni işğalı Azərbaycan mədəniyyətinə ciddi ziyan vurmuşdur: dünya və regional əhəmiyyətli 100.000-dən artıq mədəniyyət nümunəsi, o cümlədən 500 tarixi və 100-dən artıq arxeoloji abidə, 22 muzey və s. dağıdılmışdır. Ermənistan Respublikası "Silahlı münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni dəyərlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobud şəkildə pozaraq, əslində, Azərbaycanın mədəni irsini kütləvi şəkildə talan etməyə başlamışdır. Bəyanatda deyilir ki, musiqi, folklor məhsulu yaymaqla məşğul olan erməni kommersiya strukturları ("Karen-rekords", "Parseqyan-rekords", "ANİ-rekords", "Kazaryan-rekords" və b.) intellektual mülkiyyət normalarını açıq-aşkar pozur, Azərbaycan musiqi əsərlərini erməni mədəniyyətinin nümunələri kimi təqdim edirlər. Kütləvi terror və işğal siyasəti ona gətirib çıxarmışdır ki, ermənilər Azərbaycan xalqının etnoslarını - "Aşıq Qərib", "Koroğlu" və "Şah İsmayıl"ı, eləcə də "Tərəkəmə", "Vağzalı",

"Yallı", "Uzundərə" kimi məşhur Azərbaycan xalq rəqs nümunələrini, hətta Azərbaycan adlarını saxlayaraq, özlərinki elan etmişlər. Azərbaycan mədəniyyətinin mənimsənilməsi Üzeyir Hacıbəyovun və digər görkəmli Azərbaycan bəstəkarlarının yaradıcılığını məqsədəuyğun şəkildə özününküləşdirən Ermənistan Respublikasının işğalçı siyasətinin tərkib hissəsi olmuşdur.

Səciyyəvi haldır ki, xalqların mədəni və mənəvi dəyərlərinə bu cür qəsd terror təşkilatlarının erməni ideoloqları tərəfindən təkcə Azərbaycana qarşı edilmir. Görkəmli alim B.İ.Piatrovski səviyyəsiz nəzəriyyələr axınını dayandırmaq üçün erməni "tarixçisi" L.Ayvazyanı kəskin tənqid etmişdir. Belə ki, tədqiqatçı V.Quliyevin yazdığına görə, "Ayvazyanın siyahısında" bəşəriyyətin ən mühüm kəşfləri - ermənilərin adına yazılmışdır: "... riyazi biliklərin inkişafı, məsələn, "Pifaqor teoremi"nin kəşfi; Ayın sirlərinin açılması - fazaların yaranması və tutulmaların meydana gəlməsi sistemləri; dünyanın bütün əlifbalarının əsasını təşkil edən ilk saitsiz heroqlif əlifbasının yaradılması; xalçaçılığın inkişafı və xalça dəzgahının yaradılması; atın əhliləşdirilməsi və arabanın yaradılması; milləri olan təkərin icad edilməsi; bürclərə və ilk növbədə Zodiak bürclərinə adların verilməsi; onluq say sisteminin yaradılması və sıfırın kəşfi; "Kainatın modeli"nin - Günəşin, Yerin, Ayın vahid mərkəz ətrafında yaranan planetlərin modelinin qurulması; mineral maddələrdən və bitkilərdən dərman preparatları alınması; buğdanın, arpanın, üzümün, narın, əriyin və s. becərilməsi; şifahi xalq yaradıcılığının inkişafı və dastanların yaradılması..."[682]

**23 avqust 1993-cü il. Füzuli. Azərbaycan.** DQO erməni terror təşkilatının müasir silahlarla təchiz olunmuş





quldur birləşmələri Azərbaycanın Qarabağ ərazisinin dağlıq hissəsinin hüdudlarından kənarda olan Füzuli rayonunu zəbt etmişlər. Nəticədə 152.860 azərbaycanlı zor gücünə daimi yaşayış yerlərindən qovulmuşdur. Erməni terror rejiminin həyata keçirdiyi "etnik təmizləmə" siyasəti demokratik Rusiya cəmiyyətini həyəcanlandırmış və hiddətləndirmişdir. Məsələn, V.A.Kolosovun və A.İ.Treyvişin "Siyasi tədqiqatlar" jurnalında dərc olunmuş məqaləsində deyilir: "... Yeni müstəqil dövlətlər arasında Ermənistan yeganə dövlətdir ki, 1988-1989-cu illərdə azərbaycanlıları zor gücünə köçürəndən sonra və təkcə 1993-cü ildə yaxın və uzaq xaricə mühacirət nəticəsində 300 min nəfəri itirdiyi nəzərə alınarsa, demək olar, monomilli ölkəyə çevrilmişdir. Lakin bu "nailiyyət" erməni xalqına baha başa gəlmişdir və o, gələcəkdə bu prosesin nəticələrini hiss edəcəkdir".[683]

**25-26 avqust 1993-cü il. Cəbrayıl. Azərbaycan.** DQO-nun nəzarəti altında olan erməni terror və quldur birləşmələri Azərbaycanın Qarabağ ərazisinin hüdudlarından kənarda olan Cəbrayıl rayonunu ağır artilleriyadan atəşə tutmuş və zəbt etmişlər. Nəticədə 57.125 azərbaycanlı zor gücünə daimi yaşayış yerlərindən qovulmuşdur. Dinc əhali arasında ölənlər var. Heç nəyə baxmayaraq, kəndlərində qalmış qocalar vəhşicəsinə qətlə yetirilmişlər.[684]

**31 avqust 1993-cü il. Qubadlı. Azərbaycan.** DQO-nun nəzarət etdiyi erməni terror və quldur birləşmələri Azərbaycanın Qarabağ ərazisinin dağlıq hissəsinin hüdudlarından kənarda olan Qubadlı rayonunu işğal etmişlər. Mütəmadi artilleriya atəşi, eləcə də ən yeni hərbi texnika ilə aramsız hücumlar nəticəsində 31.364 azərbaycanlı, kürd,

rus zor gücünə daimi yaşayış yerlərindən qovulmuşdur. Erməni terrorunun qurbanları arasında qadınlar, qocalar, uşaqlar vardır.

Jurnalist T. Çaladze yazırdı: "Eyni vaxtda iki rayondan -- Qubadlı və Cəbrayıl rayonlarından yüz minə yaxın qaçqın respublikaya üz tutmuşdur. Bundan əvvəl isə Ermənistandan, Kəlbəcər, Laçın, Ağdam, Füzuli rayonlarından, Şuşadan və Dağlıq Qarabağın digər yaşayış məntəqələrindən qovulmuş yeddi yüz mindən artıq qaçqın vardı. "Daşnaksutyun" terror təşkilatının "etnik cəhətdən təmiz zonalar" yaradılması proqramına uyğun olaraq fəaliyyət göstərən erməni quldur birləşmələrinin misli görünməmiş qanlı cinayətləri nəticəsində bir milyona yaxın azərbaycanlı öz vətənində qaçqın olmuşdur. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev belə siyasətə etiraz əlaməti olaraq, 1999-cu il noyabrın 18-də İstanbulda Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının zirvə toplantısında çıxış edərək demişdir: "İki dağıdıcı müharibənin dəhşətlərindən və "soyuq müharibə"nin sərt sınağından çıxmış iyirminci yüzilliyin sonunda Avropa qarşısında həqiqi sülh və sabitlik yolu açılmışdır. Lakin biz təxminən iyirmi beş il bundan əvvəl Helsinkidə elan edilmiş məqsəd və prinsiplərin tam həyata keçirilməsinə, təəssüf ki, hələ də nail olmamışıq. ATƏT-in üzvü olan dövlətlərin suverenliyi, ərazi bütövlüyü və ümumiyyətlə təhlükəsizliyi üçün yaranmış qorxu amansız reallığa çevrilmişdir, milyonlarla insana fəlakət və iztirab gətirmişdir. Mən bir daha beynəlxalq birliyin diqqətini Azərbaycanın düşdüyü dözülməz vəziyyətə cəlb edirəm. Altı ildən çoxdur ki, suveren Azərbaycanın ərazisinin beşdə bir hissəsi erməni silahlı qüvvələrinin işğalı altındadır. Həyata keçirilmiş etnik təmizləmələr nəticəsində bir milyon azərbaycanlı öz doğma yurd-yuvalarından qovulmuşdur".





Akademiklər C.Əliyev və B.Budaqov yazırlar ki, işğal olunmuş ərazilərdə "... nə bir azərbaycanlı, nə də kürd qalmışdır. Hətta bir slavyan ailəsi də yoxdur. Bu raoynların bütün sakinləri, onlar isə yüz minlərlə idi, ya erməni terrorçuları tərəfindən məhv edilmiş, ya da öz evlərindən respublikanın digər rayonlarına qovulmuşlar. İndi sağ qalanlar - qadınlar, uşaqlar, qocalar, əlillər artıq neçə illərdir ki, çadır şəhərciklərində, sərnişin vaqonlarında yaşayırlar. İnsanlar neçə illərdir ki, işdən, yaşayış vasitələrindən, tibbi xidmətdən məhrum olmuşlar, dövlətin cüzi müavinətilə birtəhər yaşayırlar. Onların uşaqları məktəbə getmir, yəni normal uşaqlıqdan məhrum olmuşlar... Bütün bunlar da qədim mədəniyyətə və sivilizasiyaya malik olduğunu hər yerdə aləmə car çəkən Ermənistanın günahı ucbatından baş vermişdir".[685]

**23 oktyabr 1993-cü il. Füzuli. Azərbaycan.** "Daşnaksutyun" təşkilatının ideologiyasına uyğun fəaliyyət göstərən DQO-nun erməni terror və quldar birləşmələri mühüm nəqliyyat qovşağını - Azərbaycanın Horadiz şəhərini işğal etmişlər. Ölənlər arasında uşaqlar, qadınlar var.[686]

**Oktyabr 1993-cü il. Azərbaycan.** ABŞ Dövlət Departamentinin təqdim etdiyi 2001-ci il 30 mart tarixli "Arayış: Dağlıq Qarabağ münaqişəsinin tarixi" adlı sənəddə deyilir ki, "... 1993-cü ilin oktyabr ayınadək Ermənistan-Qarabağ qoşunları son nəticədə, demək olar ki, bütün Dağlıq Qarabağı, Laçını və Azərbaycanın cənub-qərbindəki iri rayonları işğal edə bilmişlər. Ermənistan və

Qarabağ qoşunları irәlilәdikcә yüz minlәrlә azәrbaycanlı respublikanın başqa rayonlarına qaçmışdır. 1993-cü ildә BMT Tәhlükәsizlik Şurası hәrbi әmәliyyatların dayandırılması, beynәlxalq tәşkilatların nümayәndәlәrinә maneәsiz humanitar yardım göstәrmәk vә son nәticәdә vilayәtdә sülhmәramlı qüvvәlәr yerlәşdirmәk imkanı verilmәsi çağırışı әks olunmuş Qәtnamә qәbul etmişdir. BMT eyni zamanda etnik ermәnilәrdәn ibarәt olan bütün qoşunların Azәrbaycanın işğal olunmuş әrazilәrindәn dәrhal çıxarılmasına çağırmışdır.[687]

**Oktyabrın sonu 1993-cü il. Zәngilan. Azәrbaycan.** Ermәni quldur birlәşmәlәri "müvәqqәti barışıqdan" istifadә edәrәk, Azәrbaycanın Zәngilan rayonuna lap yaxınlaşdılar. "Daşnaksutyun" beynәlxalq terror tәşkilatı öz bölmәlәrinin әn müasir silahla tәchiz olunması qayğısına qalmışdı: tanklar, ZTR-lәr, vertolyotlar, artilleriya - bütün bunlar hәrbi texnikanın "son sözünün" nümunәlәri idi. "Daşnaksutyun"un liderlәri öz qoşunlarının "keyfiyyәtinin" dә qayğısına qalmışdılar. "Diyena" qәzeti yazırdı ki, "Dağlıq Qarabağda hәtta on üç ölkәdә terrorizmә görә mәhkum olunmuş livanlılar da döyüşürlәr".

Zәngilan rayonuna eyni vaxtda hәm işğal olunmuş Qubadlı vә Cәbrayıl rayonlarından, hәm dә Azәrbaycanın dövlәt sәrhәdini pozmaqla Ermәnistandan hücum edilmişdir. Artilleriya atәşindәn sonra ermәni quldur birlәşmәlәri hәrbi texnika ilә Azәrbaycanın bu rayonuna soxulmuşlar. Jurnalist T. Çaladze yazırdı: "Yüz minә yaxın dinc sakin dәlicәsinә vurnuxur, xilas olmağa yol axtarırdı. Yol isә yeganә idi: Araz çayı vasitәsilә İrana. İti axan çayı keçmәk, әslindә, qeyri-mümkün idi. Hadisәlәr sürәtlә cәrәyan edirdi, rayonun





bütün kişi әhalisi, yeniyetmәlәr vә qocalar özünü çaya atan qadınları, uşaqları qorumaq üçün özünümüdafiә qüvvәlәri yaratmışdılar. Qırx mindәn bir qәdәr artıq adam xilas ola bildi. Qalanları әsir düşdülәr vә hәlak oldular. Noyabrın 1-dәk hәr şey bitdi... " DQO-nun ermәni quldur vә terror birlәşmәlәri Azәrbaycanın Qarabağ әrazisinin dağlıq hissәsinin hüdudlarından kәnarda olan Zәngilan rayonunu uzun müddәt mühasirәdә saxladıqdan sonra işğal etdilәr. BMT Tәhlükәsizlik Şurası 1993-cü il noyabrın 12-dә 884 nömrәli Qәtnamә qәbul etdi vә Azәrbaycan Respublikasının Zәngilan rayonunun, Horadiz şәhәrinin işğalını vә ermәni quldur birlәşmәlәrinin dinc sakinlәrә hücumunu pislәdi. 34924 dinc sakin zor gücünә daimi yaşayış yerlәrindәn qovuldu. Qaçqınlar arasında müxtәlif millәtlәrin vә etnik qrupların nümayәndәlәri var idi.[688]

**Noyabr 1993-cü il.** "Newsweek" qәzeti yazırdı ki, son yarım il әrzindә ermәni silahlı dәstәlәri Azәrbaycanın yeni rayonlarını işğal etmişlәr. Güclü ermәni diasporunun Vaşinqtondakı dostları çaşqınlıq içindә idilәr. Dövlәt Departamentinin yüksәkvәzifәli bir nümayәndәsi demişdir: "İndi bizim gördüklәrimiz - qabaqlarına çıxan hәr bir kәndin ucdantutma dağıdılması - vandalizmdir". Ermәni quldur vә terror birlәşmәlәrinin vandalizmi vә dinc әhalini kütlәvi surәtdә qırması faktları Azәrbaycan Respublikasının Prezidenti Heydәr Әliyevin azәrbaycanlıların soyqırımı haqqında 1998-ci il 26 mart Fәrmanında xüsusi qeyd olunur: "Millәtçi-separatçı ermәnilәrin Dağlıq Qarabağda başladığı avantürist hәrәkәtin nәticәsi olaraq, bu gün bir milyondan artıq soydaşımız ermәni qәsbkarları tәrәfindәn öz doğma yurd-yuvalarından didәrgin salınmış, çadırlarda yaşamağa

məhkum edilmişdir. Ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid olmuş, xəsarət almışdır. Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir."

Akademiklər C.Əliyevin və B.Budaqovun araşdırmalarına görə, "... Azərbaycanın işğal olunmuş rayonlarının minlərlə yaşayış məntəqəsində bu gün hətta evlər də qalmamışdır. Hər şey dağıdılmış, uçurulmuş, talan edilmişdir. Sözün əsl mənasında, hər şey! Azərbaycanlıların həyətlərindən hətta evlərin tirlərini, dirəklərini, damlarını, pəncərə çərçivələrini, qapıları, darvazaları, hasarların taxtalarını -- hər şeyi söküb aparmışlar. Misli görünməmiş total vandilizm, özü də belə böyük ərazidə! Ölü zona. XX əsrin sonunda ermənilərin yaratdığı Zaqafqaziya Çernobılı. Bu azmış kimi, Qafan rayonu ərazisində, Azərbaycan ərazisi yaxınlığında atom elektrik stansiyası tullantılarının zibilxanasını saldılar. Erməni terrorçuları işğal etdikləri rayonlarda əsrlərlə yaşı olan ağacları, Bəsitçay qoruğundakı çinar ağaclarını vəhşicəsinə qırırlar, tərkibində narkotik maddələr olan bitkilər - narkotik vasitələr istehsal etmək üçün xammal olan bitkilər yetişdirirlər. Erməni terrorçuları Qubadlı rayonundakı molibden yataqlarından istifadə edərək, ətraf mühiti radioaktiv tullantılarla çirkləndirirlər.[689]

**11 dekabr 1993-cü il. Bağdad. İraq.** Erməni terrorçuları Türkiyə səfirliyinin attaşesi Çağdar Yuçeli qətlə yetirmişlər.[690]





**Dekabr 1993-cü il. Alagöz. Ermənistan.** Məhz burada Ermənistan Respublikasının rəsmi qurumlarının icazəsi ilə "Kürdüstan Xalqlarının Azadlıq Ordusu" (KXAO) beynəlxalq terror təşkilatı yaranmağa başlamışdır. KXAO-ya etnik ermənilərlə yanaşı, artıq Türkiyədə terror əməliyyatlarında iştirak etmiş və "Dağlıq Qarabağda təcrübə keçmiş" gənc kürdlər də daxil olmuşlar. Vaşinqtondakı Beynəlxalq Tədqiqatlar İnstitutunun materiallarına görə, sonradan Ermənistanda, eləcə də Qarabağın dağlıq hissəsinin erməni terror təşkilatlarının nəzarəti altında olan ərazilərində PKK-dan olan kürd terrorçularının hazırlığı üzrə 21 mərkəz yaradılacaqdır: özü də onların 600-ü Ermənistan silahlı qüvvələrində xidmət edəcək. Təbiidir ki, "Daşnaksutyun"un erməni təşviqatçıları 1886-cı ildə "Hnçaq"dan başlayaraq, erməni terror təşkilatlarının başlıca şüarı olan "istənilən şəraitlərdə türkləri və kürdləri qırmaq" şüarını hər vasitə ilə kürdlərdən gizlədirlər. Məsələn, erməni yaraqlılarının Gorus kəndlərində dinc kürd əhalisini qırıb-çatması faktı gizli saxlanılır. I piyada polkunun praporşiki Karaşarovun raportunda deyilir ki, erməni cəlladı Andronikin və onun dəstələrinin kürdlərə qarşı qeyri-insani cinayətlərini təsvir etmək mümkün deyildir.[691]

**1 fevral 1994-cü il. Bakı. Azərbaycan.** Erməni terrorçuları Bakı dəmir yol vağzalında Kislovodsk-Bakı sərnişin qatarını partlatmışlar. 3 nəfər həlak olmuş, 20-dən artıq adam yaralanmışdır.[692]

**9 fevral 1994-cü il. Azərbaycan.** Erməni terrorçuları Xudat stansiyasında sərnişin vaqonunu partlatmışlar.[693]

**17 mart 1994-cü il.** Erməni terrorçuları Azərbaycanın hava məkanında, DQO-da olan erməni terror və quldur birləşmələri tərəfindən işğal olunmuş ərazilər üzərində İranın S-130 nəqliyyat təyyarəsini vurmuşlar. Nəticədə İran İslam Respublikasının 32 vətəndaşı həlak olmuşdur.[694]

**18 mart 1994-cü il. Xankəndi. Azərbaycan.** Erməni terrorçuları Xankəndi şəhəri yaxınlığında İran Hərbi Hava Qüvvələrinin içərisində diplomatların və onların ailə üzvlərinin olduqları "Herkules" təyyarəsini vurmuşlar. 34 nəfər həlak olmuşdur.

Erməni Ümummilli Hərəkatı sədrinin müavini A.Ovakimyan Ermənistanda daxili siyasi vəziyyəti xarakterizə edərək, "hakimiyyətsizlik, anarxiya şəraitində terror aktlarının labüdlüyünün təəccüb doğurmadığını bildirmişdir. O həmçinin demişdir ki, "ölkədə dözümsüzlük, kinküdurət və nifrət əhval-ruhiyyəsi yaradılmışdır".[695]

**19 mart 1994-cü il. Bakı. Azərbaycan.** Erməni terrorçuları Bakı metrosunun "20 yanvar" stansiyasında qatarı partlatmışlar. 14 adam həlak olmuş və 42 nəfər yaralanmışdır. İstintaq bu terror aktında onu maliyyələşdirmiş və təşkil etmiş Ermənistan xüsusi xidmət orqanlarının əli olduğunu sübut etmişdir.[696]

**13 aprel 1994-cü il. Dağıstan. Rusiya.** Deqestanskiye oqni stansiyasında Moskva-Bakı sərnişin qatarı partladılmışdır. 6 adam həlak olmuş və 3 nəfər yaralanmışdır. İstintaq bu qanlı cinayətdə erməni terrorçularının əli olduğunu təsdiq etmişdir. Hollandiya jurnalisti Çarlz Van Der Leunun yazdığına görə, 1994-1995-ci illərdə Rostov-Bakı marşrutu





ilə hərəkət edən qatarlarda partlayışlara görə ASALA erməni terror təşkilatı (o dövrdə tez-tez "VREJ" adı ilə fəaliyyət göstərən) məsuliyyət daşıyır.[697]

**4 iyun 1994-cü il. Afina. Yunanıstan.** Erməni terrorçuları Türkiyə səfirliyinin diplomatı Xalıq Sipahoğlunu qətlə yetirmişlər.[698]

**3 iyul 1994-cü il. Bakı. Azərbaycan.** Bakı metropoliteninin "28 may" və "Gənclik" stansiyaları arasında qatar partladılmışdır. 14 adam həlak olmuş, 54 nəfər isə yaralanmışdır. Erməni xüsusi xidmət orqanları tərəfindən dəstəklənən erməni terror təşkilatları cinayəti həyata keçirmək üçün anasını girov götürərək, bu qanlı terror aktını törətməyə məcbur etdikləri hərbi əsirdən istifadə etmişlər.[699]

**24 dekabr 1994-cü il. Yerevan. Ermənistan.** Son dərəcə ağır siyasi böhran şəraitində Ermənistan rəhbərliyi "Daşnaksutyun"da gizli terror xidmətinin olduğunu etiraf etmiş və bildirmişdir ki, Ermənistan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsinin sabiq sədri Marius Yüzbaşyanın öldürülməsinə görə bu xidmət məsuliyyət daşıyır.[700]

**25 dekabr 1994-cü il. Yerevan. Ermənistan.** "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının üzvü Mikael Manukyan Yerevanın keçmiş meri Ambarsum Qalstyanın qətlində ittiham olunmuşdur. "Daşnaksutyun" erməni terror təşkilatının xüsusi xidmətlərinin beynəlxalq narkobiznesdə iştirakı faktının Ermənistanın siyasi liderləri tərəfindən etiraf edilməsi də bu dövrə təsadüf edir.[701]

**Sentyabr 1996-cı il. Axalkalaki. Gürcüstan.** Əsas etibarilə Gürcüstanın Cavaxeti rayonunda fəaliyyət göstərən "Fədainlər" erməni terror təşkilatının yaraqlıları Axalkalaki şəhərinin meri, demokratik baxışları ilə tanınmış Sergey Darbinyanı vəhşicəsinə döymüşlər. Bu, gürcüstanlı erməniləri burada özünün "Cavaxk" adlı bölməsini təsis etmiş "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının xəttinə riayət etməyə çağıran növbəti xəbərdarlıq idi. Məqsəd isə Gürcüstanın cənubunda sonradan Ermənistana birləşdiriləcək muxtariyyət yaratmaqdır. Gürcüstanda çıxan nüfuzlu "Dilis qazeti" bir müddət sonra yazırdı ki, Cavaxetiyada vəziyyət Gürcüstanın ərazi bütövlüyünə təhlükə törədir. Qəzet öz hərbi potensialını gücləndirən Ermənistanın hərbi müdaxiləsini də istisna etmirdi. Ermənistanın iqtisadiyyatı ağır vəziyyətdə olsa da, hərbi xərclər ilbəil artırılır. 1990-cı ilin büdcəsində hərbi xərclərə 79 milyon dollar ayırmaq nəzərdə tutulduğu halda, 2000-ci ildə bu rəqəm 92 milyon, 2001-ci ildə isə 102 milyon dollar olmuşdur. Müqayisə üçün qeyd edək ki, 2001-ci ilin büdcəsinə görə Gürcüstan ordusunun xərcləri 17 milyon dollar təşkil etmişdi. Qəzet bundan təşvişə düşmüşdür ki, bədnam ASALA erməni terror təşkilatının döyüşçüləri Cavaxetiyada özlərini sərbəst hiss edirlər. Yazıda həm də digər erməni terror qrupunun - "Parvents"in adı çəkilir.

Ermənistan rəhbərliyinin Fransa prezidentinə bu ölkənin "Orli" hava limanında partlayışa görə məsuliyyət daşıyan terrorçu Varocan Qarabedyanın işinə yenidən baxılması xahişi ilə müraciəti də həmin dövrə təsadüf edir. V.Qarabedyan azad edildikdən sonra, Yerevanda onu milli qəhrəman kimi qarşıladılar, Ermənistanın baş naziri və respublikanın digər rəsmi şəxsləri isə terrorçunun





Fransadakı cinayətkar fəaliyyətini "vətənpərvərlik" kimi qiymətləndirdilər.[702]

**27 oktyabr 1999-cu il. Ermənistan.** Hüquq müdafiəçisi P.Ayrikyan yazır: "1999-cu il oktyabrın 27-də Ermənistan parlamentində terror aktı törədilmiş - doqquz nəfər qətlə yetirilmişdir. Ermənistan Xalq Partiyasının (EXP) rəhbəri K.Dəmirçyan da onların arasında idi. Dəmirçyanın oğlu terrorçuların Ermənistan hökuməti tərəfindən dəstəkləndiyini bildirmişdir. O, mətbuat üçün bəyanat verərək demişdir: "Oktyabrın 27-də baş vermiş cinayətlə bağlı hər şey aydınlaşmamışdır. Yalnız bir şey aydındır: respublika hökuməti, əslində, terrorçulara havadarlıq edir." Bir sıra başqa faktlar da onun dediklərini təsdiqləyir. Ermənistanda erməni terror təşkilatlarının üzvlərinə bəraət qazandırılması prosesi gedir. Belə ki, erməni terrorçusu, İran vətəndaşı Qrant Markaryan vaxtından əvvəl bəraət qazanmış və həbsdən azad edilmişdir. "Daşnaksutyun"un büro üzvü olan Q. Markaryan 1991-ci ildə saxta sənədlərlə Ermənistandan Qarabağa göndərilmişdir. Digər terrorçular - Monte Melkonyan və Vazgen Sisiyanla bir yerdə o da Robert Koçaryanın təşəbbüsü ilə "Qarabağ müharibəsinin qəhrəmanı" adına layiq görülmüşdür. Yuxarıda deyildiyi kimi, V.Sisiyan Parisdə terror aktlarının fəal iştirakçısıdır. Burada 60 qadını və uşağı girov götürməkdə, Budapeştdə isə səfirə sui-qəsddə fərqlənmişdir. Erməni terrorçularının Xocalıda törətdikləri qanlı cinayətlərdə o bilavasitə iştirak etmişdir. ABŞ vətəndaşı, Parisdə törətdiyi terror aktlarına görə cəzasını çəkmiş M.Melkonyana gəldikdə isə, o da Azərbaycan Qarabağının dağlıq hissəsində dinc əhalinin kütləvi qırğınlarının təşkilatçılarından və iştirakçılarından biridir. Ermənistan prezidenti R.Koçaryanın təşəbbüsü ilə

"Daşnaksutyun"un fəal üzvü, "Dro" təşkilatında terror fəaliyyətinə görə 1996-cı ildə həbs olunmuş Vahan Ohanesyan Yerevan həbsxanasından buraxılmışdır. Vahan Ohanesyan Ermənistan Respublikası Prezidentinin müşaviri təyin olunmuşdur. Bu və digər faktlar belə deməyə əsas verir ki, R.Koçaryan "dövlət müdafiə komitəsinin sədri" olarkən erməni terror və quldur təşkilatlarının cinayətkar fəaliyyətində iştirak etmiş adamlarla bilavasitə əlaqədar olmuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının İnsan Hüquqları İnstitutunun Ekspert Şurası "Terrorizm Ermənistan Respublikasının dövlət siyasətinin tərkib hissəsi kimi" mövzusunu (məruzəçi K.Səlimova) tədqiq edərək, öz tövsiyələrində vəziyyəti belə səciyyələndirmişdir: "Dağlıq Qarabağ münaqişəsi 12 ildən çoxdur ki, davam edir. Azərbaycan Respublikası, əslində, öz ərazilərinin 20 faizində konstitusion hakimiyyətini itirmişdir. Bu ərazilər separatçı hərəkətlər nəticəsində Dağlıq Qarabağın (DQ) qeyri-qanuni birləşmələrinin və Ermənistanın silahlı qüvvələrinin nəzarəti altındadır. Qondarma "DQ respublikasının" nümayəndələri Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində və onun hüdudlarından kənarda Ermənistanın nizami qoşunlarının olmadığını rəsmən bəyan edirlər. Bundan əlavə, onlar münaqişədə Dağlıq Qarabağ Ordusu (DQO) deyilən silahlı qüvvələrin iştirak etməsi faktını təsdiq edirlər. Ermənistan bütün diplomatik forumlarda və dövlət başçılarının görüşlərində, kütləvi informasiya vasitələrində və s. öz ordusunun Dağlıq Qarabağda birbaşa iştirak etməsi faktını rəsmən inkar edir. Azərbaycanı və Ermənistanı Avropa Şurasına qəbul edərkən prezident R. Koçaryan öz sələfinin mövqeyini təkrar etmişdir: Azərbaycan ərazisində Ermənistanın





nizami qoşunları yoxdur. Daha sonra bəyan etmişdir ki, DQ Azərbaycanın daxili problemidir. Əgər belədirsə, DQ-da Ermənistanın qoşun birləşmələrindən başqa, hansı qüvvələr silahlı mübarizə aparır?

Azərbaycan belə bir fakta da göz yuma bilməz ki, DQ erməniləri DQO adlanan silahlı birləşmələrdə iştirak edirlər. Azərbaycan öz vətəndaşlarına - bütün millətlərin nümayəndələrinə hörmətlə yanaşır, lakin eyni zamanda DQ-nın həm azərbaycanlı, həm də erməni millətindən olan dinc sakinlərini müdafiə etmək üçün hər cür terror təşkilatları ilə barışmaz mübarizə aparmalıdır. Bu problemi daha ətraflı araşdıraq. Münaqişənin müxtəlif dövrlərində ekspertlər erməni silahlı dəstələrini, yaraqlıların quldur birləşmələri tək cinayətkar ünsürləri milli separatçılar kimi qiymətləndirirdilər. Erməni tərəfi isə BMT Nizamnaməsinin 1-ci maddəsinin bəndinə istinad edərək, elə həmin qrupları hər dəfə Dağlıq Qarabağın öz müqəddəratını təyin etmək və milli müstəqillik hüququ uğrunda mübarizə aparan milli azadlıq hərəkatının iştirakçıları adlandırırdı. Ermənistan həmçinin Azərbaycan ərazisində silahlı əməliyyatlarda birbaşa iştirakını inkar etsə də, DQO-ya kömək etdiyini danmır. Milli separatizmin erməni liderləri və onun ideoloqları öz cinayətkar əməllərinə bəraət qazandırmaq üçün DQ-da terrorçuların fəaliyyətini milli azadlıq aktları kimi təqdim etməyə cəhd göstərirlər. Belə bir fakta da göz yumurlar ki, ermənilər, bir millət kimi, artıq öz müqəddəratlarını təyin etmişlər və dünyada görünməyib ki, digər suveren dövlətin ərazisində icma şəklində yaşayan millətin nümayəndələri yeni müstəqil dövlət qurumu yaradılmasını tələb etsinlər. DQO-nun terror aktlarının məqsədi, həyata keçirilməsinin forma və üsulları belə hesab etməyə əsas verir ki, o, etnoterrorçu tipli

tәşkilatlardandır. Etnik terror tәşkilatları ilә mübarizә bu gün qlobal problemә çevrilmiş vә dövlәtdaxili problem çәrçivәsindәn kәnara çıxmışdır. Ayrı-ayrı dövlәtlәr (ABŞ, Böyük Britaniya, İsrail, Yaponiya, Fransa, Çili, Türkiyә, İspaniya, Rusiya) terrorizmlә mübarizәdә әmәkdaşlığın müxtәlif formalarını tәklif edirlәr. Müasir beynәlxalq hüquqda terrorizm vә zorakılıqla mübarizәyә yönәlmiş çoxlu sayda sәnәd vardır. Mәsәlәn, terrorizmin aradan qaldırılması haqqında Avropa Konvensiyası (1977) terror әmәllәri kimi qiymәtlәndirilәn cinayәtlәrin növünü müәyyәnlәşdirir: adamların oğurlanması, girov götürülmәsi vә yaxud qeyri-qanuni azadlıqdan mәhrumetmә, insanın sağlamlığı vә hәyatı üçün tәhlükә törәdәn bombalardan, qumbaralardan, raketlәrdәn, avtomat silahlardan istifadә vә s. "Beynәlxalq terrorizmin aradan qaldırılması sahәsindә tәdbirlәr haqqında" 1994-cü il 9 dekabr tarixli Bәyannamәnin 2.1 bәndindә deyilir ki, dövlәtlәr BMT Nizamnamәsinin mәqsәdlәrini vә prinsiplәrini, beynәlxalq hüququn digәr müvafiq normalarını әsas tutaraq, başqa dövlәtlәrin әrazilәrindә terror aktları tәşkil etmәkdәn, onlara tәhrik etmәkdәn, bu aktlara kömәk vә yaxud onlarda iştirak etmәkdәn, elәcә dә öz әrazisindә belә aktların törәdilmәsinә yönәldilmiş hәrәkәtlәrә imkan vermәkdәn, hәvәslәndirmәkdәn çәkinmәlidirlәr. 1997-ci ildә qәbul edilmiş Bomba terrorizmi ilә mübarizә haqqında Beynәlxalq Konvensiya terror aktlarının göstәrilәn növü ilә mübarizәnin xüsusiyyәtini müәyyәn edir. "Terrorizmin maliyyәlәşdirilmәsi ilә mübarizә haqqında" 1999-cu il 9 dekabr tarixli Beynәlxalq Konvensiya terror aktlarının Konvensiyasının iştirakçısı olan dövlәtlәr tәrәfindәn maliyyәlәşdirilmәsinin qarşısının alınması sahәsindә mübarizәdә sıx әmәkdaşlığa çağırır. Tәhlükәsizlik Şurasının





"Beynәlxalq terrorizm haqqında" 1999-cu il 22 oktyabr tarixli Qәtnamәsi terror aktlarının sәbәblәrindәn vә onların iştirakçılarının şәxsiyyәtindәn asılı olmayaraq, bütün terror aktlarını pislәyir. MDB çәrçivәsindә beynәlxalq terrorizmlә, separatizmlә vә ekstremizmlә mübarizәdә әmәkdaşlıq haqqında bir sıra sazişlәr imzalanmışdır. 2000-ci il yanvarın 25-dә MDB Dövlәt Başçıları Şurası 2003-cü ilәdәk olan dövrdә beynәlxalq terrorizmlә vә ekstremizmin digәr tәzahürlәri ilә mübarizә Proqramı hazırlamış vә qәbul etmişdir (Azәrbaycan Respublikası Proqrama qoşulmuşdur). Bu sәnәddә xüsusi qeyd olunur ki, milli, dini, etnik xarakterli heç bir mülahizә, bәhanә, sәbәb terror aktlarına bәraәt qazandıra bilmәz. Dağlıq Qarabağda ermәni terrorizmi dalğası davam edir. İnsanın vә vәtәndaşların hüquqlarının pozulması adi hala çevrilmişdir. Dağlıq Qarabağda vә onun hüdudlarından kәnarda terror zorakılığı elә geniş miqyas almışdır ki, bu gün terrorçular bütöv vilayәtlәrә vә rayonlara nәzarәt edirlәr. Dağlıq Qarabağ zonası ağır cinayәtlәrdә ittiham olunan vә әdalәt mәhkәmәsindәn gizlәnәn beynәlxalq cinayәtkarlar üçün münasib sığınacaq, elәcә dә narkotik vasitәlәrin vә transplantasiya mәqsәdi ilә insan orqanlarının Avropaya keçirilmәsi üçün kriminal dәhliz olmuşdur. DQO-nun әsirliyindә olan Azәrbaycan Respublikası vәtәndaşları (milli mәnsubiyyәtindәn asılı olmayaraq) işgәncәlәrә vә iztirablara mәruz qalırlar.

Deyilәnlәri nәzәrә alaraq, Azәrbaycan Respublikası DQO-nun hәyata keçirdiyi zorakılığı terror kimi qiymәtlәndirmәli; beynәlxalq hüquq praktikasına, BMT-nin sәnәdlәrinә, o cümlәdәn BMT Tәhlükәsizlik Şurasının 2000-ci il 19 oktyabr tarixli sonuncu qәtnamәsinin 4-cü bәndinә müvafiq olaraq, DQ-da vә Azәrbaycanın işğal

olunmuş digər rayonlarında terror zorakılığının aradan qaldırılmasına və qarşısının alınmasına dair mükəmməl proqram işləyib hazırlamalıdır. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi antiterror əməliyyatı keçirməyə əsas verir:

I. Təhlükəsizlik Şurasının 3205-ci iclasında qəbul edilmiş 822 nömrəli Qətnamə (1993). Qətnamədə yerli erməni silahlı qüvvələrinin Kəlbəcər rayonuna müdaxiləsi ilə bağlı narahatlıq ifadə olunur, onun 1-ci bəndində işğalçı qüvvələrin həm Kəlbəcər rayonundan, həm də Azərbaycanın işğal olunmuş digər rayonlarından dərhal çıxarılması tələbi öz əksini tapmışdır.

II. Təhlükəsizlik Şurasının 1993-cü il iyunun 29-da 3259-cu iclasında qəbul etdiyi 853 nömrəli Qətnamə. Onun 3-cü bəndi münaqişədə iştirak edən erməni işğalçı qüvvələrinə bir vəzifə olaraq tapşırır ki, bütün hərbi əməliyyatları dərhal dayandırsın və öz silahlı birləşmələrini Ağdam rayonundan və Azərbaycan Respublikasının bu yaxınlarda işğal olunmuş digər rayonlarından dərhal, tamamilə, qeyd-şərtsiz çıxarsın.

III. Təhlükəsizlik Şurasının 1993-cü il oktyabrın 14-də 3292-ci iclasında qəbul etdiyi 874 nömrəli Qətnamədə erməni qüvvələrinin işğal olunmuş rayonlardan çıxarılmasının zəruriliyi yenidən qeyd olunur.

IV. Təhlükəsizlik Şurasının 1993-cü il noyabrın 12-də qəbul etdiyi 884 nömrəli Qətnamənin 2-ci bəndi Dağlıq Qarabağ ermənilərini Azərbaycan Respublikasının Zəngilan rayonunu və işğal olunmuş digər rayonları azad etməyə çağırır.

Beləliklə, ictimai qayda-qanunu və vətəndaşlarının tapdalanmış hüquqlarını bərpa etmək üçün antiterror əməliyyatları keçirməyə Azərbaycanın tam hüququ vardır.





*Ermənistan Respublikasının dövlət terrorizmi siyasətini əyani surətdə əks etdirən faktlar.* BMT-nin Baş Məclisi (XXVII) sessiyada beynəlxalq terrorizmi pisləyən 3034 nömrəli Qətnamə qəbul etmiş, 39-cu sessiyada isə "Dövlət terrorizmi siyasətinin və dövlətlərin digər suveren dövlətlərdə ictimai-siyasi quruluşu sarsıtmağa yönəldilmiş hər hansı hərəkətinin yolverilməzliyi haqqında" 35/159 nömrəli Qətnaməni təsdiq etmişdir. "Beynəlxalq terrorizmin aradan qaldırılması sahəsində tədbirlər haqqında" 1994-cü il 9 dekabr tarixli Qətnamənin 2.1 bəndində deyilir ki, dövlətlər BMT Nizamnaməsinin məqsədlərini və prinsiplərini, beynəlxalq hüququn digər müvafiq normalarını əldə rəhbər tutaraq, başqa dövlətlərin ərazilərində terror aktları təşkil etməkdən, bunlara təhrik və kömək etməkdən, yaxud onlarda iştirak etməkdən, eləcə də öz ərazisində belə aktların törədilməsinə yönəldilmiş fəaliyyəti həvəsləndirməkdən çəkinməyə borcludurlar.

Analoji mövqe sonradan "Beynəlxalq terrorizmin aradan qaldırılması haqqında" 1994-cü il tarixli Qətnaməni tamamlayan Qətnamədə öz əksini tapmış, burada dövlət terrorizmi siyasəti bir daha pislənmişdir. Ermənistan SSR Ali Sovetinin 1988-ci il 15 iyun tarixli qərarı ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayəti Ermənistan SSR-in tərkibinə daxil edilmişdir. Ermənistan SSR-in hüquqi varisi kimi müstəqillik statusu aldıqdan sonra Ermənistan bundan əvvəl qəbul etdiyi konstitusiyaya zidd qərarını ləğv etmədi. Bununla da o, indiyədək Azərbaycanın ərazi bütövlüyünü tanımır. Ermənistan DQMV-nin xalq təsərrüfatını və dövlət qurumlarını Yerevana tabe etmişdir və bunu da inkar etmir. Ən başlıcası isə, Ermənistan Dağlıq Qarabağda silahlı münaqişədə birbaşa iştirak edir, DQO-nu silahla, hərbi

sursatla, hərbi texnika ilə təchiz edir, mümkün olan hər cür yardım göstərir.

Təhlükəsizlik Şurasının yuxarıda sadalanan dörd qətnaməsinin hamısında Ermənistan Respublikası DQ münaqişəsində maraqlı tərəf kimi göstərilir və BMT dövlətləri, o cümlədən Ermənistan Respublikasını DQ-ya silah və hərbi sursat göndərməkdən çəkinməyə çağırır. Təhlükəsizlik Şurası 1993-cü il 12 noyabr tarixli 884 nömrəli axırıncı Qətnaməsinin 2-ci bəndində isə Ermənistan hökumətinin Dağlıq Qarabağın ermənilərinə təsir göstərdiyini açıq bildirmişdir və münaqişəyə cəlb edilmiş qüvvələrin hərbi kampaniyanı davam etdirməsi üçün onlara yardım göstərməkdən imtina etməyin zəruriliyini göstərmişdir. Bununla da Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan Respublikasına münasibətdə dövlət terrorizmi siyasəti yeritdiyini sübut edən əsaslı dəlillərə birbaşa diqqəti cəlb edir.

Yuxarıda deyilənləri nəzərə alaraq, Dağlıq Qarabağ Ordusu (DQO) və Ermənistan Respublikasının dövlət terror siyasəti ilə mübarizədə aşağıdakı təklifləri nəzərdən keçirmək zəruridir.

1. Azərbaycan Respublikası Ermənistanın gizli dövlət terrorizmi siyasəti yeridən dövlət kimi tanınması üçün beynəlxalq təşkilatlara və dövlətlərin parlamentlərinə müraciət etməlidir.

2. DQO-nun terror hərəkətlərini sübut edən faktlara malik olaraq, beynəlxalq birliyi DQO-nun terrorçu-separatçı hərəkətləri ilə mübarizəyə çağırmaq.

3. Azərbaycan Milli Məclisinə terrorizmlə mübarizədə qarşılıqlı fəaliyyət və səylərin əlaqələndirilməsi barədə mövcud olan beynəlxalq konvensiyalar və sazişlər





çərçivəsində səmərəli dövlətlərarası əməkdaşlığı qaydaya salmağı təklif etmək.

4. Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə nizama salmaq siyasəti yeridərək, dövlətləri öz ərazilərində DQO-nun hazırlıq düşərgələrinin fəaliyyətinə son qoymağa çağırmalıdır.

5. Azərbaycan BMT Təhlükəsizlik Şurasında, məsələn, BMT-nin 1996-cı il 17 dekabr tarixli 51/210 nömrəli Qətnamə ilə təsis etdiyi və beynəlxalq terrorizmlə mübarizə sahəsində beynəlxalq hüquqi sənədlər işləyib hazırlayan Altıncı Komitənin işçi qrupunda səylərini artırmalıdır. Həmin komitədə erməni nümayəndələri aşağıdakı ifadələrin qəbul olunmasında təkid edirlər:

a) Dövlət terrorizminin mövcudluğunun tanınmaması haqqında;

b) Millətlərin öz müqəddəratını təyin etmək hüquqlarının təmin olunması üçün milli azadlıq hərəkatı prosesində həyata keçirilən zorakılığın terrorizm kimi tanınmaması haqqında.

6. Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn jus cogens prinsipləri əsasında həll edilməlidir. Danışıqlarda Azərbaycan Respublikasının ərazi bütövlüyü və vətəndaşlarının pozulmuş hüquqlarının bərpası əsas prinsiplər kimi qəbul edilməlidir.

7. Dağlıq Qarabağda və onun hüdudlarından kənarda konstitusiya quruluşu, dövlət təhlükəsizliyi və ictimai qayda-qanun Azərbaycan Respublikasının daxili asayişi qoruyan qüvvələri tərəfindən lokal antiterror əməliyyatları keçirməklə bərpa olunmalıdır.

Bu gün dünyanın aparıcı dövlətləri özlərinin antiterror qanunvericiliyini artıq elə qurmuşlar ki, o, son nəticədə

üçüncü ölkələrdə terror təzahürləri ilə mübarizəyə yönəldilmişdir. Məsələn, ABŞ-da 1996-cı ildə qəbul edilmiş "Terrorizmlə mübarizə və ən ağır cəza barədə qanunun səmərəliliyi haqqında" Qanun dövlət katibinə iki ildə bir dəfə xaricdəki terror təşkilatları barədə xüsusi qərar qəbul etmək səlahiyyəti vermişdir. Həmin Qanuna uyğun olaraq, xarici terror təşkilatlarının siyahısına daxil etməyə əsas verən üç şərt mövcuddur:

1. Təşkilat xarici olmalıdır.

2. Təşkilat Mühacirət və vətəndaşlıq haqqında Qanunun 212 (a) (3) (B) bölməsində müəyyən olunmuş mənada terror fəaliyyətində iştirak etməlidir.

3. Təşkilatın fəaliyyəti ABŞ vətəndaşlarının təhlükəsizliyinə və yaxud Birləşmiş Ştatların milli təhlükəsizliyinə (milli müdafiəsinə, beynəlxalq əlaqələrinə və yaxud iqtisadi mənafelərinə) qorxu yaratmalıdır.

ABŞ Azərbaycanda iqtisadi və müvafiq olaraq siyasi marağı olduğunu dəfələrlə bəyan etmişdir. Həmin Qanuna uyğun olaraq, ABŞ bu gün terrorizmi dəstəkləyən dövlətlərin xüsusi siyahısına daxil edilmiş ölkələrə kömək edən xarici hökumətlərə yardım göstərməyi qadağan edir. Hazırda ABŞ bir neçə ölkəni dövlət terroru siyasəti yeridən dövlət elan etmiş, onlar barəsində iqtisadi və siyasi sanksiyalar qəbul etmişdir (İraq, Kuba, Liviya, Sudan, İran, Şimali Koreya, Suriya). Artıq bir sıra ölkələr buna nail olmuşlar ki, ABŞ terrorçu kimi tanınmış təşkilatlara maliyyə, siyasi yardımı dayandırmışdır. Cəmi 27 belə təşkilat vardır. İspaniyanın basklar yaşayan rayonunda müstəqil ərazi yaratmaq məqsədi ilə 1959-cu ildə təşkil edilmiş "Vətən və azadlıq" (ETA) Bask təşkilatının ABŞ-ın siyahısına düşməsi onu ABŞ-da yaşayan həmyerlilərinin əhəmiyyətli maliyyə və digər yardımından məhrum etmişdir. İrlandiya İnqilab





Ordusunun (İİO) da terror təşkilatı kimi ABŞ Dövlət Departamentinin siyahısına düşməsi onu zəruri maliyyə və digər yardımlardan məhrum etmişdir.

Beləliklə, beynəlxalq birlik DQO erməni terror təşkilatı və Ermənistan Respublikasının dövlət terrorizmi siyasəti ilə mübarizənin yolunu göstərir.[703]

**11 may 2001-ci il. İsrail.** Təl-Əvivdən onlarca kilometr şimalda İsrail hava hücumundan müdafiə qüvvələri Livanın "Sessna" təyyarəsini vurub salmışlar. Təyyarəni milliyyətcə erməni olan Stefan Ohanes Nikolyan adlı bir nəfər idarə edirdi. "Hizbullah" mətbuat üçün yaydığı məlumatında dərhal diqqəti bu fakta yönəltmişdir. Terrorçu-kamikadze Nikolyan İsrailin yaşayış məntəqələrindən birini məhv etməyə cəhd göstərmişdir. Bu fakt Yaxın Şərqdə İsrailə qarşı qanlı aksiyalarda erməni terrorçularının iştirak etdiyini bir daha təsdiqləyir. Səciyyəvi haldır ki, 1987-ci ildə İsrailin "Mossad" kəşfiyyat xidməti ASALA ilə Livanın ekstremist radikal terror təşkilatı olan "Hizbullah" arasında əməkdaşlıq yaranması ilə əlaqədar Türkiyə tərəfinə hadisələri izləməyi tövsiyə etmişdi. Belə bir faktı da yaddan çıxarmayaq ki, İkinci Dünya müharibəsi illərində erməni quldurları yəhudilərin kütləvi qırğınlarında iştirak etmişlər.[704]

**13 iyun 2001-ci il.** "Türkish Daily News" qəzetinin verdiyi xəbərə görə, İraqın şimalında ASALA və PKK terror təşkilatları nümayəndələrinin görüşü olmuşdur. ASALA vəd etmişdir ki, PKK öz fəaliyyətini sərtləşdirərsə, ona bundan sonra da kömək edəcəkdir.[705]

**İyun-sentyabr 2001-ci il. Azərbaycan.** Azərbaycanın Zaqatala və Balakən rayonlarında polis postlarına, patrul-post xidmətinə silahlı hücum edilmişdir. Vandalizm aktı törədilmiş - Zaqatalada Şeyx Şamilin büstü partladılmışdır. Terror aktları nəticəsində 6 adam həlak olmuş, Azərbaycanın hüquq mühafizə orqanlarının 7 əməkdaşı müxtəlif dərəcəli bədən xəsarəti almışdır. İstintaqın gedişində məlum olmuşdur ki, cinayətləri Ermənistan Respublikası ərazisində təlim keçmiş və Dağlıq Qarabağın erməni terror rejimi tərəfindən idarə olunan terrorçular törətmişlər. 2001-ci ildə Avropa Şurası Parlament Assambleyasında aparılan müzakirələr "Daşnaksutyun"un rəhbərliyi ilə DQO erməni terror təşkilatının nəzarəti altında olan Dağlıq Qarabağ rejiminin terrorçu xarakterini bir daha dünya ictimaiyyətinə nümayiş etdirdi.

Azərbaycan parlamentinin AŞPA-dakı nümayəndə heyətinin başçısı İlham Əliyev 2001-ci il sentyabrın 11-də ABŞ-da törədilmiş terror aktları ilə əlaqədar demişdir: "Birləşmiş Ştatlara qarşı törədilmiş terror aktları aydın şəkildə göstərir ki, hamımızın yaşadığı dünya nə dərəcədə kövrəkdir. Heç kim özünü tam təhlükəsiz hiss edə bilməz. Ona görə də beynəlxalq birlik dünyanın hər yerində terrorizmin bütün formalarına qarşı mübarizədə birləşməlidir. Haqq anı gəlib çatmışdır. Bəzi ölkələr eyni zamanda ikili mövqe tutub, həm terrorizm qurbanları, həm də terrorun təşkilatçıları ilə yaxşı əlaqələri qoruyub saxlamaq və bunu tarazlı siyasət adlandırmaq imkanından artıq məhrum olmuşlar. Bu halda belə siyasət tarazlı adlandırıla bilməz, belə siyasət kəskin tənqidə layiq siyasətdir. Terrorizmi birbaşa və ya dolayısı ilə dəstəkləyən hər bir ölkə və ya təşkilat beynəlxalq birlik tərəfindən məsuliyyətə cəlb olunmalıdır.





